## "AZƏRİTTİFAQ"
## AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

İSSN 2218-91-49

# KOOPERASİYA

### elmi-praktiki jurnal

AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
AZERBAIJAN COOPERATİON UNİVERSİTY

№ 2 (29) - 2013

# “Kooperasiya” elmi-nəzəri jurnal

# Научно-теоретический журнал “Кооперация”

# Scientific-theoretical cournal “Cooperation”

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 2 (29) - 2013

**Təsisçi: Azərbaycan Kooperasiya Universiteti**



**Redaksiya heyəti:**

professor ELDAR QULİYEV **(baş redaktor)**
i.e.d., prof. BƏYALI ATAŞOV **(baş redaktorun müavini)**
akademik ASƏF NADİROV
akademik ZİYAD SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü ƏLİ NURİYEV
i.e.d., prof. ŞƏMSƏDDİN HACIYEV
i.e.d., prof. İSA ALIYEV
f.r.e.d., prof. ABDULLA İSAYEV
i.e.d., prof. GƏNCƏLİ GƏNCİYEV
i.e.d., prof. ASİF ŞİRƏLİYEV
i.e.d., prof. AMİL MƏHƏRRƏMOV
c.e.d., prof. ZAHİD MƏMMƏDOV
i.e.d., prof. RƏSUL BALAYEV
i.e.n., dos. TAHİR ŞÜKÜROV
i.e.n., dos. ELSEVƏR KƏRİMOV **(məhsul redaktor)**



Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.



*Redaksiyanın ünvanı:*
AZ1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 8b,
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: aku1964@mail.ru
web:www.aku.edu.az



Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.



Tirajı 300 ədəd

***Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU***
***Kompüter və dizayn: Tarzan ƏLİOĞLU***

**İSSN kodu 2218-91-49**

# MÜNDƏRİCAT

## ÜMUMİ İQTİSADİ MƏSƏLƏLƏR

**A.M.MƏHƏRRƏMOV**
Milli bazarın inkişafının təmin edilməsinin strateji iqtisadi təhlükəsizlik məsələləri ilə qarşılıqlı münasibətləri (idxal məsələləri)....................4
**N.O.EMİNOV**
İntellektual mülkiyyət obyektinin qiymətləndirilməsinə metodiki yanaşmaların tədqiqi.............10
**M.M.MEHDİYEV, Ə.Ə.MƏMMƏDOVA**
İnternetin müasir iqtisadiyyatda rolu....................17

## AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

**D.Q.QASIMOV**
Aqrar sahədə kooperasiyanın inkişafı innovasiyaların tətbiqinin sürətləndirilməsinin mühüm istiqamətlərindən biridir....................23
**A.A.RÜSTƏMOV**
Bazar iqtisadiyyatı şəraitində aqrar münasibətlərin formalaşması və onun tənzimlənmə mexanizmi....................28
**M.T.İMANOVA**
Kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılmasının əsas istiqamətləri.......................34
**R.K.ƏHMƏDOV**
Bazar iqtisadiyyatı şəraitində aqrar sektorun inkişafı iqtisadi artımın mühüm şərti kimi............38
**Ə.M.BAYRAMOV**
Üzümçülük və şərabçılığın inkişafını şərtləndirən amillər....................42
**Y.Ə.ƏLİYEVA**
Müasir dövrdə aqrar sahədə sahibkarlığın dövlət tənzimlənməsinin əsas istiqamətləri..............49
**G.A.MƏCİDOVA**
Ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar modernləşdirmənin rolu................................55
**E.B.ƏLƏKBƏROV, R.A.SAİLOV, E.B.FƏRZƏLİYEV, Ə.H.HƏMİDOV**
Azərbaycanda yetişdirilən bir sıra meyvə və giləmeyvələrin saxlanmasının standartlaşdırılmasının iqtisadi səmərəliliyi....................59

## REGİONAL İQTİSADİYYAT VƏ SAHİBKARLIQ FƏALİYYƏTİ

**E.N.KƏRİMOV**
Müasir şəraitdə sahibkarlıq mühitinin formalaşması və inkişaf etdirilməsi məsələləri..................67
**M.CABBARZADƏ**
Müasir mərhələdə Naxçıvan Muxtar Respublikasında sənayenin inkişaf dinamikasının təhlili...73
**N.Y.MİKAYILOVA**
Regionlarda bələdiyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi problemləri.......................80
**X.A.HÜSEYNOVA**
Müasir dövrdə aqrar sahədə sahibkarlığın inkişafına təsir edən əsas amillər..............................87

## MALİYYƏ, GƏLİRLƏR, İNVESTİSİYA VƏ İNNOVASİYA

**V.V.BAYRAMOV**
Kənd əhalisinin gəlirlərinin artırılması yolları....92
**T.Y.NURİYEV**
Rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya amili....98
**Z.Ə.NURİYEV**
Pay investisiya fondlarının idarə edilməsində əmanətlərin iqtisadi rolu....104
**M.A.RZAYEV**
Aqrar sahənin inkişafında investisiya qoyuluşlarının stimullaşdırılması....108
**R.Ş.BAYRAMOVA**
Aqrar-sənaye sistemində müəssisələrin əsas növ maliyyə və kommersiya risklərinin qiymətləndirilməsi....113
**A.R.SÜLEYMANOVA**
Aqrar-sənaye sistemində sahibkarlığın inkişafinda maliyyə təminatı və qiymət mexanizmindən istifadənin təkmilləşdirilməsi məsələləri....117

## BAZAR: MARKETİNQ VƏ İNFORMASİYA XİDMƏTLƏRİ

**S.S.MƏMMƏDOVA**
İnformasiya xidmətləri bazarında marketinqin idarə edilməsi modelinin mövqeləşdirilməsi....121
**R.H.HÜSEYNOV**
Marketinq xidmətləri və geniş təkrar istehsal prosesində onun rolu....127
**E.M.MİRZƏYEV**
Bazarın tədqiqi və proqnozlaşdırılmasında marketinq tədqiqatlarının rolu....132
**İ.A.MƏNSİMZADƏ**
Yeni informasiya texnologiyalarından istifadənin kənd təsərrüfatı üçün kadrların hazırlanmasında rolu....137
**M.ƏHMƏDOV**
Azərbaycanda daşınmaz əmlak bazarının formalaşması və tənzimlənməsinin təşkilati-iqtisadi məsələləri....143

## XARİCİ İQTİSADİ ƏLAQƏLƏR VƏ DÜNYA TƏCRÜBƏSİ

**İ.İ.MEHRƏLİYEV, İ.S.ABDULLAYEV**
Azərbaycan iqtisadiyyatının Dünya təsərrüfat sisteminə inteqrasiyasında gömrük siyasətinin rolu....152
**S.M.CAVADOV**
Neft klasterlərinin inkişafının dünya təcrübəsi....160
**C.Ə.CƏLİLOVA**
Azərbaycanda iqtisadi sabitliyin təmin edilməsində BVF-nin rolu....166

# ÜMUMİ İQTİSADİ MƏSƏLƏLƏR

UOT 330. 341. 4

*Amil M.MƏHƏRRƏMOV*
*i.e.d., prof.,*
*Bakı Dövlət Universiteti*

## MİLLİ BAZARIN İNKİŞAFININ TƏMİN EDİLMƏSİNİN STRATEJİ İQTİSADİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİ (İDXAL MƏSƏLƏLƏRİ)

*Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.*

Məqalədə milli bazarın inkişafının təmin edilməsinin strateji iqtisadi təhlükəsizlik məsələləri ilə qarşılıqlı münasibətləri (idxal məsələləri) tədqiq edilir. Burada məsələnin müxtəlif aspektləri detallı formada araşdırılır. Yekunda məsələ ilə bağlı müvafiq nəticələr əldə edilərək təkliflər irəli sürülür.

***Açar sözlər: idxal, iqtisadi proses, inkişafın sürətləndirilməsi, qeyri-neft sektoru***

***

Azərbaycan Respublikası xarici iqtisadi fəaliyyətinin təşkili üçün mühüm olan məsələlər sırasına həm də idxalın düzgün bir şəkildə təşkil edilməsi daxildir [1]. Müasir iqtisadi inkişafın xarakterik xüsusiyyəti ondan ibarətdir ki, hər bir ölkə üçün ixracla yanaşı idxalın da getdikcə əhəmiyyəti artmaqdadır. İdxalın düzgün bir şəkildə tənzimlənməsi milli bazarın inkişafına, eləcə də iqtisadi təhlükəsizliyə birbaşa təsir edir. İqtisadi təhlükəsizlik məsələləri isə Azərbaycan Respublikası milli təhlükəsizlik strategiyasında öz əksini tapmışdır. Bununla bağlı dövlət başçısı xüsusi fərman imzalamışdır [2].

Konsepsiyada qeyd edilir ki, müstəqilliyin ilk illərində hərbi təcavüzə məruz qalma, bazar iqtisadiyyatına keçid və beynəlxalq iqtisadi sistemə inteqrasiya ilə bağlı çətinliklər nəticəsində Azərbaycan Respublikası ötən əsrin 90-cı illərinin birinci yarısında ciddi iqtisadi böhran keçirmişdir. Buna baxmayaraq, Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçməkdə israrlı olmuş, qapılarını xarici sərmayələrə açmış və xüsusilə energetika sektorunda böyük uğurlar əldə etmişdir.

Daha sonra konsepsiyada iqtisadi və sosial inkişafın təhlükəsizlik aspektlərinə toxunulur. Ölkənin iqtisadi inkişafının davamlı olması hökumətin iqtisadi siyasətinin təməl prinsipidir. Bu həm iqtisadi, həm də sosial ölçülərin bərabər səviyyədə nəzərə alınmasını tələb edən kompleks bir məsələdir. Ona görə də Azərbaycan Respublikası bu istiqamətlərin hər biri üzrə sinxron və əlaqələndirilmiş proqram həyata keçirmək niyyətindədir.

Azərbaycan Respublikasında inflyasiya tempinin məqbul səviyyədə saxlanılması və valyuta bazarında sabit və proqnozlaşdırıla bilən vəziyyət təmin edilmiş, strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artmışdır. Dövlət idarəetmə sistemində struktur islahatları həyata keçirilmiş, müəssisələrin böyük qismi öz fəaliyyətlərini bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq səmərəli təşkil edə bilmişdir [3].

Sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq nəticəsində yarana biləcək iqtisadi qeyri-sabitlik təhdidinin qarşısının alınması məqsədi ilə iqtisadi siyasət iqtisadi çoxşaxəliliyin təşviqinə yönəldilməlidir. Sahibkarlıq fəaliyyətində mühüm inkişaf müşahidə olunmuş, iqtisadiyyatın liberallaşmasının dərinləşdirilməsi istiqamətində nailiyyətlər əldə edilmişdir.

Artım tempi əhalinin rifah səviyyəsinin yüksəlməsi üçün görülən konkret tədbirlər, struktur-texnoloji müasirləşmənin həyata keçirilməsi və ölkənin rəqabət üstünlükləri sayəsində təmin edil-

məlidir. Sosial-iqtisadi inkişafda yeni nailiyyətlərin əldə edilməsi həm də islahatların aparılmasına, özəlləşdirmə zamanı şəffaflığın təmin edilməsinə, iqtisadiyyatın müasirləşməsinə, sosial dəyişikliklərin keçirilməsinə kompleks yanaşmanın davam etdirilməsini tələb edir. Həyata keçirilən regional iqtisadi siyasətin əsas məqsədi ölkəmizin bütün bölgələrinin mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

İqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən idxal məsələlərinə nəzər yetirmək də aktual bir tələbatdır. Bunun üçün tərəfimizdən bəzi idxal göstəriciləri təhlil edilmşdir.

***Cədvəl 1***

***Azərbaycan Respublikasının 2002-2011-ci illər üzrə idxal göstəriciləri (6)***

| Göstərici | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İdxal (min ABŞ dollar) | 1014928 | 2626181 | 3515930 | 4347151 | 5266743 | 5712170 | 7166577 | 6127016 | 6600611 | 9755968 |

Yuxarıdakı cədvəldən görmək olur ki, Azərbaycan Respublikası 2002-2011-ci illər ərzində güclü idxal dinamikasına malik olmuşdur. Bu illər ərzində idxal 8741040 min ABŞ dolları həcmində artmışdır. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına əsasən 2012-ci ildə xarici ticarət dövriyyəsi 33,6 mlrd. dollar təşkil etmişdir ki, bunun da 23,9 mlrd. dolları ixracın, 9,7 mlrd. dolları isə idxalın payına düşür. İxrac idxalı 2,5 dəfə üstələmiş, xarici ticarət balansının profisiti isə 14,2 mlrd. dollar olmuşdur [4].

Bu onun göstəricisidir ki, artıq Azərbaycan beynəlxalq iqtisadi subyektlər üçün önəmli bir bazar rolunu oynayır. Əvvəki illərlə müqayisədə idxalın artması həm də ölkə daxilində tələbatın artmasını ortaya qoyur. Bu tələbatların artımına fikir versək görərik ki, əmtəə strukturunda daha çox gündəlik tələbat malları, məişət avadanlıqları təşkil edir ki, bu da əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi ilə sıx surətdə bağlıdır.

***Cədvəl 2***

***2011-ci ildə xarici ticarət dövriyyəsinin göstəriciləri (milyon ABŞ dollar) (6)***

| Ölkə qruplarının adı | Xarici ticarət dövriyyəsi | İdxal |
|---|---|---|
| Cəmi | 36 326.9 | 9 756.0 |
| Keçid iqtisadiyyatlı ölkələr | 6 847.9 | 2 905.1 |
| MDB ölkələri | 5 477.9 | 2 553.5 |
| Mərkəzi və Şərqi Avropa ölkələri | 1 370.0 | 351.6 |
| Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələr | 22 826.2 | 4 249.5 |
| Qərbi Avropa ölkələri | 19 320.4 | 3 366.7 |
| Avropa Birliyi | 18 924.6 | 3 148.0 |
| Qərbi Avropanın digər ölkələri | 395.8 | 218.7 |
| Bazar iqtisadiyyatında inkişaf etmiş digər ölkələr | 3 505.8 | 882.8 |
| İnkişaf edən ölkələr | 6 652.8 | 2 601.4 |
| Keçid iqtisadiyyatlı və mərkəzləşmiş planlı iqtisadiyyatı olan ölkələr | 682.8 | 629.8 |
| İnkişaf edən digər ölkələr | 5 970.0 | 1 971.6 |

Verilmiş cədvəl onu göstərir ki, 2011-ci ildə idxal edilən malların böyük əksəriyyəti Qərbi Avropa məhsulları olmuşdur. Qərbi Avropa mallarının üstünlük təşkil etməsi bir sıra amillərlə sıx surətdə bağlıdır. Bura birinci növbədə Azərbaycan Respublikasının avrointeqrasiya prosesinə ciddi meyl etməsi, həmçinin idxal edilən malların keyfiyyət məsələləri daxildir. Tam əksinə, ən aşağı idxal göstəriciləri isə keçid iqtisadiyyatlı ölkələr və mərkəzləşmiş planlı iqtisadiyyatlı ölkələrə məxsusdur. Bu da həmçinin onunla bağlıdır ki, qeyd edilən ölkələrdə istehsal edilən məhsullar Azərbaycanda keyfiyyətləri etibarilə o qədər də tələb edilmir. Həmçinin onu da vurğulamaq lazımdır ki, Azərbaycana idxal edilən mallar arasında Qərbi Avropa malları daha geniş çeşiddə olur. Qərbi Avropa ölkələrindən sonra Azərbaycana idxal əsasən dünyanın digər inkişaf etmiş ölkələri tərəfindən həyata keçirilir.

***Cədvəl 3***

***2011-ci ildə xarici ticarət əlaqələrinin coğrafi quruluşu (milyon ABŞ dolları) (6)***

| Qitələr | Xarici ticarət dövriyyəsi | | İdxal | |
|---|---|---|---|---|
| | həcmi | Xüsusi çəkisi, % | həcmi | Xüsusi çəkisi, % |
| Cəmi | 36 326.9 | 100.0 | 9 756.0 | 100.0 |
| Avropa qitəsi | 24 644.9 | 67.8 | 5 645.1 | 57.9 |
| Asiya qitəsi | 8 201.3 | 22.6 | 3 182.2 | 32.6 |
| Amerika qitəsi | 3 180.2 | 8.7 | 891.6 | 9.1 |
| Afrika qitəsi | 277.6 | 0.8 | 14.4 | 0.2 |
| Okeaniya | 22.9 | 0.1 | 22.7 | 0.2 |

Növbəti cədvəl isə bizə imkan verir ki, idxalın ölkələr üzrə faiz nisbətinə nəzər salaq. Cədvəldən də göründüyü kimi, Avropa qitəsi ölkələri Azərbaycana idxalda 57,9 faiz paya malikdirlər. Bu göstəriciyə həm inkişaf etmiş, həm inkişaf etməkdə olan ölkələr daxildir. Asiya ölkələri idxalımızda ikinci yeri tutsa da Afrika kimi potensiala malik olan bir qitədən ölkəmizə idxalın səviyyəsi fəaliyyətlərin bir qədər də gücləndirilməsini tələb edir. Biz ixrac fəaliyyətindən söz açarkən ixracın diversifikasiyasının əhəmiyyətindən danışmışıq. Eyni məsələ öz aktuallığı ilə idxala da aiddir.

Ümumiyyətlə, Azərbaycan Respublikası özünün bir inkişaf modelinə malikdir və ona əsasən təhlükəsizlik, onun tərkib hissəsi olaraq da iqtisadi təhlükəsizlik siyasəti yeridir [5].

Maraq doğuran digər məsələ Azərbaycan Respublikası idxalında ölkələr üzrə göstəricilərin təhlil edilməsidir. İdxal tərəfdaşlarının hansı ölkələrdən ibarət olduğunu dövri olaraq araşdırmaq iqtisadi zərurətdir. Belə ki, bununla biz idxalımızda ölkələrin illər üzrə yerdəyişmələrini müəyyən edə bilərik. Bununla da buradakı pozitiv və neqativ tendensiyaları aşkarlayaraq onların tənzim edilməsi mexanizmlərini hazırlaya bilərik.

Azərbaycanın idxal göstəricilərində Türkiyənin də yüksək paya malik olması iqtisadi inteqrasiya və qarşılıqlı mübadilə üçün münbit şəraitin olması ilə sıx surətdə bağlıdır. Azərbaycan Türkiyə işgüzar dairələri üçün olduqca mühüm bir bazara çevrilmişdir. Həmçinin Azərbaycan əhalisi arasında türk mallarına tələbat güclüdür. Bu da türk mallarının əsasən orta səviyyəli əhali üçün keyfiyyət və qiymət baxımından sərfəli olmasındandır.

*Cədvəl 4*

**2011-ci ildə Azərbaycanın əsas ticarət tərəfdaşları (6) (min ABŞ dolları)**

| Ölkələr | İdxal | % |
|---|---|---|
| Ölkələr üzrə | 9 755 968.7 | 100 |
| İtaliya | 254 566.4 | 2.6 |
| Fransa | 608 856.9 | 6.2 |
| Rusiya | 1 641 094.8 | 16.8 |
| ABŞ | 630 492.2 | 6.5 |
| Türkiyə | 1 302 443.1 | 13.4 |
| Ukrayna | 557 770.3 | 5.7 |
| Almaniya | 845 291.0 | 8.7 |
| İndoneziya | 13 188.7 | 0.1 |
| İsrail | 37 556.6 | 0.4 |
| Belarus | 64 540.1 | 0.7 |
| Malayziya | 37 307.7 | 0.4 |
| KoreyaRespublikası | 203 819.1 | 2.1 |
| Çin | 628 250.2 | 6.4 |
| Gürcüstan | 89 501.1 | 0.9 |
| BöyükBritaniya | 485 722.8 | 5 |
| Hindistan | 44 671.4 | 0.5 |
| Xorvatiya | 8 639.4 | 0.1 |
| Portuqaliya | 2 594.8 | 0 |
| İran İslam Respublikası | 160 486.5 | 1.6 |
| Qazaxıstan | 217 307.9 | 2.2 |
| Çexiya | 102 677.9 | 1.1 |
| Yunanıstan | 8 863.5 | 0.1 |
| Tailand | 18 625.2 | 0.2 |
| Türkmənistan | 12 913.6 | 0.1 |
| Tayvan (Çinin əyaləti) | 29 497.1 | 0.3 |
| Digər ölkələr | 1 749 290.4 | 17.9 |

Ölkələr üzrə Azərbaycana idxalda liderlik Rusiya Federasiyasına məxsusdur. Bu reallığı labüd edən tarixi, coğrafi və iqtisadi amillər vardır. Belə ki, Azərbaycan və Rusiya iki yüz ilə yaxın vahid iqtisadi bazarın tərkib hissələri olmuşdur. Ölkələr arasında iqtisadi inteqrasiya səviyyəsi çox yüksəkdir. Rusiya Azərbaycan diasporunun və işgüzar dairələrinin çox güclü olduğu bir iqtisadi fəaliyyət məkanıdır.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Rusiyadan Azərbaycana əsasən qida maddələri və ərzaq idxal edilməkdədir. Habelə Azərbaycan və Rusiya arasında sərhədyanı ticarət amili də öz sözünü deməkdədir. Digər bir amil isə idxal üçün kommunikasiya problemlərinin, demək olar ki, mövcud olmamasıdır.

*Cədvəl 5*

***2011-ci ildə mal qrupları üzrə xarici ticarət dövriyyəsi (6)***

| Qrupların adı | İdxal, min ABŞ dollar | % |
|---|---|---|
| Cəmi | 9 755 968.7 | 100.0 |
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 118 678.7 | 1.2 |
| Bitki mənşəli məhsullar | 519 598.0 | 5.3 |
| Heyvan və ya bitki mənşəli piylər və yağlar | 95 064.2 | 1 |
| Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | 659 761.8 | 6.8 |
| Mineral məhsullar | 237 821.0 | 2.4 |
| Kimya sənayesi məhsulları | 625 695.7 | 6.4 |
| Plastik kütlələr, kauçuk, rezin, onlardan hazırlanan məmulatlar | 358 239.6 | 3.7 |
| Emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan məmulatlar | 4 036.1 | 0 |
| Oduncaq, mantar və onlardan məmulatlar, hörmə məhsulları | 258 307.5 | 2.6 |
| Oduncaqdan hazırlanan kütlə, kağız və karton, onlardan məmulatlar | 131 485.8 | 1.3 |
| Toxuculuq materialları və məmulatları | 74 879.7 | 0.8 |
| Ayaqqabı, başgeyimləri, çətirlər, çəliklər, lələklər, süngüllər | 8 444.6 | 0.1 |
| Daş, gips, sement, asbest, slyuda, keramika və şüşə məmulatları | 215 273.7 | 2.2 |
| Mirvari, qiymətli daş və metallar, onlardan hazırlanan məmulatlar | 29 500.1 | 0.3 |
| Az qiymətli metallar və onlardan hazırlanan məmulatlar | 1 331 597.0 | 13.6 |
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatura | 3 035 421.1 | 31.1 |
| Quru nəqliyyat vasitələri, uçan aparatlar, üzən nəqliyyat vasitələri | 1 689 792.1 | 17.3 |
| Optik, topoqrafik, ölçü, nəzarət, tibbi alət və aparatlar, saatlar və musiqi alətləri | 198 674.2 | 2 |
| Müxtəlif sənaye malları | 152 018.6 | 1.6 |
| İncəsənət əsərləri, kolleksiya əşyaları və antikvariat | 4 714.4 | 0 |

Yuxarıdakı cədvəlin təhlili onu deməyə əsas verir ki, Azərbaycan Respublikasına idxalda üstünlüyü maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatura, daha sonra isə quru nəqliyyat vasitələri,uçan aparatlar, üzən nəqliyyat vasitələri təşkil edirlər. Bunların idxalda toplam payı 48,4 faizdir. İdxalda bu cür tendensiyanın davam etməsi bir qədər qayğılandırıcıdır. Bu qayğıdan çıxış edərək Azərbaycan hökuməti bir sıra mühüm tədbirlər görür və ölkədə yüksək texnologiyalı istehsalın formalaşmasına çalışır.

Öz növbəmizdə biz Azərbaycanda idxalın iqtisadi təhlükəsizliyimizə mənfi təsirini önləmək və yerli istehsalı stimullaşdırmaqla bağlı aşağıdakı təklifləri verərdik:

1. İdxalın həyata keçirildiyi sahələrin analizi onu deməyə əsas verir ki, bura daha çox istehsal məhsulları və texnologiyalar daxildir. Bu isə Azərbaycan iqtisadiyyatının gələcək inkişafı baxımından o qədər də pozitiv deyildir. Ona görə həmin mal və məhsulların Azərbaycanda istehsalının artırılması istiqamətində fəaliyyəti gücləndirmək lazımdır. Bu zaman yeni texnologiyaların cəlb edilməsi və investisiyalardan məqsədli istifadə etmək lazımdır;

2. Azərbaycana idxalda xammala üstünlük verilməsi daha münasib olardı. Belə ki, həmin xammal Azərbaycanda yeni istehsal sahələrinin yaranmasına şərait formalaşdıracaqdır. Bu isə öz növbəsində Azərbaycanın ixrac imkanlarını gücləndirəcəkdir. Həmçinin əhalinin yeni iş yerləri ilə təminatına da təsirsiz ötüşməyəcəkdir;

3. İxracı təşviq edən idxala da üstünlük vermək bizim iqtisadi maraqlarımıza daxildir. Belə ki,

müəyyən məhsulları və ya yarımfabrikatları idxal etməklə biz onları yenidən ixraca yönəldə bilərik;

4. İdxal edilən məhsulların ölkədə istehsal sahələrində durğunluq yaranmasına gətirib çıxartmaması üçün istehsal keyfiyyətinin artırılması da zəruridir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev. 5 aprel 1994-cü il. № 125. 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 601) 10 fevral 2010-cu il tarixli 216 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (“Azərbaycan” qəzeti 11 fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80).
2. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // «Azərbaycan» qəzetində dərc edilmişdir (24 may 2007-ci il, № 112).
3. Azərbaycan Respublikası Mərkəzi Bankı. Maliyyə stabilliyi icmalı 2012-IV rüb. No 4 (12), s.8.
4. Azərbaycan Respublikasi regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramının icrasının üçüncü ilinin yekunları uğurlu siyasətin nəticələri BAKI-2012, s. 21.
5. Ə.Həsənov. Azərbaycan Respublikasının milli inkişafı və təhlükəsizlik siyasəti. Bakı, “Letterpress” 2011, s.106.
6. http://www.azerbaijans.com/content_1679_az.html.
7. http://siyasielmler.wordpress.com


***А.М.Магеррамов***
***доктор экономических наук, профессор***
***Бакинский Государственный Университет***
***зав. кафедра «Экономика и управление»***

**Взаимоотношения стратегических вопросов экономической безопасности и обеспечения развития национального рынка (при импорте)**

**Резюме**

В этой статье изучены взаимоотношения стратегических вопросов экономической безопасности и обеспечения развития национального рынка (при импорте). Здесь подробно исследованы различные аспекты этого вопроса. В конце, выдвигаются предложения по этому вопросу.

***Ключевые слова: экспорт, экономический процесс, развитие, ненефтяной сектор.***

***doctor of Economics, professor A.M.Maharramov***
***Baku State University***
***"Economy and Management" department***

**Development of a national market for the strategic and economic security issues of mutual relations (for imports)**

**Summary**

In this article the development of the national market in the provision of strategic and economic security issues of mutual relations (for imports) are studied. Here we investigated in detail the various aspects of the issue. Finally, suggestions are put forward on the issue.

***Keywords: exports, the economic process, development of the non-oil sector.***

UOT 005. 94

*Nazim Oqtay oğlu EMİNOV*
*ADİU-nun dosenti*

# İNTELLEKTUAL MÜLKİYYƏT OBYEKTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ METODİKİ YANAŞMALARIN TƏDQİQİ

**Xülasə**

Məqalədə intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsinin metodiki aspektləri tədqiq olunur. Bunun üçün əvvəlcə intellektual mülkiyyət obyektinin dəyəri müəyyən edilir və onun qiymətləndirilməsi mərhələləri dəqiqləşdirilir. İntellektual mülkiyyətin ədalətli qiymətləndirilməsinin ilkin şərtləri və xüsusiyyətləri aşkara çıxarılır. Bundan başqa, müəllif tərəfindən intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsinə müxtəlif yanaşmalar və onların metodları tədqiq olunur. Məqalənin sonunda intellektual resurslar haqqında məlumatların qiymətləndirmə prosesində nəzərə alınması problemləri araşdırılır və intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsi standartlarının işlənib hazırlanmasına dair müvafiq təkliflər verilir.

***Açar sözlər: intellektual mülkiyyət obyektinin qiymətləndirilməsi, intellektual mülkiyyət obyektinin qiymətləndirilməsinə xərc, gəlir və bazar yanaşmaları, yaranma dəyəri metodu, diskontlaşdırılmış pul axınları metodu.***

## Giriş

Son vaxtlar intellektual fəaliyyətin nəticələrini düzgün qiymətləndirməklə onlardan səmərəli istifadə yollarını müəyyənləşdirmək innovasiya iqtisadiyyatının əsas problemlərindən biri kimi çıxış edir. Əslində intellektual mülkiyyətin qiyməti hər hansı intellektual mülkiyyət obyektinə görə tələb olunan, təklif edilən və ya ödənilən pul məbləğini ifadə edən termindir. O, tarixi fakt sayılır, daha doğrusu, açıq elan edilməsindən və ya sirr kimi saxlanılmasından asılı olmayaraq müəyyən vaxt anına və məkanına aid edilir.

Konkret alıcı və satıcının maliyyə imkanlarından, motivlərindən və ya xüsusi maraqlarından asılı olaraq intellektual mülkiyyət obyektinə görə ödənilən qiymət, digər insanlar tərəfindən həmin əmtəə və ya xidmətlərə artırılmış dəyərə uyğun gəlməyə bilər. Bununla belə, prinsip etibarilə, qiymət konkret şəraitdə, konkret alıcı və ya satıcı tərəfindən intellektual mülkiyyət obyektinə artırılan nisbi dəyər indikatoru sayılır. Odur ki, intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsi prosedurlarının və üsullarının düzgün müəyyən edilməsi, bizim hazırkı tədqiqatın əsas predmeti kimi çıxış edir.

### 1. İntellektual mülkiyyət obyektinin dəyəri və onun qiymətləndirilməsi mərhələləri

İntellektual mülkiyyət obyektinin dəyərinin qiymətləndirmə zamanı tətbiq edilən pulla ifadəsi tarixi fakt sayılmır. Bu əslində dəyər anlayışının seçilmiş tərifinə uyğun şəkildə konkret vaxt anına obyektin faydalılığının qiymətləndirilməsi kimi çıxış edir. Həmin qiymətləndirmə bu və ya digər sövdələşmələrdə təsbit olunan və mühasibat uçotu sistemində əks olunan real qiymətlərdən fərqlənə bilər. İntellektual mülkiyyət obyekti dəyərinin iqtisadi anlayışı bu obyektin dəyərinin qiymətləndirilməsi anına onun sahibinin malik olduğu səmərəyə bazar nöqteyi-nəzərini ifadə edir. Şübhəsiz ki, intellektual mülkiyyətin dəyərinin qiymətləndirilməsinin başlıca amili kimi müəssisənin təsərrüfat fəaliyyətinin son nəticələrinə onun təsirinin müəyyən edilməsi olmalıdır.

İntellektual mülkiyyətin qiymətləndirilməsi həmin mülkiyyətə mülki hüquqların istifadəsi ilə bağlı bəzi konkret məsələlərin həlli ilə birbaşa əlaqədardır və bu istifadənin məqsədi ilə şərtlənir.

İntellektual mülkiyyət obyektini qiymətləndirmək əslində texnoloji və istehsal yeniliyi kəsb edən bu obyektin potensial səmərəliliyi ilə şərtlənən dəyərin müəyyən edilməsidir. İntellektual mülkiyyətin qiymətləndirilməsi dedikdə, adətən onu təşkil edən elementlərə aid mülki hüquqların qiymətləndirilməsi başa düşülməlidir.

Hazırda keçmiş postsovet məkanında intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsi üzrə tətbiq olunan metodikaların əksəriyyəti lisenziyanın qiymətinə görə aparılan hesablama qaydalarına əsaslanır. Həm də bütün hallarda royalti intellektual mülkiyyətin qiymətinə eyni hesablama göstəricisi ilə daxil olunur. Bu isə sözügüdən obyektlərin satılması ssenarisini proqnozlaşdırmağa imkan vermir [1, s. 172]. Odur ki, qiymətləndirmə zamanı royalti və digər anlayışlar altında mövcud olan amillərin dəqiq müəyyənləşdirilməsinə və onların əhəmiyyətinin düzgün qiymətləndirilməsinə ehtiyac vardır.

Müəlliflik hüququ, müəlliflik adına layiq görülmə hüququ, əsərlərə toxunulmazlıq hüququ, habelə peşəkar vərdişlər, bilik və bacarıq və digər şəxsi keyfiyyətlər qiymətləndirməyə cəlb olunmur, çünki onlar özgəninləşdirilə və başqasına verilə bilməzlər. Həm də onlar öz təbiətinə görə pulla qiymətləndirilə bilmək qabiliyyətinə malik deyillər.

İntellektual mülkiyyət üzərində mülkiyyət hüququ ondan ibarətdir ki, müəssisə sərbəst şəkildə özünə məxsus intellektual mülkiyyət obyektlərinə sahibdir, onlardan istifadə edir və onlar üzərində sərəncam verir.

Qeyri-maddi obyektlərin və intellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsi texnologiyası aşağıdakı ardıcıllıqla həyata keçirilir:

- qiymətləndirmə obyektinin və predmetinin (mülkiyyət hüququ tipinin) müəyyən edilməsi (eyniləşdirilməsi);
- qiymətləndirmənin məqsəd və təyinatının müəyyən edilməsi;
- zəruri və kifayət qədər informasiyanın yazılması və təhlili;
- qiymətləndirmə obyektinin daha yaxşı və daha səmərəli istifadəsinin müəyyən edilməsi;
- qiymətləndirmə planının və tətbiq olunacaq metodların müəyyən edilməsi;
- müxtəlif metodların tətbiqi ilə obyektin qiymətləndirilməsi;
- qiymətləndirmə obyektinin hesablama dəyərinin yekun kəmiyyətinin müəyyən edilməsi;
- dəyərin qiymətləndirilməsi haqqında hesabat və nəticənin tərtib olunması.

**2. İntellektual mülkiyyətin ədalətli qiymətləndirilməsinin ilkin şərtləri və xüsusiyyətləri.**

İntellektual mülkiyyətin ədalətli qiymətləndirilməsi ən əvvəl onun müdafiəsi üzrə hüquqi bazanın mövcudluğundan asılıdır. Bu mənada Azərbaycan Respublikası Konstitusiyasının «Əsas hüquqlar, azadlıqlar və vəzifələr» bölməsinin 30-cu maddəsində intellektual mülkiyyətin qorunmasına böyük zəmanət verilir.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1996-cı il tarixdə imzaladığı «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanunu mühüm əhəmiyyət kəsb edir.

İntellektual mülkiyyət obyektinin düzgün qiymətləndirilməsində bu obyektin özünəməxsus xüsusiyyətləri əsas rol oynayır. Həmin xüsusiyyətlər aşağıdakılardır:

1.Təcrübədə intellektual mülkiyyətlərin bir-birinə bənzəyişi olsa da, tamamilə eyni olmasına təsadüf edilmişdir. Ona görə də onların tətbiqi və reallaşdırılması da bir-birindən fərqlənir. Deməli, aparılan hər hansı hesablamaların digərinə şamil edilməsi də mümkün deyil;

2. Burada qiymətləndirmə məqsədli xarakter daşıyır, yəni intellektual mülkiyyət obyektini qiymətləndirən zaman onun sahibini bu mülkiyyətin ümumi dəyərinin yüksək və aşağı olması deyil, əsasən onun özünə çatası hissə daha çox maraqlandırır;

3. Burada qiymətləndirici bir deyil, bir neçə funksiyanı yerinə yetirməlidir. Bunların hamısı əmlakın yaxşı qarşılanmasına yönəlməlidir;

4. Qiymətləndirici təkcə universal metodları deyil, bütün qiymətləndirmə metodlarını bilərək onlardan çevik istifadə etmə xassəsinə malik olmalıdır;

5. Qiymətləndirmə zamanı qiymətdə nəzərdə tutulan royalti ayırmalarının ümumsahə normalarından deyil, xüsusi mütərəqqi normalarından istifadə edilməlidir. Əks təqdirdə intellektual mülkiyyət obyektinin qiymətləndirilməsində təhrifçiliyə yol verilə bilər.

İntellektual mülkiyyət obyektinin dəyərinin qiymətləndirilməsi başlıca olaraq iki halda zəruri-

dir: özəlləşdirmə prosesində sövdələşmə həyata keçirilərkən və uçota alınarkən formalaşan mexanizmdə birdəfəlik inventarlaşma ilə yanaşı, pul formasında qeyri-maddi aktivlərin hərəkətinin daimi uçotunu nəzərdə tutmaq tələb olunur. Bunun üçün isə yenə də vahid metodika lazımdır.

Metodiki çətinliklər qeyri-maddi aktivlərin qiymətləndirilməsi üzrə hər hansı normativ aktlara əsaslanan ümumi qəbul olunmuş metodikanı yaratmağa hələ ki, imkan vermir. Halbuki qeyri-maddi aktivlərə sahiblik hüququnun maliyyə vəziyyəti xeyli dərəcədə qiymətləndirmə metodunun seçilməsindən asılıdır. Onların müxtəlif metodlarla hesablanmış dəyər kəmiyyəti maliyyə nəticələrinin balansına da təsir göstərir.

**3. İntellektual mülkiyyətin qiymətləndirilməsinə xərc yanaşması və onun metodları**

Beynəlxalq təcrübədə intellektual mülkiyyətin qiymətləndirilməsi 3 əsas yanaşmanın metodları ilə aparılır: xərc, bazar və gəlir yanaşmasının metodları ilə. İntellektual mülkiyyət obyektlərinin qiymətləndirilməsində xərc yanaşmasına aşağıdakılar aid edilir:

- ilkin xərclərin müəyyən edilməsi;
- əvəzetmə dəyərinin hesablanması;
- bərpa dəyərinin hesablanması.

Xərc yaranmasının əsasında keçən dövr ərzində inflyasiya və bütün itkilər nəzərə alınmaqla qiymətləndirilən intellektual mülkiyyət obyektinin yaradılmasına, hüquqi qorunmasına, əldə edilməsinə və istifadəsinə faktiki xərclərin dəyərinin uçotu dayanır. Bu metod üzrə intellektual mülkiyyət obyektlərinin yekun dəyəri sahə üzrə mənfəət alınmaqla xərclərin məbləği kimi müəyyən edilir. Xərc yanaşmasının üstünlüyü alqoritmin sadəliyində, eləcə də intellektual mülkiyyət obyektlərinin bazarda reallaşdırmaq üçün işlənməsinə, qorunmasına və hazırlanmasına gedən faktiki xərclər haqqında məlumatların obyektivliyindədir. Bununla yanaşı, həmin metod analoji məhsulların bazar konyunkturu haqqında informasiyanı nəzərə almır. Göstərilən nöqsan bazar metodundan istifadə zamanı aradan qaldırılır.

İntellektual mülkiyyətin qiymətləndirilməsində xərc yanaşmasından istifadə edərkən aşağıdakı 2 metodun tətbiqini məqsədəuyğun hesab edirik:

1. Maya dəyərində uduş metodu.
2. Yaranma dəyəri metodu.

Birinci metodda həm xərc, həm də müqayisə yanaşmasının elementləri iştirak edir. Bu metodla qeyri-maddi aktivlərin dəyəri onun istifadəsi nəticəsində xərclərə qənaətin müəyyən edilməsi vasitəsilə ölçülür. Bu metod yalnız o hallarda tətbiq olunur ki, öz texniki-iqtisadi göstəricilərinə görə 2 yaxın məhsul növləri haqqında və yaxud eyni bir növ məhsulun 2 istehsal üsulu haqqında söhbət getsin. Alınmış mənfəət kəmiyyətləri hesablama ilinə-diskontlaşdırma əmsalından istifadə etməklə qiymətləndirmə anına gətirilir.

Qiymətləndirilən İMO-nun dəyər kəmiyyəti aşağıdakı düsturla hesablanır:

$$\Delta M = M_2 - M_1 \qquad (1)$$

$M_1$-qiymətləndirilən intellektual fəaliyyət nəticəsini istifadə etmədən alınan mənfəət;

$M_2$-qiymətləndirilən intellektual fəaliyyət nəticəsini istifadə etməklə alınan mənfəət.

Yaranma dəyəri metodu aşağıdakı ardıcıllıqla tətbiq olunur:

1) İMO-nun tam əvəzetmə dəyəri və ya tam bərpa dəyəri müəyyən edilir. Bununla da aktivin yaradılması, əldə edilməsi və işə salınması ilə əlaqədar bütün faktiki xərclər aşkara çıxarılır:

- axtarış işlərinə və mövzunun hazırlanmasına xərclər;
- eksperiment nümunələrin yaradılması xərcləri;
- kənar təşkilatların xidmət xərcləri;
- patent rüsumlarının ödənilməsi xərcləri;
- konstruktor-texniki, texnoloji, layihə sənədləşmələrinin yaradılması xərcləri;
- hesabatın tərtib olunması və təsdiqi.

2) İMO-nun mənəvi köhnəlmə dərəcəsini nəzərə alan əmsalın kəmiyyəti müəyyən edilir:

$$K_{MK}=1-\frac{T_d}{T_n}, \quad (2)$$

burada $T_d$-hesablama ilinin vəziyyətinə görə mühafizə sənədinin fəaliyyət müddəti;

$T_n$-mühafizə sənədinin nominal fəaliyyət müddəti.

3) Texniki-iqtisadi əhəmiyyət əmsalı və mənəvi köhnəlmə əmsalı nəzərə alınmaqla İMO-nun qalıq dəyəri hesablanır:

$D_{İMO}=X_m \cdot Ə_{MK} \cdot Ə_T \cdot Ə_n$ , (3)

burada $D_{İMO}$-İMO-nun dəyəri;

$X_m$-bütün xərclərin məbləği;

$Ə_{MK}$-mənəvi köhnəlmə əmsalı;

$Ə_T$- texniki-iqtisadi əhəmiyyət əmsalı (yalnız ixtira və faydalı modellər üçün müəyyən edilir);

$Ə_n$- ilində qiymətlərin dinamikası əsasında prosesləri əks etdirən əmsal.

Bu metod adətən o hallarda tətbiq edilir ki, digər metodlarla intellektual fəaliyyət nəticələrinin qiymətləndirilməsi mümkün olmur.

**4. Gəlir yanaşması ilə intellektual mülkiyyətin qiymətləndirilməsi metodları**

Gəlir yanaşması ilə intellektual mülkiyyətin qiymətləndirilməsində istifadə olunan metodlar aşağıdakılardan ibarətdir:

- ekspres qiymətləndirmə;
- real gəlirlərin diskontlaşdırılması;
- lisenziya alanın mənfəətində lisenziya verənin payının ayrılması metodu.

Gəlir yanaşması iqtisadi gözləmə prinsipi ilə aparılır. Bu zaman obyektin dəyəri onun gələcəkdə alıcıya gəlir gətirə bilmək qabiliyyəti ilə müəyyən edilir və iqtisadi cəhətdən əsaslandırılmış xidmət müddəti ərzində qiymətləndirilən obyektin istifadəsindən alına bilən xalis gəlirin cari dəyərinə bərabər götürülür. Gəlir yanaşmasının əsas üstünlüyü ondadır ki, o, gözlənilən maliyyə daxilolmalarını nəzərə almağa imkan verir, ona görə də xərc və bazar yanaşmalarına mahiyyətini daha yaxşı ifadə edir. Bu yanaşmanın nöqsanı əsas parametrlərin proqnozu zamanı qeyri-müəyyənliyin yüksək dərəcədə olması sayılır.

İMO-nun qiymətləndirilməsinə gəlir yanaşmasının tətbiqi zamanı aşağıdakı metodlardan istifadə olunmasını daha məqsədəuyğun sayırıq:

1. İzafi mənfəət metodu;
2. Diskontlaşdırılmış pul axınları metodu;
3. Royaltidən azadetmə metodu;
4. Mənfəətdə üstünlük metodu.

İzafi mənfəət metodundan ən çox qudvillin hesablanmasında istifadə olunduğuna görə biz ona toxunmuruq.

Diskontlaşdırılmış pul axınları metodunda aşağıdakı işlər görülür:

- qalması gözlənilən faydalı ömür müddəti müəyyən edilir, daha doğrusu, proqnozlaşdırılan gəlirlərin diskontlaşdırılması lazım gələn dövr müəyyən edilir;
- İMO-nun yaradacağı pul axını və mənfəət proqnozlaşdırılır;
- diskontlaşdırma dərəcəsi müəyyən edilir;
- gələcək gəlirlərin məcmu cari dəyəri hesablanır;
- postproqnoz dövründə İMO-dan daxil olan gəlirlərin cari dəyəri müəyyən edilir;
- proqnoz və postproqnoz dövrlərində gəlirlərin bütün dəyərlərinin məbləği müəyyən edilir.

Royaltidən azadetmə metodu patentlərin və lisenziyaların dəyərinin qiymətləndirilməsi üçün istifadə edilir. Royalti-intellektual mülkiyyət obyektindən istifadə hüququna görə müəyyən olunmuş mükafatdır. Royaltinin ölçüsü bazarın təhlili əsasında müəyyən edilir. Bu metod özündə gəlir

və müqayisə yanaşmalarının əlamətlərini birləşdirir. Bu metodun tətbiqi ardıcıllığı belədir:

- royaltinin ödənməsi gözlənilən satış həcmi üzrə proqnoz tərtib olunur;
- royaltinin dərəcəsi müəyyən olunur;
- patentin və ya lisenziyanın iqtisadi xidmət müddəti müəyyən edilir;
- proqnozlaşdırılan satış həcmindən faiz ayırmalarını hesablamaq yolu ilə royalti ilə gözlənilən ödəmələr müəyyən edilir;
- royalti üzrə gözlənilən ödəmələrdən patent və ya lisenziyanın təminatı ilə əlaqədar bütün məsrəflər(hüquqi, təşkilati, inzibati xərclər) çıxılır;
- royalti üzrə ödəmələrdən diskontlaşdırılmış mənfəət axınları hesablanır;
- royalti üzrə ödəmələrdən mənfəət axınlarının cari dəyər məbləği müəyyən olunur.

**5. İntellektual mülkiyyətin qiymətləndirilməsinə bazar yanaşmasının xüsusiyyətləri**

Bazar yanaşmasına daxil edilən metodlar bunlardır:

- müqayisəli qiymətləndirmə;
- izafi dəyərin hesablanması;
- azadetmə metodu.

Bazar yanaşmasında daha çox satışların birbaşa müqayisəsi metodundan istifadə olunur. Bu zaman intellektual mülkiyyət obyektinin dəyəri analoji obyektlərin fərqlərinə təshihlər nəzərə alınmaqla onların alqı-satqı sövdələşmələri qiymətilə müəyyən edilir. Bu metod obyektlərin özünün nadirliyi və spesifik xüsusiyyətləri, kommersiya sövdələşmələri şərtlərinin müxtəlifliyi və bu obyektlər haqqında məlumatların məxfiliyi səbəbindən məhdud tətbiqə malikdir. Lakin bununla belə, bazar metodu əhəmiyyətli üstünlüklərə malikdir. Qiymətlərin müəyyən olunması zamanı istifadə olunan informasiya intellektual mülkiyyət obyektlərinin real bazar dəyərini əks etdirir. Bazar metodu ilə təyin olunan qiymət bazarda intellektual mülkiyyət obyektlərinin rəqabətqabiliyyətliliyini əks etdirir. Qiymətin bazar metodu ilə təyin olunması tələb və təklifin öyrənilməsinə böyük xərc tələb etmir, belə ki, faktiki başa çatmış sövdələşmə qiymətləri bazardakı situasiyanı nəzərə almır.

**6. İntellektual resurslar haqqında məlumatların qiymətləndirmə prosesində nəzərə alınması problemləri**

İqtisadi ədəbiyyatda bəzən intellektual resurslar haqqında rəsmi statistik məlumatları əldə etmək üçün bir sıra göstəricilərdən istifadə olunur [2, s. 16-17].

1. Mövcud intellektual resurslardan istifadənin intensivliyini xarakterizə edən göstəricilər. Buraya qeyri-maddi innovasiyaya xərclər indeksi, təşkilatın intellektual aktivlik indeksi, innovasiya fəaliyyəti ilə məşğul olan təşkilatların ümumi təşkilatların sayında payı daxildir.

2. Elmi potensialın reallaşması üçün yaradılan şəraiti xarakterizə edən göstəricilər. Buraya intellektual potensialın formalaşmasında xüsusi kapitalın payı və elmə çəkilən məsrəflər daxil edilir.

3. Təşkilatların innovasiya potensialından, yaradıcı işçilərin səmərələşdirici potensialından istifadə effektivliyini xarakterizə edən göstəricilər. Buraya məhsulların innovasiyalılıq əmsalı və səmərələşdirici potensial indeksi daxil edilir.

Onu da qeyd etmək lazımdır ki, bu gün Azərbaycan statistikası innovasiya sferasında mövcud vəziyyəti təhlil etmək üçün xeyli məhdud informasiya təqdim edir. Statistik hesabatlarda məhsuldar və texnoloji innovasiyanın mənimsənilməsi, milli sənaye istehsalının səmərəsizliyinə və rəqabətqabiliyyətliliyinə təsir edən xarici texnologiyaların milli bazara axıb gəlməsi, onların keyfiyyət xarakteristikalarının uçota alınması, sənaye istehsalı ilə elmin müxtəlif sahələri arasında qarşılıqlı əlaqə, innovasiya fəaliyyətinin indiqatorları haqqında məlumatların öz əksini tapmaması ölkənin innovasiya sistemi haqqında dövri və dərin tədqiqat aparmağa imkan vermir [3, s. 840]. Ona görə də hesab edirik ki, bütövlükdə statistik hesabatda təkcə sənayedə deyil, iqtisadiyyatın digər sahələrində də innovasiya fəaliyyətinin bütün tərəflərini əhatə edən ayrıca bölmə işlənib

hazırlanmalıdır.

Beynəlxalq standartlarda intellektual mülkiyyətin qiymətləndirilməsinin əsas metodu kimi fəaliyyət göstərən obyektin qiyməti müəssisənin bir hissəsi kimi qəbul edilmişdir. Lakin onun ayrıca obyekt kimi qiymətləndirilməsinə yol verilmir.

## Nəticə

İntellektual mülkiyyət obyektinin qiymətləndirilməsi standartlarının işlənib hazırlanması zamanı hökumət idarəetmə orqanları səviyyəsində lazımi normativ materiallar nəzərə alınmalı və standartın bölmələrinin yazılışı zamanı istifadə edilən anlayışların izahına geniş yer verilməlidir.

Standartda intellektual mülkiyyət obyektinin yaradılması, yaxud alınması zamanı mühasibat uçotunun tələbləri, intellektual mülkiyyətə xərclərin formalaşması və bu göstəricilərin müvafiq hesabatlarda əks etdirilməsi, həmçinin sövdələşmənin xüsusiyyətindən asılı olaraq, intellektual mülkiyyətin qiymətləndirilməsindən istifadənin mahiyyəti açılmalıdır.

Standartın böyük bölməsi intellektual mülkiyyətin qiymətləndirilməsi zamanı informasiya metodik tələblərə həsr olunmalı və bu işə hazırlığın əsas mərhələləri təxminən aşağıdakı kimi olmalıdır:

-intellektual mülkiyyət uçotunun obyektləri olan maddi daşıyıcıların aşkar olunması;

- qiymətləndirmə obyekti üzərində hüquqların eyniləşdirilməsi üzrə ekspertizanın keçirilməsi;

- bazar dəyəri tipinin və onun kəmiyyətinin hesablanması metodunun əsaslandırılması.

Hesab edirik ki, belə bir təkmil standartın işlənib hazırlanması nəticə etibarilə ondan məqsədəuyğun şəkildə istifadə edən istehsal müəssisələrinin yeni texnologiyalarla fasiləsiz təmin olunmasına və elm tutumlu məhsul istehsalı həcminin xeyli artırılmasına, elmlə istehsalın daha da inteqrasiyasına rəvac vermiş olar.

## Ədəbiyyat

1. Kazımlı X.H. və başqaları. Əmlakın qiymətləndirilmisi. Dərslik. Bakı: “İqtisad Universiteti”, 2010.
2. Алексеев В.Ю. Совершенствование оценки интеллектуального капитала в региональной инновационной экономике. автореф. дис. на соинск. ученой степени кандадата эконом. наук. Чебоксары, 2007, 24 с.
3. Kərimli İ. Keçid iqtisadiyyatı: Müstəqil yeni texnika yaratmağın zəruriliyi. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadi və beynəlxalq münasibətlər II Beynəlxalq Konqresi. İqtisadiyyat bölməsi. II hissə. 02-05 may. Bakı, 2007. s. 838-842.

***Назим Эминов***
***доц., к.э.н. АГЕУ,***

## Исследование методических подходов к оценке объектов интеллектуальной собственности

### Резюме

В данной статье исследуются методические аспекты оценки объектов интеллектуальной собственности. Для этого сначала определяется стоимость объекта интеллектуальной собственности и уточняются этапы ее оценки. Затем выявляются исходные условия и особенности справедливой оценки интеллектуальной собственности. Кроме того автором исследуется различные подходы и методы к оценке обьектов интеллектуальной собственности. В конце статьи раскрываются проблемы учета данных об интеллектуальных ресурсах в оценочном процессе и даются соответствующие предложения по разработке стандартов оценки объектов интеллектуальной собственности.

***Ключевые слова: оценка объектов интеллектуальной собственности, затратный, доходный и рыночный подходы к оценке объектов интеллектуальной собственности, метод созданной стоимости, метод дисконтированных денежных потоков, метод прямого сравнения продаж.***

***N.O.Eminov***

**Research of methodological approaches of assessment of the intellectual property**

**Summary**

Methodological aspects of assessment of the intellectual property are explored in the article. For this purpose at first the value of the intellectual property is determined and stages of the assessment are specified. Initial conditions and the characteristics of fair assessment of the intellectual property are found. In addition, different approaches and their methods of assessment of the intellectual property are being investigated by the author. The problems of taking into account of process evaluation of information about intellectual resources are found and proposals to the development of standards of assessment of the intellectual property are revealed at the end of the article.

***Key words: assessment of the intellectual property, cost, income and market approaches in assessment of the intellectual property, method of value, methods of discounted cash flows.***

**UOT 338: 002. 6.**

***Mübariz Muxtar oğlu MEHDİYEV,***
***Əfşan Əsəd qızı MƏMMƏDOVA***
***Azərbaycan Kooperasiya Universiteti***

# İNTERNETİN MÜASİR İQTİSADİYYATDA ROLU

**Xülasə**

Məqalədə informasiya-telekommunikasiya texnologiyalarının sürətli inkişafının nəticəsi kimi İnternet Qlobal Şəbəkəsinin malik olduğu nəhəng potensial imkanlar və burada iqtisadi fəaliyyət üçün əlverişli mühitin olması təsvir olunur. Yalnız İnternet şəbəkəsi mühitində mövcud ola bilən şəbəkə iqtisadiyyatının və onun müxtəlif formalarının müasir iqtisadiyyatın inkişafındakı rolu və əhəmiyyəti göstərilir.

***Açar sözlər: internet qlobal şəbəkəsi, şəbəkə iqtisadiyyatı, elektron biznes,elektron kommersiya.***

## Giriş

Təqdim olunan mövzunun aktuallığı ondan ibarətdir ki, bu gün iqtisadiyyatın müxtəlif sahələrində İnternet şəbəkəsinin tətbiqi istənilən ölkənin iqtisadi inkişafında əvəzolunmaz tərkib hissələrindəndir. Eyni zamanda İnternet şəbəkəsinin yaranması İnternetdə iqtisadi fəaliyyətin aparılması üçün informasiya-telekommunikasiya vasitələrinin özünün inkişafına əlverişli mühit formalaşdırmışdır. İnternet iqtisadiyyatın bütün sahələrində, o cümlədən də biznes sahəsində daha aktiv şəkildə tətbiq olunur, xüsusilə də marketinq fəaliyyətində onun səmərəliliyinin artmasına kifayət qədər təsir edir.

Məqalənin yazılmasına tələb mövzunun aktuallığından yaranmış, məqsəd isə İnternet Qlobal Şəbəkəsinin müasir iqtisadiyyatın inkişafında rolunu müəyyən etməkdən və onun iqtisadiyyata təsirini öyrənməkdən ibarətdir.

## İnternet və müasir iqtisadiyyat

**İnternet** şəbəkəsi (Internet-**Inter**connected **Net**works- “birləşdirilmiş şəbəkələr”) -dünyada yüz milyonlarla insanlara verilənlərlə əməli mübadiləyə imkan verən qlobal informasiya məkanıdır. İnternet müxtəlif ölkələrdə yerləşən, öz ölçüləri və texnologiyaları ilə bir- birindən fərqlənən, qlobal şəbəkələrin təşkili üçün istifadə olunan kompyuter şəbəkələrinin birləşməsidir.

İnternet şəbəkəsinin inkişafı elə sürətlə baş verir ki, onun istifadəçilərinin sayı və onda yerləşdirilmiş informasiyaların həcmi hər il praktiki olaraq iki dəfə artır. Müasir dövrdə dünyanın yüzdən çox ölkəsinin əhalisi İnternetin müxtəlif xidmətlərindən istifadə edir.

Məlumdur ki, İnternet-müxtəlif növ informasiyaların mühafizəsi və təqdim olunması üçün telekommunikasiya vasitəsi olmaqla, həm də iqtisadi fəaliyyət və elektron biznesin aparılması üçün mühitdir. İnternet insan fəaliyyətinin müxtəlif sahələrində geniş tətbiq olunur. İqtisadiyyatı inkişaf etmiş ölkələrin biznes sahəsində qlobal şəbəkənin imkanlarından istifadə etməyi bacarmaq sahibkarlıq nailiyyətlərinin mühüm faktorlarından biridir. İnternetdə biznesin ən gəlirli növləri kimi bank xidmətləri, qiymətli kağızlarla ticarət, sığorta, reklam, hər növ məsləhətlər, topdan və pərakəndə satış, auksionlar, turizm və istirahət sahələri və s. qəbul edilir. Tədqiqatçıların proqnozuna görə yaxın gələcəkdə dünyada İnternet şəbəkəsi vasitəsi ilə sahibkarlıq fəaliyyətinin həcminin kifayət qədər artması gözlənilir. Bu artım əsasən səyahət, pərakəndə satış, maliyyə, həm də kompyuter sektoru sahələrində proqnozlaşdırılır.

Konkret firmalar tərəfindən tətbiq olunan İnternet-texnologiyalar öz formalarına və mürəkkəbliyinə görə fərqlənirlər. Onların əhatə diapazonu elektron poçt vasitəsi ilə işgüzar məktub mübadiləsindən, müştərilərə çoxlu sayda əlavə xidmətlərin və firmanın marketinq strategiyasını həyata keçirməyin səmərəli vasitəsi olan korporativ Web-serverə qədər dəyişir.

İnformasiya və telekommunikasiya texnologiyalarının sürətli inkişafı İnternetdə iqtisadi fəaliyyət üçün əlverişli mühitin yaranmasına səbəb olmuşdur. Kompaniyaların biznes- tərəfdaşları və müştəriləri ilə qarşılıqlı əlaqəsi üçün yeni interaktiv vasitələr yaranmış, interaktiv marketinqin aparılması və birbaşa onlayn satışların həyata keçirilməsi təmin edilmişdir. Nəticədə şəbəkə iqtisadiyyatının təməli qoyulmuşdur.

***Şəbəkə iqtisadiyyatı*** - İnternet şəbəkəsinin informasiya-kommunikasiya mühitində birgə fəaliyyətin bütün iştirakçıları arasında birbaşa uzunmuddətli əlaqələrə əsaslanan təsərrüfat (iqtisadi) fəaliyyətidir. Bu, keyfiyyətcə yeni idarəetmə forması olaraq iqtisadi fəaliyyətin mərkəzləşdirilmiş və bazar idarəetmə formasından fərqlənir. Şəbəkə iqtisadiyyatı yalnız İnternet şəbəkəsi mühitində mövcud ola bilir və o elektron biznesin əsasını təşkil edir. Elektron biznesin əsas tərkib hissəsi şəbəkədən kənarda mövcud ola bilməyən elektron kommersiya hesab edilir. Müasir dövrdə İnternet şəbəkəsinin hərtərəfli inkişafı istifadəçilərə çoxlu sayda müxtəlif xidmətlər («İnternet xidmətləri») təqdim edir ki, bu da firmalara kommunikasiya və məzuniyyətlərə ayrılan xərcləri azaltmağa, fəaliyyət sahələrini, partnyorların dairəsini və onun məhsullarının (xidmətlərinin) istehlakçılarını genişləndirməyə imkan verir. Məsələn, malların arada vasitəçi olmadan, birbaşa istehlakçılara (alıcılara) satışı özündə biznesin təşkilinin yeni modelini əks etdirir. Beləliklə, ənənəvi biznes-proseslər (satış, marketinq, təchizat və s.) şəbəkə iqtisadiyyatında yeni formalar alır. Bu gün hər kəs İnternetdə kommersiya fəaliyyəti ilə məşğul olmaq iqtidarındadır.

***Elektron biznes*** - informasiya və telekommunikasiya texnologiyalarından istifadəyə əsaslanaraq kompyuter şəbəkələrində qazanc əldə etmək məqsədilə iqtisadi fəaliyyətin subyektləri arasında qarşılıqlı əlaqəni təmin edən sahibkarlıq fəaliyyətidir. Hamı üçün açıq olan interaktiv İnternet şəbəkəsinin informasiya infrastrukturunun inkişafı, həm də şəbəkədən istifadənin sadəliyi biznesin təşkili üsullarının dəyişməsinə və elektron bazarların yaradılmasına, informasiya, mal, xidmət alıcıları və satıcılarının çoxunun bir araya gəlməsinə səbəb olmuşdur. Eyni zamanda iqtisadi fəaliyyət subyektlərinin qarşılıqlı əlaqəsi nəticəsində biznesin təşkilinin yeni modelləri yaranmışdır.

**İnternetdə biznes fəaliyyətin təşkili**

Hal-hazırda biznes fəaliyyətində İnternetdən istifadənin iki əsas istiqaməti mövcuddur:

- ***birinci istiqamət,*** şəbəkədənkənar biznesin təşkilində İnternetdən istifadəyə əsaslanır;
- ***ikinci istiqamət,*** biznes fəaliyyətin bilavasitə İnternetdə təşkilinə əsaslanır.

Şəbəkədənkənar biznesin təşkilində İnternetdən istifadə dedikdə elektron şəbəkədən kənarda biznesin (təsərrüfat fəaliyyətinin) yaradılması üçün İnternetdən- kommunikasiya vasitəsi, məlumat informasiyalarının mənbəyi, reklam və marketinq vasitəsi kimi istifadə başa düşülür.

İnternet kommunikasiya vasitəsi kimi (E-mail, telekonferensiya, İP-telefoniya və s.) biznesdə böyük rol oynayır. İnternet yalnız kommunikasiya vasitəsi deyildir, o həm də sahibkarlara onlayn rejimində ünsiyyətdə olmağa imkan verən interaktiv qarşılıqlı əlaqə vasitəsidir.

İnternet kompaniyalar üçün məlumat informasiya mənbəyi kimi böyük rola malikdir. Kompaniyaların təqdim etdiyi mal və xidmətlər haqqında bütün informasiyalar, İnternetdə saytlar şəklində təqdim olunur. İnternet kütləvi informasiya vasitəsidir. Şəbəkə serverlərində çoxlu miqdarda informasiya resursları (yüz milyonlarla Web-səhifə) saxlanılır. Onların axtarışını informasiya–axtarış sistemləri təmin edir.

Firmanın imicinin ***(publij relations)*** formalaşmasında mühüm məsələ cəmiyyətin gözündə firmanın cəlbedici surətini yaratmaqdır. Buna müxtəlif yollarla-reklam etməklə, xeyriyyəçilik aksiyaları ilə, sponsorluqla, firmanın fəaliyyəti haqda press-relizləri və informasiya materiallarını buraxmaqla və s. ilə nail olmaq olar.

İnternetdən istifadə firmanın imicinin (public relations) formalaşmasına sərf olunan xərcləri kifayət qədər azaltmağa imkan verir. Xərclərin azalmasına reklam materiallarının nüsxələrinin və miqdarının azaldılması hesabına nail olunur. Belə ki, reklam materiallarını kompaniyanın özünün Web-saytında təqdim etmək olar.

İnternetdə reklam ənənəvi reklamdan fərqli olaraq özünəməxsus xüsusiyyətlərə malikdir. İnternetdə iki növ reklam ayırd edilir:

• Web-saytın reklamı;

• malların və xidmətlərin reklamı.

Adətən, Web-saytın reklamı və ya «raskrutkası» üçün istifadə edilir:

• axtarış sistemlərində saytın qeydiyyata alınması;

• bannerlərlə və ya istinadlarla mübadilə;

• META teqlərin- <title>, «keywords» «description» yerləşdirilməsi;

• mətnə açar sözlərin əlavə edilməsi;

• tanınmış Web-serverlərdə ödənişli istinadların yerləşdirilməsi;

• bütün reklam elanlarında elektron poçt ünvanının və Web-sayt ünvanının göstərilməsi və s..

E-mail göndərilməsi, xəbər göndərmələrində reklam, reklamların özünün reklam saytlarında və tanınmış Web-serverlərin saytlarında, həm də reklam lövhələrində yerləşdirilməsi, İnternetdə malların və xidmətlərin səmərəli reklam metodları hesab olunur.

Biznes fəaliyyətin bilavasitə İnternetdə təşkili dedikdə, İnternetə, şəbəkə iqtisadiyyatı prinsiplərinə əsaslanan elektron biznesin aparılması aləti kimi baxılması nəzərdə tutulur. Məhz, İnternet qlobal şəbəkəsinin informasiya infrastrukturunun inkişafı biznesin təşkili üsullarının dəyişməsinə və elektron bazarların yaradılmasına səbəb olmuşdur. Ona görə də kompyuter şəbəkələrində biznesin təşkilinin əsas modelləri və ya bazar subyektlərinin qarşılıqlı əməkdaşlıq modelləri böyük maraq doğurur. Belə modellərə aşağıdakılar aiddir:

• ***B2B (Business-to-Business)*** - biznes biznes üçün, biznes-tərəfdaşa (partnyora) istiqamətlənmiş elektron biznesdir;

• ***B2C (Business-to-Consumer)*** - istehlakçı üçün biznes, son istifadəçiyə istiqamətlənmiş elektron biznesdir;

• ***B2A (Business-to-Administration)*** - administrasiya (müdiriyyət) üçün biznes, kompaniyanın administrativ təşkilatlarla qarşılıqlı əlaqəsini müəyyən edir;

• ***C2A (Consumer-to-Administration)*** - istehlakçı-administrasiya, administrasiya ilə istehlakçının qarşılıqlı əlaqəsini müəyyən edir. Bu modelin həyata keçirilməsi sosial təminat kimi sahələrdə elektron qarşılıqlı əlaqəni genişləndirməyə imkan verir;

• ***C2B ( Consumer-to-Business)*** - biznes üçün istehlakçı, firmaların təklif etdiyi müxtəlif mallar və xidmətlər üçün istehlakçıya müstəqil olaraq qiymət təyin etməyə imkan verir;

• ***C2C (Consumer-to-Consumer)*** - istehlakçı istehlakçı üçün, sonuncu istifadəçiyə istiqamətlənmiş elektron biznes.

Biznes biznes üçün (B2B) kompyuter şəbəkələrinin köməyi ilə kompaniyaların öz aralarında qarşılıqlı əlaqəsinin biznes-modelidir. Bu model İnternetin köməyi ilə kompaniyanın biznes-tranzaksiya keçirməsini təmin edən elektron ticarətinin formasıdır. Məsələn, bu biznes-model çərçivəsində kompaniya ticarət təkliflərinə sorğu yerləşdirə, özünün mal göndərənlərindən cari kotirovkaları ala, kontrakt bağlaya, hesab alıb və ya ödəyə, sənədləri çap etdirə bilər. İnternetdə bu növ fəaliyyət bir çox ölkələrdə kompaniyalar üçün daha perspektivli hesab edilir. Bu model istehsalçılar arasında yeni səviyyədə ticarət əlaqələri qurmağa imkan verir və onlar arasında partnyorluq hesabatları üçün münasib əsas yaradır. Bazar daha açıq olur və lokal bazarda qarşılıqlı əlaqə və lazımi xidmətləri əldə etmək üçün çoxlu imkanlar yaranır. Bu da xaricdən material və avadanlıqların gətirilməsi zərurətini və ya uzunmüddətli işgüzar partnyor axtarmağı aradan götürür.

**Biznes biznes üçün** saytları arasında funksional imkanlarına görə aşağıdakı qruplar ayırd edilir:

• ***Kataloqlar.*** B2B tipli saytların ən sadə növü olub, alıcılara sabit qiymətlərlə mallarını təklif edən satıcını tapmağa imkan verir;

• ***Elektron birjalar.*** Kataloqlarla müqayisədə artıq dərəcədə mürəkkəb olmaları ilə fərqlənirlər

və funksional cəhətdən real birjalara oxşardırlar. Əsasən buğda, kağız, metal və s. kimi geniş istehlaka malik malların satışı üçün istifadə edilirlər;

• ***Auksionlar.*** Belə saytlar funksional baxımdan real auksionlara və B2C virtual auksionuna oxşardır. B2B modelinin spesifikasına uyğun olaraq, adətən artıq malların satışı üçün istifadə edilir;

• ***Elektron cəmiyyət.*** Biznesin aparılması həmişə hamının adət etdiyi biznes-tranzaksiyaların yalnız baş verməsi ilə nəticələnmir. Biznesdə partnyorların iştirakı tələb olunan çoxlu sayda başqa istiqamətlər də mövcuddur. Məsələn, müxtəlif növ tədqiqatlar, siyasi lobbiləşmə və ya ideya mübadiləsi və s. Bu səbəbdən də, ***İnternet güc və maraqların ümumiləşdirilməsi üçün ideal mühitdir.***

**İstehlakçi üçün biznes (B2C)** biznes-modelinin əsasını pərakəndə ticarət, yəni İnternet şəbəkəsində kompaniya ilə istehlakçıların qarşılıqlı əlaqəsi təşkil edir və bu gün üçün elektron ticarətinin ən populyar forması sayılır. Bu halda fəaliyyət, birbaşa istehlakçı üçün satışa istiqamətlənibdir. İstehlakçı üçün biznesə ən dəyərli misallardan biri-www.amazon.com-dur. Bu bütün dünya müştərilərinin 50 milyonundan çoxunun xidmətlərindən istifadə etdikləri Amerika kitab satışı saytıdır. Məhz o bir neçə il ərzində ABŞ-ın adi bukinist bazarını dağıtmağı bacardı. Regionlarda İnternetə giriş probleminin artıq həll olunduğu, ödəmə sistemlərinin və çatdırılma xidmətlərinin etibarlı işlədikləri bir vaxt, istehlakçı üçün biznes, istehlakçı üçün malların və xidmətin çatdırılması baxımından böyük şəhərlərlə uzaq regionlar arasındakı fərqləri aradan qaldırmaq üçün effektiv bir vasitə ola bilər. İstehlakçı üçün biznes, dünyanın istənilən yerindəki istehlakçıya malların və xidmətin çatdırılmasını yüngülləşdirən yeni satış texnologiyasını yaradır. Daha bir müsbət cəhət ondan ibarətdir ki, minimal sayda vasitəçilərin iştirakı ilə birbaşa satış aparmaq mümkündür. Bu isə yerində rəqabətə davamlı qiymət müəyyən etməyə və hələ onu artırmağa (vasitəçilərin faizi hesabına) imkan verir. Təbii ki, bu zaman gəlirin artması halı baş verəcəkdir.

**Administrasiya üçün biznes (B2A)** elektron kommersiya modeli firma ilə hökumət təşkilatları arasında bağlanılan bütün növ sazişləri özündə birləşdirir. Məsələn, ABŞ-da hökumət tərəfindən alınılması planlaşdırılan mallar haqqında informasiyalar İnternet şəbəkəsində dərc edilir. Bununla bağlı bütün kompaniyalar elektron üsulla öz təkliflərini göndərə bilirlər. Administrativ təşkilatlar alınacaq mallar haqqındakı elanlara əlavə olaraq bəzi verqi tutulmaları ilə bağlı elektron mübadilə imkanları da təklif edirlər. Elektron kommersiyanın təşkilinin bu modeli ilkin inkişaf mərhələsindədir.

**İstehlakçı istehlakçı üçün (C2C)** bir istehlakçının digər istehlakçılara mal və xidmət satışı modelidir, yəni İnternet şəbəkəsində istehlakçının istehlakçılarla qarşılıqlı əlaqəsini təmin edən elektron ticarət formasıdır. Bu model çərçivəsində elektron sayt alıcı və satıcı arasında vasitəçi rolunu icra edir. Məsələn, ***www.molotok.ru*** saytı hər bir insanın nəyisə alıb və ya sata bildiyi aparıcı Rusiya auksionlarından biridir.

**İstehlakçı biznes üçün (C2B)** - istehlakçıya, kompaniyanın təklif etdiyi müxtəlif mallar və xidmətlər üçün qiyməti müstəqil müəyyən etmək imkanı verir. Bu növ elektron ticarəti qalanları ilə müqayisədə ən az inkişaf etmişdir. Misal kimi, ***www.priceline.com*** Amerika kompaniyasını göstərmək olar. Bu kompaniya öz alıcısına malı və xidməti hansı qiymətə almaq istədiyini söyləməyə imkan verir. Beləliklə, sorğu (tələb) formalaşır, ancaq bu o demək deyil ki, soruşulan qiymətə əsasən satış baş tutacaq. Satıcı cari sorğunun verilənlərindən istifadə edərək, həlledici qərar qəbul edir. Verilmiş halda sayt, alıcının təklifi ilə formalaşan qiymət əsasında, satıcı tapmaq təşəbbüsündə vasitəçi-broker rolunu icra edir.

Şəbəkədə aparılan statistik tədqiqatlara əsasən B2B istiqaməti İnternetdə biznesin təşkilində birinci yerdədir və ən perspektivli model hesab edilir.

İnternetdə biznesin təşkilinin başqa modelləri də vardır. Avropa Komissiyasının (ESPRİT) sənədlərində elektron kommersiyanın aşağıdakı modellərinə baxılır:

• elektron maqazin;

• elektron məlumat-kataloqu;

- elektron onlayn auksion;
- elektron ticarət mərkəzi;
- virtual cəmiyyət;
- virtual tədqiqat mərkəzi;
- informasiya brokeri və s.

İnformasiya məhsullarının (kitabların, təlimatların, proqram təminatları və s.) yaradılması və onların virtual maqazinlər vasitəsilə birbaşa satışı elektron biznesin və ya İnternet şəbəkələrində informasiya biznesinin geniş yayılmış növlərindən hesab olunur. Məhz, ***informasiya - XXI əsrin ən çox gəlir gətirən məhsuludur.***

Elektron kommersiyanın aparılmasının əsas mərhələlərinə onlayn marketinq, sifarişlərin tərtibi, müqavilə və kontraktların bağlanması, xammal və sərf olunan materialların alınmasının elektron idarə olunması, ödənişlərin həyata keçirilməsi və malların təchizatının informasiya təminatı, müştərilərə servis və satışdan sonra xidmət və s. aiddir.

Elektron kommersiya İnternet şəbəkəsində biznes fəaliyyətin aşağıdakı istiqamətlərini əhatə edir:

- virtual maqazinlər vasitəsilə pərakəndə və ya topdan satış;
- web-vitrinlər və ya ticarət mərkəzləri;
- xidmətlərin təqdim olunması;
- elektron reklam, marketinq və s..

Elektron kommersiyanı təşkil etmək üçün İnternetdə özünün Web saytını yaratmaq və onun tez-tez efirdə olmasını (raskrutkasını) təmin etmək lazımdır. Satış prosesini avtomatlaşdırmaq üçün saytda «Virtual maqazin» adlandırılan xüsusi proqramı (skripti) quraşdırmaq lazımdır. Saytda münasib malların adlarını yerləşdirib və bu malların satılmasını təmin etmək məqsədi ilə müxtəlif reklam metodlarını və MLM *(Multi-level marketing)* marketinqi tətbiq etmək lazımdır.

Bəzi kompaniyalar və xüsusi sahibkarlar virtual anbarlardan və ya maqazinlərdən malların (həm material, həm də informasiya tiplı) birbaşa onlayn satışını həyata keçirirlər. Öz mallarının hərəkəti üçün onlar Direct marketinqdən istifadə edirlər. Elektron kommersiya ***(e-commerce)*** və malların onlayn satışı-istehlakçı bazarının gələcəyi hesab edilir.

Elektron biznesə əsasən valyuta, qiymətli kağızlar, əmtəə və qiymətli metallar bazarlarındakı biznes aiddir. Aşağıda elektron biznesin aparılmasına aid misallar verilmişdir:

**1. «Forex»** (Foreign Exchange Market) ***dünya valyuta (maliyyə) bazarında treyder (ticarət) işi.*** Beynəlxalq valyuta bazarı informasiya texnologiyalarının köməyi ilə regional valyuta bazarlarının öz aralarındakı qarşılıqlı əlaqə sistemini özündə əks etdirir. Beynalxalq valyuta bazarında iş xarici valyutaların alqı-satqısına aid müxtəlif əməliyyatların məcmusunu özündə əks etdirir. Burada ticarət əməliyyatlarının sirri ucuz alıb, baha satmaqdan ibarətdir.

**2. OnLine auksionlar (internet-auksion).** Belə auksionlara «Ebay» beynəlxalq auksiyonunu və «AY-AY» İnternet- ticarət auksiyonunu misal göstərmək olar. «Ebay» beynəlxalq auksionunda həm satıcı, həm də alıcı kimi fəaliyyət göstərmək mümkündür. Ebay auksionu-sizə lazım olan malların sərfəli şərtlərlə əldə edilməsi və xüsusi biznesin təşkili üçün yerdir. AY-AY auksionu isə malların alqı və satqısı üçün yerdir.

**3. İnvestisiyalar üzərində biznes.** İnvestisiya - faiz altında əmanətdir. İnternetdə çoxlu sayda investisiya fondları vardır. Belə fondlar müəyyən vaxt müddətinə sizdən müəyyən faizlə borc pul götürməyi təklif edir.

Elektron biznes müqavilə və kontraktların bağlanması, bazarlığın (alqı-satqının) elektron idarəsi, proqram təminatının rəqəmli malların istehsalı, sifarişlərin hazırlanması və emalı, malların satışı, tədarükü, marketinq, maliyyə təhlili, ödənişi, kadrların axtarışı, müştərilərin və partnyor münasibətlərinin dəstəklənməsi və sairədən ibarətdir.

## Nəticə

Təqdim olunan işin əsas nəticəsi olaraq demək olar ki, qlobal kompyuter şəbəkələrinin sürətli inkişafı sayəsində müasir iqtisadiyyatla əlaqədar tədbirlər prinsip ehtibarı ilə yeni səviyyəyə daxil olur. Kompaniyaların biznes-partnyorlarla və müştərilərlə qarşılıqlı əlaqəsinin yeni interaktiv kanalları yaranır. Nəticədə interaktiv marketinqin aparılması və birbaşa onlayn satışlarının həyata keçirilməsi təmin edilir. İnternet istifadəçilərinin sayının günü-gündən sürətlə artması müxtəlif malların istehlakçıların geniş dairəsinə reklam olunmasına və satılmasına imkan verir. Ona görə də müasir dövrdə daha böyük istehsalçı firmalar öz məhsullarını yaymaq üçün qlobal İnternet şəbəkəsindən geniş istifadə edirlər.

Beləliklə, yeni informasiya-telekommunikasiya texnologiyalarının sürətli inkişafı sayəsində hesablama şəbəkələrinin malik olduğu nəhəng potensial imkanlar, digər tərəfdən istehsal proseslərinin kifayət qədər sürətlənməsi, iqtisadiyyatın müxtəlif sahələrində İnternet şəbəkəsinin tətbiqinə geniş yol açır.

## Ədəbiyyat

1. Юрасов А.В. Электронная комерция: Учеб. Пособие- М.: Дело, 2003.
2. Mehdiyev M.M. İnternet şəbəkəsində işin əsasları. Dərs vəsaiti, Bakı, 2005.
3. Плескач В.Л., Затонацька Т.Г. Электронная коммерция: учебник - К: Знание, 2007.
4. Литовченко И.Л., Пилипчук В.П. Интеренет-маркетинг: учеб. пособие - К: Центр учебной литературы, 2008.
5. Грехов А.М. Электронный бизнес (Е-коммерция): учебное пособие- К: Кондор, 2008.
6. Mehdiyev M.M. Ümumi informatikadan praktikum. Dərs vəsaiti, Bakı, 2009.
7. Məmmədova Ə.Ə., Mənsimzadə İ.A. Kommersiya məqsədləri üçün İnternet şəbəkəsindən istifadənin təcrübəsi və məqsədləri. Bakı, 2010.

***М.М.Мехтиев,***
***А.А.Мамедова***

### Роль Интернета в современной экономике

### Резюме

В статье рассматриваются огромные потенциальные возможности Глобального Сеть Интернета и существования здесь благополучной среды для экономического действия как результат быстрого развития информационно-телекоммуникационной технологии. Также показывается роль и значения сетевой экономики и ее различных форм в развитии современной экономики, в которые могут существовать только в среде сети Интернет.

***Ключевые слова: глобальная сеть интернета, сетевая экономика, электронный бизнес, электронная коммерция.***

***M.M.Mekhtiev,***
***A.A.Mamedova***

### The role of Internet in today’s economy

### Summary

The article discusses the enermous potential of the Global Network of the Internet and the existence here of a prosperous environment for economic activity as a result of rapid development of information and telecommunication tecnologies. İt is also shown the role and value of the network economy and its various forms which can exist in the Internet environment, in the development of the modern economy.

***Key words: the global network of the internet, the network economy, electron business, electron commerce.***

# AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

**UOT 338.43**

***Dilsuz Qasım oğlu QASIMOV***
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## AQRAR SAHƏDƏ KOOPERASİYANIN İNKİŞAFI İNNOVASİYALARIN TƏTBİQİNİN SÜRƏTLƏNDİRİLMƏSİNİN MÜHÜM İSTİQAMƏTLƏRİNDƏN BİRİDİR

**Xülasə**

Məqalədə kooperasiyaların genişləndirilməsi, konkret sahə və ya sahələr üzrə ixtisaslaşma, maliyyə resurslarının təmərküzləşməsi, məhsuldar toxumların, yeni heyvan cinslərinin, müasir texnika, texnologiya və digər amillərin tətbiqi məhsul istehsalının artırılmasında və ümumiyyətlə aqrar sahənin dinamik inkişafında innovasiya fəaliyyətinin əsas amilli kimi tədqiq olunmuşdur.

***Açar sözlər: Aqrar sahə, kooperasiya, innovasiya, məhsul istehsalı, dinamik inkişaf.***

***

1991-ci ildə Sovetlər İttifaqının dağılmasından və Azərbaycanın müstəqillik əldə etməsindən sonra qarşıda duran həlli vacib problemlərdən biri də yeni torpaq siyasətinin həyata keçirilməsi, torpaq islahatlarının aparılması idi. Sovetlər İttifaqında mövcud olan asılı iqtisadiyyat sisteminin dağılması və bunun nəticəsində yaranan anarxiya digər respublikalar kimi Azərbaycanı da ağır iqtisadi böhrana saldı. Respublikanı bu böhrandan çıxarmağın yeganə və düzgün yolu isə ölkə iqtisadiyyatını qısa bir müddətə yeni iqtisadi əsaslarla bərpa etmək üçün ilk növbədə torpaq islahatları aparılması idi. Müstəqil Azərbaycanın yeni həyata başlaması üçün vacib olan bütün digər məsələlər kimi torpaq islahatlarının aparılması da ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Respublikada bir sıra mühüm dövlət proqramlarının həyata keçirilməsi ilə əlaqədar olaraq əhəmiyyətli nəticələrin əldə edilməsinə baxmayaraq, ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsi, onun ərazi və sahəvi strukturunun optimallaşdırılması, regionların social-iqtisadi inkişaf səviyyələri arasında fərqlərin, habelə qeyri-neft sektorunda inkişafı sürətləndirməklə bütövlükdə iqtisadi inkişafın neft sektorundan asılılığının minimuma endirilməsi başlıca problemlərdən biri olaraq qalmaqdadır. Ölkə iqtisadiyyatının inkişafının keyfiyyətcə yeni mərhələyə daxil olması yeni problemlərin yaranmasına səbəb olur ki, bu da obyektiv hal kimi qiymətləndirilir. Həmin problemlər bu gün aktual xarakter daşımaqla onların həlli ölkənin sosial -iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətlərindəndir.

Aqrar sahədə dinamik inkişafa nail olmuş ölkələrin təcrübəsində kooperasiya amili əsas yerlərdən birini tutur. Birgə məqsədləri həyata keçirtmək üçün iştirakçıların səy və resurslarının könüllü birləşməsindən ibarət olan kooperasiyanın və bu əsasda formalaşan və fəaliyyət göstərən təsərrüfat subyektlərinin üstünlüklərindən ən əsası kooperasiyada innovasiyaların tətbiqinə geniş yer verılməsidir. Ölkənin kənd təsərrüfatı sistemində üstünlük təşkil edən kiçik həcmli ev təsərrüfatlarından fərqli olaraq kooperativlərdə innovasiyaların tətbiqi sahəsində daha böyük potensial imkanlar vardır. Kooperativlərdə konkret sahə və ya sahələr üzrə ixtisaslaşma, maliyyə resurslarının təmərküzləşməsi və digər amillər innovasiya fəaliyyətinin nəticəsi olan məhsuldar toxumların, yeni heyvan cinslərinin, müasir texnika və texnologiyanın və s. tətbiqinə müsbət təsir göstərir. Ona görə də aqrar sahədə kooperasiyanın inkişafı, kənd təsərrüfatı sistemində kooperativlərin xüsusi çəkisinin artırılması innovasiyaların tətbiqinin sürətləndirilməsinin mühüm istiqamətlərindən biridir.

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş və əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdan ibarət olan "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda kənd təsərrüfatında kooperasiyanın vacibliyi vurğulanaraq göstərilir: "kənd təsərrüfatı məhsullarının istehsalının müxtəlif təsərrüfat formaları üzrə, o cümlədən kollektiv təsərrüfat forması üzrə inkişafı regionlarda birgə əmək kooperasiyasının genişlənməsinə və daha məhsuldar olan ictimai qüvvənin əmələ gəlməsinə səbəb olacaqdır..." [4].

Təsadüfi deyil ki, BMT-nin 18 dekabr 2009-cu il tarixdə keçirilmiş 64-cü sessiyasında "Kooperativlər və sosial inkişaf" adlı qərar qəbul edilmiş və həmin qərara əsasən 2012-ci il dünyada Beynəlxalq Kooperativlər ili elan edilmişdir. Təşkilatın məlumatına görə, dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərən kooperativlərin 800 milyondan çox üzvü var. Aqrar sahənin inkişafında kooperativlərin rolu nəzərdən keçirilərək qeyd olunur ki, ABŞ-da, Yeni Zelandiyada və Norveçdə istehsal olunan südün 80-99%-i, Braziliyada kənd təsərrüfatının 40%-i kooperativlərin payına düşür [1].

Kənd təsərrüfatında kooperasiyanın genişlənməsi bütövlükdə innovasiyaların, elmi-texniki tərəqqinin yeni nailiyyətlərinin istehsalda tətbiqinin stimullaşdırılmasında mühüm təşkilati vasitə sayıla bilər. Vaxtı ilə respublikamızda kooperasiyanın inkişafı ilə əlaqədar müəyyən zəruri tədbirlər həyata keçirilmişdir. Belə ki, 1996-cı ildə qəbul edilmiş "Kooperasiya haqqında" Qanun kooperasiya münasibətlərinin hüquqi əsaslarının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Lakin çox təəssüf ki, bu qanun 2003-cü ildə ləğv edilmişdir. Fikrimizcə, kooperativlərin, xüsusilə kənd təsərrüfatında fəaliyyət göstərən kooperativlərin yaradılmasının, onların fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edən, bu sahədə yaranan münasibətləri tənzimləyən ayrıca qanunun qəbul edilməsinə böyük ehtiyac vardır [1].

Kənd təsərrüfatında kooperativ münasibətlərin inkişaf etdirilməsi bütövlukdə aqrar-sənaye kompleksinin iqtisadi səmərəliliyinin yüksəldilməsinin ən mühüm prioritet istiqamətini təşkil edir. Elmi araşdırma nəticəsində belə qənaətə gəlmək olar ki, respublikamızda kənd təsərrüfatında struktur dəyişikliklərinin müasir mərhələsində, kooperasiya münasibətlərinin inkişaf etdirilməsi ilə əlaqədar həllini gözləyən bir sira problemlər mövcuddur və bu ilk növbədə kənd təsərrüfatı kooperasiyasının inkişafı ilə əlaqədar proqramın işlənib hazırlanmasını tələb edir [1].

Belə ki, kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişaf etdirilməsinin prioritet istiqamətləri və mərhələləri müəyyənləşdirilməli və bu ilk növbədə bu sahədə ayrı-ayrı sektorların sahə xüsusiyyətlərindən, eləcə də regionların təbii-iqlim şəraitindən və ixtisaslaşma istiqamətlərindən asılı olaraq həyata keçirilməlidir. Bundan əlavə, kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişaf etdirilməsi üçün dövlət büdcəsindən lazımi qədər vəsait ayrılmalı və bu ilk növbədə kənd təsərrüfatı kooperativlərinin kredit fəaliyyətinin gücləndirilməsinə yönəldilməlidir. Xüsusi ilə qeyd olunmalıdır ki, kənd təsərrüfatında kooperasiya münasibətlərinin inkişaf etdirilməsi iqtisadiyyatın bu sahəsinə investisiyaların stimullaşdırılmasının başlıca ilkin şərtidir. Kooperasiya münasibətlərinin inkişaf etdirilməsi istehsalçıların təşkilati-struktur cəhətdən təkmilləşmələrinə və bazarda baş verən konyuktur dəyişikliklərinə səmərəli reaksiya göstərmələrinə imkan verir [3].

Eyni zamanda kooperativlərin sığorta fondları formalaşdırılmalıdır ki, onlar təbii-iqlim şəraitində baş verən dəyişikliklərdən, eləcə də risklərdən sığortalana bilsinlər. Kooperativlərin məhsul satışı və emalı sahələrində yaradılması və onların tam gücü ilə istehsal sahəsində fəaliyyət göstərməsi bütövlükdə kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi baxımından da mühüm əhəmiyyət kəcb edir.

Hazırda dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyi göstərilir. Beynəlxalq maliyyə təşkilatları ilə birlikdə regionlarda layihələr həyata keçirilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə ayrılan vəsaitlərin, dövlət büdcəsindən kənd təsərrüfatına birbaşa yardımların və kəndlərdə infrastrukturun yaradılmasına yönəldilən investisiyaların həcmi ildən-ilə artır. Bu artıq bir faktdır ki, lizinq xidməti əsasında kənd təsərrüfatı məhsulları istehsalçılarının lazımi texniki avadanlıqla təchizatı, subsidiyalaşdırma və digər mexanizmlərin tətbiqi aqrar iqtisadiyyatın inkişafında mühüm rol oynayır [4].

Bütün bunlarla yanaşı, ölkəmizdə ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, ödənilməmişdir. Ərzaq bazarlarında isə tələbin böyük fərqlə təklifi üstələməsi səbəbindən son vaxtlar ərzaq mağazalarının qiymətlərindəki artımın qarşısını almaq və əhalini ərzaq məhsulları ilə tam təmin etmək məqsədi ilə ölkə Prezidenti tərəfindən qəbul edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” kənd təsərrüfatı sektorunun qarşısında xüsusi vəzifələr qoymuşdur.

Dövlət Proqramında dövlət qurumlarına torpaq və sudan istifadənin səmərəliliyinin artırılması tədbirlərinə aid məsələlər - eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqların müəyyən edilməsi və xəritələşdirilməsi, onlardan səmərəli istifadə olunması ilə bağlı təkliflərin hazırlanması və icrası tapşırılmışdır. Dövlət əhalinin ərzaqla tam təminatını ödəmək üçün 2015-ci il üçün dənli bitkilərin əkin sahələrini 900 min hektara çatdırmalı və proqramda göstərilən 2015-ci ildə 2,8 milyon ton dənli bitkilər istehsal edilməlidir. Ölkədə ikinci çörək kimi qəbul edilən kartof 1,12 milyon ton, tərəvəz və bostan bitkilərinin istehsalı 1,72 milyon ton, meyvə 800 min ton olmalıdır. Yağlı bitkilərin əkin sahələrini 135 min hektara, şəkər çuğundurunun əkin sahəsini isə 20 min hektara, yem bitkilərinin əkin sahələrini 500 min hektar olmaqla yüksək keyfiyyətli, balanslaşdırılmış qarışıq yem istehsalını ildə 2 milyon tona çatdırmaq ayrı-ayrı bənd göstəriciləri ilə bir proqram olaraq qarşıya qoyulur [4].

Kənd təsərrüfatı təyinatlı torpaqların dağıdılması, münbit qatının məhv edilməsi, təyinatı üzrə istifadə edilməməsi çox geniş ərazilərdə bu torpaq sahələrinin əkin dövriyyəsindən çıxarılmasına və kənd təsərrüfatı məhsulları istehsalının aşağı düşməsinə səbəb olur. Odur ki, əkinə yararlı torpaq sahələrinin təyinatının dəyişdirilməsinin qarşısını almaq məqsədilə ciddi tədbirlər həyata keçirilməli, bu sahədə qanunvericiliyin pozulmasına görə məsuliyyət artırılmalıdır. Müvafiq təşkilatlarla əlaqəli şəkildə təsirli tədbirlərin həyata keçirilməsini təmin edə biləcək təkliflər hazırlanmalı və onların icrasına nəzarət gücləndirilməlidir.

Respublikada aparılan torpaq islahatı nəticəsində mülkiyyətə verilmiş əkinə yararlı torpaqlarda və bələdiyyələrin ehtiyat fondunda saxlanılan bu kateqoriyaya aid sahələrdə qanunsuz tikinti işlərinin aparılmasının qarşısının alınması məqsədi ilə qanunvericilikdə və digər hüquqi-normativ aktlarda müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur ki, bu da əsasən respublikamızda adambaşına düşən əkinə yararlı torpaq sahələrinin ildən-ilə azalması və kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün qiymətli əkin torpaqlarının çatmaması ilə bağlıdır. Lakin yenə də əkinə yararlı torpaqlarda qanunsuz olaraq fərdi yaşayış evləri, istirahət və ticarət mərkəzləri və digər sahibkarlıq obyektlərinin tikilməsi halları çoxalmaqdadır. Ona görə də əkinə yararlı torpaq sahələrinin (mülkiyyət növündən asılı olmayaraq) qanunsuz şəkildə müxtəlif təyinatlı tikintilər altında istifadə olunmasının hüquqi baxımdan qiymətləndirilməsi nəzərə alınmalıdır.

Ölkədə aqrar islahatlar nəticəsində vətəndaşlar və hüquqi şəxslər torpaq mülkiyyətçilərinə çevrilmişlər. Məlumdur ki, kənd təsərrüfatı istehsalının sürətli inkişafı kənd təsərrüfatı sahələrində müasir texnika və texnologiyaların elmi əsaslarla geniş tətbiqini tələb edir. Ayrı-ayrı torpaq mülkiyyətçilərinə məxsus kiçik torpaq sahələri isə kənd təsərrüfatı istehsalına geniş texnikanın tətbiqinə, başqa sözlə desək, müasir yanaşmaya imkan vermir. Nəticədə onlara məxsus əkinə yararlı torpaq sahələri bəzən istifadəsiz qalaraq kənd təsərrüfatı dövriyyəsindən çıxır və ya məhsuldarlıq xeyli aşağı olur. Qeyd edilən neqativ halları aradan qaldırmaq üçün pay torpaqları əsasında

formalaşmış xırda ailə və fermer təsərrüfatlarının könüllülük əsasında kooperasiyalarda birləşməsini zəruri edir. Könüllülük əsasında birləşmələr maddi, texniki və digər stimullaşdırıcı tədbirlər sayəsində reallaşa bilər ki, bu da son nəticədə əkinə yararlı istifadəsiz torpaqların əkin dövriyyəsinə cəlb edilməsinə və məhsul istehsalının artırılmasına səbəb ola bilər. Eyni zamanda, torpaqların müəyyən edilməsi, onların münbitliyinin və suvarılan torpaq sahələrinin artırılması istiqamətində işlərin genişləndirilməsi də nəzərdə tutulmuşdur. Bu tapşırıqlar sırasında dağ çaylarının gətirmə konuslarında, arid iqlimə malik dağətəyi və düzən ərazilərdə əkinə yararlı torpaqların kənd təsərrüfatı məhsulları istehsalı dövriyyəsinə cəlb edilməsi və istifadə olunmayan əkinə yararlı torpaqların əkin dövriyyəsinə cəlb edilməsinin stimullaşdırılması mühüm yer tutur. Pay torpaqları əsasında formalaşmış xırda ailə və fermer təsərrüfatlarının könüllülük əsasında kooperasiyalarda birləşdirilməsinin stimullaşdırılması tədbirlərindən olan mütərəqqi suvarma texnologiyalarının tətbiqinin dəstəklənməsi qarşıda duran əsas vəzifələrdəndir [5].

"Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanlarla təmin edilməsinə əlavə dəstək verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 21 avqust 2008-ci il tarixli sərəncamında kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən müddətli vergi güzəştləri ilə bərabər, dövlət tərəfindən onlara yanacaq, motor yağlarının və mineral gübrələrin alınmasında güzəştlər edilir, dövlət və özəl toxumçuluq təsərrüfatlarına yetişdirdikləri toxumlara görə subsidiyalar verilir. Bununla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının buğda toxumuna, mineral gübrələrə və damazlıq heyvanlara olan ciddi ehtiyacı ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində əlavə tədbirlərin görülməsini şərtləndirir. Buğda toxumunun istehsalı ilə məşğul olan dövlət və özəl toxumçuluq təsərrüfatlarına dövlət vəsaiti hesabına idxal olunan yüksək reproduksiyalı buğda toxumunun satış qiymətinin 50 faizinə, buğda istehsalçılarına isə mineral gübrələrin satış qiymətinin 70 faizinə dövlət tərəfindən güzəşt verilmişdir.Ölkə ərazisində kənd təsərrüfatı heyvanlarının məhsuldarlığının yüksəldilməsi, mövcud heyvan cinslərinin yaxşılaşdırılması və damazlıq heyvanların sayının artırılması məqsədilə artıq xaricdən damazlıq heyvanların idxalı və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satılması həyata keçirilir [2].

Araşdırmalar göstərir ki, aqrar sahədə istehsalın artırılmasının, ərzaq təminatının yaxşılaşdırılmasının əsas vəzifələrindən biri ərzaq məhsulları istehsalının infrastruktur təminatının yaxşılaşdırılmasıdır. Başqa sözlə, daxili yolların qaydaya salınması, qazlaşdırma, elektrikləşdirmə, su ilə təminat məsələləri ön plana çəkilməlidir ki, kənddə yaşayan mütəxəssislər və istehsalla məşğul olanlar üçün əlverişli infrastruktur yaransın. Buna görə də hazırda istehsalçının məhsulunun daşınması, saxlanması, soyuducu bazaların yaradılmasına kömək göstərilməsi əsas vəzifələrdən biri kimi qarşıda durur.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi üçün uzun illərdən bəri bəzi ərazilərdə istismar edilən suvarma və kollektor-drenaj şəbəkələri bərpa edilməli, yenidən qurulmalı və tikintisi həyata keçirilməlidir. Bu, suvarma şəbəkələrinin fasiləsiz işini təmin etməklə yeni sahələrin suvarmaya cəlb edilməsinə imkan verər. Kollektor-drenaj şəbəkəsinin bərpası, yenidən qurulması və tikintisi isə şorlaşma və şorakətləşməyə məruz qalmış torpaqların yuyularaq duzdan təmizlənməsinə və həmin torpaqların əkin dövriyyəsinə cəlb edilməsinə gətirib çıxarır [5].

Beləliklə, respublika əhalisinin təxminən yarısının kəndlərdə yaşadığını, kənd təsərrüfatında istehsal texnologiyalarının müasir tələblərə cavab vermədiyini, suvarma və meliorasiya təminatının yetərsiz olduğunu, kənd ərazilərində şəhər ərazilərinə nisbətən adambaşına düşən məhsul və gəlirin bir neçə dəfə aşağı olduğunu, kəndlərdən iri şəhərlərə miqrasiya səviyyəsinin yüksəkliyini, kənd yerlərində sosial xidmət səviyyəsinin( xüsusilə səhiyyə sahəsində) və yol, enerji kimi infrastruktur təminatının aşağı səviyyədə olduğunu nəzərə aldıqda aqrar sahədə kooperasiyanın inkişafı və genişləndirilməsi innovasiya fəaliyyətinin zəruriliyini və aktuallığını kəcb edir.

**Ədəbiyyat**

1. İ.H.İbrahimov. Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri. Bakı, “Səda”, 2007, 296 s.
2. Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 23 yanvar tarixli 1907 №–il Sərəncamı.
3. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”. 25 avqust 2008-ci il.
4. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. 14 aprel 2009- cu il.
5. D.Q.Qasımov. Kəhriz sistemlərinin sosial-iqtisadi səmərəliliyi. Dərs vəsaiti, Naxçıvan, “İdeya”, 2012.

***Дос. Д.Г.Гасымов***
***НГУ***

**Развитие кооперации в аграрной отрасли, одно из важных направлений ускорения внедрения инноваций**

**Резюме**

В статье исследованы расширение кооперации, специализация по конкретной отрасли или по отраслем, объединение финансовых ресурсов, внедрение производительных семян, новых пород животных использование современной техники и технологии в повышении производства продукции в обшем инновационная деятельности вступает как основной фактор динамичном развитии аграрного сектора.

***Ключевые слова: аграрная отрасль, кооперация, инновация, производство продукции, динамическое развитие.***

***Dos. D.Q.Qasimov***

**Development of cooperation in the agricultural sector, one of the important accelerating innovation**

**Summary**

In this paper the expansion of cooperation, specialization in a specific industry or sector, unification of financial resources, the introduction of productive seeds, new breeds of animals, modern machinery and technology and innovation as the main driver of the dynamic growth in increasing production.

***Keywords: agrarian sector, cooperation, innovation, production, dynamic growth.***

UOT 338. 43

*Ağarza Ağahəsən oğlu RÜSTƏMOV*
*Naxçıvan Dövlət Universiteti,*
*i.e.d., prof.*

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ AQRAR MÜNASİBƏTLƏRİN FORMALAŞMASI VƏ ONUN TƏNZİMLƏNMƏ MEXANİZMİ

**Xülasə**

Məqalədə bazar iqtisadi şəraitində torpaq resurslarından səmərəli istifadə edilməsinə istiqamətlənmiş torpaq münasibətlərinin tənzimlənməsinə tətbiq edilən iqtisadi vasitələr və resursların idarə edilməsində iqtisadi tənzimləmə sistemi araşdırılmışdır.

***Açar sözlər: aqrar münasibətlər, torpaq resursları, iqtisadi vasitələr, tənzimləmə sistemi.***

***

İqtisadi sistemin tipindən və xarakterindən asılı olmayaraq, bütün dövrlərdə torpaq münasibətləri aqrar münasibətlərin mühüm tərkib hissəsi kimi xarakterizə edilmişdir. Torpaq münasibətlərinin aqrar münasibətlər sistemində yeri və rolu ilk növbədə onunla bağlı olmuşdur ki, torpaq bütövlükdə kənd təsərrüfatında istehsal vasitəsidir və həmin istehsal vasitəsi üzərində məhsul istehsalı prosesi formalaşır. Nəticə etibarilə məhsul istehsalının həyata keçirilməsi, onun iqtisadi səmərəliliyinin yüksəldilməsi torpaq münasibətlərinin formalaşmasından, torpaq üzərində mülkiyyət münasibətlərinin inkişaf etdirilməsindən bilavasitə asılı olmuşdur. Bazar iqtisadi şəraitində torpaq üzərində mülkiyyət münasibətlərinin yenidən qurulması aqrar münasibətlər sistemində transformasiya yönümlü dəyişikliklərin mühüm tərkib hissəsi kimi xarakterizə edilir.

Torpaq münasibətləri dedikdə kənd təsərrüfatına yararlı torpaqlardan müvəqqəti və daimi istifadə zamanı yaranan münasibətlərin məcmusu başa düşülür. Torpaq münasibətlərinin formalaşmasında torpaq münasibətlərinin subyekti və torpaq münasibətlərinin obyekti arasındakı münasibətlər əsas götürülür. Torpaq münasibətlərinin subyekti dedikdə torpaq sahələrinin mülkiyyətçiləri nəzərdə tutulur. Torpaq sahələrinin mülkiyyətçilərinə müasir şəraitdə dövlət strukturlarını, hüquqi şəxsləri, eyni zamanda fiziki şəxsləri, vətəndaşları və torpaq üzərində fəaliyyət göstərən sahibkarlıq qurumlarını aid etmək olar. Bazar iqtisadiyyatı şəraitində torpaq sahələrinin subyektlərinə, eyni zamanda icarəçilər də şamil edilir. Belə ki, konkret olaraq götürdükdə, kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlıq qurumları, fiziki şəxs statuslu ailə təsərrüfatları, icarə kollektivləri, ümumiyyətlə kənd təsərrüfatında fəaliyyət göstərən müəssisələrdə muzdlu əsaslarla işləyən işçilər belə, torpaq münasibətlərinin subyekti formasında çıxış edir. Torpaq münasibətlərinin obyekti dedikdə isə kənd təsərrüfatına yararlı torpaq sahələri başa düşülür. Daha doğrusu, əslində torpaq münasibətlərinin formalaşması kənd təsərrüfatına yararlı torpaq sahələrində fəaliyyət göstərən mülkiyyətçilərin torpaq üzərindəki fəaliyyəti kimi başa düşülür [2].

Torpaq münasibətləri torpaqdan istifadə və sahibkarlıq sahəsində mövcud olan istehsal münasibətlərinin spesifik forması kimi səciyyələnir. Torpaq münasibətlərinin əsas elementlərinə aşağıdakıları şamil etmək olar:

- torpaq üzərində mülkiyyətin növü və forması;
- torpaq üzərində təsərrüfatçılıq sistemi;
- torpaq resurslarının idarə edilməsi mexanizmi;
- torpaq münasibətlərinin tənzimlənməsi və onun forma və metodları.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, torpaq münasibətləri sisteminə də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bu baxımdan müasir şəraitdə torpaq münasibətləri torpaq üzərində fəaliyyət göstərən mülkiyyətçi subyektlər arasındakı münasibətlərin

məcmusu kimi xarakterizə edilir. Bu münasibətlər isə, əsas etibarilə iqtisadi formada cərəyan edir. Onu da nəzərə almaq lazımdır ki, müasir şəraitdə torpaq münasibətləri eyni zamanda artıq ictimai münasibətlərin mühüm tərkib hissəsinə də çevrilmişdir. Bu baxımdan torpaq münasibətləri torpaqdan istifadə və sahibkarlıq sahəsində mövcud olan ictimai münasibətlərin məcmusu kimi də dəyərləndirilə bilər. Odur ki, müasir şəraitdə torpaq münasibətlərini, əslində cəmiyyətdə istehsal münasibətlərinin mühüm tərkib hissəsi kimi də səciyyələndirmək mümkündür. Ümumiyyətlə götürdükdə, torpaq münasibətləri cəmiyyətin iqtisadi bazisinin formalaşmasında əhəmiyyətli rol oynayır. Hər bir cəmiyyətdə və hər bir iqtisadi sistemdə torpaq münasibətlərinin əsasını, əslində torpaq üzərində mülkiyyət münasibətləri təşkil edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ictimai və dövlət quruculuğu sistemi, əslində torpaq münasibətləri sistemi ilə xarakterizə edilir. Bu zaman cəmiyyətdə siyasi münasibətlərin tənzimlənməsi, torpaq üzərində sahibkarlıq fəaliyyətinin xarakteri ilə səciyyələnir [2].

İqtisadi sistemin tipindən və xarakterindən asılı olmayaraq, hər bir dövlətdə aqrar münasibətlərə müdaxilə prosesi torpaq siyasəti vasitəsilə reallaşdırılır. Ümumiyyətlə götürdükdə, aqrar münasibətlərin tərkib hissəsi kimi torpaq münasibətlərinin tənzimlənməsi, aqrar siyasətin tərkibində torpaq siyasətinin reallaşdırılmasını özündə əks etdirir. Torpaq münasibətlərinin tənzimlənməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi cəmiyyətdə sosial-siyasi sabitliyin qorunmasının başlıca ilkin şərtlərindən biri kimi çıxış edir. Xüsusilə kənd təsərrüfatında torpağın əsas istehsal vasitəsi kimi çıxış etməsi, son nəticədə cəmiyyətdə sosial sabitliyin təmin edilməsinə bilavasitə təsir göstərir.

Kənd təsərrüfatı cəmiyyət üzvlərinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır və bu baxımdan torpaq üzərində mülkiyyətin xarakteri və torpaqdan istifadə baxımından cəmiyyət üzvlərinin maraqlarının təmin edilməsi, əslində sosial sabitliyin təmin edilməsinə bilavasitə təsir göstərir. Odur ki, torpaqdan istifadə və torpaq üzərində sahibkarlıq fəaliyyəti ilə bağlı ayrı-ayrı sosial qrupların maraqlarının təmin edilməsi, bütövlükdə transformasiya yönümlü dəyişikliklərin sosial baxımdan ağrısız keçməsini səciyyələndirən ən mühüm amillərdən biridir [1].

Məhz bu baxımdan xüsusilə qeyd etmək lazımdır ki, respublikamızda 1993-ci ildən etibarən başlanan aqrar islahatlar və o cümlədən torpaq islahatı prosesində cəmiyyətdə demək olar ki, sosial baxımdan tam mənası ilə ağrısız islahatlar prosesinə keçirilmişdir. Bu baxımdan ulu öndər Heydər Əliyev cənablarının həyata keçirdiyi aqrar siyasət və onun tərkib hissəsi kimi torpaq siyasəti müasir iqtisadiyyatın formalaşdırılmasına əlverişli şərait yaratmışdır [1].

İnkişaf etmiş ölkələrin təcrübəsi və eləcə də nəzəri-praktiki araşdırmalar göstərir ki, torpaq münasibətlərinə dövlət müdaxiləsi müxtəlif vasitələrlə həyata keçirilir ki, bunlara hüquqi, iqtisadi və təşkilati vasitələri aid etmək olar.

Torpaq münasibətlərinin tənzimlənməsinə istiqamətlənmiş iqtisadi vasitələr cəmiyyət üzvlərinin maddi maraqlarının təmin edilməsinə istiqamətlənir və torpaq münasibətlərinə iqtisadi vasitələr əsasında müdaxilə həyata keçirilir. Torpaq münasibətlərinin inkişaf etdirilməsində iqtisadi vasitələrdən istifadə edilməsi kənd təsərrüfatının inkişafının stimullaşdırılmasının başlıca vasitəsi hesab edilir. Torpaq münasibətlərinin tənzimlənməsində istifadə edilən iqtisadi vasitələrə vergiqoymanı, kreditləşdirməni, məqsədli maliyyələşdirməni, subsidiyalaşdırmanı, cərimə və həvəsləndirmə tədbirlərini, eləcə də regionların spesifik xüsusiyyətlərini və ixtisaslaşmanın xarakterinə uyğun olaraq, torpaqdan istifadə qaydalarının müəyyənləşdirilməsinə və torpaqların mühafizəsinə istiqamətlənmiş tədbirləri aid etmək olar. Məlum olduğu kimi, torpaq resursları daşınmaz əmlakın mühüm tərkib hissəsini və obyektini təşkil edir. Bu baxımdan torpaqdan səmərəli istifadə edilməsinə istiqamətlənmiş tədbirlər, nəticə etibarilə əmtəə istehsalçılarına əlverişli sosial-iqtisadi şərait yaradılmasını özündə əks etdirir. Bütün bunlar isə, torpaq münasibətlərinin tənzimlənmə-

sində stimullaşdırıcı funksiya yerinə yetirir və həm də kənd təsərrüfatında istehsal potensialından səmərəli istifadə edilməsinə əlverişli şərait yaradır [2].

Kənd təsərrüfatında və istərsə də meşə təsərrüfatında başlıca istehsal vasitəsi kimi torpaq resursları əhəmiyyətli rol oynayır. Həmçinin, xalq təsərrüfatının müxtəlif sahələrinin yerləşməsi baxımından da torpaq resurslarının mühüm rolu vardır. Odur ki, müasir şəraitdə kənd təsərrüfatında intensivləşmə tədbirlərinin həyata keçirilməsi baxımından torpaq resurslarının səmərəli istifadə edilməsi vacibdir. Bundan əlavə, torpaq resurslarından qeyri-təyinatlı istifadə hallarının qarşısının alınmasına istiqamətlənmiş tədbirlər məhz iqtisadi vasitələrlə həyata keçirilir. Bu baxımdan cərimələr və müxtəlif qadağanedici tədbirlərin həyata keçirilməsi, son nəticədə torpaq resurslarından səmərəli istifadənin təmin edilməsinə və torpaq resurslarının qeyri-kənd təsərrüfatı təyinatı üzrə istifadəsinin qarşısının alınmasında əhəmiyyətli rol oynayır.

Torpaq resurslarından səmərəli istifadə edilməsinə istiqamətlənmiş və bütövlükdə torpaq münasibətlərinin tənzimlənməsinə tətbiq edilən iqtisadi vasitələri reallaşdırmaq məqsədilə dövlət tərəfindən torpaq sahələri ilə bağlı informasiyaların toplanması həyata keçirilir. Bu informasiyalara aşağıdakıları şamil etmək olar:

- torpaq kadastrının tətbiqi;
- torpaqların qiymətləndirilməsinin həyata keçirilməsi;
- torpaq vergisinin tətbiq edilməsi;
- diferensiallaşdırılmış renta prosesinin tətbiq edilməsi;
- torpaqdan məqsədli istifadənin təmin edilməsinə istiqamətlənmiş təşkilati tədbirlərin həyata keçirilməsi;
- torpaq resurslarının idarə edilməsi.

Aparılan araşdırmalar göstərir ki, torpaq münasibətlərinin tənzimlənməsində yer quruluşu və torpaqdan istifadə prosesləri əhəmiyyətli rol oynayır. Bu baxımdan yer quruluşu və torpaqdan istifadə prosesində baş verən dəyişikliklər, nəticə etibarilə torpaqların yenidən bölüşdürülməsinə gətirib çıxarır və bu prosesə isə obyektiv olaraq, bir sıra faktorlar təsir göstərir [3]:

- torpaqların dövriyyəsi ilə əlaqədar olaraq torpaq sahiblərinin və eləcə də torpaqdan istifadə edənlərin iqtisadi maraqlarının təmin edilməsi (alqı-satqı və torpaq sahələrinin girov qoyulması). Aparılan araşdırmalar göstərir ki, bütün hallarda kifayət qədər yerləşmə imkanları yüksək olan torpaq sahələrinin qiymətləri yüksək olur. Bu qiymətlərin səviyyəsinin yüksək olmasını şərtləndirən ən mühüm amillərdən biri torpaqların münbitliyi ilə bağlıdır. Eyni zamanda torpaqdan istifadə ilə bağlı çatışmazlıqların olmaması da nəticə etibarilə qiymətlərin səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir;
- torpaqların təsərrüfat təyinatı ilə əlaqədar olaraq, istehsal edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsi və bütövlükdə bazar konyunkturunda baş verən dəyişikliklər. Bu ilk növbədə torpaqların müxtəlif təsərrüfat təyinatı üzrə istifadəsini nəzərdə tutur. O cümlədən əkin sahələri, çoxillik əkmələr, yem bitkilərinin əkin sahələrinin bölüşdürülməsini nəzərdə tutur. Bundan əlavə, kənd təsərrüfatı əmtəə istehsalçılarının ixtisaslaşması, onların sahə strukturu və əkin sahəsinin quruluşu, eləcə də elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin davamlı olaraq istehsal prosesinə tətbiq edilməsi, son nəticədə bazar konyunkturunda baş verən dəyişikliklərə əhəmiyyətli dərəcədə təsir göstərir;
- istehsalın ərazi üzrə yerləşməsi baxımından ixtisaslaşma prosesinin həyata keçirilməsi. Bu ilk növbədə torpaq mülkiyyətçisinin, digər mülkiyyətçilərlə müqayisədə daha çox iqtisadi üstünlük əldə etməsini şərtləndirir;
- istehsalın təşkili və texnologiyaların tətbiqi sahəsində elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin tətbiq edilməsi.

Bu ilk növbədə innovasiyalı istehsal prosesinin qurulmasına əlverişli şərait yaradır. Nəzərə

almaq lazımdır ki, hazırda inkişaf etmiş ölkələrdə ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalına xüsusilə önəm verilir və bu baxımdan elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin tətbiq edilməsi, son nəticədə torpaq resurslarından səmərəli istifadə edilməsinə əlverişli şərait yaratmaqla kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinə və eləcə də məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə gətirib çıxarır. Məlum olduğu kimi torpaq resurslarının spesifik xüsusiyyətləri baxımından torpaq təbii resurs hesab edilir və sosial-iqtisadi münasibətlərin obyekti baxımından istehsal vasitəsi sayılır. Təsərrüfat münasibətlərinin subyekti olaraq, yuxarıda qeyd etdiyimiz kimi, konkret ərazidə yaşayan əhali kateqoriyaları və onların mülkiyyət strukturu prosesi də əhəmiyyətli rol oynayır. Eləcə də ölkə konstitusiyasının müvafiq normalarına əsasən torpaq münasibətlərinin sosial və regional xüsusiyyətləri özünü büruzə verir.

Resursların idarə edilməsində iqtisadi tənzimləmə sisteminə aşağıdakıları şamil etmək olar:

- torpaq vergisi;
- torpaq sahələrinin icarəyə verilməsi ilə bağlı ödənilən icarə haqları;
- torpaqların bazar qiymətləri;
- torpaqların girov qiymətləri;
- torpaqların istehsal sahələrindən çıxarılması ilə bağlı ödənilən kompensasiya ödəmələri;
- torpaqların konservasiyası ilə bağlı ödənilən kompensasiya ödəmələri;
- torpaqların keyfiyyətinin yüksəldilməsi ilə bağlı ödəmələr;
- texnoloji itkilərin qarşısının alınması ilə bağlı cərimə ödəmələri;
- sırf torpaq dövriyyəsi ilə bağlı tətbiq edilən vergi ödəmələri;
- icarə hüquqları ilə bağlı ödəmələr.

Torpaq resurslarının idarə edilməsinin iqtisadi mexanizmləri torpaq rentasından istifadə edilməsinə əsaslanır. Torpaq rentası iqtisadi tənzimləmə sisteminin mühüm tərkib hissəsi olmaqla, digər iqtisadi vasitələrlə də sıx əlaqədardır. Bu baxımdan torpaq rentasının formalaşması torpağın qiyməti, eləcə də ssuda faizləri, gəlir vergiləri və digər iqtisadi tənzimləyicilərlə sıx əlaqəyə malikdir. Renta sahibkarlıq fəaliyyəti ilə bilavasitə əlaqədar olmayan davamlı gəliri özündə əks etdirir. Rentanın bir sıra növləri mövcuddur ki, bunlara ilk növbədə dövlət və bank rentalarını aid etmək olar. Belə ki, bank rentaları bir qayda olaraq, borclarla əlaqədar olur və faiz formasında renta gəlirlərinin hesablanmasında mühüm rol oynayır [2].

Torpaq üzərində mülkiyyət hüququ bir qayda olaraq, vətəndaş mülki hüququnun ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bu baxımdan investisiya və sahibkarlıq fəaliyyətinə dövlət təminatının verilməsi torpaq üzərində mülkiyyət hüququnun reallaşdırılmasının başlıca ilkin şərtlərindən biri kimi çıxış edir. Torpaq üzərində mülkiyyət hüququnun reallaşdırılması torpaq mülkiyyətçilərinin torpağın istifadəsi və satılması ilə bağlı müstəsna hüquqlar əldə etməsinə imkan verir. Bundan əlavə torpaq üzərində mülkiyyət hüququnun reallaşdırılması renta formasında ödəmələrin əldə edilməsinə də gətirib çıxarır. Torpaq resurslarının idarə edilməsi sistemində iqtisadi tənzimləmə vasitələrinin tətbiqi torpaqların münbitliyindəki fərqlərin neytrallaşması ilə sıx əlaqədardır. Bundan əlavə, həmin fərqlərin aradan qaldırılması məqsədi ilə əlverişsiz şərtlərə malik olan torpaq sahələrinə əlavə kapital qoyuluşları həyata keçirilir ki, bu zaman ilk növbədə kənd təsərrüfatı əmtəə istehsalçılarının əmək və fondla təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır [2].

Torpaqdan istifadə prosesinin səmərəliliyinin yüksəldilməsi kənd təsərrüfatına yararlı torpaq sahələri üzərində mülkiyyət formasının xarakteri və spesifik xüsusiyyətləri ilə səciyyələnir. Torpaq üzərində mülkiyyət iqtisadi kateqoriya olub, nəticə etibarilə fiziki və hüquqi şəxslər, eləcə də dövlət və özəl qurumlar arasındakı sosial-iqtisadi münasibətlərin formalaşmasında mühüm rola malikdir. Qeyd etmək lazımdır ki, torpaq münasibətlərinin tənzimlənməsində mülkiyyət hüququ, torpaqdan istifadə hüququ və torpaq üzərində mülkiyyətə sərəncam vermək hüququ formalaşır. Bunlar isə,

son nəticədə torpaq bazarının inkişaf etdirilməsində başlıca şərtlərdən biri kimi çıxış edir.

Torpaq münasibətlərinin tənzimlənməsində torpaqların münbitliyinin artırılması və bu baxımdan iqtisadi vasitələrdən istifadə edilməsi mühüm əhəmiyyətə malikdir. Məlum olduğu kimi, torpaq təbii obyekt hesab edilir və təbii ətraf mühitin mühüm tərkib hissəsi kimi səciyyələnir. Torpaq resursları ilə yanaşı, eyni zamanda meşə, su, atmosfer və digər bu kimi resurslar da bütövlükdə mühüm təbii resurs hesab edilir. Digər təbii resurslardan fərqli olaraq, torpaq resursları əsas etibarilə təsərrüfat fəaliyyətinin obyekti hesab edilir və eyni zamanda mühüm istehsal-iqtisadi funksiyalara malikdir. Torpaq istehsal vasitəsi olmaqla, eyni zamanda kənd təsərrüfatında məhsuldar qüvvələrin əsasını təşkil edir. Torpaq resursları üçün xarakterik cəhət onun məhsuldarlığı hesab edilir [3].

Torpaq resurslarından istifadənin təşkili ilə bağlı qarşıda duran ən mühüm vəzifələrdən biri istehsalın ərazi təşkili prosesini təmin etmək, eləcə də istehsalın yerləşməsi və ixtisaslaşması istiqamətində ölkənin strateji maraqlarının təmin edilməsini həyata keçirməkdən ibarətdir. Təbii ki, bu zaman ərzaq təhlükəsizliyinin təmin edilməsi ön plana çəkilir. Nəzərə almaq lazımdır ki, torpaq təbii resursların ən mühüm tərkib hissəsidir və bu baxımdan mineral ehtiyatlar, torpaq fondu, meşə fondu, eləcə də şəhərlərin, sənaye mərkəzlərinin nəqliyyat strukturlarının keçdiyi ərazilərdən istifadə prosesini nəzərə almaqla, hər bir regionda istehsalın təşkilinin ərazi planlaşdırılması həyata keçirilməlidir.

Kənd təsərrüfatına yararlı torpaq sahələrinin istehsal xüsusiyyətlərinin kompleks qiymətləndirilməsinin zəruriliyi istehsal potensialının mühüm tərkib hissəsi kimi, torpaq resurslarından səmərəli istifadənin təmin edilməsinə əlverişli şərait yaradır. Təhlil göstərir ki, torpaq və təbii şəraitin spesifik xüsusiyyətlərinin uyğunlaşdırılması hər bir cəmiyyətdə torpaq resurslarından səmərəli istifadə edilməsinin xarakterini müəyyənləşdirir və bu da geniş təkrar istehsal prosesinin qurulmasında başlıca maddi-texniki baza hesab edilir. Məlum olduğu kimi, istehsal potensialının mühüm tərkib hissəsini torpaq resursları təşkil edir və torpaqların istehlak xüsusiyyətlərinin kompleks qiymətləndirilməsi isə bütün fəaliyyət sferalarında əmək predmeti və əmək vasitəsinə çevrilməsi ilə səciyyələnir.

Aparılan araşdırmalar göstərir ki, dövlət mülkiyyətində olan torpaqlardan, əsas etibarilə dövlətin strateji maraqları baxımından istifadə edilməsi, eləcə də kənd təsərrüfatının inkişafı baxımından damazlıq və yeni bitki sortlarının yaradılması istiqamətində təsərrüfat formalarının inkişaf etdirilməsinə xüsusilə diqqət yetirilir. Bu praktika inkişaf etmiş ölkələrdə də kifayət qədər geniş şəkildə tətbiq edilməkdədir. Bu əsas etibarilə onunla bağlıdır ki, dövlət mülkiyyətində olan damazlıq və seleksiya istiqamətli təsərrüfatlarda elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərindən istifadə edilməsi halları kifayət qədər geniş xarakter daşıyır və bu da nəticə etibarilə həmin təsərrüfatlarda yeni bitki sortları və heyvan cinslərinin yaradılması ilə səciyyələnir [3].

Təsərrüfat münasibətlərinin tənzimlənməsində dünya praktikasında, əsas etibarilə kadastr qiymətləndirilməsi prosesindən istifadə edilir. Kadastr qiymətləndirilməsi Dövlət Torpaq Kadastrının mühüm tərkib hissəsi olub, əsas etibarilə torpaqların keyfiyyəti və onların yerləşdirilməsi ilə bağlı əldə edilən məlumatların toplanması və işlənməsi prosesini özündə əks etdirir. Ümumiyyətlə, kənd təsərrüfatında istehsal proseslərinin həyata keçirilməsi üçün torpaqların normativ qiymətləndirilməsi prosesindən geniş şəkildə istifadə edilir. Torpaqların kadastr qiymətləndirilməsi öz mahiyyətinə görə, əsas etibarilə iqtisadi qiymətləndirmə prosesini özündə əks etdirir. Bu zaman bir qayda olaraq, kənd təsərrüfatında istehsal vasitəsi kimi torpaq resurslarının spesifik xüsusiyyətləri nəzərə alınır. Torpaqların keyfiyyəti bir qayda olaraq, əmək vasitəsi və əmək predmeti kimi xüsusiyyətlərdən bilavasitə asılı olur. Torpaqların qiymətləndirilməsi zamanı ilkin olaraq, əslində torpaq resurslarının əmək predmeti kimi çıxış etməsi qiymətləndirmə göstəriciləri və kriteriyasının hazırlanmasında əsas götürülür [2].

**Ədəbiyyat**

1. E.R.İbrahimov. Heydər Əliyev və Azərbaycan Respublikasının aqrar kursu. Bakı, “NUR-A”, 2004, 360 s.
2. İ.H.Alıyev. Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətli səmərəli aparılması. Bakı, “Nurlan”, 2004, 110 səh.
3. A.A.Rüstəmov, D.Q.Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı, “Avropa”, 2013, 406 səh.

***Проф. А.А.Рустамов***

**Формирование аграрных отношений в условиях рыночной экономики и механизм его урегулирования**

**Резюме**

В статье исследованы экономические средства, внедрямые для урегулирования земельных отношений, направленных на эффективное использование земельных ресурсов в условия рыночной экономики

***Ключевые слова: аграрные отношения, земельные ресурсы, экономические средства, система урегулирования.***

***Prof. A.ARustamov***

**Formation of agrarian relations in a market economy and the mechanism of its settlement**

**Summary**

In this paper the economic means being introduced for the settlement of land relations, aimed at the efficient use of land resources in a market economy.

***Keywords: agrarian relations, land, economic resources, settlement system.***

**UOT 338. 43**

***Mehriban Təyyar qızı İMANOVA***
***iqtisad üzrə fəlsəfə doktoru,***
***Naxçıvan Dövlət Universiteti***

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İXRACININ STİMULLAŞDIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə aqrar sektorda kompleks tədbirlərin inkişafından bəhs edilir. Muxtar Respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılması sahəsində yeni inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.

***Açar sözlər: aqrar, islahat, ərzaq təhlükəsizliyi, ixrac, investisiya***

***

Son illər aqrar sektorda kompleks tədbirlərin daha da sürətləndirilməsi, əkin sahələrinin və müvafiq infrastrukturun, anbarların yaradılması,yeni texnika və avadanlıqların alınıb gətirilməsi, gübrələrin güzəştli şərtlərlə istehsalçılara çatdırılması, genişmiqyaslı kreditləşmənin və satış yarmarkalarının təşkili, bu sahədə dövlət maddi yardımlarının davamlılığı aqrar bölmənin inkişafına yeni təkan vermişdir.

Ərzaq məhsulları istehsalını artırmaq, əhalini keyfiyyətli və təhlükəsiz ərzaqla təmin etmək, sahibkarlıq mühitini yaxşılaşdırmaq məqsədilə 2008-ci il sentyabrın 18-də qəbul olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" Muxtar Respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılması sahəsində yeni inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Belə ki, əsas kənd təsərrüfatı məhsullarının artımı müşahidə olunmuş, 2010-cu ildə taxıl istehsalı əvvəlki ilə nisbətən yüksələrək 96 min tona, kartof istehsalı 37min 901 tona, şəkər çuğunduru istehsalı 26 min 775 tona, tərəvəz məhsulları istehsalı 64 min 782 tona, bostan məhsulları istehsalının həcmi 40 min 24 tona, meyvə istehsalının həcmi 38 min 228 tona, üzüm istehsalının həcmi 13 min 912 tona çatdırılmış, ümumilikdə 247 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu il üzrə müvafiq göstəricidən 13% çoxdur.

Müasir şəraitdə ölkəmizdə qeyri-neft sahələrinin və regionların inkişafına xüsusi diqqət yetirildiyi bir vaxtda, ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması, həlli vacib olan əsas istiqamətlərdən biri sayılmalıdır. İstehsal olunan kənd təsərrüfatı məhsullarının idxalını azaltmaq və həmin məhsulların ixracını artırmaq məqsədilə, ilk növbədə məhsul istehsalının həcmi artırılmalıdır. Bununla yanaşı, istehsal olunan kənd təsərrüfatı və ərzaq məhsullarının maya dəyərinin aşağı olmasına, keyfiyyətinin standartlara cavab verməsinə, daxili istehlak bazarının qorunmasına, bu məhsulların uzun müddətə daşınarkən və saxlanarkən xarab olmaması üçün xüsusi qabların (taraların) istehsalına, həmin məhsul sahiblərinin ixrac prosesində heç bir maneə olmadan iştirak edə bilmələrinə şəraitin yaradılması da önəmli məsələlərdən sayılır.

Kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının artırılması bu fəaliyyətlə məşğul olan iş adamlarının maddi güzəranının yaxşılaşdırılmasına, ölkəyə qeyri-neft sektoru üzrə xarici valyuta axınının gətirilməsinin yüksəlməsinə və bütövlükdə respublikanın iqtisadi inkişafına səbəb ola bilər. Fikrimizcə, yaxın gələcəkdə Muxtar Respublikada ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalını təşkil etmək mümkündür. Bunun üçün əsas istiqamətlərdən biri-üzüm plantasiyalarının salınması, şərabçılığın, tütünçülüyün inkişaf etdirilməsi ola bilər. Digər aqrar bölmələrin inkişafı və həmin sahələrin emalının müasir texnologiyaya uyğunlaşdırılması aqrar ixracın artırılmasına imkan verə bilər. Bu məqsədlə regionların inkişafına dair dövlət proqramında nəzərdə tutulmuş

tədbirlərin maliyyələşdirilməsi vacib şərtlərdən biri kimi həll oluna bilər. Hazırda Muxtar Respublikamızda olan meyvə-tərəvəz, konserv, şərab zavodlarının modernləşdirilməsinə ciddi zərurət duyulur. Həmin müəssisələrin yeni texnologiya əsasında inkişaf etdirilməsinə, daxili və xarici investisiyaların yönəldilməsinə böyük ehtiyac vardır. Təcrübə və təhlillər göstərir ki, Azərbaycanda bir çox istehsal və emal qurumları, meyvə-tərəvəz, konserv, ət, süd, şərab müəssisələrin (qurumların) yeniləşdirilərək, dünya standartlarının tələblərinə cavab verən məhsullar istehsal edirlər. Son illər ərzində muxtar respublika iqtisadiyyatının digər sahələrində olduğu kimi, aqrar sahədə də ixracat istiqamətində müəyyən irəliləyişlər baş versə də, böyük ehtiyat mənbələrindən hələ də yetərincə istifadə olunmur.

Bu gün aqrar sahənin quruluşunun təkmilləşdirilməsi və bu prosesin xarici iqtisadi əlaqələrin səmərəliləşdirilməsinə tabe edilməsi mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, kənd təsərrüfatının ayrı-ayrı bölmələri üzrə investisiya qoyuluşu zamanı, bilavasitə xarici iqtisadi əlaqələrdə iştirak edən perspektivli aqrar qurumların inkişafına xüsusilə üstünlük verilməsi nəzərdə tutulmalıdır.

Eyni zamanda nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı istiqamətində xüsusi, həvəsləndirici tədbirlərin həyata keçirilməsi vacibdir.

Xarici ölkələrin təcrübəsindən bəlli olur ki, aqrar ixracatla bağlı baş verən proseslər, həmçinin digər texnoloji, təşkilati və sosial-psixoloji amillər qloballaşan iqtisadiyyatın təsiri altında təşəkkül tapır və inkişaf edir. Həm də kənd təsərrüfatı məhsullarının qiyməti, keyfiyyəti, miqdarı və s. məsələlər hər iki tərəf üçün mənfəət normasının təmin edilməsi baxımından əlverişli olduqda davamlı əlaqələr yaranır. Bu əlaqələr davamlı iqtisadi inteqrasiya xarakteri alır.

Aqrar ixrac potensialının inkişaf etdirilməsi, bu fəaliyyətin investisiya cəlbediciliyi xarici bazara çıxarılan məhsulun rəqabətqabiliyyətliliyi ilə üzvi vəhdətdədir. Təbii ki, məhsul satışının və ixracının vəziyyəti, həmçinin ixracatçının maliyyə durumu, rəqabət qabiliyyəti ilə qarşılıqlı əlaqədə olan parametrlərdir. Onların tarazlı inkişafının təmin olunması isə iqtisadi mexanizmin təkmilləşdirilməsindən, investisiya mühitinin yaxşılaşdırılmasından, aqrar istehsalçıların sosial, ekoloji, etik və digər çoxsaylı problemlərinin həllindən asılı olur. Sadalanan problemlərin həlli nə qədər sürətlənərsə, ixrac edilən kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyəti bir o qədər yüksək, istehsalçıların xarici bazarda mövqeyi bir o qədər möhkəm olacaqdır.

Beləliklə, yuxarıda söylənilən fikirləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, aqrar sahədə yeni iqtisadi münasibətlərin formalaşdığı və təsərrüfat qurumlarının təşəkkül tapdığı şəraitdə ixracın artırılması üçün ilk növbədə bu sahənin davamlı inkişafına nail olmaq, mövcud istehsal və investisiya ehtiyatlarından istifadə edərək məhsul istehsalını artırmaq və emal edilən məhsulların çeşid və keyfiyyətini yüksəltmək, infrastrukturu yaxşılaşdırmağa yönəldilən kompleks tədbirlərin həyata keçirilməsi zəruridir.

Fikrimizcə, aqrar sektorda ixracat yönümlü kənd təsərrüfatı, ərzaq və qida məhsullarının istehsalına istiqamətləndirilmiş aşağıdakı stimullaşdırıcı vasitələrdən istifadə edilməlidir:

- kənd təsərrüfatının dövlət tənzimlənməsi barədə qanunun qəbulu mühümdür. Həmin sənəddə aqrar sahənin dövlət tənzimlənməsinin prinsip və istiqamətləri, formaları, xüsusilə də zəmanətli qiymətlərin tətbiqi zəruri olan kənd məhsullarının əhatə dairəsi və qiymətqoymanın prinsipləri, ixracın stimullaşdırılması mexanizmləri, aqrar sektorun maliyyələşdirilməsi üçün hökumətin minimum öhdəlikləri dəqiq müəyyən edilməlidir;
- xarici investisiyaların ölkə iqtisadiyyatının aqrar sektoruna cəlb olunması, xarici sərmayədarların özləri ilə yeni texnika, mükəmməl texnologiya və ən başlıcası, yeni təsərrüfatçılıq metod və üsullarını gətirməsi üçün xarici investisiyalı birgə müəssisələr yaradılmalı, formalaşmalı və fəaliyyətlərinə dövlət səviyyəsində qayğı göstərilməlidir;

- aqrar sahədə bazar münasibətlərinin tələblərinə uyğun, ixrac əməliyyatları istiqamətində zəruri dəyişikliklər həyata keçirilməlidir;
- iqtisadiyyatın digər sahələri kimi, aqrar sahə də dünya təsərrüfat mexanizminə əlverişli şəkildə inteqrasiya olunmalıdır;
- aqrar sahənin inkişaf etdirilməsində ixracat potensialı artırılmalı, ixracat yönümlü kənd təsərrüfatı məhsullarının istehsalında vergi, gömrük və kredit güzəştləri vasitəsilə istehsal stimullaşdırılmalıdır;
- subsidiyaların, eləcə də güzəştli gübrələrin verilməsinə nəzarət gücləndirilməli və ya məhsul istehsalının stimullaşdırılması üçün fermerlərin sahib olduğu əkin sahəsinə görə subsidiyaları bölüşdürmə mexanizmi dəyişdirilməlidir. Subsidiyaların həcmi müəyyənləşdirilən zaman fermerin əvvəlki ildə istehsal etdiyi məhsulun həcmi də əsas götürülməlidir;
- ixracat üçün ərzaq və qida məhsullarının istehsalına yönəldilən investisiyaların səmərəli sığorta mexanizmləri yaradılmalıdır;
- aqrar məhsulların ixrac qabiliyyətliliyinin artırılması üçün analoji məhsulların idxalına olan gizli maraqlar zərərsizləşdirilməlidir;
- fermerlərin maraqlarını müdafiə edən və hökumətin aqrar sahə ilə bağlı qərarlarına təsir imkanları olan müxtəlif birliklərin yaradılması dəstəklənməlidir;
- idxal olunan damazlıq quşların, quş yemlərinin, quşçuluq təsərrüfatlarının texnoloji avadanlıqlarına tətbiq edilən ƏDV dərəcəsinə 1 il müddətinə güzəşt tətbiq edilməsi vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olanların fəaliyyətinin dövlət tərəfindən daha fəal dəstəklənməsinə yardım edilməlidir.

Bütün bunlarla yanaşı kənd təsərrüfatı istehsalçılarının kredit kooperativlərinə dair hüquqi mexanizmlərin yaradılmasına da ehtiyac var. Xarici təcrübədə bu cür ittifaqlar üzvlərinin və dövlətin maliyyə dəstəyi ilə formalaşır, əsasən maliyyə-kredit institutlarına çıxışı olmayan xırda istehsalçıların maliyyə resurslarına olan tələbatını ödəyir. Qərbdə bu qurumlara kredit kassaları da deyirlər.

Hazırda aqrar sektorun geniş potensiala malik olduğu inkişaf etmiş ölkələrin hamısında kənd təsərrüfatı sektoru yüksək kooperasiyalaşma səviyyəsinə malikdir. Məsələn, Danimarka həm əhali sayına, həm də kənd təsərrüfatına yararlı torpaqların həcminə görə Azərbaycandan 2 dəfə, kənd təsərrüfatı sektorunda çalışanların sayına görə isə 13 dəfə geri qalır. Amma bu ölkənin aqrar istehsalının indiki həcmi Azərbaycandan iki dəfə böyük olan ölkənin kənd təsərrüfatı məhsullarını 100 faiz ödəməyə çatır. Danimarka aqrar məhsulların ixrac həcminə görə dünyanın 15 ölkəsi sırasında yer alır. Bu ölkə dünyanın nadir ölkələrindəndir ki, aqrar istehsalının 80 faizə qədəri ixraca yönəlir. Heç şübhəsiz, bu inkişafın əsas səbəblərindən biri son yüzillikdə Danimarkada aqrar sektorun tam kooperasiya münasibətlərinə keçididir.

Ölkədə mövcud olan 40 mindən artıq fermer təsərrüfatının hamısı istehlak kooperativlərində birləşiblər. Həmin kooperativlər əsasən süd və ət emalı üzrə ixtisaslaşıblar. Kooperativlərə üzv olan fermerlər öz məhsullarını məhz onların nəzdində fəaliyyət göstərən zavodlara satmaq öhdəliyinə malikdirlər. Bu həm də məhsulun fermerdən alınacağına dair təminat mexanizminin yaradılması deməkdir.

Ölkə iqtisadiyyatının dünya bazarındakı neftin qiymətinin konyukturasından asılılığını azaltmaq, qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatında ixracın stimullaşdırılması, kənd təsərrüfatında məhsuldarlıq və elmi araşdırma işlərinin artırılması və məhsulların reallaşdırılması üçün mövcud bazarların tədqiq edilməsi çox böyük əhəmiyyət kəsb edir. Eyni zamanda kənd təsərrüfatı sektorunda çalışan fermerlərin informasiya resurslarına çıxışının təmin edilməsi və maarifləndirmə işlərinin genişləndirilməsi üçün yerli icra orqanları tərəfindən davamlı tədbir və seminarlar keçirilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 23 yanvar 2007-ci il tarixli Sərəncamı.
2. “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” (18 sentyabr 2008-ci il).
3. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, “Elm”, 2005, 335 s.
4. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı, “Elm”, 2005, 312 s.
5. Salahov S.V. Aqrar sahələrin dövlət tənzimlənməsi problemləri. Bakı, “Nurlan”, 2004, 504 s.
6. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, “Avropa”, 2013, 406 s.
7. http://www.azstat.org/
8. http://www.az. apa. az./

***М.Т.Иманова***

## Основные направления стимулирования экспорта сельскохозяйственных продуктов

### Резюме

В научной статье повествуется о развитии, достигнутом путьем комплексных мероприатий в аграрном секторе в последние годы в автономный республике, о мировом опыте повышения производства экспортно-направленных продуктов и их пути стимулирования.

***Ключевые слова: аграрный, реформа, продовольственной безопасности, експорт, инвестиция.***

***M.T.Imanova***

## Basic directions of stimulating of the export of the agriculture products

### Summary

Scientific article deals white development got in the result of complex measures carried out in the agrarian sector within last years and from ways export from world experience and stimulating of raising of the production of the aspect products.

***Key words: agrarian, reform, food security, export, investment.***

UOT 338. 43

*Rəşad Kazım oğlu ƏHMƏDOV*
*Azərbaycan Kooperasiya Universitetinin dissertantı*

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ AQRAR SEKTORUN İNKİŞAFI İQTİSADİ ARTIMIN MÜHÜM ŞƏRTİ KİMİ

**Xülasə**

Məqalədə bazar münasibətlərinin formalaşması və inkişafı dövründə aqrar sahənin səciyyəvi xüsusiyyətlərinə və inkişaf etdirilməsi məsələlərinə toxunulmuş, aqrar sahənin ərzaq təhlükəsizliyinin təmin olunmasında rolu və əhəmiyyəti tədqiq edilmişdir. Məqalədə həmçinin kənd təsərrüfatı sektorunun iqtisadiyyatdakı əhəmiyyəti, bu sektorun yerinə yetirdiyi funksiyalar qeyd olunmuşdur.

***Açar sözlər: aqrar sektor, sənaye, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, sosial münasibətlər, dövlət proqramı, kooperasiya əlaqələri.***

***

İnsan övladının öz ehtiyaclarını təbiətin hazır resursları ilə ödəyərək yaşadığı "mənimsəmə iqtisadiyyatı" mərhələsindən "istehsal iqtisadiyyatı" mərhələsinə keçdiyi andan ilk fəaliyyət sahəsi olan aqrar sektor iqtisadiyyatın ən qədim sahəsi olmaqla uzun bir tarixi yol keçmiş və hazırkı bazar münasibətləri mərhələsinə daxil olmuşdur.

Bazar münasibətləri şəraitində ölkə iqtisadiyyatının mütəmadi artım tempini təmin edən əsas amillərdən biri onun çoxşaxəli xarakter daşıması, iqtisadiyyatın əsas sahələrinin paralel şəkildə inkişaf etdirilməsidir. Belə sahələr sırasında əldə olunan göstəricilər baxımından xüsusilə seçilən sektorlardan biri kənd təsərrüfatıdır.

Digər tərəfdən, dünyanın ərzaq problemi ilə üz-üzə qaldığı hazırkı şəraitdə ölkələr üçün ən mühüm ehtiyatlardan biri kənd təsərrüfatıdır. Ancaq bu sahədə də inkişaf etmiş ölkələrlə müqayisədə, inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrin vəziyyətinin yaxşı olmadığını, hətta bəzi ölkələrin aclıq səviyyəsinə endiyini görürük. Şübhəsiz ki, kənd təsərrüfatı hər bir ölkənin ərzaq ehtiyacının ödənilməsi üçün ən strateji yoldur, əsas sahədir.

Aqrar sahədə yeni texnologiyaların yaradılması, həmçinin kənd təsərrüfatı sektorunun mexanikləşdirilməsi nəticəsində keçmişlə müqayisədə hazırkı dövrdə daha qısa müddətdə, daha az ərazidən, daha az əmək qüvvəsindən istifadə etməklə daha çox iş görmək, nəticə əldə etmək imkanı yaranmışdır. İnkişaf edən texnologiyalar sayəsində inkişaf etmiş ölkələr özlərinin kənd təsərrüfatının inkişafını stimullaşdırır, ona hər cür köməkliyi göstərir. Bunun əksinə olaraq, inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalı artmaq əvəzinə inkişaf etmiş ölkələrin təsiri ilə, demək olar ki, azalmışdır [1, səh.18-19].

Xalq təsərrüfatının mühüm sahəsi olan kənd təsərrüfatı həmçinin sənayenin xammala olan ehtiyaclarının ödənilməsində də böyük rol oynayır. Xalq təsərrüfatının bir çox sahələrinin inkişafı kənd təsərrüfatının inkişaf səviyyəsindən asılıdır. Kənd təsərrüfatında istehsal olunan ərzaq məhsulları və onun emal sənayesi məhsulları ölkə əhalisinin istehlak mallarına olan tələbatının təxminən 75%-ni ödəyir. Respublikanın xalq təsərrüfatında çalışan əmək adamlarının təxminən 25-30%-i bu sahədə maddi nemətlər yaradır. Daxili milli məhsulun 35-40%-i kənd təsərrüfatının payına düşür.

Kənd Təsərrüfatı sektorunun iqtisadiyyatdakı əhəmiyyəti, bu sektorun yerinə yetirdiyi funksiyalarından irəli gəlir. Bu funksiyaların başında, cəmiyyətin qida ehtiyacını qarşılaması iştirak edir. Buna əlavə olaraq, sektorun digər sektorlar üçün xammal bazası təşkil etmək, məşğullğu təmin etmək və iqtisadi inkişafın maliyyəsini təmin etmək kimi funksiyaları da var.

Kənd Təsərrüfatı sektorunun ümumi iqtisadiyyat içərisindəki əhəmiyyət və dərəcəsini təyin etmək məqsədilə ümumiyyətlə milli gəlir, əhali və fəal əhali ilə daxili və xarici ticarətdəki payları

diqqətə alınmaqdadır.

Kənd təsərrüfatının milli gəlirə olan nisbətinin nisbi olaraq azalması, iqtisadi inkişaf prosesinin təbii bir nəticəsidir. Ancaq əhalinin əhəmiyyətli bir hissəsinin dolanışığını kənd təsərrüfatından təmin edən ölkələrdə bu sektorun iqtisadiyyat içərisindəki əhəmiyyəti davam etməkdədir.

Kənd Təsərrüfatının iqtisadi inkişafdakı roluna baxmayaraq bu sektorda məşğul olanların gəlirləri digər sektorlara nisbətən daha aşağı olub, sektor içindəki qruplar arasındakı gəlir bölgüsündə da əhəmiyyətli fərqlər mövcuddur.

Məlumat üçün bildirim ki, ölkəmizdə 2011-ci ildə ÜDM-in real artım tempi 0.1% təşkil etmiş və cari qiymətlərlə 50.1 milyard manat (63.4 milyard ABŞ dolları) olmuşdur. Adambaşına düşən ÜDM-in həcmi 5530.6 manat (7003.4 ABŞ dolları) təşkil etmişdir. İstehsal edilmiş 50.1 milyard manatlıq ÜDM-in 5.5 faizi və ya 2.76 milyard manatı (3.5 milyard ABŞ dolları) kənd təsərrüfatı sektorunun payına düşmüşdür.

2011-ci ildə ölkə üzrə əhalı sayı 9 milyon 137 min nəfər olmuşdur ki, onun da 47%-i və ya 4 milyon 295 min nəfəri kənd yerlərində yaşamışdır. Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsünə gəldikdə, 2012-ci ilin yanvar ayında müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin orta siyahı sayı 1361,7 min nəfər olub və onların 3%-i və ya 40.85 min nəfərini kənd təsərrüfatı sahəsində çalışanlar təşkil etmişdir. 2011-ci ilin yekunlarına əsasən, kənd təsərrüfatı müəssisə və təşkilatlarında çalışan işçilərin orta aylıq əməkhaqqı 196,4 manat olmuşdur ki, bu da ölkə üzrə orta aylıq əməkhaqqının 52 %-ni təşkil edir [2].

Kənd təsərrüfatı sektoru dünyada olduğu kimi Azərbaycan və qonşu ölkələrinin də çoxunda əhalinin qida maddələri ehtiyacını qarşılaması, kənd təsərrüfatına əsaslanan sənayenin xammal qaynağını meydana gətirməsi, müəyyən bir seqmentdə məşğulluq imkanı təmin etməsi, xarici asılılığın qarşısının alınması və ödənişlər tarazlığı üzərində əhəmiyyətli təsirlərin olması və s. səbəblərlə, iqtisadiyyatda strateji rol və funksiyasını qorumağı davam etdirməkdədir.

Azərbaycanın kənd təsərrüfatının milli iqtisadiyyatda yeri və rolu haqqında aşağıdakı cədvəlin məlumatları daha dolğun təsəvvür yaradır [2].

***Kənd təsərrüfatının milli iqtisadiyyatda payı, %-lə***

| Göstəricilər | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatının meşə təsərrüfatı ilə birgə ümumi daxili məhsulda xüsusi çəkisi (%-lə) | 6,7 | 6,4 | 5,3 | 6,1 | 5,5 | 5,3 |
| Kənd təsərrüfatında məşğul olan əhalinin ölkədə məşğul əhalinin tərkibində xüsusi çəkisi (%-lə) | 38,5 | 38,4 | 38,2 | 38,1 | 38,2 | 37,9 |
| Kənd təsərrüfatında əsas kapitala investisiya qoyuluşları (%-lə) | 1 | 3,3 | 3,4 | 3,5 | 4,4 | 3,4 |
| Kənd təsərrüfatında işçilərin orta illik əməkhaqqı (manatla) | 52,5 | 86,8 | 114,7 | 134,5 | 160,3 | 196,4 |
| Ölkə üzrə orta əməkhaqqı (manatla) | 149 | 215,8 | 274,4 | 298 | 331,5 | 364,2 |
| Kənd təsərrüfatında işçilərin orta əməkhaqqının ölkə üzrə orta əməkhaqqına nisbəti (%-lə) | 35,2 | 40,2 | 41,8 | 45,1 | 48,4 | 53,9 |
| Kənd təsərrüfatında əsas fondlar (%-lə) | 8,5 | 8,2 | 8,2 | 7,9 | 7,6 | 7,5 |

*Mənbə: Cədvəl Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən tərtib olunmuşdur.*

İnkişaf edən ölkələrin təcrübəsi sübut edir ki, iqtisadiyyatımızın sahələrinin ahəngdar inkişafı aqrar sektorun inkişaf səviyyəsindən birbaşa asılıdır. Kənd təsərrüfatının inkişaf etdirilməsi artıq Azərbaycanda da dövlət səviyyəsində qəbul edilib. Bütün bunlar verilən Fərmanlardan, həyata keçirilən Dövlət Proqramları, qəbul olunan Qanunlardan da aydın görünür. Hər halda qəbul olunan bu Proqram və Qanunların xronologiyasını aşağıdakı kimi göstərmək olar:

"Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında", "Lizinq xidməti haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dovlət Proqramı", Azərbaycan Respublikasında 2002-2006-cı illərdə aqrar bölmənin inkişafına dair 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dovlət Proqramı (2004-2008-ci illər)" və bunun davamı olan 14 aprel 2009-cu il təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dovlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dovlət Proqramı", "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dovlət Proqramı" və s. normativ hüquqi aktları qəbul olunmuşdur.

Qəbul olunan normativ hüquqi aktlardan da aydın olur ki, aqrar sahənin inkişafına xüsusi diqqət yetirilməsi istənilən ölkə, xüsusən də Azərbaycan iqtisadiyyatında bir çox problemlərin həllinə öz müsbət təsirini göstərə bilər. Bunların bir neçəsini nəzərdən keçirək:

• Bu gün aktual problem olan və getdikcə genişlənən qlobal ərzaq böranından ölkəni sığortalamaq, ölkə əhalisinin keyfiyyətli və ekoloji cəhətdən təmiz olan ərzaq məhsulları ilə təmin olunmasına, istehlak mallarına olan tələbatının ödənilməsinə;

• Azərbaycan əhalisinin 39%-ə yaxınının yaşadığı kənd rayonlarının iqtisadi və sosial inkişafının təmin edilməsinə, kənd yaşayış məskənlərinin boşaldılmasının qarşısının alınmasına;

• Ümumilikdə ölkənin, ölkə əhalisinin maddi durumunun yaxşılaşdırılmasına;

• İşsizlik probleminin nisbətən həllinə, məşğulluq səviyyəsinin yüksəldilməsinə:

• Sənayenin inkişafı üçün xammal bazasının möhkəmləndirilməsinə, emal müəssisələrinin təşəkkülünə;

• İxracın strukturunun zənginləşdirilməsinə və s. təsir göstərə bilər [1, səh. 20].

Aqrar sektorun digər bir iqtisadi əhəmiyyəti ərzaq təhlükəsizliyi problemi ilə bağlıdır. Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Son illərdə enerji daşıyıcılarının qiymətinin artması, aparıcı ölkələrin maliyyə bazarında baş verən neqativ meyillər, habelə əhalinin sayının çoxalması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblər üzündən əsas ərzaq məhsullarının dünya bazarlarında qiymətləri artmağa başlamış, bəzi ölkələrdə ərzaq qıtlığı real təhlükəyə çevrilmişdir.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaqdır [3, səh. 4].

Beləliklə, bütün qeyd edilən məlumatlar və aparılan ümumiləşdirmələr kənd təsərrüfatının iqtisadi əhəmiyyətini bir daha təsdiqləyir. Dünya ölkələrinin təcrübəsinin öyrənilməsi göstərir ki, müstəqil respublikamızda aqrar sahədə iqtisadi əlaqələrin təşkil edilməsi və onların fəaliyyətinin gücləndirilməsi üçün əlverişli şərait mövcuddur. Bu şəraitdən düzgün istifadə edərək aqrar sahənin inkişafı hesabına məhsul bolluğu yaratmaq və iqtisadi artıma nail olmaq mümkündür.

Fikrimizcə, aqrar sahənin inkişafına hal-hazırda Milli Məclisdə müzakirəsi davam etdirilən "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsi də güclü təkan verəcək. Hesab edirəm ki, kooperasiyalarda birləşmək istehsalın həcmi ilə yanaşı, əmək məhsuldarlığını da artıracaq. Mütəxəssislərin fikirincə, fermerlərin öz səylərini birləşdirməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verəcək, eləcə də istehsal olunan məhsulun xarici bazarlara çıxarılmasına kömək edəcək.

**Ədəbiyyat**

1. İ.H.Alıyev: Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı, 2007, s. 18-20.
2. http://www.stat.gov.az/source/labour
3. “Xalq qəzeti”. 2010, 16 fevral, s. 4.

***Рашад Казим оглы Ахмедов***
***диссертант,***
***Азербайджанский Университет Кооперации***

**Развитие аграрного сектора в условиях рыночной экономики как основном фактор, экономического роста**

**Резюме**

Статье были рассмотрены изучен формирование и развитие рыночных отношений, типичность аграрного сектора в периоде рыночных отношений и коснултаций вопросов развития, роль и значение в обеспечении продовольственной безопасности в области сельского хозяйства. В статье также отмечалась важность сельскохозяйственного сектора и особенности этого сектора в экономике.

***Ключевые слова: аграрный сектор, промышленность, сельское хозяйство, продовольственная безопасность, социальные отношения, государственная программа, кооперативные отношения.***

***Rashad Kazim oqlu Ahmedov***
***PHD-Student Azerbaijan Cooperative University***

**Important condition for economic growth in the agrarian sector of the market economy as a Development**

**Summary**

The article has been studied feature typical of agrarian sector in the period of formation and development of market relations and touched on development issues, the role and importance in ensuring food security in the agricultural field. The article economy as well as the importance of the agricultural sector, this sector was carried out functions.

***Key words: Agrarian sector, industry, agriculture, food security, social relations, the state program, cooperative relations.***

UOT 338. 43

*Əli Məhəmməd oğlu BAYRAMOV*
*Azərbaycan ETKTİ və Tİ-nin dissertantı*

# ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIĞIN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Xülasə**

Üzümçülüyün və şərabçılığın inkişafının iqtisadi mühiti çoxsaylı amillərin təsiri altında təşəkkül tapır. Məqalədə həmin qəbildən olan əsas amillər səciyyələndirilmiş, onların sahənin inkişafına təsir prosesləri tədqiq olunmuşdur. Üzümçülüyün və şərabçılığın inkişafının iqtisadi mühitinin yaxşılaşdırılmasının bir sıra istiqamətləri müəyyənləşdirilmiş, mövcud məhsul büdcəsi ilə sahənin səmərəli fəaliyyət imkanları qiymətləndirilmişdir.

***Açar sözlər: iqtisadi mühit, üzümçülük, şərabçılıq, amillər, məhsul büdcəsi.***

***

Azərbaycanda üzümçülüyün sənaye əsaslı inkişafı ötən əsrin 70-ci illərində xüsusi vüsət almışdır. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk illərdə üzümçülüyün inkişafına xüsusi önəm vermiş, 1970-ci ildə Azərbaycanda Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi yaradılmışdır. Üzümçülük və şərabçılığın elmi əsaslarla inkişafı zərurəti nəzərə alınaraq 1977-ci ildə yaradılan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutu hal-hazıra qədər uğurla fəaliyyət göstərməkdədir. Üzümçülüyün intensiv inkişafına dair 80-ci illərdə həyata keçirilən məqsədyönlü siyasi, iqtisadi və təşkilati tədbirlər respublikanın iqtisadiyyatının yüksəldilməsində həlledici əhəmiyyətə malik olan bu sahənin sürətlə inkişafına, emal müəssisələrinin genişləndirilməsinə və səmərəli yerləşdirilməsinə səbəb oldu. Əksər iqtisadi rayonlarda elmi-texniki tərəqqinin tələblərinə uyğun olaraq şərab və şərab məhsulları istehsal edən müəssisələr yaradıldı, onların maddi-texniki bazası möhkəmləndirildi, infrastruktur sahələri və bu sahənin texnologiyasını bilən kadrlar hazırlandı. Bütün bunlar respublikada üzümçülüyün intensiv inkişafına səbəb oldu.

Lakin keçmiş İttifaqda alkoqolizmə qarşı mübarizə haqqında qəbul edilmiş qərəzli və zərərli qərar əslində üzümçülüyə qarşı mübarizə deyil, ən böyük üzümçülük istehsalçılarından biri olan Azərbaycana ciddi iqtisadi zərbə vurmaq məqsədi güdürdü. Mərkəzin göstərişlərinə əməl edən o vaxtkı respublika rəhbərlərinin düşünülməmiş fəaliyyəti nəticəsində qısa müddətə min hektarlarla barverən üzümlüklər məhv edilmiş, üzüm plantasiyalarının sökülməsinə, böyük vəsait hesabına alınmış beton dayaqları, şpaler məftillərinin məhv edilməsinə həmin bağlara qulluq edilməsindən daha çox xərc çəkilərək respublika iqtisadiyyatına ciddi zərər vurulmuşdur. Nəticə də məhv edilmiş üzüm bağları altında olan torpaqlardan sonrakı 2-3 il ərzində, başqa təyinatla belə, az-çox səmərəli istifadə etmək mümkün olmamışdır.

Həmin dövrdə respublikada üzümçülük və şərabçılıq, demək olar ki, ləğv edilmədi. Sahənin maddi-texniki təchizatı və idarəedilmə sistemi tamamilə pozulmuş, bir çox emal müəssisələri fəaliyyətini dayandırmış, üzümçülük-şərabçılıq yarımkompleksində istehsal-iqtisadi əlaqələr pozulmuş, sahənin başlı-başına buraxılmasının nəticəsidir kı, yüksək ixtisaslı kadrlar sahədən uzaqlaşmışdı.

Eyni zamanda ilkin və ikinci emal müəssisələrinin istehsal istiqamətlərinin dəyişdirilməsi, istehsal güclərinin dondurulması, üzümçülük və şərabçılıqda tətbiq edilən maşın, mexanizm, avadanlıq, bina və qurğuların sıradan çıxması, suvarma sistemlərinin pozulması və s. respublikanın iqtisadiyyatına ciddi zərər vurmuşdur. Bu isə respublikanın üzümçülüklə məşğul olan rayonlarının və təsərrüfatların əhalisinin maddi rifahının kəskin pisləşməsinə səbəb olmuşdur.

Proqramlı inkişaf tənzimlənən bazar iqtisadiyyatının xarakterik cəhətlərindən biri sayıla bilər. Xarici təcrübə buna inandırıcı dəlillər verir. “İnkişaf etmiş ölkələrdə aqrar sahənin dövlət

tənzimlənməsi qanunvericiliklə təsbit olunmuş proqramlar əsasında həyata keçirilir. Bu proqramların müddəti 2-5 il olmaqla bitkiçilik və heyvandarlıqda məhsuldarlığın artırılmasına xidmət edir” [1, s. 268].

Üzümçülüyün inkişafının resurs təminatının (torpaq, su, iş qüvvəsi və maliyyə vəsaitləri) mövcud səviyyəsi proqramlı istifadəyə imkan verir. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2011-ci ildə təsdiq etdiyi “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramında göstərildiyi kimi, “üzüm istehsalı üçün ölkəmizin əlverişli təbii iqlim şəraiti, üzümün digər bitkiçilik məhsullarına nisbətən yüksək iqtisadi səmərəliliyi, keyfiyyətli süfrə (o cümlədən kişmiş) və texniki üzüm sortlarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi, həmçinin qonşu və digər ölkələrin bazarlarında yüksək keyfiyyətli ekoloji təmiz süfrə üzümünə, şərab və üzüm emalı məhsullarına olan yüksək tələbat üzümçülüyün daha da inkişaf etdirilməsini zəruri edir” [2].

Dövlət Proqramında üzümçülüyün inkişafının maliyyələşmə mənbələrinə dövlət büdcəsi, büdcədənkənar fondlar, yerli və xarici özəl birbaşa investisiyalarla yanaşı, Sahibkarlığa Kömək Milli Fondunun, “Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin vəsaitləri  və s. aid olunmuşdur.

“Üzümçülük kənddə emal sənayesinin təşəkkül tapmasına zəmin yaradır. Xammalın və emal sənayesinin eyni bölgədə inkişafı burada inteqrasiyanın  bərqərar olması ilə nəticələnir. Bu isə nəinki aqrar iqtisadiyyatın dinamik yüksəlişi və həm də əmək ehtiyatlarından il boyu xeyli dolğun istifadə olunması üçün geniş imkanlar açır” [3, s. 180].

Üzümçülük və şərabçılığın inkişafını şərtləndirən əsas amillərdən biri də əlverişli biznes mühitidir. Bazarda tələbi şərtləndirən amillər qismində aşağıdakıların vurğulanması məqsədəuyğundur:

- əhalinin təzə üzümə, ondan əldə olunan məhsullara, o cümlədən şəraba olan ehtiyacı;
- şərab istehsalı müəssisələrinin texniki üzümə olan ehtiyacı.

Üzümçülük və şərabçılıq məhsulları bazarına çıxan, başqa sözlə təklif edilən məhsullar qismində, ilk növbədə təzə süfrə üzümü və ondan alınan məhsullar, texniki üzüm və ondan alınan müxtəlif çeşidli şərab məhsulları qeyd edilməlidir.

Bazar iqtisadiyyatı şəraitində daxili və beynəlxalq paritet qiymətlər əsasında məhsul büdcələrinin qurulması, bu məhsul büdcələrindən istifadə etməklə iqtisadi siyasətin və müqayisəli üstünlüklərin qiymətləndirilməsi, emal sənayesinin problemlərinin müəyyənləşdirilməsi və məhsul istehsalının və texnoloji problemlərin təhlilindən alınan nəticələr əsasında üzümçülüyün və şərabçılığın formalaşması və inkişafına əsaslanır.

Üzümçülük və şərabçılığın inkişafının start şərtlərinin, müvafiq müəssisələrin yerləşdirilməsi və texnoloji proseslərin təşkili parametrlərinin müəyyənləşdirilməsi üçün aparılan tədqiqatları, onların bir sıra nəticələrini səciyyələndirək.

İlk növbədə, məhsul istehsalı seçmə üsulu ilə müəyyən edilmiş müəssisələrdə çöl axtarış işlərinin aparılması vasitəsilə tərtib edilir. Tədqiqat aparılarkən, müəssisələrin istifadə etdikləri texnologiyanın tipinə görə fərqləndirilməsinə səy göstərilmiş, bəzi üzüm məhsullarının emalı, yeni və ya köhnə texnologiya əsasında qablaşdırılması və ya açıq şəkildə istehsalı halları öyrənilmişdir.

Üzüm istehsalı və istifadəsi tədqiq edilərkən, bu və ya digər müəssisənin son 3 ildə fəaliyyətinə dair iqtisadi göstəricilər toplanmalı, onların orta qiymətləri müəyyən edilməli və məhsul vahidinə düşən xərclər və gəlirlər hesablanmalıdır. Məhsul büdcələri qurularkən, əsas prinsip olaraq xərclərin və gəlirlərin həm iqtisadi siyasətin təsirinin, həm də istifadə olunan resurslar müqabilində yaranan əlavə dəyərin qiymətləndirilməsinə imkan verə biləcək şəkildə qruplaşdırılması əsas götürülməlidir.

Yeni üzüm bağlarının salınması və şərabçılıq müəssisələrinin qurulması böyük vəsait tələb edir. Odur ki, iqtisadi və texnoloji baxımdan səmərəli variantlar seçilməlidir. Bu baxımdan aparılacaq tədqiqatın ən mühüm mərhələlərindən biri iki texnoloji səviyyədə məhsul büdcələrinin qu-

rulmasıdır. Birinci halda büdcələr sorğular əsasında yerlı emal sənayesi müəssisələrinin faktiki iqtisadi və texnoloji göstəriciləri əsasında formalaşdırılır. Burada istehsal güclərinin hazırkı istifadə səviyyəsi, aşağı məhsuldarlıq, fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlıq şəraitində alt bölmələrin hazırkı müqayisəli üstünlükləri və mübadilə indeksinın dəyişməsinə həssaslığı öyrənilir.

İkinci halda isə bu sahələrə investisiya qoyulması, yeni texnologiya ilə işləyən zavodların mövcudluğu, maksimum məhsuldarlığa və müəssisələrin tam yüklənməsinə nail olunduğu şəraitdə iqtisadi səmərəlilik, müqayisəli üstünlük, həssaslıq və iqtisadi siyasətin təsiri göstəriciləri hesablanmalıdır. Faktiki və «ideal» məhsul büdcələrinin müqayisəsi alt bölmələrin iqtisadi potensialını və davamlılığını daha aydın təsəvvür etməyə və gələcəkdə ölkənin ən dayanıqlı rəqabət qabiliyyətinə malik üzüm emal sənaye sahələri barədə fikir yürütməyə imkan verir.

Məlum olduğu kimi, məhsul büdcələri iki əsas hissədən - xərclər və gəlirlər bölmələrindən ibarətdir. Xərclər bölməsinin özü də  dörd qrupa bölünür ki, buraya da xammal və materiallar, iş qüvvəsi, sabit xərclər və birbaşa vergilər aid edilir.

Xammal və materiallar dünya bazarında satıla bilən əmtəələr və onların daxili bazar və beynəlxalq qiymətləri arasındakı fərqlər istehsalın müqayisəlı üstünlüyünə təsir göstərən əsas amillərdən biridir. Eyni zamanda üzüm emalı sənayesi məhsulları büdcəsində əsas yer tutan kənd təsərrüfatı xammalı, kənd təsərrüfatı üçün son məhsul olmaqla bərabər, emal müəssisəsi üçün istehsal vasitəsi rolunu oynayır. Kənd təsərrüfatı müəssisələri tərəfindən xammalın satış qiymətləri aqrar bölmənin iqtisadi səmərəliliyini müəyyən etməklə bərabər, həm də emal sənayesi məhsulları büdcələrinə həlledici təsir göstərir. Məhz bu sahələrarası asılılığın nəticəsidir ki, üzüm istehsalı və emalı sənayesi sahəsinin subsidiyalaşması və iqtisadi siyasətin məhdudlaşdırıcı təsirinə məruz qalması barədə fikirlər, ilk növbədə kənd təsərrüfatı xammalı bazarında formalaşan konyuktura əsaslanır.

Yeri gəlmişkən, əksər məhsullar üzrə aparılmış tədqiqatlar göstərir ki, öz məhsulunu dünya bazarından aşağı qiymətlərə satan kənd təsərrüfatı sahələrindən xammal tədarük edən emal müəssisələri  digər sahələrə nisbətən daha əlverişli mövqeyə malikdirlər. Başqa sözlə, kənd təsərrüfatı istehsal sisteminin bazarın neqativ təsirinə məruz qalması öz növbəsində emal sənaye sahəsi üçün subsidiya rolunu oynayır və ya əksinə. Bu, sahələrarası əlaqələrdə tənzimləmə mexanizminin hələ bazar iqtisadi münasibətlərinə uyğun formalaşmamasının doğurduğu nəticələrdən biridir.

Məhsulun (üzümün və şərabın) xərclər bölməsinə aid edilən digər bəndlər isə daxili resurslardan istifadəni əks etdirir. Xarici təcrübədə bunlar «İş qüvvəsi və kapital» kimi də qruplaşdırılır. İş qüvvəsinin fərdi (bazar) qiyməti müəyyən edilərkən, yalnız işçilərə real ödənilmiş əmək haqqı deyil, həm də ümumi əmək haqqı fondunun müəyyən faizi həcmində tətbiq edilən sosial müdafiə fonduna ayırmalar da hesablanır və onun məbləği iş qüvvəsinin ümumi dəyərinə əlavə edilməlidir.

Tədqiqatda istifadə edilən məhsul büdcələrində sabit xərclər və birbaşa vergilər ayrı-ayrılıqda qruplaşdırılmalıdır. Burada məqsəd həm istehsal güclərindən istifadə səviyyəsinin müxtəlif variantlarında sabit xərclərin iqtisadi səmərəliliyinə təsirini, həm də birbaşa vergilərin maya dəyərinin formalaşmasında rolunu qiymətləndirmək olmuşdur. Bildiyimiz kimi, amortizasiya, kredit üçün faizlər, marketinq (burada əsasən reklam və satışın stimullaşdırılması tədbirləri nəzərdə tutulur) və daşınma xərcləri sabit və şərti-sabit xərclər olmaqla əksər hallarda istehsalın həcmindən asılı olmayaraq dəyişməz qalır. İstehsal güclərindən istifadə səviyyəsi aşağı düşdükcə, bu xərclərin ümumi məhsulun dəyərinin tərkibində xüsusi çəkisi artır və iqtisadi səmərəlilik azalır.

Üzümün və şərabın büdcəsi hesablanarkən mənfəət vergisi maya dəyərinin kalkulyasiyasına aid edilmir və balans mənfəətinin tərkibinə daxil olur. Məhsul büdcələri qurularkən, həm balans, həm də hesablaşma mənfəəti hesablanmalıdır və bütün vergi və ödənişlər çıxıldıqdan sonra müəssisənin sərəncamında qalan xalis mənfəət müəyyənləşdirilməlidir. Hesablaşma mənfəəti iqtisadi siyasətin və müqayisəli üstünlüyün qiymətləndirilməsi üçün daha əlverişli vasitədir, çünki o, bütün tənzimləmə tədbirlərinin təsirindən azaddır və milli gəlirin komponentlərindən biri olmaqla sa-

hədə yaranan xalis məhsulu əks etdirir. Digər tərəfdən, mənfəətdən vergini daxil etməklə və mənfəətdən vergi çıxıldıqdan sonra mənfəətin və rentabelliyin hesablanması yolu ilə bu vergi növünün dəyişməsinin müəssisənin iqtisadi səmərəliliyinə təsirini qiymətləndirmək daha asandır.

Məhsul büdcələrindən göründüyü kimi, əlavə dəyər vergisi (ƏDV) və aksizlər xərclərin tərkibinə daxil edilmir. Öz növbəsində, gəlirlər hesablanarkən də, yalnız sənayenin topdansatış qiymətləri (bu qiymətlər ƏDV və aksizləri əks etdirmir) əsas götürülməlidir. Bu ondan irəli gəlir ki, ƏDV və aksizlər dolayı vergilər olmaqla, müəssisənin topdansatış qiymətlərinin tərkibinə daxil edilir və həmin qiymətin tərkibində yenidən müəssisəyə qayıdır. Buna görə də şərabçılıq müəssisələrində ƏDV və aksizlər üzrə büdcə ilə hesablaşma üçün ayrıca mühasibat hesabı açılır və onlar maya dəyərının kalkulyasiyasına aid edilmir. Doğrudur, istehsal vasitələri əldə edərkən müəssisə onların qiymətlərinin tərkibində ƏDV ödəyir. Bu ödənilmiş vergini kompensasiya etmək üçün qiymətin və istehsal vasitələrinin tərkibinə daxıl olan dolayı vergilər müqayisə edilir və onlar arasında fərq əsasında büdcə ilə hesablaşma aparılır. Əgər müəssisənin qiymətinin tərkibindəki dolayı vergılər istehsal vasitələrinin tərkibindəki dolayı vergilərdən çoxdursa, onda həmin fərq büdcəyə ödənilir, əksinə olduqda isə həmin məbləğ müəssisəyə qaytarılır.

Digər tərəfdən, ƏDV-nin xərclərin tərkibinə daxil edilməsi sahədə yaranan əlavə dəyərin müəyyənləşdirilməsində çətinlik törədərdi. Belə ki, ƏDV sistem daxilində yaranan əlavə dəyərə tətbiq edilsə də, dolayı vergi olmaqla onun dəyəri istehsal sistemindən kənarda ödənilir.

Beləliklə, sənayenın faktiki topdansatış qiymətləri ilə müəssisənin gəlirləri müəyyənləşdirildikdən sonra, onlardan xərclər çıxılır və xalis mənfəət müəyyən edilir. Xalis mənfəəti xərclərə bölməklə isə istehsala sərf olunmuş resursların hər manatı müqabilində əldə edilən mənfəət norması hesablanmalıdır. Xalis mənfəətlə bərabər rentabellik də istehsalın iqtisadi səmərəliliyinin qiymətləndirilməsində vacib göstəricilərdən biri kimi çıxış edir və müxtəlif sahələrin iqtisadi səmərəliliyinin müqayisəsində istifadə oluna bilər.

Tədqiqatda müqayisəli üstünlüklərin müəyyən edilməsi üçün eyni adlı məhsulun daxili bazar qiymətləri ilə yanaşı, onun sosial qiymətləri ilə də gəlirlər və xərclər büdcəsi qurulması məqsədəuyğundur. Sosial qiymətlər (bunlar kölgə qiymətlər və ya paritet qiymətlər də adlandırılır) azad ticarət şəraitində, heç bir dövlət tənzimləməsinin tətbiq edilmədiyi halda istehsal vasitələrinin və hazır məhsulların qiymətlərini əks etdirir. Bu qiymətlər daşınma və marketinq xərclərini də özündə əks etdirir. Dünya bazarında satıla bilən istehsal vasitələrinin (xammal və materialların) sosial qiymətləri müəyyən edilərkən məhsulun xüsusiyyətindən asılı olaraq idxal və ixrac üzrə paritet qiymətlər hesablanmışdır. Üzüm, şərab və şərab məhsullarının dünya bazarında (əsasən Paris, Frankfurt, Rotterdam və Sofiya əmtəə birjalarında) F.O.B. qiymətləri götürülməsi məqsədəuyğun hesab edilir. Həmin qiymətlərin üzərinə beynəlxalq fraxt (daşınma) xərcləri əlavə edilməli və Azərbaycan sərhədlərində CİF qiymətləri müəyyən edilməlidir. Daha sonra bu CİF qiymətlər Mərkəzi Bankın rəsmi mübadilə kursuna çevrilərək məhsulun milli valyutada dəyəri, bunun üzərinə isə valyuta bazarında mübadilədə mənfəət norması gəlinərək milli valyutada real qiyməti hesablanılmalıdır.

Daxili resursların sosial qiymətləri müəyyən edilərkən, ilk növbədə iş qüvvəsinin dəyəri iş qüvvəsinə tətbiq edilən 12,0%-lik gəlir vergisi həcmində azaldılmalıdır. Müvafiq tədqiqatlarda amortizasiya ayırmalarının sosial dəyəri müəyyənləşdirilərkən müxtəlif xarakterli çətinliklər ortaya çıxır. Belə ki, bir sıra şərab emalı zavodlarında avadanlıq uzun müddətdir ki, istifadə olunur və hazırda dünya miqyasında həmin avadanlığa analoji avadanlıq istehsal edilmir. Buna görə də onun dünya bazar qiymətlərini müəyyənləşdirmək mümkün deyil. Yeni texnologiyadan istifadə edən şərab emalı müəssisələrində isə, tətbiq edilən maşın və avadanlığın hamısı xaricdən gətirildiyindən, onların faktiki qiymətləri sosial qiymətləri ilə, demək olar ki, eyniyyət təşkil edir (idxal olunan texnoloji avadanlıqlar üçün gömrük rüsumu və vergilər tutulmur).

Üzümçülük və şərabçılıq sahəsi üçün cəlb edilən vəsaitlərdən istifadə xarakterikdir. Bu halda

kapital xərclərinin digər ünsürü alınan kredit üçün faizlərdir. Kredit faizlərinin sosial qiymətinin hesablanması üçün beynəlxalq təcrübədə istifadə edilən aşağıdakı empirik düsturdan istifadə olunmasını məqsədəuyğun hesab edirik.

$I_b = ((1+i_n)/(1+f))-1$ - burada

$l_b$ - kredit üçün real faiz norması,

$i_n$ - faktiki müşahidə olunan faiz norması,

f- inflyasiya sürəti.

Sosial büdcənin fərdi büdcədən digər fərqli cəhəti ondan ibarətdir ki, sosial büdcədə vergilər nəzərə alınmır.Vergilərin nəzərə alınmaması istehsalın təkcə istehsalçıya deyil, həm də cəmiyyətə neçəyə başa gəlməsini müəyyənləşdirməyə kömək edir. Bu həm də sahədə yaranan real əlavə dəyəri qiymətləndirmək üçün vacibdir.

Məhsul büdcələri tərtib edildikdən sonra, onların əsasında sahəyə iqtisadi siyasətin və onun nəticəsində formalaşan bazar konyukturunun təsiri və sahələrin beynəlxalq müqayisəli üstünlüyü qiymətləndirılməlidir. Bu zaman Monke və Pearson tərəfindən təklif edilən «İqtisadi Siyasətin Təsiri və Səmərəlilik Matrisi» metodundan istifadə edilməsi məqsədəuyğundur. Bu üsula uyğun olaraq iqtisadi siyasətin üzüm emalı sahələrinə təsiri üzrə üç və beynəlxalq müqayisəli üstünlüyün müəyyənləşdirilməsinə dair bir göstərici hesablanmasını zəruri hesab edirik.

İqtisadi siyasətin sahəyə təsirini əks etdirən birinci göstərici Daxili Bazarın Qorunmasının Nominal Əmsalıdır (NPC).Bu əmsal həm istehsal vasitələri, həm də son məhsul üçün hesablanır və iqtisadı siyasətin formalaşan bazar konyukturunun ayrı-ayrı istehsal sistemlərinə təsirini əks etdirir. NPC satıla bilən istehsal vasitələrinin və ya son məhsulun faktiki qiymətlərlə dəyərinin sosial qiymətlərlə dəyərinə nisbəti kimi hesablanır:

Satıla bilən istehsal vasitələri üçün

$NPCi = C_{ip}/C_{ıs}$

burada:

NPCi - satıla bilən istehsal vasitələri üçün Daxili Bazarın Qorunmasının Nominal Əmsalı;

$C_{ıp}$ - satıla bilən istehsal vasitələrinin faktiki qiymətlərlə dəyərı; $C_{is}$ - satıla bilən istehsal vasitələrinin sosial qiymətlərlə dəyəridir.

Satıla bilən istehsal vasitələri üçün NPC əmsalının vahiddən kiçik olması onların daxili bazar qiymətlərinin beynəlxalq paritet qiymətlərindən kiçik olmasını göstərir [4, s. 326]. Bu halda emal müəssisəsi xammal və materialları əldə edərkən subsidiyadan istifadə edir. Bu subsidiya aparılan iqtisadi siyasətin təsirinin nəticəsi olmaqla, xammal və materialların qiymətlərinə birbaşa dotasiyalar, idxal olunan məhsullara tətbiq edilən vergı və rüsumlar, ticarət məhdudiyyətləri (kvotalar və s.), rəsmi mübadilə kursu vasitəsilə təsirlər şəklində öz əksini tapa bilər. Digər tərəfdən, emal sənayesi üçün dolayı subsidiya kimi, iqtisadi siyasətin və bazarın təsiri ilə formalaşan kənd təsərrüfatı xammalının aşağı qiymətləri çıxış edə bilər.

Satıla bilən istehsal vasitələri üçün NPC əmsalının vahiddən böyük olması isə əksinə, müəssisənin xammal və materialların tədarükü zamanı iqtisadi siyasətin və bazarın məhdudlaşdırıcı təsirinə məruz qalmasını göstərir. Bu halda da kənd təsərrüfatının inkişafına yönəlmiş qoruyucu tədbirlər (məsələn, idxal olunan xarici xammala rüsum və kvotalar) emal müəssisəsi üçün məhdudlaşdırıcı amil rolunu oynaya bilər.Digər bir məhdudlaşdırıcı amil istifadə edilən sənaye mənşəli materiallara tətbiq edilən vergilərdir.

Son məhsul üçün Daxili Bazarın Qorunmasının Nominal Əmsalı aşağıdakı kimi hesablanır:

$NPCo = C_{0p}/C_{0S}$

burada:

NPCo - son məhsul üçün Daxili Bazarın Qorunmasının Nominal Əmsalı

$C_{op}$ - son məhsulun faktiki qiymətlərlə dəyəri;

$C_{os}$ - son məhsulun sosial qiymətlərlə dəyəridir.

Son məhsul (əmtəəlik məhsul) üçün NPC əmsalının vahiddən böyük olması onu göstərir ki, əmtəənin daxili bazar qiyməti beynəlxalq paritet qiymətlərdən yüksəkdir. Bu isə iqtisadi siyasət və formalaşmış bazar konyukturu emal sənaye sahəsinin birbaşa və ya dolayı yolla subsidiyalaşması istiqamətinə təsir göstərir. Bu subsidiya məhsulun qiymətinin bir hissəsinin ödənilməsinə yönəlmiş birbaşa dotasiyalar və yaxud da analoji idxal məhsuluna tətbiq edilən vergi və rüsumlar, kvotalar, rəsmi mübadilə məzənnəsi ilə manipulyasiyalar və s. şəklində ola bilər (idxal məhsuluna vergi və rüsumların tətbiqi daxili istehsalçıya öz məhsuluna yüksək qiymət qoymaq imkanı yaradır).

Əksinə, əmtəəlik məhsul üçün NPC əmsalının vahiddən kiçik olması isə daxildə istehsal edilmiş məhsulun qiymətinin dünya bazarı qiymətlərindən kiçik olmasını göstərir ki, bu yerli istehsalçının iqtisadi siyasətin neqativ təsirinə məruz qalmasını nümayiş etdirir. Belə məhdudlaşdırıcı təsir yerli istehsalçıya dolayı vergilərin tətbiqi, bazarda əlverişli olmayan rəqabət modelinin mövcudluğu (həddən artıq istehsalçı üçün aşağı qiymətlər) və s. şəklində meydana çıxa bilər. İqtisadi siyasətın sahəyə təsirinin digər göstəricisi Daxili Bazarın Səmərəli Qorunma Əmsalıdır (EPC).

EPC əmsalı sahədə yaranan əlavə dəyərin faktiki qiymətlərlə həcminin onun sosial qiymətlərlə həcminə nisbəti kimi müəyyən olunmaqla, həm satıla bilən istehsal vasitələri, həm də son məhsul üzrə iqtisadi siyasətin təsirini əks etdirən göstəricidır. Belə ki, əksər hallarda həm son məhsulun qiymətlərinin dəstəklənməsi, həm də istehsal vasitələrinin subsidiyalaşması vahid siyasət tədbirləri paketinin tərkib hissələri olduğundan, iqtisadi siyasətin bütünlükdə sahədə yaranan əlavə dəyərə təsirinin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

EPC - $(R_p - C_{op})/(R_s - C_{as})$

burada:

EPC - Daxili Bazarın Qorunmasının Səmərəlilik Əmsalı;

$R_p$ - faktiki qiymətlərlə ümumi gəlir;

$R_s$ - sosial qiymətlərlə ümumi gəlir.

EPC əmsalının vahiddən böyük olması o deməkdir ki, emal sənaye sahəsində faktiki qiymətlərlə yaranan əlavə dəyər sosial qiymətlərlə yarana biləcək əlavə dəyərdən böyükdür.Bu isə iqtisadi siyasət və bazar konyukturunun istehsal sahəsinin subsidiyalaşması istiqamətində təsir göstərməsinin nəticəsidir. Başqa sözlə, iqtisadi siyasət nəticəsində hazır məhsulun qiymətləri dəstəklənir və ya istehsal vasitələri subsidiyalı qiymətlərlə əldə edilir.

Əksinə, EPC əmsalının vahiddən kiçik olması onu göstərir ki, faktiki qiymətlərlə sahədə yaranan əlavə dəyər sosial qiymətlərlə yarana biləcək əlavə dəyərdən kiçikdir.Belə şəraitdə müəssisələr iqtisadi siyasətin məhdudlaşdırıcı təsirinə məruz qalırlar, başqa sözlə, sahədə yarana biləcək potensial əlavə dəyərin bir hissəsi ya yüksək vergilər vasitəsilə büdcəyə alınır, və yaxud da əlverişsiz bazar konyukturunun təsiri altında ümumiyyətlə yaranmır (aşağı qiymətlər, istehsal vasitələrinin yüksək qiymətləri və s.).

Qeyd edilənlərlə yanaşı, nə NPC, nə də ki EPC əmsalları istehsal vasitələri bazarında baş verən transferlərin (vergi və subsidiyaların) təsirini tam əks etdirmir və buna görə də bu əmsallar vasitəsilə resurslardan istifadənin səmərəliliyini qiymətləndirmək olmur.

Resurslardan istifadənin səmərəliliyini və sahənin son məhsulunun beynəlxalq müqayisəli üstünlüyünü müəyyən etmək üçün Daxili Resurslardan İstifadə Əmsalından (DRC) istifadə olunur. DRC əmsalı daxili resursların (iş qüvvəsi və kapital) sosial qiymətlərlə dəyərinin sahədə yaranan əlavə dəyərin sosial qiymətlərlə həcminə nisbəti kimi hesablanılır:

DRC = (Ls+Ks)/(Rs-Cis)

burada:

DRC - Daxili Resurslardan İstifadə Əmsalı,

Ls - İş qüvvəsinin dəyəri (sosial qiymətlərlə),

Ks - Kapital xərclər (sosial qiymətlərlə).

Rs - sosial qiymətlərlə ümumi gəlir;

Cis - satıla bilən istehsal vasitələrinin sosial dəyəri.

Əgər sosial qiymətlərlə sahədə əlavə dəyər yaranırsa, DRC əmsalı müsbət işarəyə malik olur. Bu halda DRC əmsalı vahiddən kiçik olarsa, bu, məhsulun beynəlxalq müqayisəli üstünlüyə malik olduğunu göstərir. DRC-in vahiddən kiçik olması onu göstərir ki, beynəlxalq paritet qiymətlərlə, yəni heç bir dövlət tənzimləmə tədbirlərinin təsiri nəzərə alınmadığı hal üçün emal sənayesi sahəsində yaranan əlavə dəyər onun istehsalına sərf edilmiş resursların sosial qiymətlərlə dəyərindən yüksəkdir, başqa sözlə, beynəlxalq rəqabət şəraitində daxili resurslar öz-özünü ödəmək qabiliyyətinə malikdir. Əksinə, DRC əmsalının vahiddən böyük olması yaranan əlavə dəyərin daxili resursların sosial dəyərindən kiçik olması deməkdir, başqa sözlə, bu hal daxili resurslardan qeyri-səmərəli istifadəni əks etdirir.

Beləliklə, haqqında danışılan əmsallardan istifadə edilərək ayrı-ayrı üzüm emalı müəssisələrinə iqtisadi siyasətin və onun nəticəsində formalaşmış bazar konyukturunun təsiri öyrənilməli, daxili resurslardan istifadənin səmərəliliyi qiymətləndirilməli və hazırkı istehsal şəraiti, məhsuldarlıq və xərclərin hazırkı strukturu barədə beynəlxalq müqayisəli üstünlüyə malik emal sənaye sahələri müəyyənləşdirilməlidir.

## Ədəbiyyat


1. Salahov S.V. Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsi problemləri. Bakı, "Nurlan", 2004, 504 s.
2. 2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı. Bakı, 15 dekabr 2011.
3. Qasımov Ə.C. Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi. Bakı, "Nurlar", 2005, 354 s.
4. Серова Е.В. Аграрная экономика. Москва, ГУ ВШЭ, 1999, 480 с., с.326


*А.М.Байрамов*

## Факторы, обуславливающие развитие виноградарства и виноделия

## Резюме

Формирование экономической среды развития виноградарства и виноделия происходит под воздействием многочисленных факторов. В статье показаны основные из этих факторов, исследованы процессы их воздействия на развитие отрасли, определены некоторые направления улучшения экономической среды развития виноградарства и виноделия, оценены возможности эффективного функционирования отрасли при существующем бюджете продукции.

***Ключевые слова: экономическая среда, виноградарство, виноделие, факторы, бюджет продукции.***

*A.M.Bayramov*

## Characterization of the factors stipulating the development of viticulture and wine

## Summary

Formation of the economic environment of viticulture and wine-making is influenced by numerous factors. The article characterized the most important of these factors, and their impact on the industry is investigated. The ways of improvement of the economic environment of viticulture and wine-making are identified, the possibility of the effective functioning of the sector under the current budget of production is evaluated.

***Keywords: economic environment, viticulture, wine-making, factors, budget of production.***

**UOT 334. 012**

***Yasəmən Əli qızı ƏLİYEVA***
***Azərbaycan Kooperasiya Universiteti***
***i.e.n., kafedra müdiri***

# MÜASİR DÖVRDƏ AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə müasir dövrdə aqrar sahədə sahibkarlığın dövlət tənzimlənməsinin mövcud vəziyyəti, ona təsir edən amillər, sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı üçün ölkədə həyata keçirilən tədbirlər, sahibkarlığın dövlət tənzimlənməsinin reallaşdırılması üçün konkret təkliflər irəli sürülür. Eyni zamanda Azərbaycanda sahibkarlığın inkişafı, müasir iqtisadiyyatın formalaşması sahəsində dövlət-sahibkar münasibətlərinin qurulması, dövlət tərəfindən sahibkarlığın tənzimlənməsi metodları və əsas istiqamətlərindən bəhs edilir.

***Açar söslər: sahibkar, sahibkarlıq fəaliyyəti, tənzimləmə, sahibkarlığın dövlət tənzimlənməsi, inkişaf, dinamika, təklif.***

## Giriş

Sahibkarlıq fəaliyyətinin mühüm şərtlərindən biri onun üçün yaradılmış əlverişli təşkilati mühitdir. Bu baxımdan hazırda respublikada xüsusən kiçik və orta sahibkarlıq subyektlərinin zəruri maliyyə resurslarına olan ehtiyaclarının güzəştli kreditlər hesabına ödənilməsi məqsədilə dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşən Sahibkarlığa Kömək Milli Fondu, iş adamlarının qanuni hüquq və mənafelərinin qorunması, meydana çıxan problemlərin operativ həlli məqsədilə Azərbaycan Respublikası Prezidentinin yanında yaradılmış Sahibkarlar Şurası daha uğurla fəaliyyət göstərirlər.

Son 5 il ərzində milli sahibkarlığın ilkin kapital və investisiya problemlərinin həlli üzrə maliyyə köməyi mexanizminin formalaşdırılması və onun iqtisadi səmərəsinin təmin edilməsi istiqamətində vacib işlər görülmüşdür. Belə ki, nəzərdən keçirilən dövrdə hər il dövlət büdcəsindən bu məqsədlə təqribən 100 mln. dollara qədər vəsait ayrılır.

* * *

Təcrübə göstərir ki, müasir dövrdə aqrar sahədə sahibkarlığın inkişafı bu sahəyə iri həcmli vəsait qoyuluşlarından bilavasitə asılıdır. Hazırda yüksək intensiv aqrar və emal sektorunun inkişaf etdirilməsi kənd təsərrüfatı və ərzaq məhsulları bazarında sabitliyin təmin edilməsinin başlıca vəsaiti kimi çıxış edir. Bu baxımdan kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı intensiv tədbirlərin həyata keçirilməsi aqrar sahənin ən mühüm vəzifələrindən biridir. Dövlət tərəfindən aqrar əmtəə istehsalçılarına subsidiyaların verilməsi, dotasiyalar və vergi güzəştləri kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının iqtisadi davamlılığının qorunub saxlanmasına istiqamətlənmiş tədbirlər kimi səciyyələnir.

Respublikada sahibkarlıq fəaliyyəti tənzimlənərkən milli iqtisadiyyatın spesifik xüsusiyyətləri, əmək bölgüsü sisteminin daha da genişlənməsi və sahələr arasında iqtisadi əlaqələrin optimallaşması məsələləri nəzərə alınmalıdır.

Aqrar sahədə sahibkarlığın inkişafına mənfi təsir göstərən amillər son nəticədə dayanıqlı kənd təsərrüfatı istehsalının həyata keçirilməsi imkanlarını məhdudlaşdırmışdır. Odur ki, aqrar sahədə sahibkarlıq fəaliyyətində mövcud olan problemləri aradan qaldırmaq məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi olduqca vacibdir [4, səh. 264].

Təbiidir ki, bu tədbirlər dövlətin yaxından iştirakı, maliyyə və təşkilati dəstəyilə reallaşdırılmalıdır. Aqrar sahədə yerli sahibkarların rastlaşdıqları problemlərin aradan qaldırılmasına yönəl-

dilmiş tədbirlərə aşağıdakıların şamil edilməsini məqsədəuyğun sayırıq:

- iqtisadiyyatda sahələrarası proporsiyaların tənzimlənməsi;
- antiinhisar tədbirlərin səmərəliliyinin yüksəldilməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının kredit resurslarına olan ehtiyaclarının ödənilməsi;
- dövlət tədarükünün bərpası və bu istiqamətdə yerli istehsal məhsulları hesabına tədarükün təşkili;
- kənd təsərrüfatı əmtəə istehsalçılarına subsidiya və subvensiyaların verilməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının maddi- texniki resurslara olan tələbatının ödənilməsi məqsədi ilə lizinq xidmətinin təşkili;
- daxili bazarda qiymət konyukturunun tənzimlənməsi məqsədilə dövlət intervensiya fondunun yaradılması;
- yerli istehsalçıların xarici bazarlara çıxış imkanlarının artırılması və onların maraqlarının dövlət tərəfindən qorunması;
- regionların investisiya cəlbediciliyinin yüksəldilməsi baxımından mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi;
- yeni iqtisadi şəraitdə kənd təsərrüfatında struktur siyasətinin həyata keçirilməsi və istehsalın səmərəli ixtisaslaşdırılmasının stimullaşdırılması [1, səh. 315].

Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi əsasən birbaşa və dolayı yollarla tənzimlənir. Ölkədə sahibkarlıq fəaliyyətinin bir sıra metodlarla (inzibati metodlarla) tənzimlənməsi çoxsaylı qanunların və qanunvericilik aktlarının tələbləri əsasında reallaşır. Artıq 1992-ci ildən başlayaraq "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Dövlətin antiinhisar siyasəti haqqında" Qanun və digərlərinə əsaslanaraq ölkədə bütün iqtisadi fəaliyyət sahələrində sahibkarlığın inkişafına əlverişli mühit yaradılmışdır. Hazırda Azərbaycanda öz miqyasına görə sahibkarlığın bütün formaları (fərdi, kollektiv, müştərək və xarici sahibkarlıq) müxtəlif inkişaf mərhələləri keçmiş və özünün daha yeni inkişaf mərhələsinə daxil olmuşdur. Bu onunla şərtlənir ki, dövlət iqtisadiyyatın bütün sferalarında müasir sahibkarın fəaliyyətinin strateji istiqamətlərini müəyyən etmiş və onun dövlət tərəfindən stimullaşdırılması (ona maliyyə dəstəyi) məsələsinə xüsusi diqqət yetirilmişdir.

Respublikada bazar təsərrüfatçılıq sisteminə transformasiya prosesi də məhz aqrar sahədən başlamışdır. Ulu öndər Heydər Əliyevin xalqın təkidli istəyi ilə 1993-cü ilin iyununda hakimiyyətə gəlişindən sonra bir çox sahələr kimi kənd təsərrüfatında da 90-cı illərin əvvəllərindən özünü kəskin büruzə verən tənəzzül meylləri aradan qaldırılmış, səmərəli islahatların əsası qoyulmuşdur. Hər bir vətəndaşın mənafeyi əsas tutulmaqla gerçəkləşdirilən aqrar islahatlar ölkə iqtisadiyyatında bazar münasibətlərinin qurulmasına, torpaq və əmlakın səmərəli istifadə edilməsinə, aqrar bölmənin sahə strukturunun təkmilləşdirilməsinə, sahibkarlığın formalaşması və inkişafına yönəlmişdir. Aqrar islahatların birinci mərhələsində kənd təsərrüfatının inkişafı bütünlükdə bazar mexanizminin qanunauyğunluqlarına və prinsiplərinə tabe etdirilmiş, bu sahədə çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmiş, məhsulun satışı, gəlirlərin bölüşdürülməsi və digər texnoloji proseslərdə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat-iqtisadi müstəqilliyi təmin edilmişdir.

Bu kursu keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin çevik və işlək mexanizmlər əsasında gerçəkləşdirdiyi islahatlar nəticəsində respublikada aqrar sənaye kompleksini inkişaf etdirmək, ərzaq təminatını yaxşılaşdırmaq üçün ilk növbədə qanunvericilik bazası təkmilləşdirilmiş, fermerlərə yanacağın, motor yağının və gübrənin alınmasına çəkilən xərclərin 50 faizinin dövlət tərəfindən ödənilməsi, taxıl əkinlərinə görə subsidiyaların verilməsi təmin edilmiş, texniki təminatın yaradılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnikanın və gübrələrin verilməsinə başlanılmışdır. Bütün bunların nəticəsi kimi hazırda kənd təsərrüfatı məhsulları istehsalında özəl bölmənin xüsusi çəkisi 99,7 faizə yüksəlmişdir.

İqtisadi fəaliyyətin liberallaşdırılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi və yeni özəl təsərrüfat subyektlərinin yaradılmasının təsbiq edilməsi yolu ilə aqrar sahədə sahibkarlığın təşəkkülü və inkişafı üçün əlverişli şərait formalaşdırılması ölkədə həyata keçirilən islahatların əsas istiqamətlərindən birini təşkil edir. Bu onunla şərtlənir ki, aqrar sahədə sahibkarlığın inkişafı bazar münasibətləri şəraitində davamlı iqtisadi inkişafın təmin olunmasının və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin əsas vasitəsi hesab olunur. Eyni zamanda, qloballaşma proseslərinin və elmi-texniki tərəqqinin intensivləşməsi ilə müşayiət olunan müasir dövrdə sahibkarlığın inkişaf səviyyəsi ölkələrin beynəlxalq rəqabət gücünü də müəyyənləşdirən əsas amillərdən biri kimi çıxış edir.

Qeyd olunanlarla əlaqədar olaraq, hazırda demək olar ki, bütün ölkələrdə sahibkarlığın inkişaf etdirilməsi və dəstəklənməsi istiqamətində məqsədyönlü, sistemli və ardıcıl siyasət tədbirləri, o cümlədən məqsədli proqramlar həyata keçirilir. Bu baxımdan, indiyədək ölkəmizdə sahibkarlığın inkişafı sahəsində əldə olunmuş nailiyyətləri möhkəmlətmək və daha da artırmaq, həmçinin bu istiqamətdə həyata keçirilmiş siyasətin davamlılığının təmin edilməsi məqsədi ilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsində uğurla sınaqdan çıxmış siyasət tədbirləri də nəzərə alınmaqla yeni Dövlət Proqramı hazırlanmış və qəbul edilmişdir. Belə ki, aparılan islahatlar nəticəsində ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən mütərəqqi hüquqi-normativ baza, institusional və iqtisadi mexanizmlər yaradılmış və onların mütəmadi olaraq konkret şəraitin tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsi, aqrar sahədə sahibkarlığın, xüsusi ilə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi üzrə kompleks siyasət tədbirlərinin, o cümlədən konkret dövlət üçün qəbul edilən dövlət proqramlarının həyata keçirilməsi və işgüzar mühitin yaxşılaşdırılması istiqamətində məqsədyönlü, ardıcıl və sistemli iş təşkil olunmuşdur.

Aqrar sahənin davamlı inkişafı ölkəmizdə həyata keçirilən iqtisadi islahatların dönməzliyinin təmin olunmasında, kəndin sosial-iqtisadi inkişafının yüksəldilməsində, istehsal və sosial infrastrukturun müasir tələblərə uyğunlaşdırılmasında əhəmiyyətli amil hesab olunur. Belə inkişaf kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqədə olan sahələrdə fasiləsiz iqtisadi artımın təmin edilməsinə yönəldilmiş tədbirlərin məcmusunu özündə əks etdirir. Təhlillər göstərir ki, yeni iqtisadi şəraitdə aqrar sahənin davamlı və dayanıqlı inkişafının təmin edilməsi istehsal potensialından səmərəli istifadə edilməsi ilə bağlı tədbirlərin səmərəliliyindən bilavasitə asılıdır.

Aqrar münasibətlərin tənzimlənməsində istifadə edilən əsas mexanizmlərdən biri mülkiyyət və sahibkarlıq münasibətləri üzrə tətbiq edilən hüquqi-normativ aktların qəbul edilməsidir. Aqrar sahənin inkişafı üzrə qəbul edilən qanunlar və sahibkarların maraqlarını təmin edən qanunlar, onların hüquqlarının qorunması, gömrük tariflərinin, dövlət qeydiyyatı, vergi qaydalarının sadələşdirilməsi sahibkarlığın geniş vüsət almasına müsbət təsir göstərir.

Ölkədə aqrar sahə, o cümlədən sahibkarlıq fəaliyyəti və kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsi bir çox qanunvericilik aktları vasitəsilə həyata keçirilir. Kənd təsərrüfatında torpaq başlıca istehsal vasitəsi olduğundan aqrar münasibətlərin əsasını da torpaq mülkiyyəti forması təşkil edir. Aqrar münasibətlərin xarakteri torpaq sahibliyi və torpaqdan istifadənin xarakteri ilə müəyyən edilir. Bu baxımdan “Torpaq islahatı haqqında”, “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında” (22 dekabr 1998-ci il); “Torpaq icarəsi haqqında” (12 mart 1999-cu il); “Azərbaycan Respublikasının Torpaq Məcəlləsi” (25 iyun 1999-cu il) və “Torpaq bazarı haqqında” (11 iyul 1999-cu il) Qanunların mövcudluğu ölkədə aparılan torpaq islahatlarına güclü təkan verdi.

Müasir iqtisadi münasibətlər şəraitində aqrar sahənin tənzimlənməsinin özünəməxsusluğu məhz sahibkarlıq subyektlərinin müstəqilliyi və onların fəaliyyətinin dövlət tənzimlənməsi ilə səciyyələnir. Aqrar sahənin inkişafı üzrə qəbul edilən qanunlar və sahibkarların maraqlarını təmin edən qanunlar, onların hüquqlarının qorunması, gömrük tariflərinin, dövlət qeydiyyatı, vergi qaydalarının sadələşdirilməsi sahibkarlığın geniş vüsət almasına şərait yaradır. Müsbət haldır ki, sa-

hibkarlığın inkişafı ölkənin iqtisadi qüdrətinin artırılmasını və iqtisadi artımı təmin etdiyindən dövlət onun maraqlarının müdafiəçisi rolunda çıxış edir.

Ölkəmizdə dövlət-sahibkar münasibətlərini tənzimləyən əsas prinsiplər müəyyənləşdirilmişdir. Dövlətin uzunmüddətli iqtisadi siyasətinin başlıca istiqamətləri və prinsipləri əsasında sahibkarlığın inkişafı keyfiyyətcə yeni təsərrüfatçılıq münasibətləri sisteminin formalaşmasına əsaslanır. Göstərilən prinsiplər dövlətin sahibkarlığın inkişafında üzərinə götürdüyü öhdəlikləri və sahibkarın cəmiyyətə münasibətdə məsuliyyətinin əsas müddəalarını formalaşdırmışdır. Bu meyarlar dövlətin xüsusi mülkiyyətin və şəxsiyyət azadlığının toxunulmazlığının əsas dəyərlərə çevrilməsinə şərait yaradan sosial iqtisadi mühitin yaradılmasına təminatı, eyni zamanda sahibkarın dövlətə münasibətdə özünün sosial və hüquqi məsuliyyətini dərk edərək onlardan irəli gələn vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur [2].

İnkişaf etmiş bazar təmayüllü ölkələrdə dövlətin qarar sahəyə məqsədyönlü təsiri yalnız böhranlı vəziyyəti neytrallaşdırmaq üçün deyil, eyni zamanda normal inkişafın təmin edilməsi baxımından formalaşmışdır. Bu baxımdan aqrar sahənin dövlət tənzimlənməsini ümumi şəkildə aşağıdakı istiqamətlərin məcmusu şəklində xarakterizə etmək olar:

- kənd təsərrüfatı məhslları istehsalı və aqrobiznes sahələrində investisiya proseslərinin tənzimlənməsi;
- ətraf mühit və ekoloji tarazlığın qorunması şərtilə torpaq və su resurslarından səmərəli istifadə edilməsi;
- aqrar sahədə maddi-texniki resurslardan, işçi qüvvəsindən və istehsal potensialının digər elementlərindən istifadənin düzgün təşkili;
- bu sahədə istehsal və qeyri- istehsal infrastrukturunun fəaliyyətinə yardım göstərilməsi, aqrar bazar infrastrukturunun inkişafının stimullaşdırılması, eləcə də ixrac potensialının genişləndirilməsi məqsədilə, satınalma qiymətlərinə iqtisadi təsirlərin mütəmadi olaraq həyata keçirilməsi;
- kənd təsərrüfatı məhsullarının satışının stimullaşdırılması məqsədilə əhalinin alıcılıq qabiliyyətinin artırılması [3, s. 242]

Müasir dövrdə aqrar sahədə sahibkarlığın dövlət tənzimlənməsi kənd təsərrüfatında geniş təkrar istehsalı təmin etmək və böhranları neytrallaşdırmaq məqsədilə həyata keçirilən təşkilati, iqtisadi tədbirlərin məcmusunu özündə əks etdirir. Aqrar sahədə sahibkarlığın tənzimlənməsində məqsəd ilk növbədə aqrar bazarda dövlətin strateji maraqlarının reallaşmasına nail olmaqdan, yerli əmtəə istehsalçılarının gəlirlərini artırmaqdan, yerli istehsalatı stimullaşdırmaqdan və daxili bazarı qorumaqdan ibarətdir.

Müasir dövrdə aqrar sahədə sahibkarlığın dövlət tərəfindən tənzimlənməsinin başlıca vəzifəsi əsasən kənd təsərrüfatının iqtisadiyyatın digər sahələri ilə qeyri-bərabər vəziyyətini aradan qaldırmaq üçün maliyyə və digər yardımların həyata keçirilməsindən ibarətdir. Dövlətin tənzimləmə metodları aqrar sahədə sahibkarlığın konyuktur dəyişikliklərinə müvafiq olaraq həyata keçirilməlidir. Dövlət sahibkarlıq fəaliyyətindəki mövcud durumdan asılı olmayaraq kənd təsərrüfatı məhsullarının istehsalı və satışı sahəsində stimullaşdırıcı və ya kənd təsərrüfatı və ərzaq məhsullarının ifrat istehsalı şəraitində antiböhran tənzimləyicisi funksiyasını yerinə yetirməlidir.

## Nəticə və təkliflər

Bütün bunları nəzərə alaraq onu demək olar ki, aqrar sahəyə dövlət qayğısı, dövlət himayəsi daim mühüm şərt olaraq qalır. Bu müdaxilə məhdudlaşdırılarsa və ya aqrar sahə, o cümlədən sahibkarlıq dövlət himayəsindən məhrum edilərsə, o zaman nəticə etibarilə, bu sahədə inkişaf dayanar və bütün bunlar böhranlı vəziyyətin əmələ gəlməsinə səbəb ola bilər. Deməli aqrar sahənin, o cümlədən aqrar sahədə sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən fəal tənzimlənməsi həmişə dövlətin aqrar siyasətinin tərkib hissəsi olmalıdır.

Müasir dövrdə aqrar sahədə sahibkarlığın dövlət tənzimlənməsinin maliyyə-kredit mexaniz-

minin təkmilləşdirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini təklif edirik:

- aqrar sahədə sahibkarlığın inişafı ilə bağlı məqsədli proqramların reallaşdırılması üçün koordinasiyalı idarəetmə sisteminin təşkil edilməsi;
- dövlət tənzimlənməsində iqtisadi metodlara üstünlük verilməsi;
- aqrar sahədə sahibkarlıq fəaliyyətinin investisiya cəlbediciliyinin yüksəldilməsi;
- aqrar sahədə sahibkarlığın inkişafına səmərəli və məqsədyönlü siyasət yeridilməsi;
- sahibkarlıq sahələri üzrə istehsal edilən ərzaq məhsullarının keyfiyyət standartlarına uyğunluğunun təmin olunması;
- kənd təsərrüfatı məhsulları istehsalının artırılması və dünya bazarına çıxışının təmin edilməsi;
- ölkənin regionları üzrə elmi cəhətdən əsaslandırılmış uzunmüddətli proqramların hazırlanması və s.

Hazırda isə Azərbaycanda aqrar sahənin tənzimlənməsi üçün tətbiq edilən əsas üsullar aşağıdakılardır:

- sahibkarlıq sahəsində qiymətlərin və istehlakçıların gəlirlərinin sabit saxlanması. Buraya istehsalçılara birbaşa qiymət subsidiyaları, minimal zəmanətli (təminatlı) qiymətlərin müəyyən edilməsi, ordunun və iri şəhərlərin ehtiyaclarını təmin etmək üçün dövlət tərəfindən ərzaq məhsulları tədarükü;
- xarici ticarətin tənzimlənməsi və vergi güzəştləri;
- istehsalçı sahibkarların xərclərinin azaldılmasına yönəlmiş tədbirlər, məsələn, istehsal vasitələri üçün xərclərin kompensasiya edilməsinin müxtəlif üsulları;
- kənd təsərrüfatı istehsalçılarına güzəştli kredit;
- struktur siyasəti: istehsalçıların gəlirləri ilə əlaqədar olmayan müxtəlif dəstəkləmə tədbirləri.

Yuxarıda deyilən tədbirlər dövlət səviyyəsində tətbiq edilir. Regional yerli özünüidarəetmə orqanları başqa tənzimləmə üsulları da tətbiq edə bilərlər.

## Ədəbiyyat

1. İ.H.Əliyev. "Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi". Bakı, 2003, s.315.
2. www.economy. Gov. az
3. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu "Elmi əsərlər" II buraxılış. Bakı, 2010, s.242.
4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin elmi-nəzəri jurnalı: "Azərbaycan Aqrar Elmi", Bakı, 2005 s. 264.
2. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Azərbaycan İqtisadçılar İttifaqı, Azərbaycan Dövlət İqtisad Universiteti. "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr milli inkişaf modelinin formalaşması problemləri", Bakı, 2010.

***Ясаман Али кызы Алиева***

## Основные направления государственного регулирования предпринимательства в аграрном секторе в современных условиях

## Резюме

В статье рассматриваются современное положение государственного регулирования предпринимательства в аграрном секторе, факторы воздействующие на него, мероприятия осуществляемые в стране для формирования и развития предприни- мательства, а также предложены конкретные пути государственного регулирования предпринимательства. В тоже время рассматриваются методы и направления государственного регулирования предпринимательства, установление связей государство- предприниматель в делах формирования со-

временной экономики, а также развитие предпринимательство в Азербайджане.

***Ключевые слова: предприниматель, предпринимательская деятельность, государство предприниматель, регулирование предпринимательской деятельности.***

***Y.A.Alieva***

**The main direktions of state requlation of ownership in aqrarian Section in modern time**

**Summary**

This article express the present situaton of state requlation of ownership in modern time, the factors infiuencinq it, the actions carried out in the contry for the formation and development of ownership activity also the specific offers for the state requlation of ownership. At the same time the development of ownership in Azerbaijan, formation of state-ownership relations in the formation sector modern economy, the state requlation methods of ovnership and main directions of ot are dealet in this article.

***Key words: owership, owership activity, requlation, state requlation of owership development dinamics, offer.***

**UOT 338.43**

***Günay Adil qızı MƏCİDOVA***
***Azərbaycan Elmi-Tədqiqat Kənd***
***Təsərrüfatının İqtisadiyyatı və Təşkili***
***İnstitutunun doktorantı***

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA AQRAR MODERNLƏŞDİRMƏNİN ROLU

**Xülasə**

Ərzaq təhlükəsizliyi dövlətin iqtisadi və aqrar siyasətinin əsas məqsədlərindən biri sayılır. Məqalədə ölkədə kənd təsərrüfatının müasir vəziyyəti və onun inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması üzrə tədbirlər geniş təhlil olunmuşdur. Ərzaq təhlükəsizliyinin tam təminində aqrar modernləşdirmənin vacibliyi və dövlətin bu istiqamətdə gördüyü işlər geniş təhlil olunmuşdur.

***Açar sözlər: milli iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, aqrar sahə, modernləşdirmə.***

## Giriş

Müasir şəraitdə milli ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından bütün istehlakın 70%-dən çoxu ölkənin daxili istehsalının payına düşməlidir. Bəzi dəyərləndirmələrə görə, kənd təsərrüfatının inkişafı üçün əlverişli şəraitə malik olan ölkələr üçün qeyd edilən göstərici 80%-dən yuxarı olmalıdır [1, s. 91]. Ərzaq təhlükəsizliyinin təmini üçün zəruri olan qida məhsulları bunlardır: buğda, kartof, tərəvəz və bostan məhsulları, meyvə və giləmeyvə, ət və ət məhsulları, süd və süd məhsulları, yumurta və s. Bu gün buğda ilə özümüzü təminat səviyyəsi 57.7%, kartof ilə 101.6%, bütün növ tərəvəz ilə 95.7%, bostan məhsulları ilə 100.2%, meyvə və giləmeyvə ilə 116.8%, üzüm ilə 89.9%, mal əti və ət məhsulları ilə 88.1%, qoyun əti və ət məhsulları ilə 99.8%, quş əti və ət məhsulları ilə 80.7%, süd və süd məhsulları ilə 70.5%, yumurta ilə 77.4%, balıq və balıq məhsuları ilə isə 72.4% təmin edirik. Göründüyü kimi, bəzi bitkiçilik və heyvandarlıq məhsulları üzrə özünütəminetmədə yüksək səviyyəyə çatsaq da, bəzi məhsullar üzrə bu problem hələ həll olunmamışdır.

Bəzi bitkiçilik və heyvandarlıq məhsulları üzrə istehsalın aşağı olmasının səbəbi məhsuldarlığın aşağı olmasıdır. Məhsuldarlıq göstəriciləri inkişaf etmiş ölkələrin göstəricilərindən geri qalır ki, buna da səbəb kənd təsərrüfatında əl əməyindən istifadənin daha geniş olmasıdır.

Statistika Komitəsinin məlumatlarına əsasən, kartofun məhsuldarlığı 1991-ci ildə 81 s/ha və 2011-ci ildə 144 s/ha , tərəvəzin məhsuldarlığı 1991-ci ildə 189 s/ha və 2011-ci ildə 146 s/ha, bostan məhsullarının məhsuldarlığı 1991-ci ildə 70 s/ha və 2011-ci ildə 144 s/ha, meyvə və giləmeyvənin məhsuldarlığı 1991-ci ildə 43.8 s/ha 2011-ci ildə 71.7 s/ha, üzümün məhsuldarlığı 1991-ci ildə 75.3 s/ha və 2011-ci ildə 81.5 s/ha, buğdanın məhsuldarlığı 2011-ci ildə 25.1 s/ha olmuşdur. Heyvandarlıq məhsulları üzrə isə məhsuldarlıq-ilin əvvəlinə olan hər baş inək və camışdan süd sağımı 1991-ci ildə 1324 kq və 2011-ci ildə 1227 kq , hər qoyundan orta illik yun qırxımı 1991-ci ildə 2.2 kq və 2011-ci ildə 2 kq, kənd təsərrüfatı müəssisələrində toyuqların orta illik yumurta verimi 1991-ci ildə 148 ədəd və 2011-ci ildə 172 ədəd olmuşdur.

Göründüyü kimi, kənd təsərrüfatı istehsalının əsas sahələrində məhsuldarlıq səviyyəsinin xeyli yüksəldilməsinə nail olunsa da bu sahədə mövcud olan imkanlar tam reallaşdırılmamışdır. Məhsuldarlıq göstəricilərimiz inkişaf etmiş aqrar iqtisadiyyata malik ölkələrlə müqayisədə xeyli aşağıdır.

Respublikamızın iqlimi, təbii şəraiti, insan amili daha məhsuldar olmağa şərait yaradır. Bildiyimiz kimi, məhsuldarlığın yüksəldilməsi əsasında istehsalın həcminin artırılmasının başlıca yolu

kənd təsərrüfatı istehsalının modernləşdirilməsidir və bundan başqa alternativ yol yoxdur. Bu səbəbdən yüksək və keyfiyyətli istehsala nail olmaq üçün mütləq aqrar modernləşdirmə prosesi aparmaq lazımdır.

Hazırda praktikada, o cümlədən beynəlxalq təşkilatların təcrübəsində aqrar sferada texnoloji tərəqqinin nəticələrinin tətbiqi miqyasları ümumi şəkildə, əsasən bu sahədə traktorların və mineral gübrələrin tətbiqi miqyasları ilə, daha doğrusu, hər 1000 hektar əkin və çoxillik əkmələr sahəsinə və kənd təsərrüfatında işləyən hər 1000 nəfərə düşən traktorların sayı, həmçinin hər hektar əkin sahəsinə istehlak olunan gübrələrin kəmiyyəti ilə dəyərləndirilir [1, s.118].

Azərbaycanda qeyd olunan göstəricilərin səviyyəsini aşağıdakı cədvəldən görmək olar:

| | 1990 | 1995 | 1999 | 2005 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|
| 1000 ha əkinə düşən traktor, ədəd | 26,7 | 21,3 | 16,8 | 11,9 | 12,6 | 13,4 | 13,3 |
| Bir traktora düşən əkin, ha | 39 | 47 | 60 | 84 | 79 | 75 | 75 |
| Hər hektar əkinə düşən gübrə, kq | 87 | 10 | 5 | | 12 | 18 | 12 |

*(Cədvəl Statistika Komitəsinin rəqəmləri əsasında hazırlanmışdır)*

Cədvəldən göründüyü kimi, 1990-cı illə müqayisədə sonrakı illərdə traktorla təminatda və hər hektara düşən gübrədə azalma müşahidə olunmuşdur. Bu da öz növbəsində, məhsuldarlığa və ümumi istehsalın azalmasına səbəb olmuşdur. 1990-cı illərin ortalarından başlayaraq aqrar islahatların aparılması bu sahədə müəyyən irəliləyişlərə səbəb olsa da bunları tam qənaətbəxş hesab etmək olmaz.

Rəqəmlərdən də göründüyü kimi, texnika və gübrə ilə təminatda azalmağa son qoyulmuş, stabilləşmə olmuşdur. Lakin göründüyü kimi, gübrədə artım stabil deyil. Bu göstəricilər üzrə ildən-ilə artım olsa da, lakin inkişaf etmiş ölkələrdən geri qalır. İnkişaf etmiş ölkələrin göstəricilərinə çatmaq üçün isə müasir texnika və texnologiyadan istifadə edilməsi zəruridir.

Regionların inkişafına dair dövlət proqramlarının qəbul olunması, bu proqram daxilində nəzərdə tutulan və həyata keçirilən işlər iqtisadiyyatın bir çox sahələrində, xüsusilə aqrar sferada yüksək göstəricilərə nail olmağa xidmət etmişdir. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası daxilində nəzərdə tutulan işlərdən biri Taxtakörpü və Şəmkirçay su anbarlarının istifadəyə verilməsidir. Bu iki layihənin icrası nəticəsində 10 minlərlə hektar yeni torpaq sahələrinin dövriyyəyə buraxılması nəzərdə tutulmuşdur. Bu isə, həm ərzaq təhlükəsizliyinin təmini baxımından vacib olub, eyni zamanda əlavə ixrac potensialına imkan yaradacaqdır. Dövriyyəyə buraxılan torpaq sahələrindən yüksək nəticə əldə etmək üçün indidən aqrotexniki planların tutulması vacibdir. Bunun üçün birinci və əsas şərt əlavə texnikanın alınmasıdır. Fermerlerin dövriyyəyə buraxılacaq torpaqlardan səmərəli istifadə etməsi məqsədilə, dövlət büdcəsindən "Aqrolizinq" Səhmdar Cəmiyyətinə əlavə texnika, gübrələr alınması üçün yeni vəsait ayrılmalı və sonra fermerlərə verilməlidir.

Yeni torpaq sahələrinin dövriyyəyə buraxılması taxıl ilə özünütəminatda irəliləyişə nail olunmasına təkan verəcəkdir.

Kənd təsərrüfatında son illərdə görülən ciddi işlərdən biri iri fermer təsərrüfatlarının yaradılmasıdır. Taxılla tam şəkildə təmin olunması məqsədilə əlli böyük fermer-taxılçılıq təsərrüfatlarının yaradılması nəzərdə tutulmuşdur. Bu təsərrüfatlarda məhsuldarlığın yüksək olması təmin edilməlidir.

Yuxarıda qeyd olunanlar ərzaq təhlükəsizliyinin ölkə daxilində həlli üçün dövlət köməyini zəruri edir.

Dövlət aqrar sferaya özünün investisiyalar, kredit, vergi, subsidiya və dotasiya alətləri ilə kömək edir. Aqrar sahəyə maliyyə köməyinin ilkin əsası 22 mart 1999-cu ildə qəbul olunmuş "Aqrar sahədə islahatların sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamdan

sonra qoyulmuşdur. Həmin sərəncama uyğun olaraq kənd təsərrüfatı əmtəə istehsalçıları torpaq vergisi istisna olmaqla qalan bütün növ vergilərdən azad olunmuşdur. Sərəncamın müddəti qurtardıqdan sonra təkrar olaraq uzadılmışdır.

Kənd təsərrüfatına dövlət maliyyə yardımında “Aqrolizinq” Səhmdar Cəmiyyətinin rolu böyükdür. Cəmiyyətə həvalə edilmiş tədbirlərin yerinə yetirilməsi üçün 2005-2012-ci illər üzrə “Aqrolizinq” ASC-yə Dövlət büdcəsindən və digər mənbələrdən 370,63 milyon manat maliyyə vəsaiti ayrılmışdır.

Ayrılmış və təkrar istifadə vəsaiti hesabına 2005-2012-ci illər ərzində müxtəlif markalı 1033 ədəd taxılbiçən kombayn, 4252 ədəd traktor, 164 ədəd ekskavator, 8960 ədəd traktora qoşulan kənd təsərrüfatı texnikaları (kotanlar, kultivatorlar, ot biçən texnika, ot və küləş presləyən, malalar, taxıl səpən, gübrə səpən, çiləyicilər, traktor qoşquları və s.), bundan əlavə, 9 dəst süd zavodu avadanlıqları, 23 dəst soyuducu kameraları, 8 dəst qarışıq yem istehsal zavodu avadanlıqları, kənd təsərrüfatı texnikalarına lazım olan ehtiyat hissələri, dəzgahlar alınmışdır. 254.8 min ton, o cümlədən 198.6 min ton azot, 54.2 min ton superfosfat, 2.04 min ton nitroammofoska gübrələri və 294.3 min litr pestisidlər alınmışdır.

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığa 1995-ci ildə 4.4 milyon manat, 2000-ci ildə 6.5 milyon manat, 2003-cü ildə 37,46.5 milyon manat, 2009-cu ildə 266.6 milyon manat, 2010-cu ildə 431.0 milyon manat, 2011-ci ildə 437.3 milyon manat investisiya ayrılmışdır. Faizlə göstərsək kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığa ayrılan vəsait ümumi olaraq yatırılan investisiyaların sırasında 2000-ci ildə 0.7%, 2003-cü ildə 1%, 2009-cu ildə 3.5%, 2010-cu ildə 4.4%, 2011-ci ildə 3.4% təşkil etmişdir. İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın ümumi həcmində kənd təsərrüfatının faizinin artması dövlət tərəfindən bu sahəyə köməyin ildən-ilə artmasını bir daha sübut edir.

Uğurlu neft strategiyasının aparılması nəticəsində büdcənin gəlirləri artmış, bu isə öz növbəsində aqrar sahəyə ayrılan vəsaitin artmasına səbəb olmuşdur. Kənd təsərrüfatının inkişafında kreditin də rolu əvəzedilməzdir. Sahibkarlığa Kömək Milli Fondu 2012-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalına 99968.5 mln. manat kənd təsərrüfatı məhsullarının emalına isə 27860.0 mln. manat vəsait ayırmışdır.

2007-ci ildən başlayaraq kənd təsərrüfatı məhsullarının istehsalçılarını stimullaşdırmaq məqsədilə dövlət büdcəsi tərəfindən ümumilikdə aqrar sahəyə bir neçə istiqamətdə subsidiyalar ayrılmışdır. 23 yanvar 2007-ci il tarixli “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqda” Sərəncamın icrası ilə bağlı olaraq istehsalçılara əkin sahələri və çoxillik əkmələrin becərilməsində istifadə edilmiş yanacaq və motor yağlarına, buğda və çəltik səpininə, mineral gübrələrin güzəştli qiymətlərlə satılmasına, toxum və ting istehsalçılarına 1-ci və 2-ci reproduksiyalı toxum və ting satışına, elmi-tətqiqat təşkilatlarına orijinal, superelit və elit toxumlarına çəkilən xərclərin ödənilməsinə 2007-2011-ci illər və 2012-ci ilin 9 ayı ərzində 536.700.000 manat subsidiya verilmişdir.

2007-2011-ci illərdə Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən aqrar sektorun inkişafı məqsədilə dövlət büdcəsindən ayrılan və əvvəlki illərdə verilmiş kreditlər üzrə qayıdış hesabına 50.5 mln. manat vəsait müvəkkil kredit təşkilatları vasitəsi ilə ölkənin 55 rayonunda aqrar sahədə fəaliyyət göstərən 1495 fiziki və hüquqi şəxslərə güzəştli kreditlər verilmişdir.

**Nəticə**

Ərzaq təhlükəsizliyinin ölkə daxilində tam təmini üçün ümumiləşdirib aşağıdakı təklifləri vermək olar:

- kənd təsərrüfatı məhsullarının istehsalının ümumi həcmini artırmaq;
- məhsuldarlığı artırmaq;
- kənd təsərrüfatında yeni texnika və texnologiyadan istifadə etmək;
- modernləşdirmə prosesinə dövlət köməyinin artırılması.

**Ədəbiyyat**

1. H.A.Xəlilov. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti. Bakı, 2005, 228 səh.
2. Həmzə Ağakişi oğlu Xəlilov. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, 2001, 176 s.
3. Anar Fazil oğlu Abbasov. Ərzaq təhlükəsizliyi. Bakı, 2007, 602 s.
4. Azərbaycanın kənd təsərrüfatı. Rəsmi nəşr. Statistik məcmuə. Bakı, 2011.
5. Azərbaycanın ərzaq balansları. Statistik məcmuə. Bakı, 2012.
6. stat.gov.az
7. aqrolizinq.com
8. agro.gov.az
9. anfes.gov.az

***Гюнай Меджидова***

**Роль аграрной модернизации в обеспечении продовольственной безопасности**

**Резюме**

Продовольственная безопасность является одной из главных целей аграрной и экономической политики государства. В статье рассмотрены состояние сельского хозяйства в стране и меры по его развитию, обеспечению продовольственной безопасности. Проанализирована необходимость аграрной модернизации с целью полного обеспечения продовольственной безопасности и деятельность государства в этом направлении.

***Ключевые слова: национальная экономическая безопасность, продовольственная безопасность, сельское хозяйство, аграрный сектор, модернизация.***

***Gunay Majidova***

**The role of agricultural modernization in ensuring food security**

**Summary**

Food security is one of the main objectives of the agrarian and economic policy. In the article the current situation of agriculture in the country, measures for its development, ensuring food security. Analyzed the need for agricultural modernization in order to fully ensure food security and the activities of the State in this direction.

***Key words: national economic security, food security, agriculture, agricultural sector, the modernization.***

**UOT 338. 43**

***Elmidar Bəbir oğlu ƏLƏKBƏROV,***
***Rahib Ağagül oğlu SAİLOV,***
***Elsevər Baba oğlu FƏRZƏLİYEV,***
***Əli Həmid oğlu HƏMİDOV,***
***Azərbaycan Kooperasiya Universiteti***

# AZƏRBAYCANDA YETİŞDİRİLƏN BİR SIRA MEYVƏ VƏ GİLƏMEYVƏLƏRİN SAXLANMASININ STANDARTLAŞDIRILMASININ İQTİSADİ SƏMƏRƏLİLİYİ

**Xülasə**

Tədqiqatda Azərbaycanda yetişdirilən bir sıra meyvə və giləmeyvələrdən istifadə etməklə, onların saxlanmasına təsir edən amillər öyrənilmiş, iqtisadi səmərəlilik və keyfiyyət üstünlüyü əldə etməklə ilk dəfə olaraq meyvə və giləmeyvələrin saxlanması üçün tövsiyələrin və standartların hazırlanmasına cəhd göstərilmişdir. Tədqiqatın məqsədi meyvə və giləmeyvələrin saxlanma texnologiyasını sadələşdirmək, xərcləri azaltmaq, texniki sənədlərdə əksini tapmış işləmələrin keyfiyyətini yüksəltmək və onun səviyyəsi üzərində nəzarəti yüngülləşdirməkdən ibarət olmuşdur.

***Açar sözlər: meyvə, giləmeyvə, saxlanma, standartlaşdırma, iqtisadi səmərəlilik.***

## Giriş

Meyvə və giləmeyvələrin yüksək keyfiyyətdə saxlanması hesabına onların hər tonundan əhəmiyyətli miqdarda gəlir əldə etmək olur. Bu günə qədər meyvə və giləmeyvələrin saxlanma məsələləri kifayət qədər öyrənilməmişdir. Ədəbiyyatlarda gətirilən eksperimentlər göstərir ki, rəqabətədavamlı, texniki səviyyəsinə görə avrostandartlara yaxın meyvə və giləmeyvələrin rejimlərlə saxlanma standartlarının, həmçinin məhsul üçün saxlanmada tipli proseslərə nəzarətin yeni standartlar nəslinin yaradılmasını tələb edir. Bununla əlaqədar olaraq məhsulun uzun müddət ərzində saxlanması hesabına iqtisadi səmərəni təmin edən yeni metodların işlənməsi zərurəti ortaya çıxır.

***

**Standartlaşdırmanın iqtisadi səmərəliliyi.**

Standartlaşdırma üzrə işlərin səmərəliliyi Dövlət standartın tövsiyələrinə uyğun təyin edilir.

İşlərin səmərəliliyi dedikdə, bu, standartlaşdırma üzrə işlərin nəticələrinin xalq təsərrüfatında tətbiqindən alınan ictimai (xalq təsərrüfatının) səmərənin, onların tətbiqi ilə əlaqədar olan xərclərə nisbətidir.

Standartlaşdırma üzrə işlərin səmərəliliyinin təyini aşağıdakı məqsədlər üçün aparılır:

- standartlaşdırma üzrə konkret işlərin (yeni standartın işlənməsi, qüvvədə olan standarta yenidən baxılması, yaxud ona əlavələr edilməsi) dövlət və dövlətlərarası standartlaşdırma planına daxil edilməsinin məqsədəuyğunluğunun əsaslandırılması;
- standartlara daxil edilən tələblərin daha optimal variantlarının seçilməsi;
- standartlaşdırma sahəsində fəaliyyətin nəticələrinin qiymətləndirilməsi.

Standartlaşdırma üzrə işlərin səmərəliliyi onun aşağıdakı əsas növlərində ifadə olunur:

1) iqtisadi;
2) texniki və (yaxud) informasiya;
3) sosial.

İşlərin iqtisadi səmərəlilik göstəriciləri kimi aşağıdakılardan istifadə edilir:

*Qənaət (Q)* ˜ konkret standartın (standartlar qrupunun) tətbiqi ilə əlaqədar, ölkənin xalq təsərrüfatında standartlaşdırılan məhsulların (xidmətlərin) vahidinə edilən xərclər cəminin azalma həcmi;

*Xərclər (X)* ˜ konkret standartın (standartlar qrupunun) tətbiqi ilə əlaqədar ölkənin xalq təsər-

rüfatında standartlaşdırılan məhsulların (xidmətlərin) vahidinə edilən xərclər cəminin artım həcmi;

*Məhsul (xidmət) vahidinin iqtisadi səmərəsi.* Bu, standartlaşdırılan məhsul (xidmət) vahidinin istehsalı, dövriyyəsi, tətbiqi (istismarı) və ütülləşməsi zamanı qənaət (Q) və xərclər (X) arasındakı fərqlə təyin edilən xərclərin yekunu, xərclərin azalma həcmidir;

*Standartlaşdırma üzrə işlərin iqtisadi səmərəliliyi* - bu, konkret standartın (standartlar qrupunun) tətbiqi ilə əlaqədar olaraq ölkənin xalq təsərrüfatında iqtisadi səmərənin və xərclərin nisbətidir.

İqtisadi səmərənin təyin edilməsi aşağıdakı standart növlərinin işlənməsi və tətbiqi zamanı istifadə edilməsi tövsiyə olunur:

1) texniki tələblər yaxud texniki şərtləri qoyan məhsullar və xidmətlər üçün standart;

2) işlər (proseslər) üçün standart;

3) nəzarət metodu üçün standart.

Aşağıdakı misallar standartlaşdırmanın iqtisadi səmərəliliyinə sübutdur. Belə ki, soyuducuların istehsalında dövlət standartının tətbiqi hər bir soyuducudan ildə 200 kvt enerji qənaət etməyə imkan verir. Soyuducunun hər ailədə olmasını nəzərə alsaq, bu hesabla elektrik enerjisinə qənaət ölkədə yeni elektrik stansiyasının istehsal həcminə ekvivalent olar. Material və məmulatların korroziyaya, köhnəlməyə və biozədələnməyə qarşı müdafiə sahəsində standartlar kompleksinin işlənməsi və tətbiqi bu sahədə itkilərin 2% azalmasına imkan verdiyi üçün bu ildə 600-800 mln. şərti vahidə ekvivalent olmuş olar.

Texniki və (yaxud) sosial səmərəliliyin təyin edilməsinin əsasverici (təşkilati, texniki və ümumtexniki) standartlar üçün aparılması tövsiyə olunur.

*Standartlaşdırma üzrə işlərin texniki səmərəliliyi*, standartın tətbiqi nəticəsində alınan texniki səmərənin nisbi göstəriciləri ilə ifadə oluna bilər: məsələn, təhlükəsizlik səviyyəsinin artımında, zərərli təsirlərin və tullantıların (çirkabların) azalmasında, istehsalın material yaxud enerji tutumunun yaxud istismarının aşağı salınmasında, ehtiyatların, etibarlılığın və s. yüksəldilməsində.

*Standartlaşdırma üzrə işlərin informasiya səmərəliliyi* - cəmiyyətə lazım olan qarşılıqlı anlaşmanın əldə edilməsində, informasiyanın (terminlər və təyinlər üçün olan standartlar və s.) verilmə və qavrama vəhdətliyində, o cümlədən təsərrüfat subyektlərinin fəaliyyətinin biri digəri ilə müqavilə hüquq münasibətlərində, dövlət idarəetmə orqanlarının, beynəlxalq elmi-texniki və ticarət-iqtisadi münasibətlərində ifadə oluna bilər.

Sosial səmərəlilik məhsullar (proseslər və xidmətlər üçün təcrübədə həyata keçirilən məcburi tələblər, əhalinin həyat səviyyəsində və sağlamlığında, həmçinin digər sosial əhəmiyyətli aspektlərdə müsbət təsirini göstərir.

İstehsalatda zədələnmə göstəricilərinin və xəstəlik səviyyəsinin aşağı düşməsi, yaşama müddətinin yüksəlməsi, sosial-psixoloji iqlim şəraitinin yaxşılaşması və s. ilə ifadə olunur.

Bir qayda olaraq standartlaşdırmanın sosial səmərəsini birbaşa hesablamaq mümkün deyildir. Təsadüfi deyil ki, standartlar kompleksinin işlənməsi və tətbiqi (fərz edək, uşaq qidasına), yeri gəlmişkən pul vəsaitinin qənaətinə imkan verir, hətta o əlavə xərclər tələb edir. Lakin standartlaşdırma işlərinin nəticəsində alınmış körpələrin sağlamlığının yaxşılaşdırılma səmərəsi güclü sosial nailiyyətdir.

Bu səmərəni Azərbaycanda yetişdirilən meyvə və giləmeyvələrin saxlanmasının standartlaşdırılmasından da əldə etmək olar.

Ölkə əhalisinin il boyu fasiləsiz təzə meyvə və giləmeyvə ilə təchizatı, meyvə və giləmeyvələrin uzun müddət xüsusi meyvə anbarlarında saxlanmasının təşkili vasitəsi ilə mümkündür. Son illər meyvə anbarlarının tikintisi meyvə yetişdirilən yerlərdə daha çox genişlənir. Perspektivdə 60-70% yığılmış alma və armud sortlarının məhsulu ixtisaslaşdırılmış meyvəçilik təsərrüfatlarında saxlanması nəzərdə tutulur. Meyvə və giləmeyvələrin yetişdirilən yerlərdə onların saxlanmasının təşkili, dərimdən sonra onları daha tez soyutmaq mümkün olduğundan, onların saxlanma müddətini uzatmağa və qiymətli məhsulun itkisini azaltmağa, payız daşımalarının nəqliyyat xərclərini

aşağı salmağa imkan verir. O həmçinin meyvələrin qış və yaz aylarında satışını, fəsli istehlakını bərabərləşdirir, itkilərin və təzə meyvələrə qoyulan qiymət fərqinin azaldılması sayəsində iqtisadi səmərəni təmin edir. Yüksək keyfiyyətdə saxlanma hesabına meyvələrin hər tonundan əhəmiyyətli miqdarda gəlir əldə etmək olur. Buna baxmayaraq bu günə qədər meyvə və giləmeyvələrin saxlanma məsələləri kifayət qədər öyrənilməmişdir. Ədəbiyyatlarda gətirilən eksperimentlər göstərir ki, rəqabətədavamlı, texniki səviyyəsinə görə avrostandartlara yaxın meyvə və giləmeyvələrin rejimlərlə saxlanma standartları, həmçinin məhsul üçün saxlanmada tipli proseslərə nəzarətin yeni standartlar nəslinin yaradılmasını tələb edir. Bununla əlaqədar olaraq məhsulun uzun müddət ərzində yaxşı saxlanmasını təmin edən yeni metodların işlənməsi zərurəti ortaya çıxır.

Xalq təsərrüfatı vəzifələrinin həllində perspektiv istiqamətlərdən biri kənd təsərrüfatı məhsullarının tənzimlənən qaz mühitində saxlanmasının təmin edilməsidir. Çünki məlum metodla adi mühitdə, aşağı temperaturda, polietilen qablarda, kisələrdə və s. saxlanma meyvələrin lazımi əmtəə keyfiyyətini və bioloji dəyərli maddələrinin saxlanmasını təmin etmir. Məlum olduğu kimi, meyvə və giləmeyvələrin tədarük dövrü 2-3 ay təşkil edir. Bunların daxil olmasında, ona daha böyük tələbat olan qış dövründə fəsilliyin ləğv edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda yetişdirilən perspektiv nar sortları, qızıləhmədi alması, gec yetişən armud, qara və qırmızı qarağat, çay tikanı və üzümün müqayisəli əmtəəlik xarakteristikası və uzun müddət saxlanma imkanları göstərir ki, respublikamızın pərakəndə ticarət şəbəkələri vasitəsi ilə ixrac edilən həmin o göstərilən meyvə və giləmeyvələrin yaxşı saxlanma qabiliyyəti eyni deyildir.

**Saxlanmada məhsulun keyfiyyətinə təsir göstərən amillərin səmərəsi.**

Saxlanmada meyvə və giləmeyvələrdə gedən proseslər, meyvə və giləmeyvələrin əmtəə keyfiyyətinə və istehlak dəyərinə böyük təsir göstərir.

Hazırda meyvələrin və yabanı giləmeyvələrin həcminin artırılması, onlardan kompleks istifadə edilməsi yolu ilə səmərənin əldə edilməsi kooperatorlar qarşısında duran əsas vəzifələrdən biridir.

Bu, giləmeyvələrin münasib emal üsullarının, xammalların tərkibinin və xassələrinin dərin öyrənilməsi əsasında tapıla bilər.

Məqsəd Azərbaycanda yetişdirilən bir sıra meyvə və giləmeyvələrdən istifadə etməklə, onların saxlanmasına təsir edən amilləri öyrənmək, iqtisadi səmərəlilik və keyfiyyət üstünlüyü əldə etməklə ilk dəfə olaraq meyvə və giləmeyvələrin saxlanması üçün standartlar və uyğunluğun qiymətləndirilməsi sxemlərini hazırlamaqdan ibarətdir.

Nəticə olaraq meyvə və giləmeyvələrin saxlanma texnologiyasının sadələşdirilməsi, xərclərin azaldılması, texniki sənədlərdə əksini tapmış işləmələrin keyfiyyətinin yüksəldilməsi və onun səviyyəsi üzərində nəzarətin yüngülləşdirilməsi gözlənilir.

İşin birinci mərhələsində plana uyğun 2011-ci ildə ədəbiyyat mənbələrinə istinadən bu sahədə istər ölkə, istərsə də xaricdə əldə edilmiş elm və texnikanın nailiyyətləri nəzərə alınmaqla, seçilmiş metodikaya əsasən meyvə və giləmeyvələrin saxlanmasına təsir göstərən amillər öyrənilmişdir.

2012-ci ildə aparılan tədqiqatlarda təcrübə materialı qismində bir-birindən torpaq, iqlim şəraiti ilə fərqlənən perspektiv nar sortları, qızıləhmədi alması, gec yetişən armud, qara və qırmızı qarağat, çay tikanı, üzüm istifadə edilmişdir.

2012-ci ildə aparılan işdə modifikasiyalı və adi mühitdə saxlanan meyvə və giləmeyvələrdə üzvi turşuların kəmiyyət və keyfiyyət tərkibi və onlarda gedən dəyişikliklərin bir illik təcrübəsinin nəticələri verilir.

İşdə saxlanmanın məlum metodlarından (adi mühitdə, aşağı temperaturda, polietilen qablarda, kisələrdə və s.) istifadə edilmişdir.

Meyvə və giləmeyvələrin əmtəə keyfiyyəti “Satış yerində almaların ekspertizasının aparılması metodikası” ilə və QOST 21122-75 standartının tələblərinə uyğun təyin edilmişdir.

Tədqiqat məqsədi ilə dağətəyi zonada yetişdirilən 2010-2011-ci ilin məhsulu olan armudlar götürülmüşdür. Tədqiqat illərində meyvələrin vegetasiya dövründə havanın temperaturu bir o

qədər də fərqli olmamışdır. Saxlanmaq üçün armudlar oktyabr ayında quru havada dərim yetişkənliyi dövründə yığılmışdır. Modifikasiyalı mühit yaratmaq üçün laborator şəraitində üç variantda müxtəlif sahəsi olan qaz mübadiləsi tənzimlənən polietilen konteynerlərdən istifadə edilmişdir.

Armud olan konteynerlərdə qaz mübadilə qurğusunun sahəsindən asılı olaraq üç qaz mühiti yaradılmışdır (üç saxlanma variantı). Hər bir konteynerə meyvə ilə 10-15 kq yerləşdirilmişdir. Nəzarət üçün yeşiklərdə qablaşdırılmış armudlar temperaturu 1+40, nisbi hava nəmliyi 80-90% olan konteynerlərdə saxlanılırdı.

Saxlanma prosesində konteynerlərin qaz mühitinin tərkibi təyin edilmişdir.

Meyvələrdə titirlənən turşuluq və üzvi turşuların miqdar tərkibi dərim vaxtı və saxlanmanın sonunda təyin edilmişdir: turşuluq 0,1 NaOH ilə titirlənməklə, turşuların miqdar tərkibi isə kağız üzərində xromatoqrafiya ilə.

Müəyyən edilmişdir ki, tədqiq edilən armudların titirlənən turşuluq səviyyəsi sortdan və yetişmə mühitindən asılı olaraq 0,16 - 0,40% arasında tərəddüd edir.

Dağətəyi zonada yetişdirilən modifikasiyalı və adi mühitdə saxlanan armudlarda üzvi turşuların tərkibi və dinamikası göstərmişdi ki, tədqiq edilən armud sortlarında alma, limon, yantar, çaxır turşuları vardır. Ayrı-ayrı turşuların miqdar tərkibi sort xüsusiyyətlərindən, vegetasiya dövrünün hava mühitindən və saxlanma şəraitindən asılıdır. Bu halda armudlarda alma turşusu üstünlük təşkil edir. Vegetasiya dövründə havadan və meyvələrin sortundan asılı olaraq o 129,4 - 296, 2 mq%, yaxud armudlarda olan bütün turşuların 65-81,9%-ni təşkil edir.

Modifikasiyalı mühitdə saxlanan armudlarda turşuların ümumi miqdarı nəzarətə nisbətən çox olmuşdur. Bu fərq başlıca olaraq alma turşusunun daha çox saxlanması ilə səciyyələnir. Birinci variantla saxlanmada olan armudlarda alma turşusunun itkisi 1,5-2,0 dəfə az olmuşdur.

İkinci variantla saxlanan meyvələrdə alma turşusunun azalması, birinci variantla saxlanan armudlara nisbətən bir qədər çox olmaqla 41,1-29,9 təşkil etmişdir. Alma turşusunun sərfi üçüncü variantla saxlanan meyvələrdə daha çox müşahidə edilmişdir. Lakin bu itkilər nəzarətdə olan meyvələrə nisbətən az olmuşdur.

Saxlanma prosesində 2011-ci ildə dərilmiş armudlarda üzvi turşuların dəyişmə tendensiyası 2012-ci ildə dərilmiş armudlarda olduğu kimi olmuşdur.

Bir sıra alimlər modifikasiyalı mühitdə saxlanan alma meyvələrində alma turşusunun kontrolda olan meyvələrə nisbətən az aşağı düşməsini müşahidə etmişlər (Kollao D. Nature, 204, n. 4960, 1964.). Bu da təcrübəmizlə üst-üstə düşür.

Bunlar göstərir ki, armudlarda üzvi turşuların toplanma xarakterinə yetişdirmə şəraiti təsir göstərir. Az yağmurlu illərdə, yağmurlu illərə nisbətən daha çox turşu toplanır.

Məlum olduğu kimi, armudların əsas üzvi turşuları alma, limon, yantar və çaxır turşusudur. Qaz mühitinin tərkibi armudlarda turşuların dinamikasına təsir göstərir.

Modifikasiyalı mühitdə saxlanan armudlarda olan turşuların az sərf edilməsi, onların dadının yaxşı saxlanmasına, meyvələrin fizioloji xəstəliklərə az tutulmasına səbəb olur ki, bu da onların saxlanma müddətinin uzadılması ilə əlaqədardır.

Məlum olduğu kimi, saxlanmada almalarda gedən proseslər, meyvələrin əmtəə keyfiyyətinə və istehlak dəyərinə böyük təsir göstərir. Bu məqsədlə İsmayıllı rayonunda yetişdirilən qızıləhmədi və Quba rayonunda yetişdirilən simerinko almalarının müqayisəvi əmtəə xarakteristikası və uzun müddət saxlanma imkanları öyrənilmişdir.

İşin məqsədi göstərilən almaların əmtəə keyfiyyətini, istehlak dəyərini və kimyəvi tərkibini öyrənməkdən ibarət olmuşdur.

Seçilmiş rejim və saxlanma müddətləri almaların İsmayıllıdan və Qubadan nəql edilməsi şərtləri ilə təyin edilmişdir. Saxlanma 30 gün müddətində iki temperatur rejimlərində (+1,5$^0$ C və 6-8$^0$ C, 85-95 % nisbi nəmlikdə) həyata keçirilmişdir.

Almaların əmtəə keyfiyyətinin təhlili göstərmişdir ki, simerinko sortundan olan meyvələrin lət

hissəsində 2%-ə qədər tündləşmə və 0,31% tullantı aşkar edilmişdir. Hər iki rayondan olan meyvələrin istehlak dəyəri yüksək, keyfiyyət səviyyəsi əla olmuşdur.

Almalar 30 gün müddətində saxlanan zaman, saxlanma temperaturundan asılı olmayaraq, onların əmtəə keyfiyyətində əhəmiyyətli dəyişiklik müşahidə edilməmişdir. Bu həmçinin orqanoleptik (tədqiq edilən almalar bütün göstəricilər üzrə yüksək qiymətləndirilməklə, keyfiyyət səviyyəsi əla olmuşdur) nəticələrlə təsdiqlənmişdir. $+2^0$ C-də saxlanılan meyvələrin kütləsinin azalması simerinko almalarında 1,1 % , qızıləhmədidə 0,9 % təşkil etmişdir. $+6\text{-}8^0$ C-də hər iki meyvənin kütlə azalması nisbətən çox olmaqla birincidə 1,7% , ikincidə 1,3% olmuşdur. Alınmış məlumatlardan o qənaətə gəlmək olar ki, temperaturu $+6\text{-}8^0$ C-dən $+2^0$ C-dək aşağı salmaqla almaların saxlanması zamanı onların kütləsini iki dəfə azaltmaq olar.

Saxlanmadan sonra meyvələrin əmtəə keyfiyyətində əhəmiyyətli dəyişiklik müəyyən edilməsə də, onlarda yetişkənlik prosesləri getməkdə davam edirdi.

Əmtəə keyfiyyətinin, istehlak dəyərinin nəticələri və biokimyəvi təhlil deməyə imkan verir ki, hər iki rayondan nəql edilən meyvələr yaxşı nəql olunma, yüksək dad keyfiyyətinə malik olmaqla, onlar saxlanma zamanı azalmır.

Bu halda meyvələrin keyfiyyət göstəricilərinin iki temperatur rejimində ($+1,5^0$ C-də və $6\text{-}8^0$ C-də) saxlanması zamanı dəyişikliklərin olması müşahidə edilir.

Tədqiqat zamanı giləmeyvə qismində qara və qırmızı qarağat meyvələrinin soyutma kamerasında $+1,5\text{-}+5^0$ C temperaturda saxlanan zaman keyfiyyətinin dəyişilməsi öyrənilmişdir. Giləmeyvələr istehlak yetişkənliyi dövründə götürülmüşdür. Yığımdan sonra meyvələrin əmtəə sortlaşdırılmasının nəticələri göstərdi ki, tədqiq edilən meyvələr bioloji xüsusiyyətlərindən asılı olaraq keyfiyyətinə görə əhəmiyyətli dərəcədə fərqlənirlər.

Müəyyən edilmişdir ki, saplağı qırılmış və mexaniki zədələnmiş meyvələrin miqdarı qara və qırmızı qarağatda eyni miqdarda olmuşdur.

Bu halda onlar orqanoleptik, fiziki göstəricilərinə və kimyəvi tərkibinə görə müəyyən qədər fərqlənmişlər.

Açıq tarada saxlanmanın vəziyyətinə nəzarət göstərdi ki, birinci ilk 10 gün ərzində meyvələrin əmtəə görünüşü bir o qədər dəyişmir.

Üçüncü gün qırmızı qarağatda, dördüncü gün qara qarağatda yalnız təbii iy zəifləyir. Beşinci gün saplağın qırılma yerində meyvələrin qismən zəifləməsi müşahidə olunur. Saxlanmanın doqquzuncu günü qırmızı qarağatın təbii iyi qara qarağata nisbətən daha çox saxlanmış olur. Bu halda meyvələrin hər ikisində dad nəzərəçarpan dərəcədə turşumuş olur. Sonrakı saxlanma zamanı tara ilə təmas xəttində meyvələrin üzərində maya hüceyrələrinin toplanması müşahidə olunur. Bununla eyni vaxtda kənar iy hiss olunmağa başlayır. Müəyyən edilmişdir ki, 12-16-cı gün meyvələrin orta qatında misellər əmələ gəlir. Meyvələr zəif hiss olunan kif iyi alır.

Beləliklə, giləmeyvələrin soyutma kamerasında $+3\text{-}+5^0$ C temperaturda saxlanma təcrübəsi, meyvələri 10 günə qədər saxlamağı tövsiyə etməyə imkan verir.

Qızıləhmədi və simerinko almalarının müxtəlif üsullarla emal edilərək saxlanması zamanı xarakteristikaları təhlil edilmişdir. Bunun üçün tənzimlənən qaz mühitində, həmçinin əlavə müdafiə təbəqəsi yaratmaq məqsədi ilə funqisid xassələrə malik sorbin turşusu əlavə etməklə polivinil spirtlə işləndikdən sonra saxlanmağa qoyulmuş almaların mikroflorası və əmtəə keyfiyyəti öyrənilmişdir. İşin məqsədi mikrobioloji təhlildən istifadə etməklə, meyvələrin göstərilən emal və saxlama metodlarının səmərəliliyini təyin etməkdən ibarət olmuşdur.

Almaların əmtəə keyfiyyətinin təhlili QOST 21122-75 standartı üzrə aparılmışdır.

Tədqiqatla müəyyən edilmişdir ki, almaların 1 $sm^2$ səthində mikroorqanizmlərin miqdarı çox geniş hədlərdə tərəddüd edir. Tərəddüd əmsalı qızıləhmədi almasında - 6%, simerinkoda - 3,6 % olmuşdur. Bu halda, saxlanmaya qoymazdan əvvəl qızıləhmədi və simerinko almalarının mikrobla sirayətlənməsinin orta hesablama göstəricilərinin, ümumilikdə götürülmüş göstəricilərə nisbətən

əhəmiyyətli fərqi olmamışdır.

Aşkar edilmişdir ki, hər iki alma sortunun epifit mikroflorasının tərkibində ilk əvvəl basillər, mikrokoklar, mayalar üstünlük təşkil edir. Bu halda meyvələrin səthindən ayrılmış aktinomisetlərin növ tərkibinin müxtəlifliyi özünü cəlb edirdi. Qızıləhmədi alması üçün ağ və sarı aktinomisetlər, simirenko alması üçün isə yaşıl salat rəngli digər növ aktinomisetlər xarakterik olmuşdur. Bu halda bakterial mikroflora, kif göbələklərinin miqdarına nisbətən üstünlük təşkil etməklə, hər 1 $sm^2$-ə tək-tək hüceyrələrdən tutmuş 103 arasında tərəddüd edirdi. Tək-tək meyvələrdə bağırsaq çöpləri tapılmışdır.

Almaların saxlanma prosesində epifit mikroflorasında miqdar və keyfiyyət dəyişiklikləri müşahidə edilmişdir. Belə ki, 37-ci gündə qızıləhmədi meyvələrinin ümumi mikrobla sirayətlənməsi aşağıdakı kimi olmuşdur: nəzarətdə olan almalarda 1,4-103, polivinil spirtlə emal edilmiş almalarda isə -2,9 -102; simerinko almalarında mikroorqanizmlərin ümumi miqdarı müvafiq olaraq -8,7-103 və 4 - 105 olmuşdur.

3 ay saxlandıqdan sonra standart meyvələrin miqdarı qızıləhmədidə 90,1%, simerinkoda 91,9% aşağı düşmüşdür; müvafiq olaraq çürümüş almaların miqdarı 4,9 və 3,4% təşkil etmişdir. Saxlanma üsulundan asılı olaraq meyvələrin saxlanmadan əvvəl və sonra, satışqabağı əmtəə keyfiyyətinin müqayisəvi xarakteristikası göstərmişdir ki, əvvəlcədən emal edilməmiş nəzarətdə saxlanan almalarda itkilər daha çox olur. Həmçinin tənzimlənən qaz mühitində saxlanan simerinko almalarının keyfiyyətinin kəskin aşağı düşməsi müşahidə edilmişdir. Güman ki, bu, meyvələrdə gedən çaparaq (sürətli qocalma) fizioloji proseslərlə əlaqədardır. Bununla əlaqədar olaraq simerinko almalarının tənzimlənən qaz mühitində saxlanması tövsiyə olunmur. Eyni zamanda qızıləhmədi alması tərkibində sorbin turşusu olan spirtli polivinil məhlulu ilə işləndikdən sonra daha yaxşı saxlanma qabiliyyətinə malikdir.

Çürümüş meyvələrin təhlili göstərdi ki, hər iki növdən olan almaların çürüməsinin törədiciləri penisillium növündən olan kif göbələkləri (70-90%), az dərəcədə digər növ göbələklər - Botritis, Alternaria (15%-ə qədər) olmuşdur. Ayrılmış kulturların eyniləşdirilməsi zamanı müəyyən edilmişdir ki, meyvələrin xarab olmasında üstünlük əsasən monokulturda, penisillium ekspansum yaxud Penisillium diqitatumda, həmçinin digər növ göbələklərin qarışığında olan törədiciləri də olmuşdur. Hər iki növ penisilliumun almaların bakterial mikroflorasına münasibətdə kəskin nəzərə çarpan antoqonist xassələri olmuşdur. Sonralar bu, təmiz kulturlarda təsdiq edilmişdir.

Beləliklə, almaların saxlanması zamanı epifik mikroflorasının miqdar və keyfiyyət dəyişiklikləri baş verir.

Meyvələrin mikrobla ilkin sirayətlənməsi güman ki, onların yetişdirilmə yerindən asılıdır və sort üçün özünəməxsus spesifik xüsusiyyətləri vardır. Belə ki, qızıləhmədi almalarında ağ və sarı aktinomisetlər, simerinkoda digər növdən olan yaşıl salat aktinomisetləri üstünlük təşkil edirdi.

Saxlanmaya qoyarkən almaların səthindən götürülən mikroorqanizmlərin əksəriyyəti baçillyus və mikrokokkus növünə aid edilirdilər.

Yuxarıda göstərilənlərdən o qənaətə gəlmək olar ki, soyutma kamerasında almaların saxlanması zamanı meyvələrdə mikroorqanizmlərin bakterial formalarını dəf edən kif göbələklərinin artması istiqamətində epifit mikroflorasının miqdar və keyfiyyət tərkibinin dəyişməsi müşahidə edilir.

Pomoloji sortdan olan almaların xarab olmasının əsas törədiciləri monokulturda yaxud digər göbələk növləri ilə kif göbələyi sayılan penisillium ekspansum olmuşdur.

Kif göbələklərinin və mayaların inkişafını saxlayan sorbin turşusu əlavə edilmiş polivinil spirtlə almaların emalı (işlənməsi) meyvələrin daha yaxşı saxlanmasına təsir edir.

Qızıləhmədi almalarında göbələklərin inkişafı saxlanmanın digər üsullarına nisbətən tənzimlənən qaz mühitində daha zəif gedir.

## Nəticə

Tədqiq edilən armudların titirlənən turşuluq səviyyəsi sortdan və yetişmə mühitindən asılı olaraq 0,16 - 0,40% arasında tərəddüd edir. Üzvi turşuların toplanma xarakterinə yetişdirmə şəraiti təsir göstərir. Az yağmurlu illərdə, yağmurlu illərə nisbətən daha çox turşu toplanır.

Saxlanmada almalarda gedən proseslər, meyvələrin əmtəə keyfiyyətinə və istehlak dəyərinə böyük təsir göstərir. İsmayıllı rayonunda yetişdirilən qızıləhmədi və Quba rayonunda yetişdirilən simerinko almalarının müqayisəvi əmtəə xarakteristikası və uzun müddət saxlanma imkanlarının öyrənilməsi göstərdi ki, Simerinko sortundan olan meyvələrin lət hissəsində 2%-ə qədər tündləşmə və 0,31% tullantı aşkar edilmişdir. Hər iki rayondan olan meyvələrin istehlak dəyəri yüksək, keyfiyyət səviyyəsi əla olmuşdur. Temperaturu +6-8$^0$ C-dən +2$^0$ C-dək aşağı salmaqla almaların saxlanması zamanı onların kütləsini iki dəfə azaltmaq olar. Saxlanmadan sonra meyvələrin əmtəə keyfiyyətində əhəmiyyətli dəyişiklik müəyyən edilməsə də, onlarda yetişkənlik prosesləri getməkdə davam edirdi.

Əmtəə keyfiyyətinin, istehlak dəyərinin nəticələri və biokimyəvi təhlil deməyə imkan verir ki, hər iki rayondan nəql edilən meyvələr yaxşı nəqlolunma, yüksək dad keyfiyyətinə malik olmaqla, onlar saxlanma zamanı azalmır.

Giləmeyvələrin soyutma kamerasında +3-+5$^0$ C temperaturda saxlanma təcrübəsi, meyvələri 10 günə qədər saxlamağı tövsiyə etməyə imkan verir.

Soyutma kamerasında almaların saxlanması zamanı meyvələrdə mikroorqanizmlərin bakterial formalarını dəf edən kif göbələklərinin artması istiqamətində epifit mikroflorasının miqdar və keyfiyyət tərkibinin dəyişməsi müşahidə edilir.

Bazar iqtisadiyyatı şəraitində standartlaşdırma üzrə işlərin səmərəliliyi, həm prosesdə, həm də müxtəlif sahibkarlıq formalarında konkret subyektlərin həyata keçirdiyi təsərrüfat fəaliyyətinin nəticələrində özünü büruzə verir. Bunu bütün digər sahələrdə-elmi tədqiqatlarda və təcrübə-konstruktor işlərində, istehsalatda, dövriyyədə (ixracda), istismarda və ütilləşmədə görmək olar.

## Ədəbiyyat

1. “Meyvə və giləmeyvələrin əmtəə keyfiyyəti. Satış yerində almaların ekspertizasının aparılması metodikası”. QOST 21122-75 standartı.
2. Kollao D. Nature, 204, p. 49-60, 1964 .

*к.б.н., Э.Б.Алекберов,*
*к.т.н., Р.А.Саилов,*
*к.т.н., Э.Б.Фарзалиев,*
*А.Г.Гамидов,*
*Азербайджанский Университет Кооперации*

## Экономическая эффективность стандартизации хранения некоторых фруктов и ягодоплодных выращиваемых в Азербайджане

### Резюме

Используя некоторые фрукты и ягодоплодные, выращиваемые в Азербайджане, изучены факторы влияющие на их хранение. Впервые делается попытка разработать рекомендации и технические регламенты для закладки их в разрабатаваемые стандарты по храненияю фруктов и ягодоплодных позволяющих их длительному хранению.

Работа позволяет усовершенствовать технологию хранения фруктов и ягодоплодных, сокрашению затрат, повысить качество разработок отраженных в технических документах и упростить контроль над их уровнем.

***Ключевые слова: плоды, ягодоплоды, стандартизация, хранение, экономическая эффективность.***

***c.b.s., E.B.Alakbarov***
***c.t.s., R.A.Sailov***
***c.t.s., E.B.Farzaliyev***
***A.H.Hamidov***
***Azerbaijan Cooperation University***

# Based on the results of the research work on the storage standartization of fruits and berries in Azerbaijan

## Summary

In the research carried out according to the scientific research work plan registrated by state and confermed by “Standartization and technology” chair for 2011-2013 years the factors influencing on the storage of a member of fruits and berries groün in Azerbaijan are studied using these products, also the consulting for the storage of these goods getting their economic efficiency and quality priority and prepearing standards have been tried.

The porpose of the research consists of the simplifying the fruits and berries storage technology, reducing costs, increasing the quality of the works expressed in the technical documents and easying the control on its level.

***Key words: fruit, berry, storage, standartization.***

# REGİONAL İQTİSADİYYAT VƏ SAHİBKARLIQ FƏALİYYƏTİ

**UOT 334. 012**

***Elsevər Nəriman oğlu KƏRİMOV***
***Azərbaycan Kooperasiya Universiteti***
***doktorantura şöbəsinin müdiri, i.e.n., dosent***

## MÜASİR ŞƏRAİTDƏ SAHİBKARLIQ MÜHİTİNİN FORMALAŞMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Məqalədə müasir şəraitdə sahibkarlıq mühitinin formalaşması və inkişaf etdirilməsi məsələləri tədqiq edilir. Müəllif “Sahibkarlıq kateqoriyası”nın mənasını açıqlayır və sahibkarlığın əsas funksiyalarını araşdırır. Məqalədə, həmçinin, sahibkarlıq mühitinin formalaşmasının tənzimlənməsi məsələləri nəzərdən keçirilmişdir. Müəllif sahibkarlıq mühitinin formalaşması və inkişaf etdirilməsi məqsədi ilə müəyyən təklif və tövsiyələr işləyib hazırlamışdır.

***Açar sözlər: sahibkarlıq, formalaşma, funksiya, mühit və fəaliyyət.***

***

Sahibkarlıq fəaliyyəti fiziki şəxslərin, onların biliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədi ilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir.

Müasir dövrün iqtisadi sisteminə keçmiş, bazar münasibətlərini inkişaf etdirən və dərinləşdirən ölkələrin həyati təcrübələri göstərir ki, zəngin məzmuna və müxtəlif formalara malik olan sahibkarlıq fəaliyyəti hər bir subyektin kompleks tərəqqisinin əsas şərti və hərəkətverici qüvvəsidir. Onun subyekti olan sahibkar isə cəmiyyətin ən təşəbbüskar, çevik, riskli, iqtisadiyyata daim yenilik gətirən sosial təbəqədir. Sahibkarlar bu günlə gələcəyin əlaqələndiriciləri olmaqla elmi və texniki yeniliklərdən məharətlə istifadə edərək istehsal texnologiyalarının müasirləşdirilməsi, istehsalın təşkili və idarə edilməsi istedadlarını həyati təcrübədə dönə-dönə sınaqdan keçirərək mənimsəyir və gələcək nəslin bu sahədə bilik və həyati təcrübələrini genişləndirə bilməsinə imkan yaradır. Elə buna görə də sahibkarlar xüsusi istedada malik, müdrik və müstəsna insanlardır. Sahibkarlar əsas etibarilə lazımi vasitələri axtarıb tapan, əlverişli imkanı görən və onu yeni fikir, üsul və texnologiya işlətməklə əldən buraxmayan şəxslərdir. Geniş mənada sahibkarlıq yeni biznes sahələrinin yaradılmasına, mövcud müəssisələrin yenidən qurulmasına, yeni texnologiyanın tətbiq edilməsinə, ictimai və siyasi problemlərin həllinin nəticəsindən asılı olmayaraq bütün yenilikçi və yaradıcı təşəbbüslərə istinaddır.

A.Smit (1723-1790) sahibkarları öz istehsalını planlaşdıran, təşkil edən, onun nəticələri üzərində müstəqil sərəncam verən, mənfəət götürmək məqsədi ilə kommersiya ilə bağlı hər hansı bir ideyanı reallaşdırmaq üçün risk edən mülkiyyətçi kimi səciyyələndirmişdir.

Fransız iqtisadçısı J.B.Seyd (1863-1944) sahibkarı risk etməsinə baxmayaraq, mənfəət götürmək məqsədi ilə hər hansı bir məhsul istehsal edən şəxs kimi qələmə almışdır. Onun fikrincə mənfəət əldə etmək üçün sahibkarın yerinə yetirdiyi vəzifələr yaradıcı xarakter daşıyır.

Sahibkarlıq fəaliyyəti haqqında anlayışın formalaşmasında Avstriya iqtisadçısı Y.Şumpeterin (1883-1950) də müəyyən xidmətləri olmuşdur. O, sahibkarı yenilikçi adlandıraraq onun əsas vəzi-

fəsi kimi istehsal amillərinin yeni kombinasiyasına və beləliklə də iqtisadi tərəqqiyə nail olmağı irəli sürdü. O yazırdı ki, sahibkar olmaq digərlərinin edə bilmədiyini etmək, əvvəldən görə bilmək, köhnəliyə zidd çıxmaq, yenilik tapmaq və onu tətbiq etmək, qorxmadan risk etmək, qabaqcadan verilmiş proseslər əsasında deyil, həmin prosesləri özü müəyyən etmək qabiliyyətidir [1, səh. 234].

Fikirlərini şərh etdiyimiz alimlərlə razılaşmaqla bərabər, qeyd etmək lazımdır ki, sahibkarlıq məfoumu xüsusi elmi məna daşıyır. O, özünü sahibkar adlandıran hər bir şəxsin risklə həyata keçirdiyi elə fəaliyyəti özündə əks etdirir ki, burada onun birinci növbədə şəxsi mənafeyi vardır. Bu fikir ondan irəli gəlir ki, hər bir sahibkar fəaliyyətə başlayarkən birinci növbədə onu şəxsən bu işdən nə qədər mənfəət əldə edəcəyi düşündürür. Bu fikir ilk növbədə ətraf mühitdən, sahibkarın əhatə dairəsindən təcrid olunmuş şəkildə düşünülür və həyata keçirilməyə başlarır. Bizim fikrimizcə sahibkarlar cəmiyyətin, yaşadıqları ölkənin, ərazinin ən bacarıqlı, düşünən, hər bir çətinliyə dözən, o vəziyyətdən çıxmağı bacaran insanlardır. Onlar qazanc əldə etmək məqsədi ilə başqalarının ehtiyacını ödəyə biləcək mallar istehsal etməyə, iş və xidmətlər yerinə yetirməyə çalışan və bu məqsədlə də xalq təsərrüfatının bütün sahələrində istehsal amillərindən ən səmərəli şəkildə istifadə etməyi bacaran şəxslərdir. Elə buna görə də bir çox iqtisadçılar haqlı olaraq sahibkarları istehsal amillərindən biri hesab edirlər. İqtisadçıların bu fikri sahibkarların özlərinin bir istehsal amili kimi təbii sərvətləri, əməyi və sərmayəni bir araya gətirib məhsul istehsal edən və xidmətlər yerinə yetirən, öz fəaliyyətlərinin nəticələrini bazara çıxarıb, satıb qazanc əldə etmək qabiliyyətinə malik olmalarından irəli gəlir. Məhz elə buna görə də xalq arasında sahibkarlar işi bilən, bacarıqlı, cəsur, başladığı işi layiqincə yerinə yetirən, işə ürəkdən girişə bilən, riskli bir adam kimi tanınır. Məhz axırıncı "riskli" məfhumu sahibkarı ali məqsədinə - qazanc, mənfəət əldə etməyə nail olmağa sövq edir. Sahibkar fəaliyyətə başlamaq üçün öz şəxsi vəsaitini, əməyini hətta öz şəxsi əmlakını belə riskə qoyur. Bu halda o ətraf mühitin, əhatə dairəsinin deyil, şəxsən özünün nəyi itirə və nəyi qazana biləcəyi haqda düşünür. Ona görə də qazanc-mənfəət əldə etmək sahibkarın ali məqsədinə çevrilir.

Bizcə sahibkar istehsal edib, iş və xidmətlər yerinə yetirib onları satmaq üçün sahib olduğu sərmayəni (kapital varlığını) təhlükəyə (riskə) qoyan və başqasının sərmayəsindən istifadə etmək məcburiyyətində qalan, həm təkbaşına, həm də başqasının əməyindən istifadə edərək çalışa bilən, insanların ehtiyaclarını, zövqlərini, imkanlarını qiymətləndirməyi bacaran şəxslərdir. Onlar eyni zamanda mövcud istehsal şəraiti ilə kifayətlənməyib, yeni, daha mütərəqqi yollarla fəaliyyət göstərmək bacarığına malik olan, məqsədyönlü fəaliyyətini həyata keçirmək üçün müəssisələr, firmalar, şirkətlər, təşkilatlar və s. yaradaraq yeni iş yerləri açan, yüksək idarəçilik qabiliyyətinə malik olan fəaliyyətin yüksək səmərəliliyinə nail olmağa qadir insanlardır.

Sahibkarlıq fəaliyyəti xüsusi mülkiyyətlə sıx əlaqədə baş verdiyi üçün o tarixi bir kateqoriyadır. Məhz buna görə də tarixən xüsusi mülkiyyət azad sahibkarlıq fəaliyyətinin iqtisadi əsası, sahibkarlıq fəaliyyəti isə müəyyən mənada xüsusi mülkiyyətin reallaşdırılma forması kimi çıxış etmişdir. Xüsusi mülkiyyətlə sahibkarlıq fəaliyyətinin bu qarşılıqlı əlaqəsi və birinin digərini tamamlaması xüsusiyyəti müasir dövrdə də öz əhəmiyyətini itirməmişdir.

Azərbaycanın demokratik dövlət quruculuğu, bazar iqtisadiyyatı və islahatlar yolu ilə irəliləməsi getdikcə geniş vüsət almaqdadır. Ölkədə ardıcıl aparılan islahatlar, eləcə də ölkə başçısının 11 fevral 2004-cü il tarixli fərmanı ilə təstiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)" da, məhz iqtisadi rayonların çox vacib problemlərinin həllini nəzərdə tutur. Yuxarıda qeyd edildiyi kimi, Dövlət Proqramının daha da konkretləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır [2]. Bu gün "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair (2009-2013-cü illər) Dövlət Proqramı" çərçivəsində ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ilkin məqsədlərindən və ən mühüm nəticələrindən biri də sahibkarlığın inkişaf etdirilməsi üçün əlverişli şəraitin formalaşdırılmasıdır. Bazar iqtisadiyyatının ayrılmaz atributlarından biri olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi

yolu ilə iqtisadiyyatı inkişaf etdirmək və beləliklə də əhalinin güzəranını yaxşılaşdırmaq günümüzün reallığından doğan bir zərurətdir. Regional inkişafa göstərilən diqqətin nəticəsidir ki, artıq ölkəmizdə torpaq islahatları, demək olar ki, başa çatmış və hazırda kənd təsərrüfatı məhsullarının 99%-i özəl bölmədə istehsal edilir. Ümumiyyətlə isə ölkə üzrə ÜDM-in 75%-i özəl sektorun payına düşür ki, bu da sektor üzrə 1995-ci ilə nisbətən 2.5 dəfə, 2003-cü ilə nisbətən 2% artım deməkdir [7; 8; 9].

Fərmandan belə nəticəyə gəlmək olar ki, kənd təsərrüfatında sahibkarlığı hərtərəfli inkişaf etdirməklə yanaşı, kənd təsərrüfatında sahibkarlığı hər tərəfli inkişaf etdirməklə yanaşı, sahibkarlıq fəaliyyətinin yeni situasiyaya uyğun məzmun elementlərinin və funksiyalarının öyrənilməsi də qarşıda duran əsas məsələlərdəndir.

Sahibkarlıq mühiti isə təkcə onda iştirak edən tərəflərin qarşılıqlı asılı olan fəaliyyətini deyil, həmçinin təsərrüfatda sahibkarlığa məxsus funksional əlaqə əlamətlərinin reallaşdırmağa imkan verən müəyyən şərtlərin olmasını da ifadə edir.

Sahibkarlıq funksiyalarının formalaşması, inkişafı və imkanlarına təsir edən amillər məcmusu sahibkarlıq mühitini təşkil edir. O, bir neçə mühüm elementdən ibarətdir.

İqtisadi cəhətcə azad olmaq sahibkarlıq mühitinin ən əsas müəyyənedici əlamətidir. Sahibkar üçün iqtisadi-azadlıq nəinki yalnız bu və ya digər fəaliyyət növü ilə məşğul olmaq, ehtiyatlarla və bazarlara bərabər surətdə malik olmaq imkanıdır, həm də bu ilk əvvəl sahibkarlıq fəaliyyətinin təsdiqidir.

Şəxsi maraq sahibkarlığın hərəkətverici motivi kimi çıxış edərək eyni zamanda bazar subyektlərinin fəaliyyətini istiqamətləndirən haldır. A.Smitin sözlərilə desək, “görünməz əl”dir. Buna görə də əldə olunmuşların mənimsənilməsi, gəlirin götürülməsi və yığılması sahibkarlıq mühitinin müəyyənedici şərtlərindəndir.

Bazar sahibkarlıq fəaliyyətinin tətbiqi sahəsi kimi işin əslində sahibkarlığın funksional əlamətlərinin reallaşdırılması imkanlarını məkanda müəyyən edir. Bazar infrastrukturları nə qədər çox inkişaf edibsə və yetkindirsə, onda sahibkar öz fəaliyyətində daha az maneçiliklə qarşılıqlı və deməli, onun potensialı daha tam açılmış olar. Əksinə, bazar təşkilatının inkişaf etməməsi sahibkarlıq fəaliyyətinin imkanlarını buxovlayır, onun yönümünü təhrif edir, sahibkarların bazar təşkilatının çatışmazlıqlarından istifadə etməklə əlavə gəlir götürmək cəhətinə təkan verir.

Hələlik bazarda rəqabət onu tənzimləyən əsas qüvvə kimi çıxış etmir. Mahiyyətcə o, şəxsin mənafeyinin reallaşdırılması hədlərinin təyin edilməsinin iqtisadi alətidir. Bazar təsərrüfatının xüsusiyyəti ondan ibarətdir ki, özü üçün iqtisadi azadlıq tələbləri çox zaman onu digərləri üçün məhdudlaşdırmaq cəhdi ilə bağlıdır. Buna görə də təsərrüfatın daha yaxşı nəticələri uğrunda mübarizə şəraitinin mühafizə edilməsi, sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması mühüm amildir. Belə ki, rəqabətin əsasında iqtisadi hakimiyyətin kifayət qədər geniş paylanması durur, onda sahibkarlıq mühitinin rəqabət xarakterinin saxlanılmasının başlıca vəzifəsi eyni əllərdə iqtisadi hakimiyyətin fövqəladə dərəcədə təmərküzləşməsinə yol verməmək və iqtisadiyyatdakı inhisarçı meyllərə qarşı durmaqdır. Belə bir hal iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi nəticəsində mümkün olacaqdır.

Bazar iqtisadiyyatında dövlətin tənzimləyici tədbirləri qaçılmazdır. Bununla yanaşı, dövlət sahibkarlıq mühitinin normal fəaliyyəti üçün bəzən müəyyən çətinliklər də törədir. Bu, birinci növbədə, sahibkarlığın iqtisadi azadlığın toxunulmazlığı məsələlərinə aiddir. Buna görə də başlıca problem dövlət müdaxiləsinin adekvat üsulları və formalarının, habelə onun zəruri olduğu sahələrin seçilməsindədir. Bazarın işləmədiyi, onun pozulduğu yerlərdə dövlətin iştirakı tamamilə zəruridir. Bazara məxsus informasiya dəyişmələri, şübhəsiz, müdaxilənin, yalnız elmi situasiyaya uyğun tənzimlənməsini tələb edir. Bazarların bütövlüyünün (Sığorta, risklər və s.) olmadığı halda dövlətin daha ciddi müdaxiləsi tələb olunur və o, vergilər və subsidiyalar vasitəsi ilə maliyyə tənzimlənməsinə əl atır. Hələlik aqrar sektorda dövlətin bu cür tənzimlənməsi özünün ilkin mərhə-

ləsində, formalaşdırma anındadır.

Dövlətin iqtisadiyyata müdaxiləsinin miqyas və formaları həm iqtisadi qayda (İqtisadiyyatın industrial inkişaf səviyyəsi, iqtisadi fəallıq səviyyəsi), həm də milli səciyyəvilik (cəmiyyətdə dövlətin ənənəvi rolu, sosial mentalitet) kimi bir çox amillərdən asılıdır. Birinin və ya o birisinin qəbul edilə bildiyini dəqiq müəyyən etmək mümkün deyildir. İnamla yalnız onu demək olar ki, təsərrüfat həyatına dövlət müdaxiləsi o dərəcədə özünü doğruldur və o formalarda yol verilə bilər ki, iqtisadi səmərəliliyin yüksəldilməsinə səbəb olsun. Buna görə istənilən halda onun müdaxiləsi məhdud olmalıdır.

Eləcə də sahibkarlıq mühiti yekcins deyildir. Onun ölçülərindən bəziləri sahibkarlıq fəaliyyətindən tamamilə asılı olmadan əmələ gəlir və öz üzərində onun təsirini hiss etmir. Eyni zamanda, bir sıra parametrlər sahibkarlıq fəaliyyətinin təsirlərinə kifayət qədər həssasdır. Beləliklə, sahibkarlıq mühiti sanki iki böyük sahədən ibarətdir. Onlardan birinin parametrləri sahibkarın təsirinə məruz qalmır və burada o, yalnız əmələ gələn şəraitə uyğunlaşa bilər. Digər tərəfdən isə əksinə. Məhz buna görə də sahibkarlıq mühiti sahibkarlıq fəaliyyətinin həm zəminidir, həm də obyektidir. Sahibkarlıq mühitinə uyğunlaşaraq və həm də onun təsiri altına düşəcək sahibkarlıq öz mühitini də dəyişmiş olur. Sahibkar daim onun fəaliyyətinin bu və digər tərəflərinə təsir göstərən ən müxtəlif amillərin təsiri altında olur. Bunlar-sahibkarlıq funksiyasının xassələrinin təzahürolunma imkanları və xarakterini müəyyən edən haldır və ya parametrlərdir (elementlərdir).

Müasir sahibkarlıqda kadrların insan amilinin artan əhəmiyyəti əmək resurslarının keyfiyyətinin yüksəldilməsinə qayğı göstərilməsini, əməyin qiymətləndirilməsinə və onun stimullaşdırılmasına digər yanaşmaları tələb edir. Digər tərəfdən, sahibkarlıq funksiyalarının təşkilatın müxtəlif səviyyələri üzrə dərin differensasiyası və paylanması onların birləşdirilməsi, qüvvələrin bir istiqamətdə cəmləşdirilməsi problemini doğurur. Təsadüfi deyil ki, kadrların idarə olunması "insan kapitalı"na ən qiymətli resurs kimi baxaraq daha çox strateji xarakter alır. Buna görə bu funksiyanın iqtisadi məzmunu əsasən işçilərdə sahibkarlıq fəaliyyətilə şəriklik hissinin formalaşmasına səbəb olur ki, yekunda məhz onun müvəffəqiyyətini təmin edir.

Başlıca rolu istehsalçı deyil, istehlakçının oynadığı yüksək rəqabətli bazar münasibətləri şəraitində satışın idarə olunması da həmçinin yeni cəhətlər kəsb edir. Satış fəaliyyətinin uğurlarının müəyyən olunmasında hazırda onların böyük əhəmiyyətinin olmasına baxmayaraq, nə satış kanallarının inkişafı, nə qablaşdırma və reklam, nə əmtəənin keyfiyyəti hökmran rol oynayır, məhz tələbatın özünün aşkar olunması satış funksiyasının həyata keçirilməsinin məhək daşıdır. Əmtəə və ya xidmətlərin reallaşdırılması üzrə olan səylər kimi satış fəaliyyətinin özü artıq ikinci dərəcəli rol oynayır.

Sahibkarlığın ikinci qrup funksiyaları onun təsərrüfat mühitinə təsirini və onun doğurduğu nəticələri xarakterizə edir.

Bu mənada sahibkarlığın funksiyalarından biri bazar tarazlığının yaranmasına təsir etməkdir. Sahibkar faydanın potensial mənbəyinə reaksiya verərək təklifi artırır, adekvat şəkildə nemətlərin yerini dəyişdirir və onların istehsalını çoxaldır. Nemətlərin, onların artıq olduğu bazarlardan onların qıtlığı olduğu bazarlara yerini dəyişdirməklə sahibkar əmtəə bazarlarında tarazlığın yaradılmasına səbəb olur. Digər tərəfdən, əlavə ehtiyatları cəlb etmək hesabına istehsalı artırmaqla sahibkar onların daha səmərəli bölgüsünə səbəb olur, bununla da ehtiyat bazarında tarazlığı təmin edir.

İnnovasiya fəaliyyəti vasitəsilə bazarın vəziyyətini özünə sərfəli istiqamətdə dəyişdirməyə cəhd edən sahibkar nəinki yeni nemətlər və texnologiyalar yaradır, həm də mövcud olanları modifikasiya edərək yeni bazarları, rəqabət və istehsalın təşkili formalarını yaradaraq qərarlaşmış bazar mühitini dağıdır. Beləliklə, sahibkarlıq dəyişdirmə funksiyasını yerinə yetirərək özünü bu mühitin fəal subyekti kimi təzahür etdirir. Sahibkarlığın funksional rolunun, bir tərəfdən bazar tarazlığının yaradılmasına yönəlməsi, digər tərəfdən isə onun posulmasına istiqamətlənməsi arasında ziddiyyət yoxdur. Məsələ ondadır ki, sahibkarlıq fəaliyyəti funksional olaraq statik deyil, dinamik tarazlığın yaradılmasına yönəlmişdir.

Sahibkarlıq funksiyasının paylanmasının əsasında idarəetmə və mülkiyyətin ayrılması durur. Lakin əgər idarəetmə funksiyası istehsalın təşkili və ona nəzarət məsələlərilə məhdudlaşırsa, mülkiyyətin funksiyası isə əhəmiyyətli dərəcədə genişdir və müəssisənin yaradılması və bağlanması ilə onun fəaliyyət məqsədinin irəli sürülməsi və yerinə yetirilməsi üzərində nəzarətlə əlaqədardır. Sahibkarlıq fəaliyyətinin müəyyənedici parametrləri mülkiyyətçi tərəfində tənzimləndiyinə görə, aydındır ki, bütövlükdə sahibkarlıq funksiyası da mülkiyyətçi tərəfindən durur və mülkiyyətçi onun bilavasitə daşıyıcısı olur. Bu mənada belə nəticəyə gəlmək olar ki, sahibkarlıq mülkiyyətçinin mənafelərini idarəetmədə reallaşdıran fəaliyyətidir.

Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Mülki Məcəlləsində deyilir: “Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə, öz riski ilə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən ibarət olan fəaliyyətdir”.

Sahibkarlıq fəaliyyətinin səciyyəvi xüsusiyyətləri ilk növbədə onun iqtisadi azadlıq fonunda təzahür etməsidir. İqtisadi azadlıq iqtisadi ehtiyatlar (kapital, iş qüvvəsi, hazır məhsul) üzərində insanların sərbəst surətdə sərəncam vermək hüquqlarının məcmusudur. Cəmiyyətdə iqtisadi azadlıqların təmin edildiyi şəraitdə sahibkarın hüquqlarına müstəqil surətdə istənilən müəssisələri yaratmaq, onun iş proqramlarını, məhsulun qiymətlərini müəyyənləşdirmək, mənfəət üzərində sərbəst sərəncam vermək və s. şamil edilir. Bunlarla yanaşı, sahibkarın vəzifələrinə qanunvericiliklə müəyyən edilmiş qaydada vergilər ödəmək, işçilərlə müqavilə bağlamaq, istehsal edilən məhsulları reallaşdırmaq, antiinhisar qanunvericiliyinə əməl etmək və s. daxildir.

Bazar münasibətləri şəraitində sahibkarlıq fəaliyyətinin səciyyəvi xüsusiyyətlərindən biri də onun obyekt və subyektinin müəyyənləşdirilməsidir. Sahibkarlıq fəaliyyətinin obyektinə məhsul istehsalı, onların satışı və müxtəlif növ xidmətlərin göstərilməsi şamil edilir. Sahibkarlıq fəaliyyətinin subyektinə fəaliyyət qabiliyyətinə malik olan hər bir vətəndaş, mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər aid edilir.

Sahibkarlıq fəaliyyəti istehsal vasitələri üzərində mülkiyyət forması ilə, hər şeydən əvvəl isə xüsusi mülkiyyətlə sıx əlaqədardır. Xüsusi mülkiyyət azad sahibkarlıq fəaliyyətinin iqtisadi əsası kimi çıxış edir. Sahibkarlıq fəaliyyəti isə eyni zamanda xüsusi mülkiyyətin reallaşdırılma forması kimi xarakterizə olunur. Odur ki, sahibkarlıq fəaliyyəti ilə xüsusi mülkiyyət arasında birbaşa əlaqə mövcuddur.

Respublika dövlət müstəqilliyini əldə etdikdən sonra çoxukladlı təsərrüfat münasibətlərinə əsaslanan iqtisadi sistemə keçidlə bağlı zəruri tətbirlər həyata keçirilməkdədir. Azad rəqabətə, mülkiyyətin müxtəlif formalarına əsaslanan bazar iqtisadi münasibətlərinə keçirilməsinin ən vacib şərti olan iqtisadiyyatda sahibkarlığın inkişaf etdirilməsi onun üçün zəruri mühit yaradılmasından əhəmiyyətli dərəcədə asılıdır. Sahibkarlığın formalaşma və inkişafı ilə bağlı zəruri şərtlərin məcmusu sahibkarlıq mühiti kimi xarakterizə olunur. Sahibkarlıq mühiti iqtisadi, siyasi, hüquqi, sosial-mədəni, texnoloji, infrastruktur və s. amillərlə bağlıdır.

## Nəticə

Beləliklə, yuxarıda apardığımız araşdırmalar ümumiləşdirərək, klassiklər və onların fikirlərinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, sahibkarlar cəmiyyətin, yaşadıqları ölkənin, ərazinin ən bacarıqlı, düşünən, hər bir çətinliyə dözən, vəziyyətdən çıxmağı bacaran insanlardır.

Sahibkarlıq fəaliyyəti xüsusi mülkiyyətlə sıx əlaqədə baş verdiyi üçün o, tarixi bir kateqoriyadır. Respublikada sahibkarlığı hərtərəfli inkişaf etdirməklə yanaşı , sahibkarlıq fəaliyyətinin yeni situasiyaya uyğunluğunun məzmun elementlərinin və funksiyalarının öyrənilməsi də qarşıda duran əsas məsələlərdən biridir.

**Ədəbiyyat**

1. E.N.Kərimov və B.O.Osmanov. “İqtisadi nəzəriyyə” Mikro-makro iqtisadiyyat. “Vətən” nəşriyyatı. Bakı, 2010.
2. A.Əmiraslanov. Azərbaycan iqtisadiyyatı və bazar münasibətləri. Bakı, Azərbaycan Ensiklopediyası, 1998.
3. www.azerbaijan-news.az
4. www.xalqqazeti.com

***Эльсевар Нариман оглы Керимов***
***Азербайджанский Университет Кооперации***

**Резюме**

В статье рассматриваются аспекты формирования и развития предпринимательской деятельности в современных условиях. Автором дается свое понимание категории “предпринимательство” и трактуются основные функции предпринимательской деятельности. В статье также рассматриваются вопросы государственного регулирования среды развития предпринимательства.

***Ключевые слова: предпринимательство, формирование, функции, среда, развитие.***

***Elsevar Nariman oglu Karimov***
***Azerbaijan Cooperation University***

**Summary**

The paper discusses aspects of the formation and development of business in the modern world. The author gives his understanding of the category "Business" and interpreted the basic functions of business. The article also addresses the protection of state regulation of business development.

***Keywords: entrepreneurship, formation, function, environment, development.***

UOT 338. 45

***Müslüm Əli oğlu CABBARZADƏ***
***i.ü.f.d., dosent, Naxçıvan Dövlət Universiteti***

# MÜASİR MƏRHƏLƏDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏNAYENİN İNKİŞAF DİNAMİKASININ TƏHLİLİ

Məqalədə iqtisadi islahatlar əvvəlindən bu günə dövründə Naxçıvan iqtisadiyyatın sənaye sektorlarının inkişafına təhlil edir. Həmçinin, iqtisadi islahatların qiymətləndirilməsi sənayesinin inkişafı və performans baxımından müstəqillik dövründə Azərbaycan Muxtar Respublikasında həyata keçirilir.

***Açar sözlər: region iqtisadiyyatı, Naxçıvan iqtisadiyyatı, sənayeləşmə, iqtisadi inkişaf.***

***

Hər bir ölkənin və regionun inkişaf səviyyəsi onun sənayesinin vəziyyəti ilə müəyyən olunur. Çünki sənayenin inkişaf etdirilməsi və onun sahə strukturunun təkmilləşdirilməsi yeni iş yerlərinin yaradılmasına və məşğulluq probleminin həllinə kömək edir, sənaye sahələri üçün xammal bazası olan kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına real şərait yaranır, əhalinin sənaye məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir, regionlararası və regiondaxili, həmçinin xarici iqtisadi əlaqələr təkmilləşir, regionun ixrac potensialı inkişaf edir və son nəticədə əhalinin həyat səviyyəsinin yüksəlməsi üçün zəmin yaranır.

Sabiq SSRİ-nin dağılması ilə əlaqədar müttəfiq respublikalar arasında mövcud olmuş zəncirvari əlaqələrin qırılması, Ermənistanın ölkəmizə qarşı elan olunmamış müharibəsi, bazar iqtisadiyyatına keçidlə əlaqədar meydana çıxan çoxsaylı problemlər 1990-cı illərdə bütövlükdə respublika iqtisadiyyatında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da iqtisadi inkişafına ciddi şəkildə mənfi təsir göstərdi. Bütün bunlarla yanaşı muxtar respublikanın 20 ildən artıq müddətdə blokada şəraitində olması onun sosial-iqtisadi inkişafına ciddi çətinliklər yaratmışdır.

Naxçıvan iqtisadiyyatının sənayeləşdirilməsi siyasəti hələ ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illərdə həyata keçirilməyə başlanmışdı. Onun təşəbbüsü ilə Naxçıvanda bir neçə iri sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, mövcud sənaye müəssisələri yenidən qurulmuşdu. Məhz bu işlərin nəticəsi idi ki, 1990-cı ildə Azərbaycanda istehsal olunan daş duzun, molibdenin, sink və qurğuşunun hamısı, mineral suların əsas hissəsi, ipək xammalının, inşaat materiallarının, mərmərin, şərabın, meyvə-tərəvəz konservlərinin böyük bir hissəsi muxtar respublikanın payına düşmüşdür. Həmin dövrdə bütövlükdə regionun sənayesi yerli xammala əsaslanmış və fəaliyyətdə olan sənaye müəssisələrinin əksəriyyətini yüngül və yeyinti sənayesi müəssisələri təşkil etmişdir. 1990-cı ildə muxtar respublikanın mülkiyyəti bütövlükdə dövlətə məxsus olan sənaye müəssisələri tərəfindən faktiki qiymətlərlə 26,9 milyon manat və ya respublika sənaye məhsulunun 2,24 faizi səviyyəsində məhsul istehsal edilirdi. Baş verən məlum dağıdıcı proseslər nəticəsində bu göstərici azalaraq 1995-ci ildə faktiki qiymətlərlə 9,4 mln manata və ya respublika sənaye məhsulunun 0,53 faizi səviyyəsinə endi. Sənaye müəssisələrinin özəlləşdirilməsi prosesinin sürətlənməsi də istənilən nəticəni əldə etməyə imkan vermədi. Çünki, özəlləşdirilən müəssisələrin əksəriyyətində istehsal texnologiyası və avadanlıqlar köhnəlmiş və sıradan çıxmış, yaxud da bazarın tələblərinə cavab verə biləcək səviyyədə məhsul istehsal etməyə imkan vermirdi. Bundan başqa bir çox müəssisələrin xammal və materiallarının gətirilməsində böyük çətinliklər yaranır, bəzi müəssisələr isə yerli tələbatdan artıq istehsal məhsullarını reallaşdırmaq üçün bazarlar tapa bilmirdi.

Mövcud vəziyyətin dərindən təhlil edilməsi nəticəsində yaranmış problemlərin aradan qaldırılması üçün muxtar respublikada yerli xammal və materiallara əsaslanan və yerli tələbatı ödəyən sənaye müəssisələrinin yaradılması və mövcud müəssisələrin modernləşdirilməsi istiqamətində

islahatların həyata keçirilməsinə start verildi. Beləliklə, muxtar respublika sənayesində yaranmış durğunluq və böhranlı vəziyyətin 1995-ci ildən aradan qaldırılmasına, 1996-cı ildən başlayaraq isə istehsalın həcminin artmasına nail olundu. 2003-cü ildə sənaye istehsalının həcmi 17,6 mln manat təşkil etdi ki, bu da 1996-cı ilə nisbətən 1,8 dəfə, 2001-ci ilə nisbətən 1,5 dəfə çox idi. 2004-cü ildə isə sənaye məhsulunun həcmi 2003-cü illə müqayisədə 29,7 faiz artaraq 25,6 mln manat təşkil etmişdir.

Rəqabətə davamlı sənaye məhsulları istehsalının müntəzəm olaraq dəstəklənməsi və ixrac yönlü istehsal sahələrinin yaradılmasının təşviqi, dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət paketi dövlətə məxsus olan sənaye müəssisələrinin sağlamlaşdırılması, özəlləşdirmədən sonrakı mərhələdə müəssisələrin fəaliyyətinin dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin geniş şəbəkəsinin təşkili, bu tip müəssisələrin ixrac potensialının artırılması muxtar respublikada sənaye sahəsində əsas strateji istiqamət kimi saxlanılmaqdadır. Uzun illər ərzində fəaliyyətini dayandırmış müəssisələrin işə salınması, yenilərinin yaradılması hesabına sənaye məhsulu istehsalında dinamik artım əldə edilmişdir.

Həyata keçirilən islahatlar nəticəsində muxtar respublikada sənaye məhsulunda qeyri-dövlət sektorunun payı artmaqdadır. Belə ki, bu göstərici 1998-ci ildə 60,0 faizdən 2003-cü ildə 63,0 faizə, 2011-ci ildə isə 91,8%-ə qədər artmışdır. Son on ildə muxtar respublikada sənaye potensialının müntəzəm olaraq gücləndirilməsi, yeni təsərrüfat subyektlərinin formalaşması və bu sahədə səmərəli idarəetmənin təşkili müasir standartlar səviyyəsində sənaye infrastrukturunun formalaşmasını şərtləndirmişdir. Artıq Naxçıvan MR sənaye məhsulunun artım tempinə, sənaye məhsulunun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinə görə Azərbaycan Respublikasının iqtisadi rayonları arasında ilk yerlərdə təmsil olunur [3, s. 54].

Muxtar respublika sənayesində əsasən özəl sektorun inkişafı hesabına baş verən sürətli artım dinamikasını aşağıdakı cədvəl məlumatlarından daha dəqiq izləmək mümkündür (cədvəl 1.)

***Cədvəl 1***

***Naxçıvan Muxtar Respublikası sənayesinin ümumi göstəriciləri***

| Göstəricilər | 1990 | 1995 | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Məhsulun həcmi (qüvvədə olan faktiki qiymətlərlə) min man. | 5,4 | 9133,4 | 13765,4 | 41207,3 | 70443,6 | 122679,5 | 164451,9 | 212469,1 | 318564,8 | 680921,2 |
| Əvvəlki ilə nisbətən (müqayisəli faizlə) | 95,9 | 42,3 | 107,2 | 156,2 | 164,2 | 166,0 | 126,7 | 124,5 | 144,4 | 2,1dəfə |
| Müəssisələrin sayı | 52 | 44 | 70 | 96 | 127 | 136 | 136 | 390 | 423 | 431 |
| Sənaye-istehsal işçilərinin sayı, nəfər | 10062 | 6531 | 4197 | 3830 | 4530 | 6021 | 7701 | 9376 | 12855 | 14454 |
| Əsas istehsal fondları (ilin sonuna) min man. | | 6637,2 | 94263,6 | 120600,0 | 144973,4 | 152205,5 | 168958,4 | 532489.3 | 720324,5 | - |
| Fond verimi, manat | - | 0,14 | 0,15 | 0,3 | 0,5 | 0,8 | 1,0 | 0,4 | 0,4 | |

*Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin müvafiq illər üzrə məlumatları*

Cədvəldən göründüyü kimi, dövlət mülkiyyətinin hakim mövqedə olduğu 1996-cı ilədək muxtar respublika sənayesində davamlı tənəzzül baş vermişdir. Belə ki, 1990-cı ildə sənaye məhsulunun həcmində 1989-cu ilə nisbətən 4,1% azalma olmuş, 1995-ci ildə isə bu azalma 1994-cü illə müqayisədə 57,7% təşkil etmişdir. 1996-cı ildə bu meylin qarşısı alınmış, iqtisadiyyat sabitləşdirilmiş və zəif artım meylləri qeydə alınmışdır. 2000-ci ildən isə sənayenin artım templərinin sürətlənməsi müşahidə olunur. Belə ki, həmin ildə artım əvvəlki ilə nisbətən 7,2% təşkil etdiyi halda 2005-ci ildə 56,2%, 2006-cı ildə 64,2%, 2007-ci ildə 66%, 2008-ci ildə 26,7%, 2009-cu ildə 24,5%,

2010-cu ildə 44,4%, 2011-ci ildə isə 2,1 dəfə təşkil etmişdir.

Əgər 2006-cı ilədək sənayedə əldə edilən artım əsasən yeni müəssisələrin yaradılması hesabına baş verirdisə, 2006-2008-ci illərdə bu artım daha çox həmin müəssisələrin genişləndirilməsi, inkişaf etməsi və məhsul istehsalını artırması nəticəsində əldə edilmişdir. Bu fikir həm də sənaye istehsal heyətinin say tərkibinə nəzər yetirdikdə də öz təsdiqini tapır. Belə ki, 2005-ci ildə fəaliyyət göstərən 96 sənaye müəssisəsində 3830 nəfər, 2006-cı ildə fəaliyyət göstərən 127 sənaye müəssəsində 4530 nəfər, 2007-ci ildə fəaliyyət göstərən 136 sənaye müəssisəsində 6021 nəfər, 2008-ci ildə fəaliyyət göstərən eyni sayda sənaye müəssisəsində isə 7701 nəfər işçi çalışmışdır (2009-cu ildən sənaye müəssisələrinin say tərkibinə hüquqi şəxslərlə yanaşı fiziki şəxs tərəfindən yaradılan sənaye istehsalı obyektləri də daxil edilmişdir). Göründüyü kimi, işçilərin say artımı müəssisələrin sayının artım tempini sürətlə qabaqlayır. Bu faktlar bir daha dövlət dəstəyi sayəsində özəl təsərrüfatçılıq sisteminin dinamik inkişafını ifadə edir.

Sənayedə özəl sektorun payının artması ilə istifadəyə verilən əsas fondların həcmi ilə yanaşı fond verimi göstəricisi də 2008-ci ilədək davamlı olaraq artmışdır. Bununla belə muxtar respublika sənayesində 2009-cu ildən sonra fondverimi göstəricisinin səviyyəsi aşağı olaraq qalır. Bu da muxtar respublikada yeni yaradılmış sənaye müəssisələrinin istehsal güclərindən tam istifadə edilməməsi ilə əlaqədardır.

Təhlil göstərir ki, iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının artımı eyni xarakter daşımamışdır (cədvəl 2).

***Cədvəl 2***

***İqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının indeksləri (əvvəlki ilə nisbətən)***

| | 2001 | 2003 | 2005 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|
| Sənaye üzrə, cəmi | 80,0 | 108,8 | 156,2 | 126,7 | 124,5 | 144,4 | 2,1dəfə |
| Qida məhsulları və içkilərin emalı | 97.7 | 101,0 | 108,2 | 105,5 | 139.3 | 108,8 | 148,2 |
| Toxuculuq məmulatları istehsalı | 50.7 | 72,7 | 4.1dəfə | 2,4 dəfə | 141,3 | 108,8 | 137,4 |
| Sellüloz, kağız və kağız məmulatlarının istehsalı, nəşriyyat işi, poliqrafiya sənayesi, çap materiallarının istehsalı | 78,9 | 3,3 dəfə | 5,9 dəfə | 129,0 | 120,0 | 158,4 | 174,3 |
| Digər kateqoriyalara daxil olmayan elektrik maşınları və cihazlarının təmiri | - | 72,5 | - | - | - | - | - |
| Mebel istehsalı, digər kateqoriyalara daxil edilməyən hazır məmulatın istehsalı | 167,3 | 3,9 dəfə | 105,8 | 2,1 dəfə | 141,8 | 2,4 dəfə | 2,6 dəfə |
| Rezin və plastmas materialların istehsalı | 4,5 dəfə | 2,6 dəfə | 2,5 dəfə | 2,8 dəfə | 157,4 | 109,5 | 128,3 |

*Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin müvafiq illər üzrə məlumatları*

Cədvəldən göründüyü kimi, ayrı-ayrı illərdə iqtisadi fəaliyyət növlərinin sənaye məhsulunun artımında payı müxtəlif olmuşdur. 2005-ci ildə sənaye sahəsində artım əsasən toxuculuq məmulatları istehsalı, mebel istehsalı, nəşriyyat işi, poliqrafiya sənayesi, çap materiallarının dərc edilməsi və rezin və plastmas materialların istehsalı sahələrində baş vermişdir.

Ümumiyyətlə, mebel istehsalı, digər kateqoriyalara daxil edilməyən hazır məmulatlar istehsalı sahəsində artım demək olar ki, 2001-ci ildən başlayaraq sənayenin ümumi artım tempini üstələmişdir. Sənaye sektorunda özəlləşdirmə prosesinin intensivləşdirilməsi ilə yanaşı eyni zamanda yeni müəssisələrin yaradılmasının dövlət tərəfindən dəstəklənməsi siyasəti nəticəsində özəl sektorda onlarla yeni sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Bu müəssisələrin fəaliyyətə başlaması ilə özəl sektorda məhsul istehsalının xüsusi çəkisinin artımı ilə yanaşı digər pozitiv nəticələr də əldə edilmişdir. Belə ki, özəl sektorda aktivliyin yüksəlməsi muxtar respublika sənayesinin yeni

strukturunun formalaşmasına, istehsal texnologiyasının təkmilləşdirilməsinə, yeni iş yerlərinin yaradılmasına, istehsal edilən məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə, bir çox sahələrdə idxal asılılığının aradan qaldırılmasına şərait yaratmışdır.

Son onillikdə dövlətin maliyyə dəstəyi ilə və sahibkarların şəxsi vəsaitləri hesabına özəl sektor tərəfindən əvvəllər muxtar respublika sənayesində olmayan yeni müəssisələr, o cümlədən meyvəqurutma müəssisələri, soyuducu anbarlar, çay, tütün istehsalı müəssisələri, yeni texnologiya əsasında fəaliyyət göstərən şərab istehsalı müəssisələri, tikinti materialları istehsalı ilə məşğul olan müəssisələr, poladəritmə müəssisələri, plastik borular və su sistemləri məhsulları istehsalı müəssisələri, meyvə şirələri və mineral sular istehsal edən müəssisələr, qum-çınqıl istehsalı müəssisələri, boya istehsalı müəssisələri, kart on tara və kağız emalı müəssisələri, plastik tullantıların təkrar emalı müəssisələri, sanitar texnikası avadanlıqları istehsalı müəssisələri, quşçuluq müəssisələri, ət və süd emalı müəssisələri, tikiş müəssisələri, avtomobil istehsalı müəssisəsi və s. kimi yeni texnologiyalı və yerli tələbata uyğun məhsullar istehsal edən müəssisələr yaradılmışdır (3, s. 55-64). Bu da muxtar respublika sənayesində ayrı-ayrı iqtisadi fəaliyyət növlərinin xüsusi çəkisinin dəyişilməsi ilə nəticələnmişdir (cədvəl 3).

*Cədvəl 3*

***Naxçıvan Muxtar Respublikasında iqtisadi fəaliyyət növləri üzrə sənaye istehsalının strukturu (ümumi yekuna görə, faizlə)***

| | 2001 | 2003 | 2005 | 2008 | 2011 |
|---|---|---|---|---|---|
| Bütün sənaye | 100 | 100 | 100 | 100 | 100 |
| Mədənçıxarma sənayesi | 0,6 | 1,0 | 0,6 | 0,3 | 0,1 |
| Emal sənayesi | 92,3 | 68,3 | 75,1 | 82,4 | 92,2 |
| O cümlədən: İçki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı | 79,1 | 50,5 | 26,8 | 32,0 | 34,6 |
| Toxuculuq və tikiş sənayesi | 7,2 | 4,4 | 15,9 | 4,1 | 4,2 |
| Sellüloz, kağız istehsalı, nəşriyyat işi | 0,3 | 1,6 | 5,2 | 3,3 | 4,1 |
| Kimya sənayesi | - | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Rezin və plastmas məmulatların istehsalı | 0,1 | 0,1 | 0,4 | 6,5 | 7,6 |
| Digər qeyri-mineral maddələrin istehsalı | 4,0 | 5,0 | 20,7 | 29,9 | 34,4 |
| Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı | 0,1 | 0,4 | 0,3 | 1,4 | 1,6 |
| Elektrik maşınları, optik və elektron avadanlıqlarının istehsalı | 0,4 | 0,7 | 0,5 | 0,2 | 0,1 |
| Avtomobil istehsalı | - | - | - | - | 0,4 |
| Emal sənayesinin digər sahələri | 1,1 | 5,5 | 5,2 | 4,9 | 5,1 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 4,0 | 28,6 | 23,3 | 17,1 | 7,2 |
| Su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi | 3,1 | 2,1 | 1,0 | 0,2 | 0,5 |

*Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin müvafiq illər üzrə məlumatları*

Cədvəl məlumatlarından göründüyü kimi, 2001-2011-ci illərdə iqtisadi fəaliyyət növlərinə görə sənayenin strukturu sabit olmamışdır. 2003-cü ildə ev təsərrüfatlarının və fərdi sahibkarların - fiziki şəxslərin fəaliyyəti də nəzərə alınmaqla sənaye məhsulunun 1,6 faizi hasilat, 34,3 faizi emal sənayesinin, 64,1 faizi elektrik enerjisi, qaz və su təchizatı sahəsinin payına düşmüşdür. 2011-ci ildə bu rəqəm müvafiq olaraq 0,1%, 92,2%, 7,2% təşkil etmişdir. 2011-ci ildə Naxçıvanda sənayenin yeni sahəsi - avtomobil sənayesi formalaşmışdır ki, onun da sənaye məhsulunda xüsusi çəkisi 0,4% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasında yeyinti məhsulları istehsalı sənaye istehsalında aparıcı yer tutur və yerli xammal bazası əsasında fəaliyyət göstərir. Burada yeyinti sənayesinin şərabçılıq, meyvə-tərəvəz konservləri, taxıl emalı, çörəkbişirmə, mineral sular və ət-süd məhsulları istehsalı və tütün fermentasiyası kimi sahələri mövcud olmuşdur.

Naxçıvan Muxtar Respublikasında şərabçılıq 8 iri şərab zavodu ilə təmsil olunur. Konserv sənayesi ixtisaslaşmış sənaye sahələrindən olmaqla, əsasən Ordubad və Şərur meyvə-tərəvəz konserv məhsulları istehsal edən zavodlardan ibarət olmuşdur. Ordubad şəhərində yerləşən meyvə konserv zavodunun bir əsas və altı yardımçı sexi olmuşdur ki, burada da ən çox ərik, qızılgül, qoz, heyva və s. yüksək keyfiyyətli konserv məhsulları istehsal edilmişdir.

Naxçıvan Muxtar Respublikası mineral sularla zəngindir. ”Badamlı”, “Vayxır”, “Sirab”, “Gülüstan” və s. mineral sularından ibarətdir.

Ət-süd sənayesi hazırda heyvandarlıq məhsullarının özəl şirkətlər və əsasən yeni istifadəyə verilmiş Naxçıvan “Yeyinti Məhsulları Sənaye Kompleksi” ilə təmsil olunur.

Tütün fermentasiya sənayesi hazırda Naxçıvan “Tütünçülük” Səhmdar Cəmiyyəti ilə təmsil olunur. Lakin cəmiyyət hal-hazırda fəaliyyət göstərmir.

Yeyinti sənayesi məhsulunda özəl və fərdi təsərrüfatlarda çörək istehsalının hesabına çörəkbişirmənin xüsusi çəkisi yüksək olmuşdur.

Şərabçılıq və tütün fermentasiyası sahələrində yaranmış böhran muxtar respublikada üzüm və tütün istehsalının da kəskin azalmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, son dövrlərdə meyvə-tərəvəz və heyvandarlıq məhsullarının istehsalının artımı üçün xammal təminatı baxımından əlverişli şərait yaranmışdır.

Naxçıvan Muxtar Respublikasında meyvə-tərəvəz konservləri, həm də mineral suların qablaşdırılması üçün şüşə qablar istehsalının təşkili üçün potensial imkan mövcuddur. Naxçıvan Şüşə Qablar Zavodu artıq bir neçə ildir ki, xammal çatışmazlığı üzündən profili üzrə məhsul istehsalını dayandırmışdır.

Yüngül sənaye Naxçıvan Muxtar Respublikasında ikinci sənaye sahəsi olmaqla, Naxçıvan Tikiş Fabriki, Naxçıvan Xalça Kombinatı, Alt Trikotaj paltarları fabriki və Ordubad İpək Kombinatı ilə təmsil olunmuşdur. Hal-hazırda bu müəssisələrdən Ordubad İpək Kombinatı öz fəaliyyətini dayandırmış, digər müəssisələr isə istehsal gücündən qismən istifadə etməklə fəaliyyət göstərirlər. Nəticədə, 1990-2003-cü illərdə yüngül sənaye məhsulunun həcmi təqribən 108,0 dəfə azalmışdır. Son dövrlər bu sahədə Tikiş Fabrikinin və Alt Trikotaj Fabrikinin hesabına artım olsa da, İpək və Xalça Kombinatları istehsal fəaliyyətlərini tamamilə dayandırmışlar. Tikiş Fabrikində istehsalın həcminin artması dövlət sifarişi əsasında hərbi geyim istehsalı ilə əlaqədar olmuşdur.

Meşə və ağac emalı sənayesi yeni sahə olub, Naxçıvan şəhərində yerli tələbatı ödəmək məqsədilə mebel istehsalından ibarətdir. Burada kənardan gətirilən xammallar əsasında mebel məmulatı istehsal edilir.

Son dövrlər Naxçıvan Muxtar Respublikasında sənayenin rayonlar üzrə yerləşməsində əsaslı dəyişikliklər baş vermişdir. Belə ki, əvvəllər sənaye müəssisələri ancaq Naxçıvan və Ordubad şəhərlərində cəmləşdiyi halda, hazırda sənaye bütün rayonlarda inkişaf etmiş və onun quruluşunda dəyişiklik baş vermişdir. Ənənəvi sahələrdən olan yeyinti sənayesi muxtar respublikanın bütün rayonlarında, yüngül sənaye, maşınqayırma və metal emalı Naxçıvan, Şərur, Ordubad, dağ-mədən sənayesi Ordubad, qalan sənaye sahələri isə yenə də Naxçıvan şəhərində təmərküzləşmişdir.

Təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasında 1990-2003-cü illərdə sənaye məhsulu istehsalının azalması blokada vəziyyəti, formalaşmış iqtisadi əlaqələrin pozulması, satış bazarlarının itirilməsi və yerli müəssisələrin çox ağır iqtisadi şəraitdə bazar münasibətlərinə uyğunlaşmaq imkanlarının məhdud olması nəticəsində baş vermişdir.

Həyata keçirilmiş tədbirlər nəticəsində artıq sənayenin bir sıra sahələrində istehsal fəaliyyəti bərpa olunmuş, sənayenin ümumi istehsalında dinamik inkişaf tempi reallaşmağa başlamışdır.

1999-cu ildə Ordubad rayonunun Parağaçay və Ağdərə mədən yataqlarının kəşfiyyatı və istismarı üzrə Böyük Britaniyanın "Qinq investment Limited" şirkəti ilə müqavilə bağlanması hesabına dağ mədən sənayesinin bərpasına nail olunmuş və 1999-cu ildə bu tədbirlərin həyata keçirilməsi ilə əlaqədar təqribən 360 min manatlıq məhsul istehsal edilmişdir.

Artıq formalaşmış inkişaf tendensiyasına uyğun olaraq, sənaye məhsulu istehsalı həcminin artması bir tərəfdən mövcud istehsal müəssisələrinin öz fəaliyyətlərini bərpa etməsi ilə bağlı olmuşdursa, digər tərəfdən isə bu artım muxtar respublikada sahibkarlığın inkişafı üçün yaradılmış münbit şəraitdən bəhrələnməklə, onlarla yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması nəticəsində mümkün olmuşdur. Bir qayda olaraq Muxtar Respublikada sənaye müəssisələri yaradılarkən ilk növbədə daxili tələbatın ödənilməsi və yerli xammaldan istifadə imkanları əsas götürülür.

Son illər Naxçıvan Muxtar Respublikasında yenidənqurma və tikinti işləri geniş vüsət aldığından inşaat materiallarına da tələbat getdikcə artmaqdadır. Bu isə tikinti materialları istehsalı sənayesinin inkişafına stimul vermişdir. Yerli potensialın səmərəli istifadəsi və tələbatın yerli istehsal hesabına ödənilməsi baxımından Naxçıvanda  sement zavodu qurulmasına kəskin ehtiyac yaranmışdır. Müəssisənin inşası məqsədilə mütəxəssislər əvvəlcə təbii sərvətlərlə zəngin olan muxtar respublikada sement istehsalı üçün xammal mənbələrinin müəyyən edilməsi məqsədilə geoloji axtarış işlərinə başlamışlar. Müvafiq yataqlar aşkar olunduqdan və xammalın tərkibi öyrənildikdən sonra Kəngərli rayonunda 150,6 hektar ərazidə yeni sement zavodu tikilmişdir. Nəticədə son 20 ildə muxtar respublikada investisiya qoyuluşuna görə ən böyük layihələrdən biri reallaşdırılmışdır. Zavod ən müasir standartlara cavab verir. "Naxçıvan Sement" MMC-nin məhsulları muxtar respublikada inşaat sektorunun tələbatını tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac olunmaqdadır. Burada istehsal edilən sement keyfiyyətinə görə muxtar respublikaya idxal olunan müvafiq məhsuldan dəfələrlə üstündür. Quru üsulla sement istehsalı zavodda yanacaq sərfini də minimuma endirir. Müəssisədə istifadə edilən bütün xammal növləri və qatqılar, o cümlədən əhəng daşı, dəmirli gil, kvars, gips muxtar respublikanın Kəngərli, Şərur və Babək rayonlarındakı mədənlərdən əldə edilir.

Son illərdə muxtar respublikada sənayenin daha üstün və perspektivli sahələrinin yaradılması üçün davamlı layihələr həyata keçirilir. Artıq reallaşdırılmış bu tipli layihələrdən biri də 2009-cu ildə istifadəyə verilmiş Naxçıvan Avtomobil Zavodudur. Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə 5 modeldə "NAZ Lifan" markalı minik avtomobilləri istehsal edilir. İllik istehsal gücü 4-5 min ədəd minik avtomobili olan Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Zavodda həm mexaniki, həm də sürət qutusu ilə işləyən avtomobillər istehsal edilir.

Ötən 3 il müddətində müəssisədə 1582 ədəd "NAZ Lifan" markalı minik avtomobili istehsal olunmuş, bunlardan 1362 ədədi (86%-i) satılmışdır.

Ümumiyyətlə, həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, 1996-2011-ci illər ərzində sənaye sektorunda 364 yeni müəssisə fəaliyyətə başlamış və sənaye müəssisələrinin sayı 420-yə çatmışdır. Anoloji qaydada istehsal edilən sənaye məhsullarının sayı da artır [2, s. 94].

2012-ci ildə muxtar respublikada 115 növdə, 335 çeşiddə ərzaq, 229 növdə, 524 çeşiddə qeyri-ərzaq məhsulları istehsal olunmuşdur. Bunlardan 106-sı ərzaq və 224-ü qeyri-ərzaq olmaqla, 330 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilmişdir.

2012-ci ildə səmərəli kreditləşmə mexanizminin formalaşdırılması yeni istehsal və xidmət sahələrinin işə düşməsinə səbəb olmuşdur. Muxtar respublikada özəl sektorların dəstəklənməsi, sahibkarlıq fəaliyyətinin genişlənməsi əhalinin məşğulluq sahəsinə də öz müsbət təsirini göstərmişdir.

Məhz bunun nəticəsidir ki, 2012-ci ildə 7641-i daimi olmaqla, 7996 yeni iş yerləri yaradılmışdır.

Qeyd etmək lazımdır ki, 2012-ci ildə, 2011-ci illə müqayisədə 15 faiz çox, yəni 795 milyon manata yaxın sənaye məhsulu istehsal edilmişdir ki, bunun da 93 faizə qədəri özəl bölmənin payına düşür.

Ümumiyyətlə, 2001-2012-ci illərdə muxtar respublikada sənaye sahələrinin inkişafını əks etdirən faktiki nəticələrin təhlili belə nəticəyə gəlməyə əsas verir ki, nəzərdən keçirilən dövrdə sənayenin inkişafı muxtar respublikada həyata keçirilən quruculuq siyasətində prioritet mövqeyə sahib olmuşdur. Həmin dövr ərzində istehsal edilən sənaye məhsulunun real ifadədə həcminin artması ilə yanaşı, həm də eyni zamanda ümumi daxili məhsulda sənayenin xüsusi çəkisi ilbəil daha da yüksəlmişdir. Bu isə region iqtisadiyyatının inkişafında tamamilə yeni bir mərhələyə – sənayeləşmənin sürətləndirilməsi mərhələsinə keçidin müvəffəqiyyətli başlanğıcının qoyulduğunu sübut edir. Davam etməkdə olan sənaye layihələrinin tam başa çatdırılması və yeni layihələrə başlanması isə yaxın illərdə muxtar respublikada daha güclü sənaye potensialının yaradılmasına əminlik hissini daha da artırır.

## Ədəbiyyat

1. Heydər Əliyev və dövlətin aqrar siyasəti. Bakı, Gənclik, 2003, səh. 15.
2. İ.Ə.Həbibbəyli, İ.M.Hacıyev, B.M.İsmayılov. İntibahın 15 ili.Naxçıvan: “Əcəmi”,2010, 280 s.
3. N.Əhmədov. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, “Sabah”, 2008, s. 134-145.
4. A.A.Nadirov, Ə.X.Nuriyev, Ş.M.Muradov. Naxçıvanın iqtisadiyyatı XX əsrdə. Bakı, “Elm”, 2000, 101 s.
5. Ə.Nağıyev və b. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı, 1998, səh. 108-120.

***Муслум Джаббарзаде***
***кандидат экономических наук, доцент***

**Анализ динамики развития промышленности Нахчиванской Автономной Республики современном периоде**

**Резюме**

В статье проанализировано развитие промышленных отраслей экономики Нахичевани в периоде с начала экономических реформ до наших дней. Также дана оценка экономическим реформам проведенным в автономной республике в эпоху независимости Азербайджана с точки зрения развития и эффективности промышленности.

***Ключевые слова: региональная экономика, Нахчиванская экономики, индустриализации и экономического развития.***

***Muslum Jabbarzade***
***Ph. Dr. on Economics***

**Analyse of the developement dinamics of the industry Nakhchivan Autonomous Republic in the present situation**

**Summary**

In the article the development of the industry of Nakhchivan on period from the foundation economic reform up-to-date has been analyzed, the factors influencing on this period have been determined. Economical reformations heed in the Autonomous Republic during the independence have been appreciated by the development and efficiency way of industry.

***Key words: regional economy, Nakhchivan of economy, industrialization and economic development.***

UOT 332.122

*Nurəngiz Yanvar qızı MİKAYILOVA*
*Az. ETKTİ və Tİ-nin dissertantı*

# REGİONLARDA BƏLƏDİYYƏ ORQANLARININ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

**Xülasə**

Bələdiyyələrin yaranmasından 13 il keçməsinə baxmayaraq, onlar bu gün də bir sıra problemlərlə qarşılaşır. İstisnalar olmaqla, bütövlükdə respublikada bələdiyyə orqanlarının fəaliyyətində nəzərəçarpacaq dərəcədə canlanma hiss olunmur. Bələdiyyə orqanlarının fəaliyyətini səmərəli etmək üçün bir sıra amillərin təkmilləşdirilməsi vacibdir: bələdiyyələrə verilən səlahiyyətlərin artırılması; səlahiyyətlərin müstəsnalığının və tamlığının təmin olunması; bələdiyyələrə maliyyə təminatının artırılması; bələdiyyə orqanlarında fəaliyyət göstərənlərin ixtisaslaşması. Bələdiyyə büdcələrinin zəif olması onun tam formalaşmamasına səbəb olan əsas amillərdəndir.

***Açar sözlər: bələdiyyə orqanları, təkmilləşmə, sosial tərkib, təcrübə, büdcə xərcləri.***

***

Müstəqillik qazandıqdan sonra dövlətimiz demokratik prinsiplər əsasında sürətlə inkişaf etməyə başladı. Bu dövrün maraq doğuran cəhətlərindən biri də yeni idarəetmə forması olan bələdiyyələrin yaranması oldu. Demokratik islahatların müəllifi Heydər Əliyevin təşəbbüsü və fəal iştirakı ilə 1993-cü ilin ortalarından başlayaraq Azərbaycanın tarixində ilk dəfə əsas demokratiya institutu kimi seçkili yerli özünüidarə orqanları - bələdiyyələr yaradılmağa başlanıldı. Azərbaycan dövlətçiliyinin tarixində demokratik əsasda təşkil edilmiş və sistemli fəaliyyət göstərən yerli özünüidarə orqanı olmamışdır.

Bu məsələ ilk dəfə 1995-ci il noyabr ayının 12-də keçirilən Azərbaycan Respublikası Referendumunda qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmış, Yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin yaranmasının ilk hüquqi əsasını təşkil etmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında yerli özünüidarəetmə aşağıdakı kimi müəyyən olunur: bu qurumlar “yerli əhəmiyyətli məsələlərin əhali tərəfindən müstəqil həlli, bələdiyyə mülkiyyətinə sahiblik, istifadə etmə və sərəncamçı” kimi başa düşülür [1]. Bu izah bələdiyyə səviyyəsində idarəetmənin subyekti və obyekti haqqında tam təsəvvürə malik olmağa imkan verir. Belə ki, ərazi vahidinin idarəetmə subyekti kimi əhali və ya onun seçdiyi orqanlar, obyekti kimi isə yerli əhəmiyyətli məsələlər çıxış edir. Dövlət tərəfindən bələdiyyə mülkiyyətinin tanınması bələdiyyə sisteminin maliyyə müstəqilliyini möhkəmləndirir və yerli özünüidarələrin fəaliyyətinin səmərəliliyinə böyük təsir göstərir.

Avropanın və demokratik inkişaf yolu seçmiş ölkələrin YÖ sisteminin əsaslarını Avropa Xartiyası təşkil edir. Bu Xartiya Avropa Şurası tərəfindən 1985-ci ildə qəbul olunub. Xartiyada deyilir ki, yerli icmalara mümkün qədər çox idarəetmə məsələləri etibar edilməlidir və bu məsələlərin həllinə dövlət qarışmamalıdır. Xartiya yerli icmaların siyasi, inzibati və maliyyə müstəqilliyinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi və müdafiə olunması vəzifələrini Avropa Şurasına daxil olan dövlətlərin öhdəsinə qoyur. Yerli özünüidarələr haqqında Avropa Xartiyasında aşağıdakı kimi izah edilir: “Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının qanun çərçivəsində məsuliyyəti öz üzərinə götürərək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin böyük hissəsini nizama salmaq və onu idarə etmək huququ və real bacarığı başa düşülür” [2, maddə 1]. Xartiya Azərbaycanda da bələdiyyə hüquqlarının inkişaf etdirildiyi əsas aktlardan biridir. Xartiyaya görə, yerli özünüidarə anlayışı altında yerli özünüidarə orqanları tərəfindən dövlət işlərinin mühüm hissəsinin öz üzərinə götürülməsi, onun öz səlahiyyətlərinə və yerli əhalinin maraqlarına uyğun ola-

raq qanun çərçivəsində idarə edilməsi başa düşülür. Avropa Xartiyası yerli özünüidarəetməni yerli özünüidarəetmə orqanlarının qanun çərçivəsində fəaliyyət göstərərək öz məsuliyyəti altında və yerli əhalinin maraqları baxımından dövlət işlərinin əhəmiyyətli hissəsini nizamlamaq və idarə etmə hüququ və bacarığı kimi müəyyən edilir [2, maddə 3].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 12 dekabr 1999-cu il bələdiyyə seçkiləri ilə əlaqədar xalqa müraciətində demişdir: “Biz Azərbaycanda qeyri-dövlət, tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm də demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir” [3, s.1]. İlk bələdiyyə seçkiləri keçirildikdən sonra bələdiyyə orqanları formalaşdı. Bələdiyyə orqanları - bələdiyyə tərəfindən yaradılan, yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyətləri verilən və dövlət orqanları sisteminə daxil olmayan seçkili orqanlardır. Yerli özünüidarə orqanları qanun çərçivəsində fəaliyyət göstərərək, dövlət işlərinin xeyli hissəsinin məsuliyyətini öz üzərinə götürür, onu yerli əhalinin maraqlarına uyğun idarə edir. Azərbaycan Respublikasının say tərkibi Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilir. Bələdiyyələrin nizamnamələrinə uyğun olaraq bələdiyyə orqanları yaradılır və onlara yerli özünüidarə məsələlərini həll etmək üçün səlahiyyətlər verilir. Bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Dövlət orqanları və dövlətin vəzifəli şəxsləri tərəfindən yerli özünüidarənin həyata keçirilməsi və yerli özünüidarə orqanlarının fəaliyyətinə müdaxilə edilməsi qanunvericiliklə yolverilməzdir.

Azərbaycan Respublikasının vətəndaşları yaşadıqları ərazilərdə yerli özünüidarə hüququndan bələdiyyə seçkilərində öz iradəsini birbaşa ifadə etmək hüququna malik olmaları ilə yanaşı, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək kimi məsələlərdə də tam sərbəstdirlər. Eyni zamanda, vətəndaşlar milliyyətindən, cinsindən, dilindən, dinə münasibətindən, peşəsindən, siyasi partiyalara, ictimai birliklərə münasibətindən asılı olmayaraq, yerli özünüidarədə fəal iştirak edə bilərlər və hər bir vətəndaşın bələdiyyələrə seçilmək hüququ vardır.

Dünya təcrübəsində bələdiyyə orqanları güclü şura-zəif mer, zəif şura-güclü mer, şura-menecer, komissiya sistemi, qarışıq model kimi struktura malik olaraq formalaşırlar. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə görə ölkədə fəailyyət göstərən bələdiyyələr “güclü şura - zəif mer” modelinə əsasən təşkil olunmuşdur. Bu modelə görə bələdiyyələr nümayəndəli orqan kimi əhali tərəfindən seçilir.

**Yerli özünüidarəetmə orqanlarının maliyyə problemləri**

Bələdiyyələrin öz səlahiyyətlərini həyata keçirməsinin əsas şərtlərindən biri də onun kifayət qədər maliyyə potensialına malik olmasıdır. Yerli Özünüidarəetməyə dair Avropa Xartiyasının 9.1-ci maddəsində qeyd olunur ki, yerli özünüidarəetmə orqanları milli iqtisadi siyasət çərçivəsində öz funksiyalarını həyata keçirəcəkləri zaman sərbəst surətdə istifadə etmək üçün kifayət qədər özünün maliyyə vəsaitinə malik olmalıdır [2, 9.1]. Yerli büdcənin gəlirlər hissəsi vergilər, yığımlar, ayrı-ayrı dövlət səlahiyyətlərinin bələdiyyələrə verilməsi nəticəsində yaranmış əlavə xərclərin qarşılığında dövlət tərəfindən ayrılmış vəsait, bələdiyyə əmlakının özəlləşdirilməsindən əldə olunan vəsait, yerli lotereyalar və reklam fəaliyyətindən əldə olunmuş vəsait, bələdiyyə mülkiyyətində olan müəssisələrin gəlirləri, dotasiya, subvensiya və qrantlar hesabına formalaşır. Müasir dövrdə Azərbaycanda bələdiyyə büdcə gəlirlərinin böyük hissəsini dövlət büdcəsindən bələdiyyələrin büdcələrinə edilən transferlər təşkil edir. Məqsədsiz maliyyə yardımları-dotasiya və konpensasiyalar büdcə kəsirlərini aradan qaldırmaq məqsədi daşıyır və hər il bütün bələdiyyələrə verilir.

Yerli özünüidarəetmə orqanlarının maliyyə müxtariyyətinin genişləndirilməsi Avropa Xartiyasının əsas prinsiplərindən biridir. Sənəddə göstərilir ki, bələdiyyələr milli iqtisadi siyasət çərçivəsində öz səlahiyyətlərini reallaşdırmaq üçün kifayət qədər maliyyə resurslarına malik olmalıdırlar. Yerli özünüidarəetmə orqanlarına gəlir mənbəələri verilməli, bu kifayət etmədikdə isə mərkəzi büdcədən maliyyə yardımları ayrılmalıdır. Avropanın inkişaf etmiş ölkələrində yerli

büdcələrin 60-70%-i xüsusi gəlir mənbələrindən, 30-40%-i isə transfertlər hesabına formalaşır. Vacib prinsip özünüidarəetmə orqanlarının müstəqilliyini məhdudlaşdırmamaqdır.

Qanunvericilikdə bələdiyyələr üçün xüsusi vergilər və ödənişlər müəyyən edilsə də həmin gəlir mənbələri yerli özünüidarəetmə qurumlarının funksiyalarını reallaşdırmaq üçün kifayət etmir. Belə ki, bələdiyyələrin büdcələri onların normal fəaliyyət göstərməsinə inkan vermir. 2000-ci ildən başlayaraq dövlət büdcəsindən yerli büdcələrə transferlər edilir. Transferlərin maksimum həddi 2002-ci ildə 5,0 milyon manat, minimum həddi isə 2003-ci ildə 1,0 milyon manat olmuşdur. Son 5 ildə isə (2007-2011) transferlərin həcmi dəyişilməmiş qalmış, yəni 3,5 milyon manat olmuşdur. 2012-ci ildə bu məbləğ yenidən artırılaraq 5,0 milyon manata çatdırılmışdır. Bələdiyyələr yaradılandan bəri dövlət yerli büdcələrə cəmi 41 milyon manat həcmində maliyyə yardımı ayırıb. 2000-ci ildə dotasiyaların həcminin dövlət büdcəsinin xərclərində payı 0,47% olub. 2002-ci ildə dotasiyaların payı özünün ən yüksək həddinə, yəni 0,54%-ə çatmışdır. 2012-ci ildə isə bu rəqəm 0,03% həddinə düşmüşdür [8]. Demək, dotasiya ayrılmasının mövcud mexanizmində bir sıra təkmilləşdirilməsi vacib olan məsələlər mövcuddur.

Yerli özünüidarə qurumları, əsasən, yerli büdcələrdə toplanan gəlirlər hesabına maliyyələşməlidir, lakin statistikaya görə, yerli büdcələrin gəlirlərində qeyri-vergi gəlirləri üstünlük təşkil edir. Bələdiyyə mülkiyyətində olan torpaqların özəlləşdirilməsindən daxilolmalar büdcə gəlirlərinin əhəmiyyətli hissəsini təşkil edir. Məsələn, 2011-ci ildə bu mənbədən daxilolmalar 42,3% təşkil etmişdir. Əvvəlki illərdə bu göstərici 70%-dən çox olmuşdur. Vergilərdən daxilolma yerli büdcələrin ikinci əsas gəlir mənbəyidir: fiziki şəxslərdən torpaq vergisi; fiziki şəxslərin əmlak vergisi; yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi; bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi. Fiziki şəxslərdən torpaq vergisi və fiziki şəxslərin əmlak vergisi vergi daxilolmalarının 90%-ə qədərini təşkil edir. 2011-ci ildə bələdiyyə büdcəsinin 9,3%-i əmlak vergisi hesabına formalaşıb. Onu da qeyd etmək lazımdır ki, əmlak vergisinin yığılmasında bələdiyyələr bir sıra problemlərlə üzləşirlər. Bələdiyyələrin əmlak vergisindən yayınan fiziki şəxslərə təsir mexanizmləri yoxdur. 2011-ci ildə bu göstərici 2,7 milyon manat, yaxud 68% təşkil etmişdir. Ölkədə fəaliyyət göstərən bələdiyyələrin 80%-dən çoxunun kənd yerlərinə aid olduğunu və kənd yerlərində evlərin 90%-nin inventar dəyərinin olmamasını nəzərə alsaq bələdiyyə büdcələrinin formalaşmasına nə qədər mənfi təsir göstərdiyini görərik. Aqrar regionlarda evlərin inventar dəyərinin olmaması onların vergiyə cəlb edilməsini mümkünsüz edir, inventar dəyəri olan ev və digər əmlakların invertar qiymətləri isə çox aşağıdır, bazar qiymətləri ilə uzlaşdırılmayıb.

Əmlak vergisi beynəlxalq təcrübədə yerli vergiyə daxildir və bir sıra ölkələrdə əmlak vergisi üzrə daxilolmaların ÜDM-də payı kifayət qədərdir: Kanadada 3,2%, B.Britaniyada 3,1%, ABŞ-da 2,6%, Yaponiyada 2,1%, Azərbaycanda isə 0,3% təşkil edir [4 s.17].

Dünya Bankının məlumatlarında bir sıra inkişaf etmiş ölkələrdə yerli büdcələrin icmal büdcələrdə payı verilmişdir: Almaniyada bu göstərici 30,1%, Kanadada 18,5%, Amerika Birləşmiş Ştatlarında 31,6%, Norveçdə 31,7%, Niderlandda 23,6%, Böyük Britaniyada 22,%, Danimarkada 44,0% təşkil etmişdir. Qərbi Avropa ölkələrində bələdiyyələrin ümumi xərclərinin dövlət məcmusu xərclərində xüsusi çəkisi orta hesabla 22-25% təşkil edir. Hətta Norveçdə 2000-ci ildə bu göstərici ən yüksək həddə-60%-ə çatmışdır. Bununla yanaşı kəmiyyət indiqatoru kimi yerli özünüidarə xərclərinin dövlətin məcmu xərclərinin ÜDM-də xüsusi çəkisi göstəricisindən istifadə olunur. Xorvatiyada bu ğöstərici 6%, Çexiyada 9%, Estoniyada 12%, Litvada 7%, Latviyada 8%, Rumıniyada 5,5% , Slovakiyada 4% təşkil edir [4 s. 18].

Qanunvericilikdə məqsədli transferlərin ayrılması nəzərdə tutulsa da, belə transferlərin ayrılması hallarına rast gəlinməyib. Eyni zamanda, dünya təcrübəsində büdcələrarası transferlərin ən geniş yayılmış növlərindən biri olan paylı vergi sistemi Azərbaycanda tətbiq olunmur, bələdiyyələrin kredit bazarına çıxışını təmin edən işlək mexanizmlər yoxdur.

2012-ci il bələdiyyə orqanlarının büdcəsinin icrasına dair Dövlət Statistika Komitəsinin mə-

lumatlarına əsasən, 2012-ci il I rübün yekunlarına görə büdcə gəlirləri 16755,4 min manat, budcə xərcləri isə 15815,8 min manat olmuşdur. Xərclərdən yerli özünüidarəetmə orqanlarının saxlanmasına 7935,0 min manat sərf olunmuşdur ki, bu da ümumi xərclərin 50,2 %-ni təşkil etmişdir [8].

Cədvəl məlumatlarından göründüyu kimi, yerli özünüidarəetmə orqanlarının saxlanmasına sərf olunmuş vəsait respublika üzrə bələdiyyə büdcə xərclərinin 50,2%-ni təşkil edir. Ayrı-ayrı iqtisadi regionlarda bu göstərici müxtəlifdir. Abşeron iqtisadi rayonunda büdcə xərclərinin 30,9%-i yerli özünüidarəetmə orqanlarının saxlanmasına sərf edildiyi halda, Şəki-Zaqatala iqtisadi rayonunda bu rəqəm 56,2%, Lənkəran iqtisadi rayonunda 55,2%, Yuxarı-Qarabağ iqtisadi rayonunda 57,1% təşkil etmişdir. Buradan belə bir nəticəyə gəlmək olar ki, bələdiyyə büdcə xərclərinin əhəmiyyətli hissəsi bələdiyyə orqanlarının saxlanılmasına sərf olunur, yəni əmək haqqı formasında bələdiyyə işçilərinə ödənilir.

Azərbaycanın zəngin təbii sərvətləri və daxili potensial imkanları mövcuddur ki, bu da ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. “Avropa Xartiyası”na və “Bələdiyyələrin statusu”na görə bələdiyyələr daxili potensial imkanlardan istifadə etməli və dövlət büdcəsinin və yerli bələdiyyə büdcəsinin formalaşmasında iştirak etməlidir. Lakin statistik faktlar göstərir ki, əksər bələdiyyələr öz büdcəsinə gəlir gətirmədiyi halda, dövlət tərəfindən ayrılan dotasiyanın böyük hissəsi bələdiyyənin icra strukturlarının saxlanılmasına sərf olunur. Əslində isə, dövlətin ayırdığı dotasiya vəsaitləri bələdiyyə üzvlərinin və qulluqçuların maaşına deyil, iqtisadi, sosial və ekoloji proqramların həllinə sərf edilməlidir. Bu da bələdiyyələrdə çalışan kadrların təşkilatçılıq və idarəetmə bacarıqlarının az olduğunu göstərir.

**Bələdiyyələrin kadr problemləri**

Yerli özünüidarəetmə institutunu inkişafdan saxlayan səbəblərdən biri də bələdiyyələrin seçkili orqanlarının balanslaşdırılmış tərkibdə yaxşı formalaşmamasıdır.

Son seçkidə istər namizədlərin, istərsə də seçilmiş bələdiyyə üzvlərinin təhsil, cinsi mənsubiyyəti və yaş qrupunun yaxşı tendensiya ilə inkişaf etdiyini görmək olar. İlk bələdiyyə seçkilərində əksər bələdiyyələrdə bələdiyyə üzvlüyünə təsadüfi adamlar seçilmiş, ali təhsilli, təcrübəli şəxslər, qadınlar və gənclər azlıq təşkil etmişdir. Lakin 23 dekabr 2009-cu ildə aparılmış bələdiyyə seçkilərində müəyyən dəyişikliklər olmuşdur. Yəni, respublika üzrə bələdiyyələrin sayı 2767-dən azalaraq 1718 olmuşdur. 22.000 bələdiyyə üzvünün əvəzinə 15,591 nəfər seçilmişdir. Hazırda seçilmiş bələdiyyə üzvlərinin 9979 nəfəri və ya 64%-i ali təhsilli, 5612 nəfəri və ya 36%-i natamam ali təhsillidir. Ötən seçkilərdə qadınlar bələdiyyə üzvlərinin sayının 4%-ni, son seçkilərdə isə 26%-ni təşkil etmişdir. Gənclərin sayı isə 34%-dən 44%-ə yüksəlmişdir. Hal-hazırda bələdiyyə orqanlarında 4243 qadın çalışır. 301 bələdiyyənin sədri qadındır. Bu da ümumi bələdiyyə sədrlərinin 17,5%-ni təşkil edir. Ötən seçkilərə nisbətən bu, irəliləyiş hesab oluna bilər. Lakin bu rəqəm 82,5%-dən, yəni əks cinsin tutduğu mövqedən 4,7 dəfə azdır [6, s.10]. Qadınların və gənclərin bələdiyyələrə cəlb edilməsi potensial imkanlardan səmərəli istifadə olunmasına gətirib çıxarar.

İqtisadiyyatın, xüsusilə də, qeyri-neft sektorunun inkişaf tempi artdıqca, ölkədə yerli özünüidarəetmənin səmərəliliyinin artırılması prioritet məsələyə çevrilir. Lakin keçmiş təsərrüfat formalarının yeniləri ilə əvəz olunduğu və yeni texnologiyaların tətbiq edildiyi bir şəraitdə yerli idarəetmə sistemində çalışan kadrların böyük əksəriyyəti ətraf mühitdə baş verən dəyişikliklərə tam uyğunlaşa bilmir, idarəetmə məsələlərinin həllində peşəkarlığın az olması ilə bağlı bir sıra çətinliklərlə üzləşirlər, yerli özünüidarəetmənin səmərəliliyini təmin edə bilmirlər.

Azərbaycanda yerli özünüidarə kadrlarının hazırlanması universitet və akademiyalarda həyata keçirilir, lakin qeyd etdiyimiz kimi, ali təhsil ocaqlarında tələbələr yalnız nəzəri biliklərlə kifayətlənirlər. Doğrudur, tələbələrin tədris planında istehsalat və diplomqabağı təcrübə keçmələri nəzərdə tutulub. Lakin əksər hallarda tələbələr bu təcrübələri ümumi formada keçir, sırf bələdiyyə müəssisələrində təcrübə keçmələri təmin olunmur. Bu da bələdiyyə kadrlarının təhsili bitirərkən

tam ixtisaslı kadr olmasına mənfi təsir edir. Yüksək balla universitetləri bitirən gənc bələdiyyə kadrlarının müəyyən müddətə xaricdə təcrübə keçmələrinə şəraitin yaradlması bələdiyyə orqanlarında daha peşəkarların çalışmasına zəmin yarada bilər. Beləliklə, Azərbaycan Respublikasında bələdiyyə idarəçilik sistemində yüksək peşəkarlıq səviyyəsinin tələblərinə cavab verə biləcək kadr hazırlığı sahəsinin təkmilləşdirilməsi tələb olunur. Kənd bələdiyyələrinin başlıca problemlərindən biri yerli özünüidarəetmədə kadr potensialının zəif olmasıdır. "Bələdiyyə qulluğu haqqında" Qanun bələdiyyə qulluğuna qəbul üçün konkret vəzifələr üzrə peşə-ixtisas tələbləri müəyyənləşdirmir və işə qəbul üçün müsabiqə şərtlərini nəzərdə tutmur. Bələdiyyələrin kadr potensialının zəif olmasını şərtləndirən digər bir amil bələdiyyə kadrlarının hazırlığı, yenidən hazırlığı və ixtisaslarının artırılması sisteminin zəif olmasıdır. Bələdiyyə üzvlərinin bilik və bacarıqlarının artırılması məqsədilə birbaşa təlimlərin keçirilməsi və ya tədris kurslarının təşkili dünya təcrübəsində geniş yayılmış üsullardandır. Belə təşkil edilmiş kurslar xüsusi hazırlanmış proqramlar əsasında mütəxəssislər və təcrübəli şəxslər tərəfindən keçirilir.

Azərbaycanda yerli özünüidarə kadrlarının potensialının artırılması üçün müəyyən işlər görülür. Belə ki, hər il Azərbaycan Respublikasi Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Ədliyyə Nazirliyinin Hüquq-Tədris Mərkəzi kimi təsisatlar bələdiyyə kadrları üçün qısamüddətli kurslar təşkil edirlər. Lakin bütün bunlar bələdiyyə idarəetməsinin təkmilləşdirilməsi üçün kifayət etmir. Ədliyyə Akademiyasında təşkil edilmiş 17 ixtisasartırma kursunda 327 dinləyiciyə, Dövlət İdarəçilik Akademiyasında işə 57 dinləyiciyə mühazirələr oxunmuşdur [5, s. 38].

Türkiyədə fəaliyyət göstərən Mərmərə Bələdiyyələr Birliyi bələdiyyə rəhbərlərinin və işçilərinin peşəkarlığının artırılması məqsədilə ildə bir neçə dəfə tədris seminarları təşkil edirlər. Bundan başqa, 2005-ci ildə yaradılmış Yerli İdarəçilik Akademiyasında bələdiyyə rəhbərlərimerlər və onların müavinləri, bələdiyyə şurasının üzvləri, bələdiyyə qulluqçuları yüksək səviyyədə təhsil almaq imkanına malikdir. Tədris universitet müəllimləri, yerli özünüidarə sahəsində mütəxəssislər və tədqiqatçılar tərəfindən aparılır. Mərmərə Bələdiyyələr Birliyi beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə mütəmadi olaraq bələdiyyə üzvləri arasında qarşılıqlı əməkdaşlığın inkişafı və yaxşı təcrübələrin öyrənilməsi üçün beynəlxalq proqramlar təşkil edir [7].

Kadrların ixtisaslarının artırılması və yenidən hazırlığı sahəsində daha məqsədyönlü fəaliyyətə ehtiyac var. Bundan əlavə, bələdiyyələri inkişaf etmiş ölkələrə dövlət vəsaiti hesabına bələdiyyə qulluqçularının təcrübə keçmək üçün göndərilməsi dinamikasını sürətləndirmək vacib məsələ olaraq qalır. İndiyə qədər təcrübə üçün xarici ölkəyə-Türkiyəyə gedənlərin sayı cəmi 30 nəfərə yaxındır ki, bunun da əksəriyyəti şəhər bələdiyyələrinə aiddir.

Beynəlxalq təcrübədə olduğu kimi, Bələdiyyə Assosiasiyalarının bu işdə təşəbbüslərinin artırılması yerli özünüidarə sisteminin kadr potensialının artırılması istiqamətində faydalı töhfə verə bilər. Assosiasiyaların nizamnamələrində qeyd edilir ki, şəhərlərin, qəsəbələrin, kəndlərin iqtisadi, sosial və ekoloji problemlərinin həllinə xidmət edən konfranslar, dəyirmi masalar, treninqlər, seminarlar, kurslar və başqa tədbirlər təşkil edə bilər.

## Nəticə

Bələdiyyələrin yaranmasından 13 il keçməsinə baxmayaraq, onlar bu gün də problemlərlə qarşılaşır. İstisnalar olmaqla, bütövlükdə respublikada bələdiyyə orqanlarının fəaliyyətində nəzərəçarpacaq dərəcədə canlanma hiss olunmur. Bələdiyyə orqanlarının fəaliyyətini səmərəli etmək üçün bir sıra amillərin təkmilləşdirilməsi vacibdir: bələdiyyələrə verilən səlahiyyətlərin artırılması; səlahiyyətlərin müstəsnalığının və tamlığının təmin olunması; bələdiyyələrə maliyyə təminatının artırılması; bələdiyyə orqanlarında fəaliyyət göstərənlərin ixtisaslaşması. Bələdiyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində aparılan tədqiqatlar nəticəsində məlum olur ki, burada kifayət qədər problemlər mövcuddur. Bələdiyyələrin səlahiyyətlərinin tamlığı və müstəsnalığı təmin olunmalı, transferlərin həcmi artırılmalı, bələdiyyələrə daha effektiv maliyyə

mənbələri verilməli, mövcud maliyyə mənbələrindən daha səmərəli istifadə etmək üçün qiymətqoyma və vergitutma mexanizmi təkmilləşdirilməli, inkişaf etmiş ölkələrdə tətbiq edilən paylı vergi sistemi tətbiq olunmalı və bələdiyyələrin kredit bazarına çıxışı təmin olunmalı, məqsədli transferlərin ayrılması prosesinə başlanılmalıdır. Bələdiyyə idarəetməsində çalışmaq üçün lazımi qədər təcrübəli kadrlar hazırlanmalı, tələbələrin istehsalat və diplomqabağı təcrübəni bələdiyyə müəssisələrində keçmələri təmin olunmalıdır. Eyni zamanda, bələdiyyə orqanlarında çalışanların ixtisasının artırılmasına, onların inkişaf etmiş ölkələrdə təçrübə keçmələrinə dövlət yardımı və nəzarəti labüddür. Bələdiyyə orqanlarında çalışmaq üçün gənclərdən və qadınlardan geniş istifadə olunmalı, bələdiyyə orqanlarının yeni informasiya vasitələri ilə təminatı yaxşılaşdırılmalıdır.

Pilot bələdiyyələr yaratmaq, onlara kifayət qədər səlahiyyət və maliyyə vəsaitləri vermək, həmin bələdiyyələrdə çalışanların ixtisaslaşmasına nail olmaq, pilot bələdiyyələri müasir informasiya vasitələri ilə təmin etmək bu gün ən aktual məsələlərdən biri olmalıdır. Belə olduqda bələdiyyələr öz hüquqi, maddi resurslarından və idarəetmə bacarıqlarından istifadə edərək, istehsal müəssisələrini açmaqa müvəffəq olacaqlar. Bu da ümumdaxili məhsulun artmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, nəinki bələdiyyə ərazisində, bütün ölkədə əhalinin gəlirlərinin artmasına gətirib çıxaracaq. İqtisadi səmərə əldə etdikdən sonra bütün ölkə bələdiyyələrinin belə fəaliyyətini təmin etmək olar.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, IV bölmə, IX fəsil. Bakı, “Qanun”, 2003.
2. Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası, Strasburq, 15 oktyabr, 1995.
3. Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin Azərbaycan xalqına müraciəti. “Azərbaycan” qəzeti, 11 dekabr 1999-cu il.
4. Mehdiyev A., Ağayev R. “Maliyyə əksmərkəzləşməsi. Büdcələrarası münasibətlər sahəsində xarici ölkələrin təcrübəsi”, Monoqrafiya. Bakı, “AZSEA” MMC, 2008.
5. Abil Bayramov. “Bələdiyyələrin kadr potensialının gücləndirilməsi” Azərbaycanda bələdiyyə institutunun təşkili və fəaliyyətinin Avropa Xartiyasının prinsip və tələblərinə uyğunluğunun qiymətləndirilməsi üzrə monitorinq hesabatı, Bakı, 2011.
6. Rəcəb İmanov. “Bələdiyyələrin seçkili orqanlarının sosial tərkibinin balanslaşdırılmasının mühüm texnologiyaları”. Hesabat, Bakı-2010. www.localdemocracy.az
7. www. marmara.gov.tr
8. www.localdemocracy.az


***Нурангиз Январь кызы Микаилова***

## Проблемы усовершенствования деятельности муниципальных органов в регионах


### Резюме

Несмотря на прохождение 13-ти лет со времени образования муниципалитетов, они и сегодня сталкиваются с рядом проблем. Имея некоторые исключения, в республике в деятельности муниципальных органов, в целом, не почувствовалось бросающееся во взгляд оживление. Для рациональности деятельности муниципальных органов, необходимо усовершенствование ряда факторов: увеличение данных им полномочий муниципалитетов; обеспечение исключительности и завершенности полномочий; увеличение финансового обеспечения муниципалитетов; квалифицированность работников муниципальных органов. Слабость муниципальных бюджетов, основные факторы, являющиеся причиной его полного формирования.


***Ключевые слова: муниципальные органы, усовершенствование, социальный состав, опыт, бюджетные расходы.***

***Nurangiz Yanvar Mikailova***

**The improvement of the problems of the municipal authorities of the regions**

**Summary**

Since have passed 13 years the creation of the municipalities, they still face a number of challenges. Exceptions, notably the work of municipal authorities in the country as a whole is not felt the revived. For the made active of municipalities, to the activity of a number of factors in order to improve efficiency is important for municipalities to increase duties, responsibilities and integrity exception ensuring the financial security of the municipalities, the municipal bodies specialization of providers. The law municipal budgets is the main reason for the its complect formation

***Key words: local authorities, development, social structure, practices, and budget costs.***

**UOT 334. 012**

*Xavər Abdulməcid qızı HÜSEYNOVA*
*Azərbaycan Kooperasiya Universiteti*

# MÜASİR DÖVRDƏ AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNKİŞAFINA TƏSİR EDƏN ƏSAS AMİLLƏR

**Xülasə**

Müasir dövrdə aqrar sahədə sahibkarlığın inkişafı mühüm məsələlərdən biridir. Aqrar-sənaye sisteminin müasir dövrün yeni iqtisadi tələblərinə uyğun qurulması ölkədə sahibkarlıq fəaliyyətinin məqsədyönlü inkişaf etdirilməsindən asılıdır. Aqrar sənaye sistemində mövcud problemlərin vaxtında həll edilməsi aqrar sahənin resurs imkanlarından tamlıqla istifadə edilməsinə və əhalinin ərzaq məhsullarına, sənayenin isə bir sıra xammala olan tələbatının daxili istehsal hesabına ödənilməsinə imkan verə bilər.

***Açar sözlər: sahibkarlıq, aqrar, inkişaf, dövlət, bazar, texnologiya, təsərrüfat, istehsal.***

***

İnkişaf etmiş ölkələrin keçdiyi yol göstərir ki, iqtisadiyyatın, aqrar sahənin inkişafında sahibkarlığın böyük rolu olmuşdur. Elə buna görə də Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolunu seçmişdir.

Aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanda sahibkarlığın daha da formalaşması və inkişafı sahəsində müvəffəqiyyətlər əldə edilmiş, sosial problemlərin həllində sahibkarlıq strukturlarının rolu artmışdır.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanda aşağıda göstərilən sahələrdə böyük işlər görülməlidir:

1. Sahibkarlığın formalaşması və inkişafı üçün yaradılmış hüquqi- iqtisadi mühitin yaxşılaşdırılması;
2. Regionlarda sahibkarlığın inkişafına kifayət qədər diqqət yetirilmir;
3. Sahibkarlığın formalaşması və inkişafı üçün regionlarda mövcud olan potensial və yerli xüsusiyyətlər kifayət qədər nəzərə alınmır;
4. Sahibkarlığın inkişafına dövlət yardımının həcminin son illər artmağa doğru meyl etməsinə baxmayaraq onun mütləq miqdarı azdır və bir çox hallarda bu vəsaitdən təyinatına uyğun və səmərəli istifadə edilmir;
5. Fəaliyyət göstərən sahibkarlıq strukturları sırasında istehsal yönümlülərin xüsusi çəkisi azdır, onların artım tempi çox aşağıdır, sabit deyildir;
6. Qeydə alınmış sahibkarlıq strukturlarının fəaliyyət əmsalı aşağıdır və s. [1, səh. 208].

Aqrar-sənaye sisteminin müasir yeni iqtisadi tələblərə uyğun qurulması ölkədə sahibkarlıq fəaliyyətinin məqsədyönlü inkişaf etdirilməsindən asılıdır. Aqrar sənaye sistemində mövcud problemlərin vaxtında həll edilməsi aqrar sahənin resurs imkanlarından tamlıqla istifadə edilməsinə və əhalinin ərzaq məhsullarına, sənayenin isə bir sıra xammala olan tələbatının daxili istehsal hesabına ödənilməsinə imkan verə bilər.

Əksər ölkələrdə aqrar sahənin, xüsusən də sahibkarlığa edilən maliyyə yardımının yaxşılaşdırılması üçün hər cür tənzimləmə tədbirləri aparılır. Bu zaman əsas qiymət siyasəti götürülür.

Bizim ölkəmizdə qiymətlər üzərində dövlətin müəyyən dövr ərzində nəzarətinin olması çox vacibdir. Bu proses sahibkarlığa yardım istiqamətində ən mühüm tədbirlərdən biri sayıla bilər.

Aqrar sahibkarlıq təsərrüfatının səmərəli inkişaf etdirilməsi üçün bu sahənin özünəməxsus xüsusiyyətləri, xüsusən təbii-iqlim şəraiti, torpaq örtüyü, ərazinin relyefi və digər yerli xüsusiyyətlər də nəzərə alınmalıdır.

Araşdırmalar göstərir ki, müasir dövrdə ölkəmizdə qiymət əmələgəlmənin bütöv sistemi hələ

tam fəaliyyət göstərmir. Aqrar sahədəki təsərrüfat qurumlarının əksəriyyəti qiymətin ayrı-ayrı funksiyalarından istifadə edir, bəziləri isə məhsul və satış strategiyasının həyata keçirilməsinə istiqamətlənmiş fəaliyyət həyata keçirirlər [1, səh. 219].

Aqrar-sənaye kompleksi müəssisələri istehsalçıların ehtiyac və tələbatlarını öyrənməklə məhsul istehsal edib münasib qiymətə bazara təklif edirlərsə, bu o deməkdir ki, marketinq fəaliyyətinin həyata keçirilməsi zamanı istehlakçıların mənafeyi gözlənilir. Bu konsepsiyanın tətbiqi prosesində aqrar- sənaye kompleksində fəaliyyət göstərən müəssisələrin mənafeyinin gözlənilməsi özünü onda büruzə verir ki, həmin müəssisələr bazar fəaliyyətinin davamlılığı üçün kifayət qədər mənfəət əldə edə bilirlər [1, səh. 261].

Vahid dünya təsərrüfatı sisteminin ayrı- ayrı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə olduğu kimi, Azərbaycanın bazar münasibətləri əsasında köklənən və sahibkarlıq təbəqəsinin inkişaf etdirilməsi əsasında formalaşan milli iqtisadiyyat kompleksinin dövlət icra orqanlar ilə qarşılıqlı əlaqəsi aşağıdakı prinsiplər üzrə qurulur:

a) qanunvericilik bazasının yaradılması və vaxtaşırı təkmilləşdirilməsi;

b) vergi siyasətinin formalaşdırılması;

c) dövlət icra orqanları vasitəsilə iqtisadiyyat sahələrinin inkişaf etdirilməsinə maliyyə yardımının göstərilməsi [2, səh. 179].

Hər bir sahibkar fəaliyyətə başlayarkən xammal, materiallar və əsas istehsal vasitələri almaq üçün istehlak bazarında, müxtəlif növ xidmətlərdən istifadə etmək məqsədilə xidmətlər bazarında, istehsal edilmiş məhsullarını satarkən satış bazarında müəyyən növ mübadilə münasibətlərinə girir. Yəni onların bazar (mübadilə) münasibətləri, ilk növbədə üç qrupa ayrılır: istehlak bazarı, xidmətlər bazarı və satış bazarının tərəf-müqabili (iştirakçısı) olurlar. Birinci iki halda onlar alıcı ( istehlakçı) , üçüncü halda isə satıcı funksiyasını yerinə yetirirlər [2, səh. 181].

Aqrar sahənin mövcud potensialından səmərəli istifadə olunması, əlverişli iqtisadi mexanizmin qurulması, daxili bazarın yetərincə qorunmasının əsas yolu- onun regionlar üzrə istehsal-iqtisadi potensialının yeni tələblər səviyyəsində qurulması və həmçinin bazar prinsipləri əsasında, yeni təfəkkürə uyğun idarə edilməsidir. Ölkə regionlarının sosial- iqtisadi inkişafını nəzərdə tutan və 2004-2008-ci illərdə böyük uğurla həyata keçirilən Dövlət Proqramı, yuxarıda göstərilən məsələlərin həyata keçirilməsində önəmli rol oynamışdır. Regionların inkişafı üzrə Dövlət Proqramının ən üstün və fərqli cəhəti ondan ibarət olmuşdur ki, burada hər bir bölgə üzrə aqrar sahənin konkret inkişaf istiqamətləri öz əksini tapmışdır.

Proqram həm də Azərbaycan dövlətinin öz daxili resursları hesabına aqrar sahəyə ciddi investisiya qoyuluşlarını həyata keçirmək əzmini də nümayiş etdirmişdir. Azərbaycan Respublikasının vaxtilə onunla eyni start xəttində olmuş ölkələrlə müqayisədə əsas üstünlüyü də ondan ibarətdir ki, artıq ölkəmizin dəqiq müəyyən edilmiş iqtisadi və siyasi prioritetləri mövcuddur. İndi qarşıda duran əsas vəzifə-həmin istiqamətlərdə gələcək inkişaf meyllərini dəqiqləşdirmək və vəsaitlərdən səmərəli istifadə mexanizmini zaman və məkan üzrə layihələşdirməkdən ibarətdir.

Aqrar sahənin inkişaf strategiyasının ümumi müddəaları kifayət qədər sadə olmaqla, hər bir vətəndaş üçün də anlaşılandır. Belə ki, aqrar bazar münasibətlərinin formalaşması və dönməz xarakter alması nəticəsində 870 mindən artıq ailə torpaq mülkiyyətçisinə çevrilmiş, çoxsaylı və müxtəlif mülkiyyət mənsublu təsərrüfat qurumları yaradılmışdır. Artıq bu sahədə güclü sahibkarlar formalaşmışdır. Qiymətlər aqrar bazarda yalnız tələblə təklifin nisbəti və rəqabət mexanizminin təsiri altında formalaşır. Regional ixtisaslaşma və kooperasiya da daxili aqrar bazarın qabağındadır-aqrar islahatlar keyfiyyət dəyişikliyinə gətirib çıxarmış, kənd təsərrüfatı yeni məzmun və mahiyyət kəsb etmişdir. Bu isə o deməkdir ki, artıq Azərbaycan kəndləri etibarlı inkişaf yolundadır. Məhz bunların nəticəsidir ki, artıq aqrar sahədə istehsal olunan məhsulların 99%-i məhz özəl bölmənin payına düşür [3, səh. 200].

Ümumiyyətlə, aqrar sahədə regionların coğrafi-iqlim şəraiti nəzərə alınmaqla, bitkilərin becə-

rilməsində mütərəqqi texnologiyaların tətbiqi, suvarma suyundan aqrotexniki tələblərə uyğun olaraq vaxtında və lazımi miqdarda istifadə edilməsi, bitkilərin xəstəlik və ziyanvericilərdən qorunması, texnoloji proseslərə uyğun olaraq digər tədbirlərin həyata keçirilməsi hesabına kənd təsərrüfatı məhsulları istehsalını 1, 5-2 dəfə artırmaq mümkündür [3, səh. 202].

Bütün bunlara nəzər saldıqda görürük ki, aqrar sahədə istehsal və əmək resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi, emal sənayesinin inkişaf etdirilməsi, aqrar bazarın tam formalaşdırılması, marketinq, menecment və informasiya yayım şəbəkələrinin, xidmət sahələrinin təşkili, mütərəqqi və yeni tələblərə uyğun infrastruktur sistemlərinin yaradılması və digər çoxsaylı məsələlərin həllinə nail olmadan, rəqabətə davamlı aqrar sahənin formalaşdırılması qeyri-mümkündür. Yəni, aqrar sahənin inkişaf strategiyasının hazırlanaraq həyata keçirilməsi, rəqabətə davamlı kənd təsərrüfatı istehsalının formalaşması və inkişafında mühüm rol oynayır.

İqtisadiyyatın ayrı-ayrı sahələrində, o cümlədən aqrar sahədə infrastruktur obyektlərinin fəaliyyətində baş verən çatışmamazlıqlar bütünlükdə iqtisadiyyatın inkişafına öz mənfi təsirini göstərir. Məsələn, ayrı- ayrı regionlarda kənd təsərrüfatına xidmət edən nəqliyyat şəbəkəsinin zəif inkişaf etməsi istehsal sahələri ilə istehlakçıların əlaqəsini çətinləşdirir. Eyni zamanda kənd təsərrüfatı məhsullarının bazara çıxarılmasını ləngidir və beləliklə, təkrar istehsalın təşkili pozulur.

Aqrar sahədə islahatın uğurları əhəmiyyətli dərəcədə onun gedişində yaranan müəyyən maddi-texniki bazaya malik olan təsərrüfatların real iqtisadi subyektlərə çevrilməsinin təmin edilməsilə şərtlənir.

Məlumdur ki, aqrar münasibətlər torpaq mülkiyyəti ilə bağlı olub, iqtisadiyyatın aqrar bölməsində mövcud olan istehsal münasibətlərinin məcmusudur. O, həm də torpaqla bağlı münasibətlər sistemini əks etdirir.

Bazar münasibətlərinə keçid şəraitində aqrar sahənin inkişafı-bu sahədə fəaliyyət göstərən müxtəlif təsərrüfat subyektlərində istehsalın səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən asılıdır. Bu, ilk növbədə bazarda istehlakçıların ehtiyac və tələbatlarının ödənilməsinə xidmət edən bazar infrastrukturunun və marketinqin idarə olunma sisteminin formalaşdırılmasını tələb edir.

Ümumiyyətlə, aqrar sahədə məhsulun istehsalına və artımına nail olmaq üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi zəruri hesab edilməlidir.

- istehsalçıların ehtiyac və tələbatlarına uyğun, bazardakı konyuktur dəyişikliklərə tez bir zamanda reaksiya verə bilən, elmi-texnoloji və innovasiyalı dəyişiklikləri mənimsənilməsinə, yüksək servis xidmətlərinə malik məqsədyönlü və geniş əhatəli marketinq sisteminin formalaşdırılması;
- təsərrüfat fəaliyyətini mexanikləşdirmək və informasiya təminatını yaxşılaşdırmaq yolu ilə məhsuldarlığın yüksəldilməsində, yükdaşımalarda, yükləmə-yükboşaltma əməliyyatlarında və məhsulların satışında tərəqqiyə və sürətə malik olmaq;
- kiçik ailə təsərrüfatlarının və digər təsərrüfat subyektlərinin inteqrasiya olunmuş şəkildə birləşməsi və istehsal resurslarından birgə istifadəsi nəticəsində, aqrar marketinq sistemində təşkilati mexanizmləri inkişaf etdirmək;
- aqrar marketinq strategiyalarını və idarəetmə mexanizmlərini təkmilləşdirmək yolu ilə marketinqin idarəolunma sisteminin inkişafına nail olunması və s.

Aqrar istehsalın səmərəliliyinin yüksəldilməsində elmi-texniki tərəqqi (ETT) amilinin mühüm rolu olduğu bəllidir. Bu isə texnika və texnologiyaların təkmilləşdirilməsi, istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsalata tətbiqi sayəsində baş verir.

Aqrar istehsalın iqtisadi səmərəliliyini müəyyən edən əsas amillərin biri də bu sahənin texnika ilə əvəz olunması, həmçinin istehsal və xidmət proseslərinin tam mexanikləşdirilməsidir. Təbii ki, köhnəlmiş və az məhsuldar texnika ilə kənd təsərrüfatı işlərinin yerinə yetirilməsi məhsul itkisinə səbəb olur, ümumi məhsulun həcmi və gəlirləri səviyyəsi aşağı düşür [2, səh. 222].

Müasir dövrdə aqrar sahədə mövcud olan mühüm problemlərdən biri kənd təsərrüfatında mineral və üzvi gübrələrdən, zərərvericilərə qarşı mübarizə üçün kimyəvi vasitələrdən istifadə etməkdir. Uzun illər Azərbaycan Respublikası Milli Elmlər Akademiyası sahə institutlarının, habelə aqrar sahə elmi-tədqiqat institutlarının təcrübəsi sübut etmişdir ki, ölkənin regionlarının torpaqlarında məhsuldarlığı artırmaq üçün mineral və üzvi gübrələrdən, səmərəli gübrələmə üsullarından mütləq istifadə edilməlidir.

Aqrar sahənin inkişaf etdirilməsi dövlətin daim diqqət mərkəzində olmuş və olmaqdadır. Azərbaycanda hazırda kənd təsərrüfatı məhsullarının istehsalçılarına aşağıdakı formada birbaşa dövlət dəstəyi göstərilir: Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsi və çoxillik əkinlərin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım göstərilməsi; buğda və çəltik istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına hər hektar əkin sahəsinə görə əlavə 40 manat yardım verilməsi;

Dövlət yardımlarının göstərilməsi təcrübəsi də ölkəmizdə geniş yayılmışdır. Belə dövlət yardımlarına daxil edilir: kənd təsərrüfatı istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına mineral gübrələrin güzəştli qiymətlərlə satışı; buğda, arpa, qarğıdalı, dən üçün günəbaxan, kartof, şəkər çuğunduru, tərəvəz, meyvə və üzüm bağlarının sığortalanmasına müqavilə üzrə hesablanmış sığorta haqqının 50% - nin dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi; kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanlar ilə təmin edilməsinə əlavə dəstək verilməsi; kənd təsərrüfatı istehsalçılarının, torpaq vergisi istisna edilməklə, bütün vergilərdən müvəqqəti azad edilməsi; Azərbaycan Respublikasının ərazisinə gətirilən mühüm əhəmiyyətli malların əlavə dəyər vergisindən azad olunması; vergi ödənişindən azad edilmə; güzəştli kreditin verilməsi; [2, səh. 230].

Qeyd etmək lazımdır ki, aqrar sahədə sahibkarlıq fəalyyətinə dövlət himayəsi kənd təsərrüfatında sahibkarlıq mühitini stimullaşdırmaqdan, müxtəlif təsərrüfatçılıq formalarına üstün şərait yaratmaqdan, daxili və xarici bazarda prioritet mövqeyə malik hüquqi şəxs statuslu subyektlərə büdcə və qeyri- büdcə formalarından zəruri maliyyə yardımlarının göstərilməsindən, aqrar sahədə çalışan işçilərin əmək gəlirlərinin artırılmasına əlverişli şərait yaradılmasından ibarət olmalıdır. Aqrar sahədə dövlət himayəsi sistemli- elmli, eləcə də idarə olunan bir proses kimi formalaşdırılmalı və inkişaf etdirilməlidir [4, səh. 404].

## Nəticə

Aqrar sahənin inkişaf etdirilməsi dövlətin daim diqqət mərkəzində olmuşdur və olmaqdadır. Azərbaycanda aqrar sahənin-kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi göstərilir. Hal-hazırda ölkəmizdə bu geniş formada yayılmışdır. Aqrar sahədə dövlət himayəsi sistemli-elmli, eləcə də idarə olunan bir proses kimi formalaşdırılmalı və inkişaf etdirilməlidir.

## Ədəbiyyat

1. Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi, Azərbaycan Kooperasiya Universiteti, Bakı, 2012 (s. 208, 219).
2. Azərbaycan Milli Elmlər Akademiyası-Elmi əsərlər № 1, Bakı, 2009, (s. 179, 181, 222).
3. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2004-2008-ci illər).
4. Azərbaycan Milli Elmlər Akademiyası "Milli iqtisadiyyatın problemləri", Bakı, 2010 s. 404.

***Х.А.Гусейнова***

**Основные факторы, влияющие на развитие предпринимательства в аграрном секторе в современных условиях**

**Резюме**

В настоящее время развитие предпринимательства в сельском хозяйстве один из важнейших проблем. Построение аграрно- промышленной системы в соответствии с требованиями современности зависит от целенаправленного развития предпринимательства. Своевременное решение существующих проблем аграрно-промышленной системы может дать возможность всеобъемлеющего использования ресурсного потенциала аграрной сферы а также обеспечить за счет внутреннего производства потребности населения в продовольствии и потребности промышленности в некоторое сырье.

***Ключевые слова: предпринимательство, сельское хозяйство, развитие, правительство, рынок, технологии, сельское хозяйство, производство.***

***X. A. Huseynova***

**The main factors influencing the improvement of ownership in agrarian sector at the modern time**

**Summary**

The improvement of ownership in agrarian sector at the moment is one of the main problems. The formation of agrarian- industrial system on the basis of modern economic demands depends on the reasonable improvement of ownership activity in the country. Immediate solving of problems existing in agrarian- industrial system may provide perfect using of resourses of agrarian sector and meeting some demands of people in food products and demands of industry in raw materials on the terms of domestic production.

***Key words: entrepreneurship, agriculture, development, government, market, technology, agriculture, manufacturing.***

# MALİYYƏ, GƏLİRLƏR, İNVESTİSİYA VƏ İNNOVASİYA

**UOT 330. 59**

***Vəzir Vəli oğlu BAYRAMOV***
***Az.ETKTİ və Tİ-nin dissertantı***

## KƏND ƏHALİSİNİN GƏLİRLƏRİNİN ARTIRILMASI YOLLARI

**Xülasə**

Gəlirlər həyat səviyyəsinin göstəricilərindən biridir. Respublikada əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, gəlirlərin artırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir.

Məqalədə kənd əhalisinin gəlirlərinin mövcud durumu, onların formalaşmasına təsir edən amillər araşdırılmış, gəlirlərin artırılmasına mane olan səbəblər göstərilmiş və onların aradan qaldırılmasına dair təkliflər verilmişdir.

***Açar sözlər: kənd əhalisinin gəlirləri, həyat səviyyəsinin yüksəldilməsi, əmək haqqı, sahibkarlıq fəaliyyəti.***

***

Həyat səviyyəsi mürəkkəb, çoxcəhətli sosial-iqtisadi kateqoriya olub, insanların, əhalinin maddi və mənəvi tələbatlarının təmin edilməsi ilə yanaşı, həm də onların cəmiyyətdə mövqeyini, vəziyyətini əks etdirir. Ölkədə mövcud olan sosial-iqtisadi durum, inkişaf səviyyəsi, iqtisadi sistemdə baş verən dəyişikliklər də əhalinin həyat səviyyəsinə əsaslı şəkildə təsir göstərir.

Əhalinin həyat səviyyəsinin əsas göstəricilərindən biri əhalinin gəlirləridir. Həmçinin onu "həyat səviyyəsinin ölçülməsi aləti" də adlandırırlar. Bildiyimiz kimi, əhalinin gəlir mənbələrinə: məşğulluqdan gəlirlər, özüməşğulluqdan gəlirlər, kənd təsərrüfatından gəlirlər, mülkiyyətdən gəlirlər, alınmış cari transfertlər, pensiyalar, təqaüd, müavinət və sosial yardımlar, natural formada sosial transfertlər, kompensasiya və s. kimi pul gəlirləri daxildir ki, bu amillərin hər biri də özlüyündə gəlirlərə müəyyən dərəcədə təsir göstərir.

Ölkə iqtisadiyyatının davamlı inkişafı əhalinin məşğulluğunun artırılması, işsizliyin səviyyəsinin azaldılması, əhali gəlirlərinin artırılması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə sıx bağlıdır ki, bütün bu məsələlər də daim dövlətin nəzarətindədir.

Ölkəmizin iqtisadi və sosial həyatında müşahidə olunan müsbət meyllərin davam etdirilməsi məqsədilə ölkədə bir sıra tədbirlərin həyata keçirilməsi təsdiq olunmuş və hal-hazırda həyata keçirilməkdədir ki, bütün həyata keçirilən tədbirlər öz bəhrəsini göstərməkdədir. Məhz görülən tədbirlərin nəticəsidir ki, 2011-ci ildə də ölkədə sosial sahələrin inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm irəliləyişlərə nail olunmuşdur.

Qeyd etmək lazımdır ki, 2012-ci ildə ölkədə iqtisadi fəal əhalinin sayı 4626.1 min nəfər olmuş, onlardan 4375.2 min nəfərini və ya 94.5 faizini iqtisadiyyatın və sosial bölmənin müxtəlif sahələrində məşğul olan əhali təşkil etmişdir. Məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 38.3 min nəfər olmuş və işsizliyə görə müavinətin orta məbləği 190.4 manat təşkil etmişdir.

Həyata keçirilən tədbirlər sosial sahədə də əhəmiyyətli müsbət dəyişiklikləri təmin etmişdir. Belə ki, 2011-ci ildə minimum əmək haqqı 10% artırılaraq 93,5 manata çatdırılmışdır, bu da öz növbəsində dövlət və özəl sektorlarda çalışan 600 mindən artıq vətəndaşın maddi rifah halının nisbətən yaxşılaşmasına səbəb olmuşdur. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən bir çox sahələrdə çalışanların əmək haqları da müvafiq olaraq artırılmışdır.

Bununla yanaşı, əhalinin pensiya təminatı sahəsində əvvəlki sistemlə təyin olunmuş pensiya-

ların yenidən hesablanması nəticəsində 900 min nəfərə yaxın əmək pensiyasının pensiyası orta hesabla 40% artırılmışdır ki, bununla da bütün pensiyaçılar yoxsulluq səviyyəsindən yuxarı olan pensiya almağa başlamışlar. Bununla yanaşı, yaşayış minimumunun həddində də dəyişiklik edilmiş, 2012-ci ildə bu məbləğ 108 manata çatdırılmışdır ki, bu da 2011-ci il üçün təsdiq olunmuş yaşayış minimumundan 13.7% çoxdur.

Məlum olduğu kimi, “Yaşayış minimumu haqqında” və “Ünvanlı Dövlət Sosial Yardımı haqqında” Azərbaycan Respublikası Qanunlarına uyğun olaraq ehtiyac meyarının mərhələlərlə yaşayış minimumuna çatdırılması üçün 2012-ci ildə ehtiyac meyarının məbləği 84 manat müəyyənləşdirilmişdir. Bu tədbir aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşdırılmasında önəmli rol oynayacaqdır.

Son illər ərzində yoxsulluğun səviyyəsinin aşağı salınmasında “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı”nın və ümumilikdə müxtəlif istiqamətlər üzrə qəbul edilmiş digər sahəvi proqram, tədbirlər planı nəticəsində yoxsulluq səviyyəsi 2010-cu ildəki 9.1 faizdən 2011-ci ilin yekunlarına əsasən 7.6 faizə enmişdir [1, səh. 15].

Ölkə üzrə əhali gəlirlərinin dinamikasına nəzər yetirək.

***Cədvəl***

***Əhalinin gəlirləri, milyon manatla***

| | 2005 | 2005 | 2010 | 2011 |
|---|---|---|---|---|
| Gəlirlər - cəmi | 4047,3 | 8063,6 | 25607,0 | 30633,5 |
| İlkin gəlirlər | 3136,9 | 6394,2 | 22126,5 | 26725,8 |
| O cümlədən: | | | | |
| İşçilərə əmək ödənişləri | 1021,1 | 2954,8 | 7027,3 | 7171,9 |
| Sahibkarlıq fəaliyyətindən gəlirlər | 2114,4 | 3432,6 | 14725,0 | 19216,4 |
| Mülkiyyətdən gələn gəlirlər | 1,4 | 6,8 | 374,2 | 337,5 |
| Alınmış cari və əsaslı transferlər | 910,4 | 1669,4 | 3480,5 | 3907,7 |
| Ödənilən cari transferlər | 299,3 | 976,1 | 2202,0 | 2433,3 |
| Mülkiyyətdən ödənilən gəlirlər | … | … | 521,0 | 540,5 |

*Mənbə: http://www.stat.gov.az*

Cədvəlin məlumatlarından göründüyü kimi, 2000-2011-ci illərdə əhalinin gəlirlərinin həcmi, demək olar ki, davamlı şəkildə artmışdır. Bu artım təxminən 7,5 dəfə olmuşdur. Ümumilikdə, bu illərdə əhalinin cəmi pul gəlirlərinin strukturunda ümumi artım müşahidə olunmaqla yanaşı, ayrı-ayrı gəlir növləri üzrə də artım göz qabağındadır. Belə ki, əmək ödənişləri 7,2 dəfə, sahibkarlıq fəaliyyətindən gəlirlər isə 9 dəfə artmışdır [1, səh. 20].

Ölkədə qeyri-neft sektorunun inkişafının əhalinin gəlirlərinin artmasında rolu böyükdür. Statistik məlumatlara əsasən, 2012-ci ildə 2011-ci il ilə müqayisədə 12,6% artaraq 1068,6 manat və ya orta hesabla ayda 267,1 manat təşkil etmişdir ki, onun artım sürəti istehlak qiymətlərinin bahalaşmasını 9,9% üstələmiş, başqa sözlə desək, əhalinin real gəlirlərinin səviyyəsində 9,6% artım qeydə alınmışdır.

Qeyd olunan dövrdə ölkə əhalisi tərəfindən əldə edilmiş 9,8 milyard manat gəlirin 65,3%-i istehlak xərclərinə, 9,1%-i vergilər ilə sosial sığorta və könüllü üzvlük haqlarına, 2,2%-i isə kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, qalanı yığıma yönəldilmişdir. Bütün bunlar da özünü birbaşa olaraq, daxili istehlak bazarında alış-verişin həcminin genişlənməsində göstərmişdir. Bu da müsbət haldır ki, ödəmə qabiliyyətli tələb artdıqca təklifin formalaşması prosesi çeşid və kəmiyyət baxımından dəyişmiş və inkişaf etmişdir.

Hər bir ölkədə əhalinin normal inkişafı, yaşayışı, sağlamlığı istehlak bazarının vəziyyətin-

dən, onun lazımi mallarla necə təchiz olunmasından asılı olur. Əhali gəlirlərinin səviyyəsinin sabitliyi məhz istehlak bazarının vəziyyətini və əhalinin yaşayış keyfiyyətini müəyyən edir. Belə ki, pul gəlirlərinin artımı, ilk mərhələdə əhalinin istehlak qabiliyyətini artırır, sonrakı mərhələlərdə isə keyfiyyət baxımından ödənilməsinə şərait yaradır və yaşayış keyfiyyətini yaxşılaşdırır [2, səh. 35].

Məlumdur ki, regionlarda yaşayan əhalinin böyük hissəsi kənddə yaşayır və onlar kənd təsərrüfatı sahələrində çalışırlar. Bu, ölkənin əmək qabiliyyətli əhalisinin təqribən 38%-ini təşkil edir. Son illərdə Azərbaycanda kənd təsərrüfatında çalışanların sayında artım davam etmişdir. Belə ki, 2000-ci ildə bu rəqəm 1,5 milyon təşkil etmişdirsə, 2011-ci ildə onların sayı 1,657 milyon nəfərə yüksəlmişdir. Bu artıma səbəb regionlarda həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları və qeyd etdiyimiz kimi, sahibkarlığın inkişafının dəstəklənməsi olmuşdur.

Kənd yerlərində əhali gəlirlərinin artırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi bütövlükdə aqrar iqtisadiyyatın inkişafından əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, aqrar sahənin dayanıqlı inkişafı, ilk növbədə kənd əhalisinin, bütövlükdə kəndin inkişafını nəzərdə tutur. Aqrar sahənin dayanıqlı inkişaf strategiyasının başlıca vəzifələrindən biri də yoxsulluğun səviyyəsini azaltmaq, ölkədə sosial-iqtisadi və sağlam ekoloji şəraitin yaxşılaşdırılmasına nail olmaqdır. Kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sahələrində iqtisadi artımın təmin edilməsi aqrar sahədə dayanıqlı inkişafın ən başlıca amili kimi çıxış edir.

Məlumdur ki, əhalinin məcmu gəlirlərinin tərkibində əmək gəlirlərinin tədqiqi aparıcı yeri tutur. Belə ki, əhalinin əksər hissəsinin maddi rifahı əmək gəlirlərinin hesabına formalaşır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, kənd yerlərində əhalinin əmək gəlirləri şəhər yerləri ilə müqayisədə 2-2,5 dəfə, kənd təsərrüfatında işləyənlərin əmək gəlirləri sənaye sahələri ilə müqayisədə 3-4 dəfə aşağıdır. Belə ki, 2011-ci ildə ölkə üzrə orta nominal əmək haqqı 364,2 manat təşkil etmişdirsə, kənd təsərrüfatında bu rəqəm 196,4 manat olmuşdur. Bu da kənd əhalisinin yaşayış şəraitinə, həyat səviyyəsi göstəricilərinə təsir göstərir.

Müasir şəraitdə kənd yerlərində əhalinin gəlirləri ilə minimum istehlak büdcəsinin bazar dəyəri arasında tarazlığın yaradılması, dövlətin effektiv sosial siyasətinin reallaşdırılması ilə yanaşı eyni zamanda səmərəli sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən bilavasitə asılıdır. Bazar iqtisadiyyatı ayrı-ayrı bölgələrdə sahibkarlığın inkişafının daha da sürətləndirilməsini obyektiv zərurətə çevirir. Regionlarda sahibkarlığın inkişafı və əhalinin həyat səviyyəsi həmin regionun mənsub olduğu kompleks şəraitdən asılı olaraq formalaşır. Bu baxımdan da əhalinin gəlirləri və yoxsulluğun səviyyəsi ilə sahibkarlığın inkişafı arasında əlaqənin öyrənilməsi vacib məsələlərdən sayılır. [3, səh. 68].

Sosial sahələrdə mövcud geriliyin aradan qaldırılması son illərdə respublikanın regionlarında sahibkarlıq qurumlarının təsərrüfat-maliyyə fəaliyyətinin gəlirliyinin artırılması ilə sıx əlaqədardır. Belə ki, sahibkarlıq inkişaf etdikcə sahibkarlıq gəlirləri artır. Pensiyaların, müavinətlərin artırılması ilə transfer gəlirləri artır. Məlumdur ki, transferlərin maliyyə mənbəyi dövlət büdcəsidir və müəssisələrin hüquqi və fiziki şəxslərin sosial müdafiə fonduna məcburi sosial sığorta ödəmələridir.

Son illər “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” və dövlət tərəfindən qəbul edilən digər proqramlara əsasən ölkə iqtisadiyyatının gücləndirilməsi, tarazlı inkişaf etdirilməsi və dünya iqtisadiyyatına səmərəli inteqrasiyası, sürətli regional inkişafın təmin olunması, regionlarda infrastruktur təminatının və kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması, xalqın rifah halının daha da yüksəldilməsi, əhalinin etibarlı ərzaq təminatının ödənilməsi üçün makroiqtisadi sabitliyin qorunması, investisiya mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, sahibkarlığa, xüsusilə regional sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, ixracyönümlü məhsul istehsalının artırılması və s. istiqamətlərdə ciddi uğurlar əldə edilmişdir.

Eyni zamanda, uğurların miqyasının daha da artırılması məqsədilə sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması, dövlət-sahibkar münasibətlərinin tənzimlənməsi, ölkədə sağlam rəqabətin təmin edilməsi, biznesə başlama prosedurlarının sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, vergi yükünün davamlı azaldılması, maarifləndirmə və digər istiqamətlərdə tədbirlər davam etdirilməkdədir.

Bununla yanaşı, aqrar sektorda intensiv metodların geniş tətbiq olunması, dövlət dəstəyinin davam etdirilməsi, quşçuluq və heyvandarlıq komplekslərinin, bağçılıq təsərrüfatları, istixanaların və məhsulların saxlanılması üçün anbar infrastrukturun yaradılması nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı əhəmiyyətli səviyyədə artmış, bir sıra əsas ərzaq məhsulları üzrə tələbatın yerli istehsal hesabına təmin olunması, ərzaq mallarının qiymətlərinin idxaldan asılılığının azalması və beləliklə də, qeyri-neft ixracının artması üçün real şərait yaranmışdır. Bütün bunlar gələcəkdə regional inkişaf istiqamətində daha ciddi uğurların əldə ediləcəyinə zəmin yaradır.

Lakin bütün bunlarla yanaşı, burada bir sıra problemlər də mövcuddur. Aparılmış təhlil onu deməyə əsas verir ki, kənd əhalisinin istehlak xərcləri şəhər əhalisinkinə nisbətən aşağı olsa da, həyat səviyyəsi, maddi rifah halı heç də qənaətbəxş deyildir. Bunun da ilkin səbəblərindən biri onların gəlirləri ilə istehlak xərcləri arasındakı uyğunsuzluqdur. Kəndlərdə işsizliyin hökm sürməsi, sosial infrastrukturun aşağı səviyyədə olması və bir çox bu kimi həllini gözləyən məsələlər onların gəlirlərinə təsir göstərir ki, bu da son nəticədə kənd əhalisinin həyat səviyyəsində özünü büruzə verir. Belə ki, iqtisadiyyatın digər sahələrindən fərqli olaraq kənd təsərrüfatında istehsal və iş dövrlərinin bir-birinə uyğunsuzluğu əmək resurslarından istifadədə fasiləliyə və mövsümi işsizliyə gətirib çıxarır. Bu sahədə mövsümiliyin azaldılmasına, o cümlədən ilin bütün dövrləri üzrə əmək resurslarından bərabər şəkildə istifadə etməyə imkan verən kənd təsərrüfatı sahələrinin səmərəli strukturunun formalaşdırılması da mühüm məsələlərdən hesab edilir [4, səh. 56].

Həmçinin sahibkarlığın inkişafı daha çox ölkəmizdə aqrar bazar infrastrukturlarının formalaşdırılmaması, enerji daşıyıcılarının çatışmazlığı və qiymətlərinin yüksək olması, eləcə də məhsulun satışındakı çətinliklərin mövcudluğu baxımından ləngiyir. Bu da, bütün bunlar da kənd əhalisinin maddi rifahına mənfi təsir göstərməklə kənddə yoxsulluğun səviyyəsinin artmasına gətirib çıxarır. Aqrar sahənin spesifik xüsusiyyətlərindən irəli gələrək investisiya cəlbediciliyinin aşağı olması nəticə etibarilə kənd təsərrüfatı əmtəə istehsalçılarının kapital resurslarına olan tələbatının ödənilməsində problemlər yaradır ki, bu da geniş təkrar istehsalı davam etdirmək imkanlarını məhdudlaşdırır.

Qeyd etmək lazımdır ki, əhalinin sosial müdafiəsinin təmin edilməsi və həyat səviyyəsinin stabilləşdirilməsinin ən mühüm faktorlarından biri ölkədə məşğulluğun bərqərar olmasıdır. Əgər əhalinin səmərəli məşğulluğu təmin edilməyibsə hər hansı iqtisadi inkişafdan və sosial-siyasi sabitlikdən danışmaq mümkün deyil. Bu məqsədlə istehsalın kapital qoyuluşunun və məşğulluğun sürətlə artımına nail olmaq məqsədilə iqtisadi inkişafın və sosial siyasətin müxtəlif istiqamətlərində işlənilməsi və həyata keçirilməsində sahibkarların və əməkçilərin fəal iştirakları təmin edilməlidir.

Müəssisələr və yerli hakimiyyət orqanları milli, iqtisadi və sosial şərtlər nəzərə alınmaqla işsizliyə qarşı mübarizəyə, əməkçilərə iş tapmaqda köməklik göstərilməsinə, iş yerlərinin sayının artırılmasına və işsizliyin nəticələrinin minimuma çatdırılmasına yönəldilmiş tədbirlər görməli və bu tədbirlər ilk növbədə həmin müəssisədə və ərazidə başqa işlərin yerinə yetiriməsi üçün yenidən təlim keçirilməsini, həmçinin həmin müəssisə çərçivəsində başqa işə keçirilməsini əhatə edir.

Kənddə yaşayan əhalinin sosial durumunun yaxşılaşdırılmasında və işsizliyin aradan qaldırılmasında bir sıra tədbirlərin həyata keçirilməsində yerli özünüidarə orqanları mühüm rola malikdir. Belə ki, bələdiyyələrin öz mülkiyyətinə verilən torpaq sahələrində hər hansı istehsal prosesini həyata keçirmək, ondan qazanc götürmək və kəndin digər problemlərini həll etmək üçün imkanları, potensialları vardır. Bu imkanlardan geniş istifadə edilsə, bələdiyyələr banklardan kredit

götürüb emal müəssisələri yarada bilər, kəndlərdə olan mal-qaranın südünü, qatığını əhalidən toplayıb emal etməklə qazanc götürə bilərlər. Bu, həm də işsizliyin aradan qaldırılmasında bir mənbə rolunu oynaya bilər.

Qeyd etdiyimiz kimi, kənd təsərrüfatında bir sıra problemlər mövcuddur. Xaricdən toxum, texnika gətirilməsində, yerlərdə realizə olunmasında bələdiyyələrin imkanlarından istifadə edilməsinə ehtiyac vardır. Bu gün kəndlərdə həm heyvandarlıqda, həm bitkiçilik sahəsində pərakəndəlik mövcuddur. Bələdiyyələr təşəbbüs göstərib həm istehsalla, həm satışla, həm xidmətlə bağlı kooperativlər yarada bilərlər. Bu qurumlar həm kənd inkişafında, həm də yerli sosial-iqtisadi problemlərin həllində çox böyük rol oynaya bilərlər.

Kənd əhalisinin gəlirlərinin artırılmasında intellektual investisiyaların rolunun artırılması da mühüm məsələlərdəndir. Belə ki, müasir həyatın tempi ilə uyğunlaşan kadrların hazırlanmasına, təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına, elmi-texniki tərəqqinin inkişafına vəsaitlərin daha da artırılması dünyanın qloballaşması və inteqrasiyası şəraitində aktuallıq kəsb edir.

Respublikada sosial problemin aradan qaldırılması məqsədilə əhalinin gəlir əldə etmək imkanlarının artırılması üçün regionda əlverişli sosial-iqtisadi mühitin və infrastrukturun yaradılması, ölkədə makroiqtisadi və demoqrafik sabitliyin qorunub saxlanması üçün kəndin inkişafına üstünlük verilməsi, ölkə əhalisinə göstərilən səhiyyə, idman, təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə cari və perspektiv layihə və proqramların hazırlanması və maliyyələşdirilməsi, kəndlərdə istehsal və sosial infrastrukturun fəaliyyətinin genişlənməsi məqsədilə mikrokredit proqramlarına onların geniş cəlb olunmalarına şərait yaradılması kimi tədbirlərin həyata keçirilməsi də vacib məsələlərdəndir. Həmçinin bu istiqamətdə hökumətin sosial yardım siyasətinin əsas vəzifəsi yardımların ünvanlığının səmərəliliyinin artırılması, qısamüddətli perspektivdə ən yoxsul və aztəminatlı əhali kateqoriyalarına yardımın gücləndirilməsi və çevik tənzimlənmə mexanizminə malik səmərəli müdafiə sisteminin yaradılması prioritet məsələ kimi ön plana çəkilməlidir [5, səh. 44].

Kənd təsərrüfatında kooperasiya və inteqrasiya əlaqələrinin güclü olmaması da kənd əhalisinin məşğulluğuna və gəlirlərinin artmasına mənfi təsir edən amillər sırasına daxildir. Burada kooperasiyanın inkişaf etdirilməsi yolu ilə iri sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsinin həyata keçirilməsi məhsul istehsalının artırılmasına və xarici bazarlara çıxış imkanlarının genişləndirilməsinə səbəb ola bilər.

Regionlarda elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərini istehsalda tətbiq etməklə emal sənayesinin inkişaf etdirilməsi, innovasiyalı məhsul istehsalının gerçəkləşdirilməsi hesabına yeni iş yerlərinin artırılmasına, işsizliyin səviyyəsinin aşağı salınmasına və məşğulluğun təmin edilməsinə əlverişli şərait yaratmaq mümkündür.

Məlumdur ki, aqrar sahədə fəaliyyət göstərən sahibkarların gəlirləri iqtisadiyyatın başqa sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan sahibkarların gəlirləri ilə müqayisədə daha kəskin dəyişmələrə məruz qalır, ümumi halda götürüldükdə isə həmişə azalmağa meyilli olur. Bu vəziyyət, demək olar ki, dünyanın əksər ölkələrində müşahidə olunur və aqrar sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların maliyyə resurslarının qıtlığı problemlərinin meydana gəlməsinə səbəb olur.

Bu sahədə fəaliyyət göstərən sahibkarların və kənd təsərrüfatı istehsalçılarının sözügedən problemini həll etməkdən ötrü dünyanın bütün ölkələrində məqsədyönlü şəkildə tədbirlər işlənib hazırlanır və reallaşdırılır. Həmin tədbirlər sistemi içərisində istehsalı strateji əhəmiyyət kəsb edən və zərərlə başa gələn məhsullar üzrə dotasiyaların, subvensiyaların, subsidiyaların ayrılması mühüm yer tutur. Bu da rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasında, onların xarici bazara çıxarılması imkanlarının genişləndirilməsinə əlverişli şəraitin yaradılmasında, nəticədə təsərrüfat subyektlərinin maliyyə nəticələrinin yaxşılaşdırılmasında və əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayır.

Dövlətin tənzimləmə vasitələrinin aktivləşdirilməsi, məhsul istehsalının stimullaşdırılması və daxili bazarın qorunması səmərəli məşğulluğun yüksəldilməsi və işsizliyin səviyyəsinin aşağı salınmasında öz müsbət nəticələrini verəcəkdir.

Beləliklə, kənd yerlərində əhalinin gəlirlərini artırmaq üçün ölkənin regionlarında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması, regional xüsusiyyətlər nəzərə alınmaqla mövcud ehtiyatlardan səmərəli istifadə edilməsi üçün zəmin yaradan iqtisadi mexanizmlərin daim təkmilləşdirilməsi davamlı olaraq həyata keçirilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının statistik göstəriciləri. Bakı, 2012.
2. Quliyev C.B. Müstəqillik illərində Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsinin dəyişilməsi meylləri və ona təsir edən amillərin qiymətləndirilməsi. İqtisadiyyat, humanitar və ictimai elmlər seriyası, Xəbərlər 1-2004.
3. Политика доходов и качества жизни населения. Под. Ред. Н.А.Горелова.- СПб.: Питер, 2003.- 653 с.
4. А.Е.Суринов. Доходы населения опыт количественных измерений. Москва, 2000. с. 429.
5. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı, 2007.

***Везир Вели оглы Байрамов***
***диссертант Аз.НИИЭ и ОСХ***

## Пути повышения доходов сельского населения

**Резюме**

Доходы являются одной из характеристик благосостояния. В республике проводятся крупномасштабные меры в направлении улучшения уровня жизни и повышения доходов населения.

В статье исследуется нынешнее состояние доходов сельского населения, факторы влияющие на их формирование, а также показаны причины препятствующие их увеличению и выдвинуты предложения по их предотвращению.

***Ключевые слова: доходы сельского населения, улучшение уровня жизни, зарплата, предпринимательская деятельность.***

***Vazir Vali Bayramov***
***candidate for a degree***
***in Az.SRIE and OA***

## Ways of increasing incomes of rural population

**Summary**

Income is one of the indicators of life quality. In order to make better life standards, increase incomes large scale measures are being accomplished.

In this article the current status of the rural population’s income, factors that influence their formation have been investigated, the obstacles to increase incomes have been shown and ways of elimination have been proposed.

***Key words: incomes of rural population, improvement of living standards, salary, business activity.***

UOT. 330.341.1:62

*Tapdıq Yusif oğlu NURİYEV*
*Azərbaycan Kooperasiya Universitetinin aspirantı*

# RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNNOVASİYA AMİLİ

**Xülasə**

Rəqabət qabiliyyəti aqrar sahədə əmtəəlik istehsalın kumulyativ göstəricisidir. Aqrar sahibkarlığın rəqabət qabiliyyətini şərtləndirən innovasiyalı mühitin səciyyələndirilməsi kompleks tədqiqatlar tələb edir. Məqalədə bu qisim məsələlər araşdırılmışdır. Aqrar sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya amilinin rolunu gücləndirmək üçün bir sıra təkliflər əsaslandırılmışdır.

***Açar sözlər: rəqabət qabiliyyəti, innovasiya, aqrar sahibkarlıq, səmərəlilik.***

***

Sahibkarın mümkün resursları bir araya gətirərək bazarın tələblərinə müvafiq məhsul istehsal etməklə mənfəətini artırmağa yönəlik fəaliyyəti rəqabət mühitində baş verir. Tələb-təklif nisbətində özünə əlverişli məqam axtarışı, alıcı marağını təmin edən məhsul buraxılışı, keyfiyyət və qiymət arasında manevrlərlə əlqədar taktiki gedişlər rəqabət qabiliyyətini artırmağa istiqamətlənmişdir. Əlbəttə, yüksək rəqabət qabiliyyəti aqrar sahibkar üçün məqsəd olmayıb, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin mühüm şərtidir. Uğurlu sahibkarlıq fəaliyyəti genişləndirməyi və bu zaman gəlirləri artırmağı nəzərdə tutur. Təşəbbüskarlıq və inkişaf şəraitində uğurlu sahibkarlıq fəaliyyəti yeniliklərin tətbiqi sayəsində mümkündür. Ənənəvi yanaşmalar hesabına bazarın bu və ya digər seqmentində mövqe tutmaq və onu möhkəmləndirmək, açıq iqtisadi inkişaf modeli şəraitində, adətən özünü doğrultmur.

Alqı-satqı obyekti kimi texniki, texnoloji, sosial və digər yeniliklərin, səmərələşdirici təkliflərin və ixtiraların, patentlərin çıxış etdiyi innovasiya bazarında alıcı kimi iştirak edən tərəfin adekvat marağı olmalıdır. Adekvatlıq, aqrar sahibkar nöqteyi-nəzərindən yeniliklərin tətbiqində mənfəət əldə etməkdə ifadə olunmalıdır. Sirr deyildir ki, sahikar innovasiyalı inkişafa iqtisadi maraqları prizmasından baxır. İnnovasiya bazarında fəallığın aqrar sahibkara əlavə gəlir gətirməsi üçün, elmı-texniki nailiyyətlərin tətbiqi üçün institusional, hüquqi, iqtisadi və sosial baxımdan əlverişli mühit formalaşmalıdır.

Aqrar sahibkarlığın innovasiyalara marağının artması üçün ilkin şərt innovasiyalı yanaşmaların kommersiyalaşmasıdır. Başqa sözlə, hazırlanmış və ya satın-alınmış innovasiya öz xərclərini örtməklə, kifayət qədər qısa müddətə yeni məhsul (və ya yeni xidmət) üçün müvafiq bazar seqmentində mövqe qazanmağa imkan verməlidir. Aydındır ki, bu xeyli müddət tələb edən, tədrici və başa gəlməsi tam ehtimallı olmayan prosesdir.

İntensivləşmənin iqtisadi səmərəliliyi və innovasiyalı inkişafın təminatı müəssisənin maliyyə dayanıqlıqı ilə bilavasitə əlaqədardır. Müəssisə, o cümlədən aqrar sahibkarlıq subyekti səviyyəsində maliyyə dayanıqlığını əks etdirən məlum ğöstəricilərin (kreditor borclarının xüsusi vəsaitlərə nisbəti, satışdan daxilolmaların vaxtı ötmüş debitor borclara və avanslara nisbəti, satışdan daxilolmaların vaxtı ötmüş kreditor borclarına nisbəti və s.) informasiya bazasına ciddi tələblər qoyulur. Belə ki, burada maliyyə təhlilinin əksər göstəriciləri öz əksini tapmalıdır. İnnovasiyaların investisiyalaşması, daha doğrusu, müvafiq investisiya qərarlarının qəbulu üçün mühüm indikatorlar kimi, maliyyə dayanıqlığı göstəriciləri ilə yanaşı işgüzar fəallıq göstəriciləri də özünəməxsus rol oynayır. İşgüzar fəallıq göstəriciləri qismində, bu baxımdan ehtiyatların dövriyyəsi əmsalı (satışdan daxili olmaların ehtiyatlara nisbəti) və kapital dövriyyəsinin ümumi əmsalı (satışdan daxilolmaların balans mənfəətinə nisbəti) xüsusi diqqətə layiqdir. Araşdırmalar göstərir ki, aqrar sahibkar təsər-

rüfatlarının innovasiya yönümü dərəcəsini qiymətləndirmək üçün maliyyə dayanıqlığı, işgüzar fəallıq və digər göstəricilərdən istifadə imkanları məhduddur. Bu məhdudiyyət həm metodoloji, həm də informasiya xarakterlidir. Alqoritmik və informasiya çətinliklərinin aradan qaldırılması, sahibkarın innovasiya bazarında iştirakını stimullaşdırmaq baxımından mühüm əhəmiyyətə malikdir.

Qabaqcıl xarici təcrübədən məlum olduğu kimi, aqrar sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya amilinin rolunun artırılması proqram-məqsədli yanaşma tələb edir. Müxtəlif mənbələrdən maliyyələşdirilən bu proqramlarda, intensivləşmə, rəqabət qabiliyyəti, innovasiya və ətraf mühitin qorunması problemlərinin qarşılıqlı əlaqəli həlli nəzərdə tutulur. Məlum olduğu kimi, yenilik tədbiq olunmaq üçün qəbul edildiyi andan yeni keyfiyyət kəsb etdiyindən innovasiyaya çevrilir. Onların kənd təsərrüfatına təqbiqi, aqrar sahibkarların innovasiyalı fəaliyyətə marağının artırılması üçün:

- elmi mərkəzlərin də iştirak etdiyi istehsal-kommersiya şəbəkəsi daxilində inteqrasiya əlaqələrinin gücləndirilməsi;
- istehsal, xidmət və digər profilli kooperasiya münasibətlərinin inkişafı;
- təsərrüfat subyektlərinin parametrlərinin (ölçülərinin) optimallaşdırılması;
- müqavilə intizamına ciddi əməl edilməsi;
- sahibkar təsərrüfatlarının kredit qaytarma qabiliyyətinin yüksəldilməsinə yönəlmiş tədbirlərin kompleks şəkildə icrası və s. məsələlər həll edilməlidir.

Müasir dövrdə kənd təsərrüfatı istehsalının davamlı yüksək rəqabət qabiliyyəti ekoloji tələblər çərçivəsində intensivləşmə imkanlarını reallaşdıran innovasiyalı inkişaf kursunun əsaslandırılmasını və sistemli şəkildə həyata keçirilməsinin səmərəli mexanizminin yaradılmasını tələb edir. İnnovasiyalı inkişaf kursunun reallaşdırılması əhəmiyyətli dərəcədə aqrar sahibkarın öz fəaliyyətində hansı meyarlara üstünlük verməsindən asılıdır. Sirr deyildir ki, aqrar sahibkarlığın formalaşmasının ilkin mərhələsində, bir çox hallarda, istehsalın inkişafının kəmiyyət göstəriciləri önə çəkilir. Belə vəziyyət daxili bazara yönəlik məhsul istehsalı üzrə parametrlərin yaxşılaşdırılması tədbirlərinə rəvac verir. Əlbəttə, burada söhbət məhsulun ekoloji parametrləri və keyfiyyətinin ikinci plana keçirilməsi hesabına istehsalın artırılmasından getmir. Bununla belə, innovasiyalı aqrotexnologiyaların tədbiqi sayəsində məhsulun keyfiyyətinin yüksəldilməsi hələ də kütləvi hal almamışdır. Odur ki, hazırda bitkiçilikdə və heyvandarlıqda məhsuldarlığın yüksəldilməsinə və tələbata uyğun məhsul istehsalının artırılmasına yönəldilmiş innovasiyalar diqqəti daha çox cəlb edir.

Torpaq və su resurslarından istifadə səmərəliliyini yüksəldən innovasiyalara maraq, onların aqrar sahibkarlığın rəqabət qabiliyyətinə təsiri ilə əlaqədardır. Mövcud təsərrüfatçılıq şəraitində:

- torpağın münbitliliyinin artırılması və məhsuldarlığın yüksəlməsi;
- ağır texniki vasitələrin minitexnika ilə əvəzlənməsi və torpağın humus qatının qorunması;
- eroziyaya qarşı mütərəqqi texnologiyaların tədbiqi və kənd təsərrüfatına yararlı sahələrin genişləndirilməsi;
- optimal əkin dövriyyəsinin tətbiqi, məhsuldarlığın yüksəldilməsi və məsrəflərin minimumlaşdırılması və s. kimi torpaqdan daha səmərəli istifadəyə xidmət edən innovasiyaların stimullaşdırılması üçün kompleks tədbirlər həyata keçirilməlidir.

Kənd təsərrüfatında məhsul və proses innovasiyaları hesabına rəqabət qabiliyyətinin yüksəldilməsində su resurslarının istifadəsi üzrə mütərəqqi texnologiyaların tətbiqi həlledici rol oynayır. Həmin texnologiyaların tətbiqi nəticə etibarı ilə suvarma sisteminin birbaşa və dolayı səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Bu baxımdan su itkilərinin azaldılması və suvarma suyunun tərkibinin yaxşılaşdırılması üzrə innovasiyalar xüsusi diqqətəlayiqdir.

Mütəxəssislərin rəyinə görə ölkəmizin əksər regionlarında mütərəqqi və vegetasiyanın müxtəlif mərhələlərində daha münasib suvarma üsullarının tətbiqini nəzərdə tutan, o cümlədən aerozol,

damcı, yerüstü səthi nəmləndirən texnologiyaların istifadəsi məqsədəuyğundur. Aparılmış araşdırmalar göstərir ki, innovasiyalı suvarma texnologiyalarının əksəriyyətində suyun həcmi ilə yanaşı, onun tərkibi də ciddi surətdə tənzimlənməlidir. Bu səbəbdəndir ki, həmin texnologiyaların tətbiqi, suvarma şəbəkəsinin bütün elementlərinin modernləşdirilməsini tələb edir.

Aqrar sahibkarların, ailə kəndli və ev təsərrüfatlarının, həmçinin digər təsərrüfat kateqoriyalarının sudan istifadənin səmərəliliyinin yüksəldilməsi baxımından təşkilatlanması, mütərəqqi texnologiyaların tətbiqi üçün zəruri şərtdir. Belə ki, bu halda kənd təsərrüfatı üçün həyati əhəmiyyətli bu resursdan istifadənin iqtisadi və ekoloji səmərəliliyinin uzlaşdırılması mümkün olur. Sudan istifadə edənlərin assosiasiyalarının yaradılması sayəsində resursqoruyucu texnologiyaların tətbiq dairəsini genişləndirmək, idarəetmə və texnoloji aspektdə innovasiyaların birgəliyini təmin etmək imkanları genişlənir.

Aqrobioloji proseslərin proqramlaşdırılması üzrə innovasiyaların səmərəliliyi məhsulun kəmiyyət və keyfiyyət parametrlərinin yaxşılaşdırılması imkanlarını genişləndirməklə, təbii resurslardan (xüsusilə, torpaqdan) daha səmərəli istifadə üçün şərait yaradır. Bununla belə, aqrobioloji proseslərin proqramlaşdırılması enerji sərfini artırmaqla ətraf mühitə neqativ təsirləri gücləndirə bilər. Aqrobioloji proseslərin idarə olunmasına yönəlmiş innovasiyaların digər xarakterik cəhəti, istehsal olunan məhsulların keyfiyyətində öncədən dərk olunması mümkün olmayan dəyişikliklərin baş verməsinin yüksək ehtimalıdır. Göründüyü kimi, sadalanan xüsusiyyətlərin aqrobioloji proseslərin proqramlaşdırılmasının aqrar sahibkarlığın rəqabət qabiliyyətinə birmənalı təsirindən danışmaq çətindir. Daha dəqiq desək,məhsulun kəmiyyətcə artımı heç də həmişə onun keyfiyyətcə yaxşılaşması ilə müşayiət olunmur.

Aqrar sahikarlığın rəqabət qabiliyyətinin yüksəldilməsi aqrobioloji proseslərin proqramlaşdırılmasına innovasiyalı yanaşmaların səmərəliliyinin çoxmeyarlı qiymətləndirilməsini tələb edir. Kənd təsərrüfatının innovasiyalı inkişaf kursuna xas olan bu cəhət,yeniliklərin və onların tətbiqi prosesinin əsas tələblər müstəvisində qiymətləndirilməsinin ümumiləşdirilmiş göstəricilərinin müəyyənləşdirilməsini tələb edir. Məsələ ondadır ki, belə göstəricilər aqrar sahikarın mənafeyi və ətraf mühitin qorunması, innovasiyalar və məşğulluq, intensivləşmə və kənd təsərrüfatının çoxfunksiyalılığının dəstəklənməsi və s. kimi məsələlərdə konsensus vəziyyətini xarakterizə edə bilirlər.

Kənd təsərrüfatında risk səviyyəsinin yüksək olması, burada yeniliklərin tətbiqində qeyri-müəyyənliyi artırır. “İqtisadi fəaliyyətin davam edəcəyi şərait haqqında kifayət qədər məlumatın olmaması, bu şəraiti qabaqcadan görməyin, əvvəlcədən xəbər verməyin zəif səviyyədə olmasıdır. Qeyri-müəyyənlik iqtisadi sistemin bütün səviyyələrində planlaşma, qərar qəbul etmə, fəaliyyəti həyata keçirmə riskləri ilə bağlıdır” [1, s. 21].

Qeyri-müəyyənlik, məlum olduğu kimi,investor marağına neqativ təsir edən amildir. İnnovasiyaların investisiyalaşdırılmasında qeyri-müəyyənliyin minimumlaşdırılması və ümumilikdə, bu istiqamətə marağın artırılması üçün bütün situasiyalarda birmənalı qəbul edilən yanaşmalar olmasa da, praktikada çoxsaylı vasitələr sınaqdan çıxarılmışdır.

Aqrar sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəlmiş innovasiyalara investorların marağının artırılmasının mühüm istiqaməti maliyyə innovasiyalarının dəstəklənməsidir. Başqa sözlə, maliyyə innovasiyalarının təşviq edilməsi kənd təsərrüfatında sahibkarlığın rəqabət qabiliyyətinin dəstəklənməsinin, sahədə istehsal innovasiyalarına investorların marağının artırılmasının mühüm ilkin şərtlərindən biri olmalıdır. Mənfəətin artırılması, xərclərin azaldılması, riskin aşağı salınması məqsədi ilə yeni maliyyə alətlərinin yaradılması, yeni maliyyə əməliyyatlarının aparılması, yeni hesablaşma formalarının tətbiqi və sairəni [2, s. 153] nəzərdə tutan maliyyə innovasiyaları aqrar sahibkar təsərrüfatının maliyyə dayanıqlığını yüksəlməklə, innovasiyalı layihələrin investisiyalaşdırılması üçün əlverişli şərait yaradır.

Aqrar sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəlmiş innovasiyaların maliyyələşdirilməsinin digər perspektivli istiqaməti vençur layihələrinin investisiyalaşdırılmasıdır. Riskli ideyaların maliyyələşdirilməsi üçün tətbiq edilən vençur investisiyalaşdırılması, artıq innovasiyalı inkişafın qeyri-ənənəvi forması deyildir. Təkcə onu demək kifayətdir ki, bir sıra Qərb ölkələrində, xüsusilə ABŞ-da investisiyalaşmanın bu istiqamətinin yarıməsrlik tarixi vardır. İnnovasiyaların vençur investorları, yüksək riskli layihənin maliyyələşdirilməsinə, çox yüksək gəlir gözləntiləri səbəbindən razı olurlar. Baş tutmayan bir neçə vençur layihəsindən gözləntilərini bir uğurlu layihə hesabına əldə edən vençur investorlar, həmçinin çox qiymətli təcrübə əldə edirlər.

Kənd təsərrüfatının innovasiyalı inkişafının vençur layihələrini həyata keçirmək üçün ideya sahibi investorları inandırmalı, risklərin çoxsaylı tərəfdaşlar arasında bölüşdürülməsi imkanlarının reallığını əsaslandırmalıdır. Mütərəqqi texnologiyaların kommersiyalaşması üçün təchizat-istehsal-satış mərhələlərinin hər biri üçün uğurlu komanda motivasiyası ortaya qoyulmalıdır. Belə yanaşma özünü doğrultduqda, əldə edilən sınanmış təcrübə özü də institusional innovasiya kimi bazara çıxarıla bilər. Nəticədə, innovasiya amilinin aqrar sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsində artan rolu reallığa çevrilir.

Aqrar sahibkarlığın rəqabət qabiliyyəti miqyas effektinin reallaşması ilə bilavasitə əlaqədardır. Digər tərəfdən, təsərrüfatın ölçüləri yeniliklərdən əldə edilən səmərəni müəyyənləşdirən mühüm amildir. İnnovasiyalara münasibətdə fəallıq,onlardan əldə edilən gəlirlə çəkilən məsrəflərin nisbətindən asılıdır. Bu baxımdan proses və məhsul innovasiyalarına münasibət fərqlidir. Məsələ ondadaır ki, kənd təsərrüfatında istehsal sahibkarlığında məhsul innovasiyaları, əsasən ixtisaslaşma və inteqrasiya əlaqələrində, proses innovasiyaları isə kooperasiya və inteqrasiya əlaqələrində reallaşdırılır. İstehsal, emal, daşınma və satış mərhələlərini əhatə edən sahibkarlıq qurumlarında innovasiya amilinin rəqabət qabiliyyətinə təsiri böyükdür [3].

Fəaliyyət növlərinin inteqrasiyası şəraitində innovasiyalara məsrəflər və onların nəticələrinin qiymətləndirilməsi üçün, ilk növbədə:

- ideyaların kommersiyalaşması hesabına innovasiyalı inkişaf xəttində baş verən dəyişikliklərin iqtisadi nəticələri (səmərəliliyi) qiymətləndirilməli;
- müsbət dəyişikliklərin başa gəlməsinin birbaşa məsrəfləri qiymətləndirilməli;
- birbaşa səmərə və birbaşa məsrəflər müqayisəli təhlil edilərək, təhlil dövrü üçün orta nisbət tapılmalı;
- innovasiyaların dolayı səmərəliliyi ekspert qaydada qiymətləndirilərək ümumi göstəricilər hesablanmalıdır.

Bu hesablamalar mövcud alqoritmlərin əsaslandırılmış modifikasiyalarına və ekspert texnologiyalarının tətbiqinə əsaslana bilər. İnnovasiya layihələrinin səmərəliliyinin ekspert qaydalarının tətbiqi, müvafiq göstəricinin həm iqtisadi, həm də sosial parametrlərinin müqayisəli qiymətləndirilməsi zərurəti ilə əlaqədardır. Aqrar sahibkarlıqda innovasiyaların səmərəliliyinin qiymətləndirilməsi təcrübəsi göstərir ki, iqtisadi səmərəlilik parametrlərin hesablanması, əsasən konkret göstəricilər, sosial səmərəlilik parametrlərinin hesablanması isə ehtimallı göstəricilər bazasında həyata keçirilir. İqtisadi və sosial parametrlər arasında bəzi hallarda müşahidə olunan ziddiyyətlərə baxmayaraq, nəticə etibarı ilə onlar bir-birini tamamlayır. Sözügedən vəhdətin əldə olunmasında innovasiyaların artan imkanlarının gerçəkləşdirilməsi aqrar sahibkarlığın rəqabətqabiliyyətliliyinin təminatında həlledici əhəmiyyətə malikdir.

İntensivləşmə və innovasiyalı inkişaf arasında sıx qarşılıqlı əlaqə, aqrar sahibkarlığın rəqabət qabiliyyətinin dəstəklənməsi baxımından araşdırılarkən aşağıdakı göstəricilərin xüsusi diqqətə layiq olduğunu hesab edirik:

- resurslardan səmərəli istifadəyə yönəlmiş innovasiyaların reallaşdırılması zamanı əsas kapitala investisiyaların strukturunda baş verən dəyişikliklər;

- innovasiyaların maliyyələşməsi rejiminin çevikliyi dərəcəsi;
- innovasiyalara adekvat institusional yeniliklərin parametrləri;
- innovasiyalara dəstək mexanizminin aqrar sahədə fəaliyyət parametrləri;
- elmi və informasiya təminatının metodoloji və praktiki aspektlərlə uyğunluğu dərəcəsi;
- innovasiya yönümlü fəaliyyətin aqrar islahatların konkret mərhələsinin tələblərinə uyğunluğu və s.

Aqrar sahibkarlığın innovasiyalı inkişafı üzrə səviyyələr fərqləndirilməlidir. Belə yanaşma, rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya amilinin rolunu kifayət qədər dəqiqliklə qiymətləndirmək üçün əlverişli şərait yaradır. Araşdırmalar göstərir ki, sahədə tətbiq edilən yenilikləri aşağıdakı kimi fərqləndirmək məqsədəuyğundur:

- yerli əhəmiyyətli yeniliklər;
- texnoloji əlaqələrdə reallaşan yeniliklər;
- istehsal prosesindəki yeniliklər;
- iqtisadi əlaqələrdə və maliyyə alətlərinin tətbiqində yeniliklər;
- məhsulda ifadə olunan yeniliklər.

Yeniləşdirmənin səviyyələrindəki müxtəliflik onun miqyası və səmərəliliyində öz əksini tapır. İxtisaslaşmadakı dəyişikliklər yeni texnika və texnologiya tətbiqini zəruri edirsə, onun ümumi səmərəliliyi, yəni birbaşa və dolayı səmərəliliyinin məcmusu,məhsul buraxılışı tsikli başa çatdıqdan sonra qiymətləndirilə bilər. Məsələ ondadır ki, istehsal prosesindəki yeniliklər texnoloji əlaqələrdə adekvat dəyişikliklərlə müşayiət olunmasa, iqtisadi səmərəlilik göstəricilərində zəruri aşkarlıqla əks olunmur.

Aqrar sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiya amilinin müsbət təsirinin reallaşdırılması bazar tədqiqatlarının yeni keyfiyyət səviyyəsinin əldə olunmasından asılıdır. Bazara çıxarılması nəzərdə tutulan yeni məhsullar üzrə qiymət və reklam siyasətinin işlənib hazırlanması zamanı analoji və əvəzləyici məhsulların müvafiq parametrlərinin bütün mümkün variasiyalarının nəzərə alınması vacibdir. Yeni məhsulun rəqabət qabiliyyətinin təminatında innovasiya strategiyası aqrar sahibkarın ümumi inkişaf strategiyası ilə üst-üstə düşməlidir.

## Ədəbiyyat

1. İzahlı iqtisadi terminlər lüğəti. II hissə. Bakı, “Nurlar”, 2005, 546 s.
2. A.Ağayev. Maliyyə terminləri lüğəti. Bakı, 2005, 421s.
3. www. ekonomy.gov.az

***Тапдыг Юсиф оглу Нуриев***

## Инновационный фактор повышения конкурентоспособности

### Резюме

Конкурентоспособность является кумулятивным показателем товарного производства в аграрном секторе. Характеристика инновационной среды обуславливающих конкурентоспособности аграрного предпринимательства требует комплексных исследований. В данной статье рассмотрены вопросы такого порядка. Обоснованы некоторые предложения по усилению роли фактора инновации в повышении конкурентоспособности аграрного предпринимательства.

***Ключевые слова: конкурентоспособность, инновация, аграрное предпринимательство, эффективность.***

***Tapdig Yusif Nuriyev***

**Innovation factor in rising of competition ability**

**Summary**

Competition ability is a cumulative index of goods production in agrarian sector. The characteristic of innovation sphere which stipulates competition ability in agrarian entrepreneurship demands comprehensive research. These kinds of issues have been examined in this article. A few proposals for strengthening of innovation factors in rising of competition ability in agrarian entrepreneurship have been substantiated.

***Key words: competition ability, innovation, agrarian entrepreneurship, efficiency.***

**UOT 336. 64**

***Zakir Əlibala oğlu NURİYEV***
***Azərbaycan Dövlət İqtisad Universitetinin***
***Bank işi kafedrasının dissertantı***

# PAY İNVESTİSİYA FONDLARININ İDARƏ EDİLMƏSİNDƏ ƏMANƏTLƏRİN İQTİSADİ ROLU

**Xülasə**

Məqalədə əmanətlərin pay investisiya fondlarının idarə edilməsində iqtisai rolundan bəhs edilir. Belə ki, əhalinin sərbəst pul vəsaitləri investisiya fondlarına cəlb edilir və yerləşdirilir. İnvestisiya qoyuluşu əhalinin iştirakı ilə öz miqyasını daha da genişləndirir.

***Açar sözlər: əmanət, fond, risk, investisiya, pay, gəlir, strategiya.***

**Giriş**

Ayrı-ayrı elmi işlərdə “Fərdi investisiya qoyuluşu” anlayışı ifadə edilib. Bu, həm ölkə daxilində, həm də xaricdə, gəlir, mənfəət, kapitalın dəyərinin artımı məqsədilə bu fəaliyyəti səmərəli risk hüdudunda həyata keçirməyə imkan verən müvafiq müdafiə şərtlərinin olmasında fiziki şəxs və ya kollektiv fərdi investor tərəfindən həyata keçirilən kapitalın istehsalata uzunmüddətli qoyuluşu və ya biznesin bir hissəsi kimi qiymətləndirməyə təqdim edilir.

Əhalinin fərdi investisiyalarının formalaşmasının idarə edilməsi vətəndaşların maliyyə əmanətlərinin yığılmasına, investisiya qoyuluşunu həyata keçirməyə meylli olan maliyyə institutlarına yerləşdirilən qoyuluşlara, onların çevrilməsinə, həmçinin əmanətçilərin maraqlarının müdafiəsinin müvafiq səviyyəsində gəlirlərin alınmasına tənzimləyici təsir göstərən sosial-iqtisadi prosesdən ibarətdir.

Bu fikirlə razılaşaraq, qeyd etmək lazımdır ki, dövlət idarəetmə orqanlarının tənzimləyici təsirdə sadəcə fikrini cəmləşdirmək tam düzgün deyil. Aydındır ki, fərdi investisiyaların idarə edilməsinin təşkiletmə mahiyyəti daha dərindir.

Bir sıra elmi işlərdə qeyd edilir ki, hazırda əhalinin fərdi investisiyalarının formalaşması və müdafiəsi sahəsində aparılan siyasət geniş miqyaslıdır və perspektivlidir. Lakin biz hesab edirik ki, bu günlər təqdim olunan proqram tədbirləri işlənib hazırlanıb, birinci növbədə, əhalinin maraqlarının nəzərə alınmasından yox, maliyyə ehtiyatlarında iqtisadiyyatın ehtiyaclarından irəli gələrək, onların ödənilməsi üçün əmanətləri yığır və qoyuluşları həyata keçirir. Bu tədbirlər bir-birindən asılı olmayaraq natamamdır, əvvəlki ətraflı düşünülmüş strateji plandan irəli gəlmir və qoyulan məsələnin həllinin yönəldilməsinin vahid kompleksinə birləşməyib. Onların əksəriyyəti yerinə yetirmə müddəti və imkanlarına görə qeyri-realdır [1, səh. 23].

Ölkənin iqtisadiyyatında vətəndaşların əmanətlərinin cəlb edilməsi proqramının həyata keçməsinin effektiv idarə edilməsi üçün onlarda şərh edilən tədbirləri üç əsas qrupa ayırd etmək məqsədəuyğundur: strateji (uzunmüddətli) xarakterli-institutların etibarlılığının və maliyyə bazarının alətlərinin artırılmasına aparan bütövlükdə iqtisadi mühitin normallaşdırılması; taktik (ortamüddətli) təsirli-həm əhali, həm də investisiyalar üçün əlverişli olan yeni toplam alətlərini yaradan bu və ya digər sosial-iqtisadi institutların inkişafı; qısamüddətli (operativ) təyinatlı - müəyyən əhali qruplarının, həmçinin mövcud institut və alətlərin mövcud etibarlılığının maksimal istifadə edilməsi. Alim və təcrübəli insanlar tərəfindən xeyli böyük diqqət fərdi investisiya qoyuluşu institutlarının inkişafının sosial-iqtisadi zəminlərinin yaradılması və problemlərinə yetirilir.

Xüsusilə, aşağıdakılar ayırd edilir:

- fərdi investisiya ehtiyatlarında iqtisadiyyatın real sektorunun ehtiyacının artırılması;
- vəsaitlərin valyutada əldə saxlanılması ilə müqayisədə gəlir layihələrinə şəxsi əmanətlərinin investisiya qoyuluşuna üstünlük verən əhalinin sayının artırılması;

- kollektivizm ənənələrini qoruyan kiçik investorların böyük miqdarı; şəxsi vəsaitlərin qorunması və artırılmasında əhalinin tələbatlarının yalnız bank idarələri tərəfindən ödənilməsinin bacarıqsızlığı;
- fərdi investisiya bazarının institusional sisteminin genişləndirilməsində dövlətin maraqlı olması.

Əhalinin fərdi investisiyalarının formalaşması və istifadəsi probleminin məzmunlu hissəsini nəzərdən keçirək.

Bazar münasibətlərinin inkişafında investisiya qoyuluşu prosesindən büdcə kreditləri, maddi yardım, imtiyaz, yəni maddi yardımın müxtəlif formaları şəklində bu və ya digər fəaliyyət növünün stimullaşdırılması üçün istifadə olunur. Belə ki, XIX əsrin sonu kredit (borc) vermə, maliyyə ehtiyatlarının toplanması, qeyri-maliyyə aktivlərinin hərəkəti və istifadəsi proseslərinə xidmət edən qiymətli kağızların yaranması və yayılması dövrü olur. XX əsrdə investisiyalar cəmiyyətin istehsaledici qüvvələrini radikal dəyişir və yenidən bölür. Bunun üçün çoxlu ehtiyatlar istifadə olunur, lakin onların yalnız amortizasiya, gəlir, kreditlər və istiqraz formasında cəlb edilməsi kifayət etmir, təcrübə investisiya fəaliyyətinə torpaq və qeyri-maliyyə aktivləri kimi obyektlərin cəlb edilməsini tələb etdi. Lakin iqtisadiyyatın inkişafının müəyyən mərhələlərində investisiyalarda yeni tələbatlar yüksək keyfiyyətlə yaranırdı, onların funksiyaları əlavə edilirdi və ya şəkli dəyişirdi [2, səh. 74].

Alim və mütəxəssislər arasında birinci növbədə investisiya qoyuluşu mahiyyətinə texnoloji üsul yayması idi, o əsas fondların prosesi əhatə edilməsini nəzərdə tutur. Bu onunla bağlıdır ki, əmanətlərin digər növləri məhdud idi. Bu üsula “əsaslı tikinti” uyğundur, inzibati-plan iqtisadiyyatında sifarişçi tərəfindən həyata keçirilən istehsalat gücü və obyektlərin hərəkətə gətirilməsinin planlaşdırılması və təşkili üzrə funksiyalar başa düşülür. Bu zaman “əsaslı tikinti” anlayışı onun üçün də istifadə olunurdu ki, ideoloji işdə “kommunist tikinti”, “partiya quruculuğu”, “hərbi tikinti” və “əsaslı quruculuğun” özü anlayışlarını fərqləndirmək üçün.

Xarici mütəxəssislər üçün mülk üsulu xasdır. Aşağıdakı təyin istifadə edilir: “İnvestisiya qoyuluşu - prosedur yığmasıdır, onların köməyi ilə investor qərara gəlir ki, hansı gələcək mülkiyyətə vəsaitləri qoymaq daha əlverişlidir onlar nə qədər çox olmalıdır və hansı vaxt kapital qoyuluşunu həyata keçirmək lazımdır”. Aydındır ki, bu üsulun birincidən nisbətən aydın zidd istiqaməti var. Bu onunla bağlıdır ki, birinci plana kapital qoyuluşlarından əldə edilən gəlirlərin alınmasından ibarət olan maraqlar və əmlak kompleksi daxil olmaqla onların mülkiyyətin artırılmasına yönəldilməsi keçir.

Bununla əlaqədar olaraq, investisiya qoyuluşu proseslərinin xüsusiyyətlərinə həsr edilmiş elmi işlərdə aşağıda göstərilən anlayışlar istifadə olunur: maliyyə-investisiya kompleksi, investisiya tikinti kompleksi, investisiya tikinti sahəsi, investisiya fəaliyyəti.

Maliyyə-investisiya kompleksinin mahiyyəti, bir sıra mütəxəssislərin fikrinə görə, aşağıdakı xüsusiyyətlərlə təyin edilir:

a) maliyyə axınlarının investisiya proseslərinin birləşməsi;

b) iqtisadi maliyyələşdirmə subyektlərinin və real investisiya qoyuluşunun bu və ya digər növlərinin qarşılıqlı əlaqəsi və yaxud birləşməsi;

c) müxtəlif investorların maliyyə ehtiyatlarının qarşılıqlı əlaqəsi (qarşılıqlı yayılması) yaxud birləşməsi.

Bu üsulda əsas dayaq, birinci növbədə, investisiya qoyuluşu proseslərinin həyata keçməsinin müxtəlif maliyyə aspektlərinə edilir.

İnvestisiya qoyuluşu kompleksi anlayışının istifadə edilməsi - əvvəlkindən nisbətən daha geniş yayılıb. Lakin inzibati-planlı iqtisadiyyatın dağılması ilə və əsasən, tikinti təşkilatlarının mərkəzləşdirilmiş idarəetmə orqanlarının ləğv edilməsi ilə bu kompleks xalq təsərrüfatının müstəqil funksional elementi kimi mövcud olmağa başladı. Qeyd etmək lazımdır ki, müəyyən ərazidə fəaliyyət göstərən investisiya tikinti kompleksi haqqında deyiləndə çox vaxt bu anlayış regional səviyyədə

istifadə olunur.

Qeyd olunan problemləri nəzərə alaraq, təcrübədə mütəxəssislər aktiv iqtisadiyyatın investisiya tikinti sahəsi anlayışını tətbiq edirlər. Bu anlayış altında bazar mühitinin o hissəsi başa düşülür ki, kapital qoyuluşlar ilə bilavasitə əlaqədə olan real investisiya qoyuluşu layihələrinin iştirakçılarının məqsəd və məsələləri ilə məhdudlaşır.

İqtisadiyyatın investisiya qoyuluşu tikinti sahəsi anlayışının tətbiq edilməsi onunla bağlıdır ki, hal-hazırda əsaslı tikinti və onların istifadəsi üçün investisiya ehtiyatlarının yığılması prosesləri vaxtda maksimal yaxınlaşıblar. Çox vaxt investor, sifarişçi və bina tikənin səlahiyyətlərinə aid olan məsələlər birgə həll edilir. Bundan əlavə, infrastruktur institutları, həm investisiya bazarları, həm də tikinti məhsulu bazarında, pay investisiya fondlarının idarəetmə şirkətlərinin, bank idarəçilik ümumi fondlarının, developer təşkilatların və injinirinq firmaların işinin aktivləşdirilməsi daxil olmaqla inkişaf edir [3, səh.17].

Bizim fikrimizə görə, investisiya tikinti sahəsi anlayışının müsbət momentlərlə yanaşı investisiya qoyuluşu proseslərinin müxtəlif növlərində diqqəti az çəkməsi ilə bağlı şəxsi daxili ziddiyyətləri var. Qeyd etmək lazımdır ki, hansı tikinti təşkilatlarına müraciət edə bilməsi üçün investorun həmişə seçimi var (çox vaxt tenderlər xarici tikinti şirkətlərinə üstün gəlir). Bu anlayışda birinci növbədə qeyd olunur ki, investisiya qoyuluşu nəticə kimi yenidən yaradılan obyektlərdir. Lakin, bazar şəraitində vasitələrin nəinki real investisiya qoyuluşu layihələrinə, hətta kapital bazarında əməliyyatlara qoyulması imkanı var.

Müzakirənin müəyyən nəticəsi investisiya qoyuluşu proseslərinin mahiyyətinin xarakteristikasına görə təşkilatın investisiya qoyuluşu fəaliyyəti anlayışının tətbiq edilməsi hesab edildi. O kapitalın həm istehsalat və digər əmlak obyektlərinin, həm də qeyri-maliyyə aktivlərinin yaradılmasına qoyulmasına aid hərəkət və münasibətlərin, həmçinin gəlirli maliyyə əməliyyatlarının həyata keçməsi ilə əlaqədə olan məcmusundan ibarətdir.

İnvestisiya qoyuluşu fəaliyyətinin mahiyyətini açıqlayaraq, onun hansı mühitdə həyata keçməsini, hansı amillərin təsiri altında inkişaf etdiyini, hansı obyekt və subyektlərə aid olduğunu, əsas xarakteristikalarının, əhəmiyyətli əlamətlərinin və xüsusiyyətlərinin qarşılıqlı əlaqəsini anlamaq vacibdir. Bunun üçün iki üsul istifadə edilir:

- birinci - klassik (ümumi qəbul edilmiş) üsul. O, investisiya qoyuluşu fəaliyyətinin əsas xüsusiyyətlərinin təyin edilməsi, məqsəd və vəzifələr, predmet və metodlar, obyekt və subyektlər ilə bağlıdır ;
- ikinci - təsnifat üsulu. O investisiya qoyuluşu fəaliyyətinin mövcud əlamətlərinin və onların tabe edilməsinin müəyyən edilməsi ilə bağlıdır. İnvestisiya bazarında qoyuluşların növlərinin tərtib edilmiş təsnifatı gələcəkdə təşkilatın investisiya qoyuluşu fəaliyyətinin əvvəl ayrılmış əsas xüsusiyyətləri arasında qarşılıqlı əlaqənin təyin edilməsi üçün alət kimi çıxış edir [4, səh. 31].

Qeyd olunan üsullar investisiya qoyuluşu fəaliyyətinin müasir tərkibinin tam şəklini təqdim edir. Bundan irəli gələrək, əhali tərəfindən fərdi investisiya qoyuluşunun mahiyyətini, şəxsi əmanətlərdən qoyuluşları anlamağa təqdim edirik. Onlar gəlirlərin və ya sosial effektin alınması məqsədilə fərdi kapitalın təkrar istehsalında istifadə edilir.

## Nəticə

Hesab edirik ki, təklif olunan təyin əhali tərəfindən fərdi investisiya qoyuluşunun bütün problemlərini aradan götürmür. Onun mahiyyəti daim dəqiqləşdiriləcək və həm miqyasın inkişafı, həm də investisiya qoyuluşlarının yeni istiqamətlərinin meydana çıxması həddi ilə tamamlanır. Hal-hazırda isə onlar həm fərdi, həm də kollektiv maliyyə və kapital qoyuluşuna ayrılır. Bu qoyuluşlar bazarın müxtəlif infrastruktur institutları vasitəsilə biznesin inkişafının konkret layihələrinin həyata keçməsində investisiya ehtiyatları kimi istifadə edilir. Bunun vasitəsilə əhalinin vəsaitləri bilavasitə yaxud dolayı yol ilə investisiyalara əsaslı transformasiya edilir.

Beləliklə:

- iqtisadiyyatın bundan sonra inkişaf uğuru çox vaxt əhalinin şəxsi əmanətlərinin iqtisadiyyata cəlb edilməsi üçün zəruri şəraitləri yaratmaq qabiliyyətindən asılıdır, vətəndaşlara məxsus olan milyard rubllar həm fərdi investor, həm də dövlət üçün uzunmüddətli investisiyalar qismində istifadə edilə bilər;
- fərdi investisiyalar bazar münasibətlərinin formalaşması dövründə dövlətdən fərqli olaraq daha effektlidir, çünki daha mobildir və onların arxasında həmişə öz vəsaitlərinin, effektli və gəlirli qoyuluşunda maraqlı olan sahibkarlar durur.

## Ədəbiyyat

1. А.А. Лупу, И.Ю.Оськина. Банковский кредит. Москва, 2013.
2. Е.А.Звонова. Деньги, кредит, банки. Москва, 2012.
3. И.К.Ключников, О.А.Молчанова, О.И.Ключников. Фондовые биржи. Москва, 2009.
4. Журнал ЭКОНОМИСТ №01 (35) февраль. Баку, 2013.

***Закир Алибала оглы Нуриев***

## Экономический роль вкладов при управление инвестиционных фондов

### Резюме

Актуальность данной проблемы определяется тем, что действующая система управления частными инвестициями со стороны населения пока не обеспечивает должного притока средств в развитие национальной экономики, в которой испытывается дефицит в инвестиционных ресурсах. Но эти средства слабо задействованы в инвестиционной деятельности и используются в основном как индивидуальные финансовые вложения. Во многом данное положение вызвано тем, что в обществе, не укрепилось доверие населения к банкам, особенно в части способностей регулировать процесс формирования и использования частных инвестиций, включая их защиту.

***Ключевые слова. сбережения, фонд, риск, инвестиция, паевые, доход, стратегия.***

***Nuriev Zakir Alibala***

## The economic role of the contributions at management of investment funds

### Summary

The main idea of private investment problems is not supply the development of national economy. These investments are used as individual finance investing. There is need for time while people become to believe in bank system.

***Keywords. savings fund, risk, investment, share, revenue, strategy.***

UOT 338. 43

*Mehman Ağabala oğlu RZAYEV*
*Azərbaycan Kooperasiya Universitetinin*
*dissertantı*

# AQRAR SAHƏNİN İNKİŞAFINDA İNVESTİSİYA QOYULUŞLARININ STİMULLAŞDIRILMASI

**Xülasə**

Kənd təsərrüfatı iqtisadiyyatın strateji əhəmiyyətli sahəsi olub, ilk növbədə əhalinin ərzaq məhsullarına olan ehtiyaclarının ödənilməsində əvəzsiz rol oynayır.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsində ən mühüm istiqamətlərdən biri investisiya qoyuluşunun stimullaşdırılmasıdır.

Kənd təsərrüfatının, aqrar sahələrin tənzimlənməsi ilk növbədə investisiya qoyuluşlarının artırılmasına istiqamətlənməlidir.

***Açar sözlər: aqrar, investisiya, stimul, təsərrüfat, ərzaq, sahə, istehsal, dövlət.***

***

Kənd təsərrüfatının inkişaf etdirilməsi daim qarşıda duran mühüm məsələlərdən biridir.

Kənd təsərrüfatı iqtisadiyyatın strateji əhəmiyyətli sahəsi olub, ilk növbədə əhalinin ərzaq məhsullarına olan ehtiyaclarının ödənilməsində əvəzsiz rol oynayır. Ona görə də kənd təsərrüfatının inkişaf etdirilməsi daima vacibdir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının inkişafına müxtəlif faktorlar təsir göstərir. İqtisadi sistemin tipi və xarakteri, cəmiyyətdə mövcud olan istehsal münasibətləri iqtisadi inkişafa təsir edən mühüm amillərdir. Kənd təsərrüfatı bazar münasibətləri şəraitində tam mənası ilə liberal istehsal sektoru kimi çıxış etdiyindən, kənd təsərrüfatının inkişafına hazırda inflyasiyanın səviyyəsi, qiymətlərin dinamikası, texniki məhsulların gətirilməsi və qiymət şərtləri, eləcə də, sosial demoqrafik mühit əhəmiyyətli dərəcədə təsir göstərir. İqtisadi inkişafa ən güclü təsir göstərən əsas amillərdən biri də kənd təsərrüfatına investisiya qoyuluşudur [2, səh. 246].

İnvestisiya- iqtisadi və sosial səmərə əldə etməkdən ötrü müxtəlif obyektlərə qoyulan pul, qiymətli kağızlar, intellektual mülkiyyət obyektləri və sairdir. Bu tərif “ İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda daha ətraflı göstərilmişdir:

İnvestisiya- gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan kapitaldan ibarətdir. Həmin kapital isə maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarət ola bilər.

Belə vəsait və sərvətlər aşağıdakılardır:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;
- daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi- təcrübi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilmiş texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu (“nou-hau”) ;
- torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüquqlarından irəli gələn və başqa əmək hüquqları;
- başqa sərvətlər;
- əsas fondların yaradılması və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir [1, səh. 281].

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsində ən mühüm istiqamətlərdən biri investisiya qoyuluşlarının stimullaşdırılmasıdır.

Kənd təsərrüfatının, aqrar sahələrin tənzimlənməsi, ilk növbədə investisiya qoyuluşlarının ar-

tırılmasına istiqamətlənməlidir. Bu baxımdan respublikamızda kənd təsərrüfatının inkişafının təmin edilməsinə istiqamətlər reallaşdırılmalıdır.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı” Dövlət Proqramı (2004-2008- ci illər) kənd yerlərində istehsal və sosial infrastrukturun genişləndirilməsinə, kənd təsərrüfatına investisiya qoyuluşunun artırılmasına və investisiya cəlbediciliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin reallaşdırılmasında əhəmiyyətli rol oynamışdır.

Aparılan tədqiqatlar göstərir ki, aqrar-ərzaq kompleksində investisiya fəaliyyətinin aktivləşdirilməsi prosesində təsərrüfat subyektlərinin sərbəst seçim imkanlarının müəyyənləşməsi, eləcə də, amortizasiya ayırmalarının sürətləndirilməsi ilə bağlı təsərrüfat subyektlərinin müstəqil seçim etmələri mühüm əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, müəssisələrin investisiyalaşdırılmasında amortizasiya tədbirlərindən istifadə edilməsi son dərəcədə investisiya proseslərinin genişləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Kənd təsərrüfatının, aqrar sahələrin investisiya qoyuluşlarının stimullaşdırılmasında ən mühüm cəhətlərdən biri də nəticə etibarilə, əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətinin rentabellik səviyyəsinin yüksəldilməsi ola bilər. Aşağı rentabellik səviyyəsi və eləcə də nəticə etibarilə, qoyulan investisiyaların nisbətən uzun müddət ərzində qaytarılması isə investor üçün sərfəli hesab edilmir.

Aqrar sahələrin inkişafında, kənd təsərrüfatının bütün sahələrində investisiya cəlbediciliyinin aşağı olması nəzərə alınmaqla bu sahəyə investisiya qoyuluşlarının stimullaşdırılmasında dövlət tərəfindən zəruri investisiya güzəştlərinin keçirilməsi vacibdir. İnvestisiya güzəştləri, əsas etibarı ilə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqindən asılı olaraq diferensiallaşdırılmalıdır. Bundan əlavə, investisiya güzəştlərinin həyata keçirilməsi zamanı istehsalın texnoloji səviyyəsinin təkmilləşdirilməsi də ön plana çəkilməlidir.

Təcrübələr göstərir ki, hal-hazırda kənd təsərrüfatında investisiyalar inkişaf etmiş ölkələrdə daha çox ekoloji cəhətdən təmiz məhsul istehsalının həyata keçirilməsinə istiqamətlənir.

Aparılan araşdırmalar göstərir ki, investisiya fəaliyyəti kənd təsərrüfatında iqtisadi inkişafın ən mühüm hərəkətverici qüvvəsidir. İnvestisiya fəaliyyəti mahiyyət etibarilə iqtisadi inkişafın başlıca determinatoru kimi çıxış edir. Gələcəkdə yeni əmtəə və xidmətin yaradılmasına istiqamətlənir. İnvestisiya fəaliyyətinin müvəffəqiyyətlə reallaşdırılması nəticə etibarı ilə, iqtisadi sistemlərin tipindən və eləcə də, dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətdən bilavasitə asılıdır [2, səh. 248].

Müasir dövrdə aqrar sahənin ən mühüm və aktual problemlərindən biri də bu sahəyə həm yerli, həm də xarici investisiyaların cəlb edilməsidir. Etiraf edilməlidir ki, ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların əksər hissəsi naft- qaz sahələrinə yönəldilir. Nəticədə, aqrar sahəyə yönəldilən investisiyaların məcmu investisiya strukturunda çox aşağı çəkiyə malik olması - aqrar istehsalçıların resurslara olan tələbatının tam ödənilməsinə imkan vermir. Buna görə də aqrar sahənin dövlət tənzimlənməsi mahiyyət etibarı ilə bu sahənin mövcud problemlərinin aradan qaldırılmasına xidmət etməklə, ölkənin strateji iqtisadi maraqlarının qorunmasını təmin etməlidir [2, səh. 252].

Ölkəmizdə bazar iqtisadiyyatının inkişaf etdirilməsi ilə yanaşı, aqrar sahədə geniş investisiya layihələrinin həyata keçirilməsi də ən əsas məsələlərdən biridir.

Təcrübələr göstərir ki, inkişaf etmiş ölkələrin milli iqtisadiyyatının formalaşması zamanı investisiya yatırımlarına tələbat daha da artır. Bu isə bilavasitə onunla əlaqədardır ki, keçid dövründə yeni qurumlar və infrastruktur obyektlərin formalaşması zərurəti yaradan kapital resurslarına olan tələbatı da yüksəlir. Kapital resurslarına olan tələbatın ödənilməsi əsas etibarilə ilk mənbədən formalaşır. Bunlardan birincisi xüsusi mənbələr - mənfəət, amortizasiya ayırmaları hesabına kapital resurslarına olan ehtiyacın ödənilməsi, ikincisi isə cəlb edilmiş mənbələr-kredit və kompleks məqsədli investisiya qoyuluşları hesabına reallaşır.

Milli iqtisadiyyatın investisiya cəlbediciliyi, onun sahə və ərazi kəsimlərinin spesifik xüsusiyyətlərindən də bilavasitə asılıdır. Bu baxımdan, aqrar sahə investisiya resurslarına daha çox ehtiyaclıdır.

Məhz bunun nəticəsində də aqrar sahə bütünlükdə iqtisadi böhranla yanaşı, texnoloji böhran da yaşayır. Hal-hazırda aqrar sahədə iqtisadi böhrandan çıxmaq mümkün olsa da, texnoloji böhran davam etməkdədir.

İnvestisiyalaşma prosesinin aktivləşdirilməsi nəinki aqrar sahənin, bütünlükdə ölkənin sosial-iqtisadi problemlərinin həllinə xidmət edir.

İnvestisiya cəlbediciliyinin yüksəldilməsinin başlıca şərtləri- siyasi risklərin aşağı salınması, xüsusi mülkiyyət hüququnun müəyyənləşdirilməsi, yerli istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi, kreditə görə faiz dərəcələrinin real sektorda olan gəlirlərin səviyyəsinə uyğunlaşdırılması ola bilər.

İnvestisiya fəaliyyəti- investisiya qoyuluşu və investisiyanı həyata keçirmək üçün praktiki fəaliyyətin məcmusu kimi başa düşülməlidir. Belə halda investisiya dedikdə, gəlir, qazanc götürmək məqsədi ilə sahibkarlıq obyektinə və digər növ fəaliyyətə qoyulmuş pul vəsaiti, məqsədli bank əmanətləri, paylar, səhmlər və digər qiymətli kağızlar, texnologiya, maşınlar, lisenziya, kreditlər, əmlak hüquqları başa düşülür.

Aparılan araşdırmalar göstərir ki, iqtisadiyyatın real sektorunun mühüm tərkib hissəsi kimi çıxış edən kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi uzun müddətli investisiya prosesləri olmadan mümkün deyildir. Kənd təsərrüfatında investisiya prosesinin aktivləşdirilməsinin ən mühüm faktoru kimi, investisiya proseslərinin hüquqi rejiminin kənd təsərrüfatının spesifik xüsusiyyətlərinə uyğunlaşdırılması ilə bilavasitə bağlıdır. İnvestisiya sferasında təsərrüfat subyektlərinin fəaliyyətinin hüquqi bazası dövlət tərəfindən formalaşdırılır və inkişaf etdirilir.

Kənd təsərrüfatına və eləcə də, iqtisadiyyatın digər sahələrinə investisiya proseslərinin reallaşdırılması və investorların maraqlarının qorunub saxlanması, eləcə də, investisiya bazarında baş verən zərərli təsirlərin neytrallaşdırılması məqsədi ilə, dövlət tərəfindən zəruri tədbirlər həyata keçirilir.

Kənd təsərrüfatına investisiyaların cəlb edilməsi məqsədyönlü fəaliyyətin nəticəsi kimi xarakterizə edilir və bu fəaliyyətin əsas elementlərinə aşağıdakıları şamil etmək olar:

- dövlətin investisiya siyasətinin işlənib hazırlanması. Dövlətin investisiya siyasətinin işlənib hazırlanması, ilk növbədə ölkənin strateji milli maraqlarının qorunub saxlanmasına, siyasi konyukturda baş verən dəyişikliklərə görə kənd təsərrüfatında davamlı inkişafın təmin edilməsini özündə əks etdirir. Ümumiyyətlə götürdükdə kənd təsərrüfatında dövlətin investisiya siyasətinin reallaşdırılması üçün zəruri qanunvericilik aktlarının və icra mexanizminin işlənib hazırlanması yüksək professionallığa əsaslanmaqla siyasi və iqtisadi konyukturda baş verən dəyişikliklərə çevik şəkildə reaksiya göstərilməsini özündə əks etdirməlidir.
- kənd təsərrüfatında investisiya proseslərinin tənzimlənməsi məqsədi ilə, kifayət qədər məhdud saylı dövlət orqanlarının fəaliyyətinin təmin edilməsi. Bu əsas etibarı ilə kənd təsərrüfatında investisiya siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi ilə bağlı səlahiyyətlərin və vəzifələrin dəqiq müəyyənləşdirilməsində, bu sahədə paralelliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır.
- qanunvericilik sistemində ziddiyyətlərin aradan qaldırılması və uzunmüddətli perspektivdə investisiya bazarında əlverişli investisiya mühitinin yaradılmasına və investisiya proseslərinin tənzimlənməsinə istiqamətlənmiş uzunmüddətli perspektiv üçün zəruri tədbirlərin həyata keçirilməsi [3, səh. 255].

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında investisiya cəlbediciliyinin yüksəldilməsi ilk növbədə istehsal potensialının yeniləşdirilməsindən, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin təcrübəyə tətbiq edilməsindən bilavasitə asılıdır. Kənd təsərrüfatında inves-

tisiya fəaliyyətinin genişləndirilməsi ilk növbədə aqrar istehsalın modernləşdirilməsnə xidmət edir. Bu baxımdan dövlət tərəfindən həyata keçirilən dəstəklənmə tədbirləri innovasiyaların investisiya təminatı hesabına istehsalın intensivləşdirilməsinə istiqamətlənməlidir.

Bazar münasibətləri şəraitində dövlət investisiya proseslərinin genişlənməsinə istiqamətlənmiş tənzimləyici tədbirlər həyata keçirilməlidir ki, bunun da əsas motivini azgəlirli sahələrin, o cümlədən kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsi təşkil etməlidir. Dövlət tərəfindən kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər sisteminə aşağıdakıları şamil etmək olar:

- kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrdə məhsulun satışı və xidmətlərin göstərilməsi zamanı təminatlı qiymətqoyma sisteminin tətbiqi;
- mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının güzəştli kredit resursları ilə təmin olunması;
- aqrar sahənin maraqları nəzərə alınmaqla çevik vergi və amortizasiya siyasətinin həyata keçirilməsi;
- aqrar sahədə lizinq fəaliyyətinin genişləndirilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi;
- kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və özəlləşdirilmə prosesinin səmərəliliyinin yüksəldilməsi məqsədilə investorlara güzəştlərin şamil edilməsi;
- məqsədli dövlət maliyyələşdirilməsi proqramlarının həyata keçirilməsi;
- aqrar ərzaq kompleksinin bütün sferalarında investisiyalaşdırma və kapital qoyuluşlarının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi
- kənd təsərrüfatında kapital qoyuluşlarının indiqativ planlaşdırma əsasında həyata keçirilməsi [4, səh. 590].

Kənd təsərrüfatında investisiya fəaliyyətinin stimullaşdırılması məqsədilə əsas fondların yeniləşdirilməsi və kənd təsərrüfatında kapital qoyuluşlarının artırılması diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan sürətli amortizasiya fəaliyyətinin həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Sürətli amortizasiya fəaliyyətinin həyata keçirilməsi ilk növbədə dövlətin investisiya siyasətindən bilavasitə asılıdır. Bu məqsədlə kənd təsərrüfatında əsas fondların bərpa dəyərinin dövri olaraq indeksləşdirilməsi həyata keçirilməli və aktiv şəkildə sürətli amortizasiya fəaliyyəti həyata keçirilməlidir. Bundan əlavə, amortizasiya fondlarının saxlanılmasının və xərclənməsinin xüsusi rejimi müəyyənləşdirilməlidir.

Aqrar sahənin investisiya resurslarına olan tələbatının ödənilməməsi son nəticədə səmərəli fəaliyyət imkanlarına malik aqrar bazar infrastrukturunun formalaşmasında da problemlər yaradır. Aqrar sahənin investisiya resurslarına olan tələbatının ödənildiyi şəraitdə bu infrastrukturlar aqrar bazarın səmərəli fəaliyyət göstərməsinə, istehsalçı və istehlakçılar arasında qarşılıqlı zəruri əlaqələrin formalaşmasına əlverişli şərait yaratmaqla məhsulların satışı, daşınması və çatdırılmasına əhəmiyyətli dərəcədə yardım göstərər. Bu baxımdan aqrar iqtisadiyyatın spesifik xüsusiyyətləri nəzərə alınmaqla ixtisaslaşdırılmış torpaq, maddi-texniki resurs, kapital bazarlarının formalaşdırılmasına dövlət tərəfindən təşkilati, texniki və iqtisadi yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir.

Aqrar sahənin tam mənada intensiv inkişafına nail olmaq üçün bu sahənin maksimum dərəcədə maliyyələşdirilməsinə ehtiyac var. Lakin kənd təsərrüfatı istehsalına vəsait qoyuluşu arzuolunan səviyyədə deyil. Odur ki, sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi xüsusi aktuallıq kəsb edir. Çünki bu vəsaitlər kənd təsərrüfatının daha da inkişaf etdirilməsi üçün əvəzedilməz rol oynaya bilər. Belə ki, həmin vəsaitlərin:

- istehsalın və məhsul emalı texnologiyalarının yeniləşdirilməsinə;
- istehsalın (emalın), innovasiyanın inkişafına;
- istehsalın genişləndirilməsinə;

- itirilmiş infrastrukturun bərpasına və yeni infrastruktur sahələrinin yaradılmasına;
- aqrar elmin inkişafına və fundamental aqrar elmi tədqiqatlara yönəldilməsi məqsədəuyğundur [5, səh. 588].

**Nəticə**

Aqrar sahənin tam mənada intensiv inkişafına nail olmaq üçün bu sahənin maksimum dərəcədə maliyyələşdirilməsinə ehtiyac var. Lakin kənd təsərrüfatı istehsalına vəsait qoyuluşu arzuolunan səviyyədə deyil. Odur ki, sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi xüsusi aktuallıq kəsb edir. Çünki bu vəsaitlər kənd təsərrüfatının daha da inkişaf etdirilməsi üçün əvəzedilməz rol oynaya bilər.

**Ədəbiyyat**

1. Akif Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı-2011, səh. 281.
2. Azərbaycan Milli Elmlər Akademiyası. “Elmi əsərlər” – 2009 № 1, səh. 246.
3. Azərbaycan Milli Elmlər Akademiyası. “Elmi əsərlər” – 2009, səh. 251-253.
4. Azərbaycan Milli Elmlər Akademiyası. “Elmi əsərlər” – 2010, səh. 255, 590.
5. Azərbaycan Kooperasiya Universiteti. Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi, 2011, səh. 588.

*М.А.Рзаев*

**Стимулирование вложений инвестиций аграрной сфере**

**Резюме**

Аграрная сфера являясь одним из  стратегически важных сферой экономики, в первую очередь играет незаменимую роль в удовлетворении потребностей населения в продовольственных товарах.

Проводимые исследования показывают, что в обеспечении поступательного развития сельского хозяйства одним из важнейших направлений является стимулирование вложений инвестиций.

Регулирование аграрной сферы сельского хозяйства, в первую очередь направлено на увеличение вложений инвестиций.

***Ключевые слова: сельское хозяйство, инвестиции, стимулы, хозяйства, продовольствия, промышленности, производства, правительства.***

*M.A.Rzayev*

**Stimulation of investments in the development of agrarian field**

**Summary**

Agriculture is the strategically important field of the economy and first of all, it plays an indispensable role in the meeting the population' s requirements for foodstuffs.

Researches show that one of the principal directions in the provision of sustainable agricultural development is the stimulation of the investment. Regulation of the agriculture and agrarian fields must be directed to the increasing of investment.

***Key words: agriculture, investment, stimulus, economy, food, industry, manufacturing, government.***

**UOT 336. 1**

***Rəhimə Şükrəddin qızı BAYRAMOVA***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı***

# AQRAR-SƏNAYE SİSTEMİNDƏ MÜƏSSİSƏLƏRİN ƏSAS NÖV MALİYYƏ VƏ KOMMERSİYA RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə əsasən aqrar sənaye müəssisələrində riskin təhlili prosesində onun yaranma səbəbi, amili, səviyyəsi və səviyyəsinin göstəricisi kimi anlayışlar fərqləndirilir. Burada kənd təsərrüfatı müəssisələri üzrə risklərin əsas vəzifələri göstərilməklə risk dərəcəsini azaltmağa imkan verən tədbirlər göstərilir. Eyni zamanda məqalədə risklərin böyüklüyü, qiymətli kağızların növündən asılı olaraq dəyişildiyi və qeyri-sistematik risk kateqoriyasına daxıl olan bir sıra risk növləri göstərilir.

***Açar sözlər: aqrar sənaye, maliyyə riski, kommersiya riski, fəaliyyət riski, idarəetmə riski, sahə riski, likvidlik riski, investisiya riski.***

***

Aqrar sektorda hər hansı baş verəcək hadisələrin dəqiq olaraq bilinməməsi həmin hadisələrə dair verilən qərarların istənilən nəticəsini görməmək təhlükəsini yaradır. Belə təhlükə aqrar sektorun bir maliyyə sahəsində fəaliyyət göstərən investorun və mütəxəssisin qəbul edəcəyi qərara şamil edilir. İnvestor özünü bu və ya digər şəkildə həmin təhlükədən qorumağa səy göstərir. Özünü qoruma investisiya alternativləri arasından ən təhlükəsiz olanının seçilməsi şəklində ola bilər, yaxud bu təhlükənin miqyasına görə investisiya qoyuluşundan daha yüksək səmərənin əldə edilməsini istəyə bilər.

Aqrar müəssisələrdə riskin təhlili prosesində onun amili, səbəbi, səviyyəsi və səviyyəsinin göstəricisi kimi anlayışlar fərqləndirilir. Riskin səbəbi dedikdə işlərin nəzərdə tutulmuş gedişinə yayındirici təsir göstərən planlaşdırılmamış hadisələr başa düşülür.

Risk amili isə konkret layihədə hər hansı bir riskin yaranma səbəbinin aşkar olunması şərtidir. Risk amilinin təhlili üçün riskin özü müqayisə oluna bilən göstərici ilə ifadə olunmalıdır. Layihənin məqsədindən yayınma imkanının miqdar göstəriciləri buna misal ola bilər.

Ümumilikdə risk amilini iki yerə ayırmaq olar: risklərin təhlilinə qədər qabaqcadan görünənlər və yerdə qalanlar.

Risklərin təhlili mürəkkəb və əmək tutumlu iş olduğundan çox vaxt tədqiqatçılar keyfiyyət təhlili ilə kifayətlənirlər. Buna görə də indi əsas güc mürəkkəb modellərin qurulmasına deyil, risk amillərinin dəqiq təsvirinə, onların axtarışına, sistemləşdirilməsinə, təhlilinə və idarə edilməsinə yönəldilir.

Maliyyə və bank risklərinin qiymətləndirilməsi onların növlərinə görə fərqlənə bilər.

Aqrar-sənaye sistemində investisiya layihələri həyata keçirildiyi müddətdə xammalın qiyməti, kompleksləşdirmə elementləri, investisiya qoyuluşu, xidmətin, məhsulun satış qiyməti və s. giriş parametrləri kimi dəyişilə biləndir. Çıxış parametrləri isə, əlbəttə, həmişə olduğu kimi gəlirdir və o, təsadüfi parametrdir. Risk ehtimal paylanmasını və ehtimalı əsas tutur. Layihədəki göstəricilər nə qədər böyük dəyişmə hüduduna malikdirsə, risk də bir o qədər böyükdür.

Aqrar sektorda layihə risklərinin təhlil edilməsinin məqsədi yalnız layihənin daha optimal idarə edilməsinə, bu sahədə təcrübə qazanmağa nail olmaq deyil, həm də onun səmərəliliyinin yüksəldilməsinə səbəb olmaqdır.

Kənd təsərrüfatı müəssisələri üzrə risklərin təhlilinin əsas vəzifələri aşağıdakılardır:

- risk hadisəsinin yaxınlaşmasını və başlanmasını müəyyən dərəcədə proqnozlaşdırmaq;
- risk amillərini seçmək;

- layihənin reallaşma prosesini modelləşdirmək, xoşagəlməz hadisələrin başvermə ehtimalını qiymətləndirmək;
- onların təsirini minimumlaşdıran üsulları seçmək və ya müvazinətləşdirici tədbirlər təklif etmək;
- risk amillərinin dinamikasını izləmək və onları lazımi istiqamətdə dəyişmək;
- risk dərəcələrini azaltmağa imkan verən tədbirlər görmək və s.

Bazar iqtisadiyyatında aqrar sahəyə investisiya qoyuluşunun müxtəlif imkanları mövcuddur. Hüquqi və fiziki şəxslərin kapital qoyuluşunun seçilməsi zamanı ən əsas kriteriyalardan biri riskin qiymətləndirilməsidir [5, s. 238]. Qiymətli kağızlarla əməliyyatlar həmişə risklə bağlı olduğundan riskin əsas növlərinə aşağıdakıları aid etmək olar:
- Sistematik risk - qiymətli kağızların böhranının riski;
- Qeyri - sistematik risk-konkret qiymətli kağızlarla bağlı bütün növ risklərin ahəngi;
- Seçmə qabiliyyətli risk (selektiv)-investisiya üçün qiymətli kağızın düzgün seçilməsi riski;
- Zaman riski - münasib olmayan vaxtda qiymətli kağızın emissiyası, alqı-satqısı;

Sistematik risk aqrar sahə üzrə ölkədə və dünyada baş verən ümumi iqtisadi və siyasi vəziyyət, resursların qiymətinin artımı, qiymətli kağızlar bazarında aktivlərin ümumbazar qiymətlərinin aşağı düşməsi ilə bağlı olan riskdir. Bazar riski kimi də tanınan sistematik risk qiymətli kağızların qiyməti və gəlirliyinə təsir göstərdiyi bir təhlükəni səciyyələndirir. Sistematik riski əmələ gətirən əsasa iki risk növü kimi faiz riski və inflyasiya riskini qeyd etmək zəruridir. Bu iki riskə əlavə olaraq riskdən başqa müəyyənsizlik şəraitində özünü büruzə verən ictimai, siyasi və əxlaqi xarakterli hadisələr də qiymətli kağızların qiyməti və gəlirliliyi üzərində mənfi təsir yarada bilər.

Sistematik riskə daxil olan faiz riski bazardakı faiz göstəricisində meydana gələn dəyişmələr qiymətli kağızların qiymətlərində və dolayı yolla da gəlirlərində dəyişmələrin baş verməsinə səbəb olur. Bazar faizinin dəyişməsi investorların gözlədikləri qazanclara təsir göstərərək bazardakı qiymətlilərin qiymətlərində də təsir yarada bilər. Səbəb isə investorların təyin etdikləri diskont qoyuluşunda cari faiz göstəricisinin nəzərə alınmasıdır. Elə bu səbəbə görə bir qiymətli kağızın faiz göstəricisindəki dəyişikliklərdən asılı olaraq gəlirlilik səviyyəsinin dəyişməsi faiz riskinin formalaşmasına zəmin yaradır [6, s.101].

Sistematik riskin digər növü olan inflyasiya riski real alıcılıq qabiliyyəti riski kimi də tanınır. Bu, investisiya üçün təchiz edilmiş pulun inflyasiyasının təsirinə məruz qalaraq öz alıcılıq qabiliyyətini itirməsi təhlükəsini nəzərdə tutur [3, s. 35].

İnvestorların aqrar müəssisələrə və emal müəssisələrinə yönələcək inflyasiya proqnozları borcalmanı və ortaqlığı təmsil edən qiymətli kağızları fərqli formalara məruz qoyur [2, s. 45]. Borcalmanı təmsil edən qiymətli kağızlar stabil qazanc (qabaqcadan təyin olunmuş məbləğdə qazanc) gətirdiyi üçün inflyasiyanın təsirinə daha çox məruz qalan sənədlərdir. Ortaqlığı təmsil edən səhm sənədləri isə inflyasiya nəticəsində yaranan süni qiymət artımlarından faydalanıb daha çox qazanc gətirən inflyasiyanın təsirindən qismən də olsa qoruna bilər. Bu səbəbdən investorların öz vəsaitlərini inflyasiyadan mümkün olduğu qədər qoruya bilmək üçün səhmlərin alınmasına yönəltdikləri müşahidə olunur.

Qeyri-sistematik risklər bir qiymətli kağızla əlaqədar təhlükələri əhatə edir. Risklərin böyüklüyü qiymətli kağızların növündən asılı olaraq dəyişir. Qeyri-sistematik risk kateqoriyasına aşağıdakı bir sıra risk növləri aiddir:

***1. Maliyyə riski.*** Borcalma nəticəsində şirkətin likvidliyinin azalması və iqtisadi mühit başda olmaqla xarici mühitdə baş verən dəyişikliklər ucbatından şirkət mənfəətinin faiz və divident ödənişlərini gerçəkləşdirməyə qadir olmayan səviyyədən də aşağı düşməsi təhlükəsi kimi xarakterizə edilir. Borcalma şirkətin özünə məxsus xüsusi vəsaitlərdən istifadənin səmərəsini müsbət istiqamətdə artırır. Lakin böyük həcmlərdə alınan borclar nəticəsində faiz səbəbindən sabit xərclərin artması ilə şirkət gəlirliyinin başa-baş nöqtəsi daha yuxarı hədlərə doğru yüksələ bilər. Satış gə-

lirlərində qeydə alınan tərəddüdlər (sistematik və periodik) səbəbindən və ya sektorun, ya da şirkətin özünə məxsus (qeyri-sistematik və periodik olmayan) səbəblərdən meydana gələn azalmalar şirkətin mənfəətinə mənfi təsir göstərərək səhm başına düşən mənfəət payını və divident məbləğini ya tamamilə yox edər, ya da böyük həcmdə azaldar. Bu neqativ hal əsas pul ödənişlərinin icrası üçün də təhlükə yarada bilər.

İnvestor baxımından aqrar sahəyə kapital qoyuluşunun maliyyə riski aşağıdakı amillərdən asılı olaraq azala bilər:

- kapital qoyuluşuna səbəb olan şirkətin yeni texnologiya ilə fəaliyyət göstərməsi;
- şirkətin inhisarçı patent hüquqlarına malik olması;
- kapital artımlarının böyük hissəsinin xüsusi vəsait mənbələri hesabına gerçəkləşdirilməsi;
- şirkətin ixracat potensialının artmağa meylli olması.

Ümumilikdə maliyyə riskinin iqtisadi və siyasi qeyri-müəyyənliyi aşağıdakı kimi xarakterizə oluna bilər:

- kəmiyyət üzrə risk: aşağı, orta və yuxarı;
- ehtimal olunma üzrə risk-gəlirin bir hissəsinin itirilməsi üzrə;
- kritik risk-bu zaman gəlir tamamilə itirilir və xərclərin yerini doldurmaq zəmanəti yaranır;
- katastrafik risk-əmlakın tamamilə itirilməsi;
- obyektlər üzrə risk-sahibkarların, müəssisənin, bankın, sığorta şirkətinin riski;
- fəaliyyət növü üzrə risk-istehsal, ticarət, nəqliyyat, sığorta, mühasibat və digər fəaliyyət növləri üzrə risk;
- iqtisadi mahiyyət üzrə risk;
- xarakter üzrə risk - inflyasiya, kredit, faiz, valyuta əməliyyatı riski bu və ya digər müəyyən əməliyyatların həyata keçirilməsi metodunun düzgün seçilməsi ilə bağlıdır. Bu növ risklərə menecerlərin riskləri aid edilir. İnflyasiya riski inflyasiyanın dəqiq proqnozlaşdırma dərəcəsi və onun maliyyə - təsərrüfat fəaliyyətinin nəticəsinə təsir etməsi ilə müəyyən edilir. Kredit riskinə kreditin ödənilməməsi və faizlərin ödənilməməsi riski kimi baxılır.

***II. Fəaliyyət riski.*** Bu risk növü şirkət balansının aktiv hissəsi ilə əlaqədardır. Aktiv cəmində sabit aktivlərin yüksək paya sahib olması şirkətin fəaliyyət riskini artırır. Çünki yüksək sabit aktiv həcmi toplam aktiv əmsalın məsrəflərin əmələ gəlməsində sabit məsrəflərə görə payını artırar və şirkətin gəlirliliyinin başa-baş nöqtəsini yuxarıdakı hədlərə çəkər. Başqa sözlə, sabit məsrəflərin toplam məsrəflərə olan nisbəti artacaqdır. Bu vəziyyət isə şirkət satışlarının kiçik dəyişmələrdən də təsir görən bir struktura malik olmasına gətirib çıxaracaqdır.

***III. İdarəetmə riski.*** Aqrar müəssisələrin müdiriyyətinin qəbul etdiyi idarəetmə qərarlarının tətbiqində buraxılacaq səhvlər qiymətli kağızların gəlirliliklərini mənfi təsirə məruz qoya bilər. Bu təsir idarəetmə riski ilə təyin olunur. Qeyri-sistematik, şirkətə məxsus bir risk növüdür. Səhv idarəetmə qərarları, fərqi yoxdur, hansı idarəetmə sahəsində tətbiq edilsin, bir qayda olaraq şirkətin mənfəətinə istənilməz dərəcədə təsir göstərər və hətta şirkətin iflas etməsinə gətirib çıxara bilər. Məsələn, bir daşınmaz əmlakın alınmasına dair yalnış qərar, şirkətin sabit xərclərini artıraraq fəaliyyət riskinin artmasına yol açar.

***IV. Sahə riski.*** Hər hansı bir sahədə fəaliyyət göstərən bütün şirkətlərin neqativ təsirinə məruz qalacaqları iqtisadi, ictimai və əxlaq xarakterli dəyişmələr ola bilər. Bu dəyişmələr şirkətin mənfəətini və bununla bağlı olaraq qiymətli kağızların bazar qiymətlərini azaldacaq bir təsir yarada bilər. Ümumiyyətlə, sahə riski hesablanarkən ayrı-ayrı sahələrin xüsusiyyətləri nəzərə alınır. Bu zaman ilkin məlumatlar kimi satış həcmi, gəlir, qiymət, dividentlər, həmin müəssisələrdə və şirkətlərdə sosial tədqiqatların nəticələrindən istifadə olunur. Genişlənməkdə və inkişafda olan sahələr üzrə şirkətlərin qiymətli kağızlarına qoyuluşlar investorlar üçün səmərəli hesab edilə bilər. Belə qoyuluşlar stabil və yüksək dividentlərə nisbətən kiçik risklərlə uyğunlaşır.

***V. Likvidlik riski.*** Bu risk qiymətli kağızların reallaşdırılması zamanı qiymət dəyişikliyi səbə-

bindən zərər ehtimalı ilə bağlı olur. İnvestor hər zaman əmin olmalıdır ki, o, öz qiymətli kağızını sata bilər və öz kapitalını nağd pula çevirə bilər.

***VI. Yuxarıda*** qeyd olunan risk növlərindən başqa qiymətli kağızlar bazarında formalaşan çox mühüm təsirə malik olan növ **investisiya riskidir.** İnvestisiya riski qiymətli kağızlar bazarında maliyyə riskinin müxtəlifliyi ilə bağlı olur. İnvestisiya riskinin iki növü vardır: diferensial və qeyri-diferensial risk. İnvestisiya riskinin səviyyəsi siyasi, iqtisadi, sosial, ekoloji, kriminal vəziyyətdən asılı olur.

Aqrar sektorda da maliyyə, həmçinin onun bir növü olan qiymətli kağızlar üzrə riskin qiymətləndirilməsində digər analitik metodlardan geniş istifadə edilir. Bunlar arasında ən geniş yayılan maliyyə riskinin faktor təhlilidir. Burada fəaliyyət aktivliyinin əmsalı, maliyyə sabitliyi və müflisləşmə ehtimalının müəyyən edilməsi nəzərdə tutulur.

Son zamanlar aqrar-sənaye müəssisələrində maliyyə risklərinin qiymətləndirilməsində ekspertlərin qiymətləndirmə metodundan da aktiv istifadə edilir. Bu zaman risk səviyyəsinin müxtəlif müqayisəedici xarakteri tərtib edilir, reytinqlər müəyyən edilir və ekspertlərin icmalı hazırlanır.

## Ədəbiyyat


1. İ.Əhmədov. Kənd Təsərrüfatının idarə edilməsi. Bakı, "Elm", 2006, 473 s.
2. A.Qurbanzadə. Aqrar strukturun regional inkişaf modeli. Bakı, "Elm" 2004, 432 s.
3. К.В.Галдин, С.Н.Воробъев. Риск менеджмент: Учебное пособие. Ы, 2005 с.153.
4. Э.Сайгадак, В.Урусов. Ценовые и финансово кредитное регулирование в АПК, экономика и управление, № 4, 1998, с. 54.
5. В.А.Уерков. Анализ коммерческого риска. М.: 1999 с.327.
6. Р.М.Кагалов. Управление хозяйственном риском. М.: Наука, 2002, с. 192.


***Рагима Шукраддин гызы Байрамова***
***Докторант АзербайджанскогоУниверситета Кооперации***

## Оценка основных видов финансовых и коммерческих рисков в агропромышленном секторе

**Резюме**

В статье при анализе рисков в агропромышленных предприятиях отличаются понятия, причины возникновения, фактор, уровень и показатель уровня риска. Показываются основные задачи рисков на предприятиях сельского хозяйства и мероприятия способствующие по уменьшению степени рисков.

Вместе с тем, в статье показываются ряд видов рисков, которые входят в категорию не систематических рисков.

***Ключевые слова: агропромышленный сектор, финансовый риск, коммерческий риск, риск деятельности, управленческий риск, отраслевой риск, ликвидный риск, инвестиционный риск.***

***Raqima Shukraddin Bayramova***
***Dissertation of Azerbaycan Cooperation University***

## Accesment of the main types of financial and commercial risks in the agricultural sector

**Summary**

In this paper the analysis of risks in the different agro-industries notions causes, factor levels and risk index.Showing the main tasks of risk at agricultural enterprices and activities contributing to mitigate the risks.The article shows a series of risks that are included in the cateqory of nonsystematic risks.

***Keywords: agro-industry, financial risk, commersial risk, activities, management risk, industry risk, liquidity risk, investment risk.***

**UOT 336.**

***Arzu Rəhim qızı SÜLEYMANOVA***
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***

# AQRAR-SƏNAYE SİSTEMİNDƏ SAHİBKARLIĞIN İNKİŞAFINDA MALİYYƏ TƏMİNATI VƏ QİYMƏT MEXANİZMİNDƏN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Məqalədə aqrar sənaye sistemində sahibkarlıq fəaliyyətinin inkişafında maliyyə təminatı və qiymət mexanizminin təkmilləşdirilməsi istiqamətləri araşdırılır.

Göstərilir ki, respublikada kənd təsərrüfatının inkişafının maliyyə təminatı və onun kredit şərtlərinin qiymətlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Yeni iqtisadi şəraitdə aqrar sənaye sistemində istehsal və emal sahələrinin kreditləşməyə differensial yanaşmasının əhəmiyyətindən bəhs olunur.

***Açar sözlər: aqrar sahə, sahibkarlıq, maliyyə təminatı, kredit, aqrolizinq.***

***

Yeni iqtisadi sistemdə aqrar istehsal sahəsində zərərlə işləyən müəssisələrin artması kənd təsərrüfatında ixracyönümlü sahələr daxil olmaqla təsərrüfatların əksəriyyətində rentabelliyin nəzərdə tutulmuş səviyyəsinin əldə edilməməsi ilə müşayiət olunurdu. Bunun nəticəsi isə əsas işçi qüvvəsinin şəhərlərə və ya xarici ölkələrə axını ilə yekunlaşırdı. Bu proseslərin qarşısının alınması üçün aqrar-sənaye sistemində maliyyə resurslarının formalaşdırılması mexanizmi yox dərəcəsində idi.

Məlumdur ki, iqtisadiyyatın inzibati amirlik metodları ilə idarə olunduğu şəraitdə maliyyə münasibətlərinin dövlət maliyyəsi pul fondlarının yaranması və bölgüsü münasibətləri kimi əsasən direktiv xarakterli göstəricilərdə ifadə olunurdu, kənd təsərrüfatı müəssisələrinin daxili inkişaf xüsusiyyətləri nəzərə alınmırdı.

İnzibati-amirlik dövründə kənd təsərrüfatında maliyyə münasibətlərinin daha bəsit təzahür formaları müşahidə olunurdu. Bazar iqtisadiyyatı şəraitində yeni iqtisadi münasibətlərin formalaşması və tənzimlənən bazar münasibətlərinin təşəkkülü və onun inkişafı aqrar sektorda da sahibkarı önə çəkməyi tələb edir. Aqrar sahibkar dövlətin mərkəzləşdirilmiş iqtisadiyyat dövründə icra etdiyi bəzi iqtisadi funksiyaları icra etməli olur. Onun maliyyə imkanları məhdud, müasir tələblər baxımından təcrübəsi və səriştəsi arzuolunan səviyyədə deyildir.

Bazar münasibətləri, ilk növbədə aqrar sahibkarlığın maliyyə münasibətlərinin yeniləşməsi tələbini qarşıya qoyur. Yeniləşmə həm nəzəri- metodiki, həm də təcrübi aspektləri əhatə etməklə, ölkənin iqtisadi maraqları baxımından istifadə oluna biləcək xarici analoqlara əsaslanmalıdır.

Aqrar sahibkarın istehsal-maliyyə fəaliyyətinin qiymətləndirilməsi üçün müxtəlif göstəricilər sistemindən istifadə edilməlidir. Bu ümumi göstəricilərin seçimi həm nəzəri metodoloji, həm də təcrübi səviyyədə aqrar sahibkarlığın maliyyə təminatını və kredit şərtlərinin qiymətlərin səviyyəsinə təsirini müəyyən etməyə imkan verər.

İslahatlar dövründə fəaliyyətin maliyyə göstəriciləri və onların vəhdət təşkil edərək reallığı obyektiv əks etdirməsi məsələsinə daim diqqət yetirilmişdir. Aqrar sahibkarlığın maliyyə əsaslarının səciyyələndirilməsində əsas məsələ aqrar iqtisadiyyatda sahibkarlığı, xüsusilə onun inkişafının maliyyə aspektlərini əks etdirən göstəricilərin sayca çoxluğu və tərkibcə müxtəlifliyidir. Bunun nəticəsidir ki, aqrar sahibkarın istehsal-maliyyə fəaliyyətinin qiymətləndirilməsi üçün istifadə olunan göstəricilər sistemi formalaşmışdır.

Aqrar sənaye sistemində maliyyə təminatının hərtərəfli qiymətləndirilməsi göstərir ki, formalaşan aqrar sahibkarlığa maliyyə dəstəyi ilə əlaqədar kompleks problemləri sahibkar təkbaşına həll etmək imkanına malik deyildir. Əslində isə dövlət maliyyə təminatı ilə əlaqədar problemlərin

həllində sahibkarlara stimullaşdırıcı dəstək verməlidir.

Yerli aqrar sahibkarların kənd təsərrüfatının kompleks inkişafına irihəcmli investisiya yönəltmə imkanları məhduddur. Həmin imkanların genişləndirilməsi üçün kreditlər, dövlət tərəfindən verilən yardımlar və bir sıra hallarda beynəlxalq təşkilatların yardımları kimi mənbələrdən istifadə edilməlidir.

Bazar iqtisadiyyatlı ölkələrin əksəriyyətində kreditləşdirmə problemlərinin həlli və bank sisteminin yeni şəraitə uyğunlaşdırılmasına müvafiq hüquqi bazanın yaradılması ilə nail olunmuşdur. Girov mexanizminin yeni tələblərə uyğunlaşdırılması, aqrar sahənin gəlirlilik səviyyəsinin aşağı olması və ixracyönümlü sahələrin zəif inkişafı da bu baxımdan az əhəmiyyətli deyildir.

Bazar münasibətlərinin formalaşması dövründə bank sisteminin kredit imkanları aqrar sahibkarlığın inkişafi mühitini dəyərləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir və dövlətin aqrar sahibkarlığa himayəsi mexanizminin çevikliyindən asılıdır, müvafiq fondlar, müvəkkil bankların iştirakı ilə müsbət nəticələr verir.

Aqrar-sənaye kompleksində biznes planların tərtibi zamanı qoyulan tələblərə daha ciddi riayət olunması üçün iqtisadi və inzibati vasitələrdən, institusional mexanizmdən istifadə olunmalıdır.

Hazırda kommersiya banklarının aqrar iqtisadiyyata nüfuz etməsi istiqamətində müsbət addımlar atılır. Regionlarda kommersiya banklarının səmərəli fəaliyyət göstərməsi məqsədilə onların filiallarının sayı artırılmaqla, fəaliyyət dairəsi genişləndirilir.

Bununla belə, aqrar iqtisadiyyatın strukturu baxımından kommersiya banklarının aqrar sahibkarlara verdiyi vəsaitləri nəzərdən keçirdikdə, vəsaitlərin istehsal və emala yönəldilən hissəsinin kifayət qədər olmadığı görünür.

Kənd təsərrüfatının maliyyə vəsaitlərinə ehtiyacının ödənilməsinə yönəlmiş tədbirlər sistemində özəl sektorun güzəştli kreditləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Dövlətin aqrar sahibkarlığa yardımının təsiri vasitəsi kimi kreditləşmənin münasib sisteminin formalaşmasında “Sahibkarlığa Kömək Milli Fondu”nun (SKMF) rolu daima artmaqdadır. Kənd təsərrüfatı məhsullarının istehsal və emalı üzrə güzəştli kreditləşdirmə layihələrinin sayı, məbləği və əhatə dairəsinin genişləndirilməsi müşahidə olunur.

Aqrar sahənin maliyyə-kredit təminatının yaxşılaşdırılması istiqamətində Dünya Bankının “Təsərrüfatların özəlləşdirilməsi” layihəsi üzrə minlərlə sahibkara böyük məbləğdə kredit verilmişdir. Bu vəsaitlər özlüyündə aqrar sahibkarlığın maliyyə təminatını yaxşılaşdırmışdır. Kənd ərazilərinin və aqrar qurumların inkişafı üzrə Beynəlxalq Fondla Azərbaycan hökuməti arasında aqrar sahənin regional inkişafı üzrə razılaşmalar da müsbət nəticələr vermişdir.

Aqrar sahibkarların investisiya layihələrində imkanlarını stimullaşdırmaq üçün dövlət büdcəsi vəsaitlərinin məqsədli istifadəsi üzrə diqqətəlayiq təcrübə mövcuddur. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq respublikanın rayonlarında aqrar sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsi həyata keçirilmişdir. Eyni zamanda dövlət büdcəsindən bu məqsədlərin reallaşdırılmasına böyük məbləğdə vəsait ayrılmışdır.

Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafi üzrə Dövlət Proqramının (2004-2008-ci illər) uğurla həyata keçirilməsi respublikanın kənd təsərrüfatı rayonlarının inkişafını surətləndirmişdir. Kəndlərin sosial problemlərinin həllində nailiyyətlər əldə olunmuşdur. Respublikanın bütün kənd rayonlarına dövlət büdcəsindən hər il dotasiyalar verilir. Ayrılan bu vəsaitlər hesabına kənd rayonlarının sosial-iqtisadi problemlərinin həll edilməsi ardıcıl aparılır.

Aqrar-sənaye kompleksinə investisiya qoyuluşlarının artması aqrar sahədə bu vəsaitlərin istifadə səmərəliliyini də artırmışdır. Lakin yenə də sahibkarlığın aqrar təsərrüfat vahidlərinin fəaliyyətlərinin genişləndirilməsində onların öz maliyyə durumları kifayət qədər deyildir. Aqrar sənaye kompleksinin kreditləşdirilməsində yarana biləcək hər hansı bir problem kredit qurumlarının aqrar sahibkarlığa münasibətdə fəallığını zəiflədir.

Aqrar sahibkarlığın maliyyə təminatında perspektivli istiqamətlərin seçilməsi xüsusiyyətləri müxtəlif səviyyələrdə fərqli ola bilər. Bu baxımdan aqrar sahibkarın maliyyə imkanlarının aşağı olması amili

əsas kimi qəbul edilməli, kreditləşmənin seçilməsində bu amil əsas kimi nəzərə alınmalıdır. Ona görə də aqrar sənaye kompleksinin inkişafını təmin etmək üçün lizinq qaydası daha mütərəqqidir. Lizinq obyekti ödəniş qabiliyyətsizliyindən etibarlı qaydada sığorta edir. Bu amil də özlüyündə aqrar sahədə sahibkarların kreditin lizinq formasından istifadəsi üzrə imkanlarını genişləndirir.

Fikrimizcə, aqrar-sənaye sistemində maliyyə təminatı üçün kreditləşmənin perspektivli forması kimi lizinq əməliyyatları zamanı lizinq alan şirkətin nüfuzu, maliyyə vəziyyəti, yerləşdiyi ölkənin iqtisadi və siyasi vəziyyəti qiymətləndirildiyinə görə dövlətin lizinq şirkəti qarşısında zəmanətçi rolunu öz üzərinə götürməsi iqtisadi fəallığı, real iqtisadiyyata kapital axınının güclənməsini dəstəkləməsi baxımından həlledici əhəmiyyət kəsb edir. Lizinq icarəçiyə böyük məbləğdə kapital sərf etmədən müasir texnikadan istifadə etməyə və icarə haqqını tədricən həmin avadanlıqların istifadəsindən əldə edilən mənfəət hesabına ödəməyə imkan verir. Lakin lizinq əməliyyatları zamanı avadanlığın itkisi, xarab olması ilə əlaqədar risklər lizinq şirkətinin üzərinə düşür.

İnkişaf etmiş lizinq bazarı iqtisadiyyatın istehsal bölməsini möhkəmləndirir, strateji sahələrin inkişafı üçün əlverişli şərait formalaşdırır. 1994-cü ildə qəbul edilmiş lizinq haqqında Azərbaycan Respublikasının qanununa əsasən “Azərlizinq” yaradılmış və hüquqi subyekt kimi 1999-cu ildə qeydiyyatdan keçmişdir. “Azərlizinq” şirkəti həmin dövrdə öz sərəncamında olan məhdud vəsaitlə ölkənin modern avadanlığa olan tələbatını ödəmək imkanına malik deyildi. Aqrar sahənin yüksək texnologiyalara olan tələbini ödəmək üçün aqrolizinq dövlətin büdcədən ayırdığı vəsait hesabına və beynəlxalq lizinq şirkətləri üçün subicarə funksiyasını həyata keçirməklə fəaliyyətini genişləndirmək imkanı qazanır.

Məlum olduğu kimi, lizinq şirkəti lizinq alan aqrar sahibkarlar qarşısında bir sıra öhdəliklər götürür. Müvafiq texniki avadanlığın saxlanması, təmiri, sığortalanması, texnika tətbiqi ilə istehsalın idarə edilməsi üzrə tapşırıqlar, texniki avadanlığın işləməsi üçün zəruri xammalın göndərilməsi, ixtisaslı kadrlarla təminat və s. bu öhdəliklərə aid edilir. Həmin öhdəliklərə, həmçinin inzibati-iqtisadi məsələlərin həlli və informasiya-məsləhət xidmətlərinin göstərilməsini də aid etmək olar.

Aqrolizinq xidmətinin genişləndirilməsi, onun üstünlükləri sahədə mühüm innovasiya xarakterli nailiyyətlər əldə etmək imkanı yaradır. Bu imkanlar istehsal, xidmət və daşınmada daha çoxdur. Quru meyvə və tərəvəz buraxılışının daxili bazara təsir edəcək səviyyədə həyata keçirilməsi aqrolizinq sayəsində mümkündür. Büdcədən edilən maliyyə yardımı, kredit-vergi və gömrük güzəştləri hesabına aqrar sahibkarlar lazımi keyfiyyətdə və miqdarda kənd təsərrüfatı məhsulu istehsal edərək daxili bazarda və xaricdə istehlakçıların tələbini yüksək səviyyədə ödəyə bilərlər.

Aqrar sahibkarlığın xüsusiyyətlərini nəzərə alan səmərəli ərazi təşkili maliyyə problemlərinin mühüm amilidir. Azərbaycan Respublikasının aqrar-sənaye sistemində sahibkarlığın inkişafında qiymət mexanizmindən istifadənin təkmilləşdirilməsi məqsədilə aqrar sahibkarlıqda ilk növbədə sudan və texnikadan istifadə məsələləri öz optimal həllini tapmalı, yerli xüsusiyyətlər nəzərə alınmaqla, müvafiq maliyyə mexanizmi işlənib hazırlanmalıdır.

Aqrar sahibkarlığın inkişafında büdcə-maliyyə və pul-kredit siyasətinin aqrar-sənaye sistemində maliyyə təminatı və kredit şərtlərinin qiymətlərin səviyyəsinə təsirində aşağıdakı məsələlər həll olunmalıdır:

• Respublikada aqrar sahibkarlığın idxalla rəqabətdə maliyyə-büdcə və pul-kredit siyasəti ilə himayədarlığı sahəyə ayrılan kreditlərin ucuzlaşdırılması, aqrar-sənaye sistemində mövcud problemlərin aqrar sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılması davam etdirilməlidir;

• Kənd təsərrüfatı məhsullarının istehsalında bilavasitə iştirak etdiyi kənd təsərrüfatı məhsulun son istehlakçı tələblərinə cavab verən səviyyəyə çatdıran aqrar sahibkarlara kredit və vergi güzəştləri verilməlidir;

• Respublikanın regionlarına ixracyönümlü aqrar məhsulların istehsalı və emalının stimullaşdırılması mexanizmi formalaşdırılmalıdır;

• Respublikanın bank sistemində kommersiya banklarının aqrar sahəyə fəal nüfuz etməsi üçün normativ-hüquqi bazada təkmilləşdirmələr sürətlənməli, əmlakın girovqoyma mexanizmi təkmil-

ləşdirilməlidir.

Respublika ərazisinin təbii-iqtisadi şəraitinin müxtəlifliyi əhali tələbatını kifayət qədər təmin edən kənd təsərrüfatı bitkiləri yetişdirməyə, heyvandarlıqla məşğul olmağa imkan yaradır. Buna görə də aqrar-sənaye sistemi istehsal və emal kreditləşdirməyə də differensial yanaşma tələb edir. İndiki dövrdə sahibkarlığın geniş inkişafı onların kreditə tələbatına xüsusi diqqət yetirməyi əsas məsələ kimi qarşıya qoyur. Sahibkarın fəaliyyətinə onların təsərrüfat strukturu, maddi-texniki təminatı, o cümlədən, gübrə, toxum, yem, istehsal və inzibati binalar, göstərilən xidmətlər, emal və istehsal, infrastruktur və təbii ki, kredit təminatı təsir göstərir.

**Ədəbiyyat**

1. Abbasov A. F. Ərzaq təhlükəsizliyi. Bakı, 2007, 602 s.
2. Abbasov A. F. Ərzaq təhlükəsizliyinin təmin edilməsinin və aqrar sahənin dövlət tənzimlənməsinin bəzi məsələləri. Azərbaycan Aqrar Elmi jurnalı, 2005 (1-2), 42-47 s.
3. Alıyev İ. H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, 2006, 380 s.
4. Allahverdiyev H. B., Qafarov K. S., Əhmədov Ə.M. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2002, 447 s.
5. MəmmədovM. M. Ərzaq bazarının formalaşmasının bəzi məsələləri. Azərbaycan Aqrar Elmi jurnalı-2004, (4-6), s. 51-55.
6. Niftullayev V. M. Sahibkarlığın əsasları. Bakı, 2002, 618 s.
7. Qurbanzadə A.A Aqrar strukturun regional inkişaf modeli: iqtisadi-coğrafi konsepsiyası. Bakı, 2004, 432 s.
8. Sadıqov K.F. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları. Bakı, 1999, 72 s.
9. Salahov S. V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004, 504 s.

***Арзу Рагим гызы Сулейманова***
***Диссертант Азербайджанского Университета Кооперации***

**Финансовая поддержка развития агропромышленного сектора и улучшение использования ценового механизма**

**Резюме**

В статье исследуется финансовая поддержка развития предпринимательства в агропромышленной системе и тенденции ценового механизма. Показывается финансовая поддержка развития сельского хозяйства, также большое значение имеет исследование условия цены кредитования. Особое значение составляет дифференцированный подход кредитованию сферы производства и обработки в агропромышленной системе в новых экономических условиях.

***Ключевые слова: сельское хозяйство, промышленность, бизнес, финансовая гарантия, кредит, лизинг.***

***A.R.Suleymanova***
***Azerbaycan Baku Dissertation of Azerbaycan Cooperation University***

**Financial support development of the agricultural sector and improve the use of the price mechanizm**

**Summary**

This article examines the financial support for entrepreneurship in agribusiness system and trend of the price mechanism. Shows the financial support for the development of agriculture, also important is the study conditions of lending rates. Of particular importance is a differentiated approach lending the production and processing in the agricultural system in the new economic environment.

***Keywords: agriculture, industry, business, financial guarantees, credit and leasing.***

# BAZAR: MARKETİNQ VƏ İNFORMASİYA XİDMƏTLƏRİ

**UOT 330. 47**

***Simuzər Sultan qızı MƏMMƏDOVA***
***AMEA-nın İqtisadiyyat İnstitutu***

## İNFORMASİYA XİDMƏTLƏRİ BAZARINDA MARKETİNQİN İDARƏ EDİLMƏSİ MODELİNİN MÖVQELƏŞDİRİLMƏSİ

**Xülasə**

Məqalədə müəssisədə marketinqin idarə edilməsinin informasiya təminatı, marketinq proqramları çərçivəsində həll olunan əsas məsələlər nəzərdən keçirilmişdir. Marketinq sahəsində proqramların əsas funksional imkanlarının təsviri, onların rəqabət üstünlüklərinin fərqləndirilməsi və onlardan bəzilərinin müqayisəli qiymətləndirilməsi aparılmışdır.

***Açar sözlər: marketinq, informasiya texnologiyaları, konsaltinq xidmətləri, Statistica və Vortex Marketing GEO, Kasatka, Best-marketinq.***

**Giriş**

Sənaye müəssisəsində effektiv marketinq fəaliyyətinin həyata keçirilməsi üçün marketinqin strategiya və taktikasının məqsədli bazarın tələbatlarına uyğunluğunu təmin edən xüsusi marketinq informasiya sistemi lazımdır. O, bazarın konyunkturunun mümkün vəziyyətlərini və məqsəd bazarındakı situasiyanın başlıca inkişaf ssenarisini proqnozlaşdıran, müəssisənin marketinq mühitinin kifayət qədər keyfiyyətli və unifikasiyalı monitorinqini təqdim etməlidir. Marketinq fəaliyyətinin idarə edilməsi sisteminin əsas elementləri kimi strateji təsərrüfat vahidlərinin (STV) çıxış etdiyi strateji planlaşdırma şəklində təsvir etmək olar. Bu vahidlərin potensialı detallaşdırmanın müxtəlif səviyyələrinin nəzərə alınması və biznes-portfelin təhlili metodları ilə qiymətləndirilir.

**Müəssisədə marketinqin idarə edilməsinin informasiya təminatı.**

Marketinq tədqiqatı sifarişçi üçün heç də hər zaman arzu olunan nəticələrə gətirib çıxarmayan kifayət qədər bahalı proseduradır. Buna görə də tədqiqatın məqsədəuyğunluğunun və son hədd qiymətinin müəyyən edilməsi təkcə marketinqin yox, həm də müəssisədə maliyyə planlaşdırılmasının mühüm məsələləri sırasına daxildir. Faktiki olaraq, bahalı marketinq tədqiqatının həyata keçirilməsindən imtina edilməsinin dəyəri və ya onun məqsədəuyğun qiymətinin müəyyən edilməsi özündə firma üçün alternativ faydaları əks etdirir.

Marketinq strategiyasının optimallaşdırılması modelindən istifadə edərkən firma üçün yaranan real faydanı müəyyən edək. Bunun üçün bir sıra konsaltinq firması tərəfindən həyata keçirilmiş marketinq tədqiqatlarının dəyərlərini nəzərdən keçirək. Qeyd edək ki, onlardan əksəriyyəti "intuitiv" və ya ekspert qiymətqoyma modelindən istifadə edir, bu zaman xidmətlərin dəyəri işlərin həcmindən asılı olaraq təyin edilir. Faktiki olaraq isə əksər konsaltinq firmalarında marketinq tədqiqatının ümumi baza qiyməti mövcud deyil, buna görə də bizim seçməmiz reprezentativliyə namizəd deyil, o, yalnız firmanın eksperimentin həyata keçirilməsi üzrə potensial xərcləri haqqında təsəvvür yaradır.

Tədqiqatın konkret bazarın hər bir strateji vahidi üçün qiyməti yalnız fərdi qaydada təyin oluna bilər, buna görə də təqdim olunan istənilən rəqəm yalnız diskret halın təsviri kimi çıxış edəcəkdir. Tədqiqatın qiyməti modelin determinantından, habelə tədqiqatın aprior nəticələrinin paylanmasının qiymətləndirilməsindən asılıdır.

Müəssisədə marketinqin idarə edilməsi üzrə optimallaşdırma modeli biznesin konsaltinqi üzrə bir sıra alətlərə aid edilə bilər, buna görə də konsaltinq sahəsində mövcud olan vəziyyəti nəzərdən keçirmək lazımdır. Bizim baxış dairəmiz çərçivəsində marketinq proqram məhsullarına xüsusi

diqqət ayırmaq lazımdır, belə ki, marketinqin idarə edilməsi modeli əmək tutumluğu səbəbindən proqram təminatına ehtiyac duyur. Bütün bunlar kompleks halda modelin bazasında proqram təminatının yaradılmasının məqsədəuyğunluğunu göstərməyə kömək edir.

Konsaltinq xidmətləri dedikdə, müştərinin biznesində dəyişikliklərin edilməsinə istiqamətlənmiş müstəqil tövsiyə və məsləhətlərin təqdim edilməsi üzrə işgüzar xidmətlər nəzərdə tutulur. "Ekspert" reytinq agentliyinin qeyd etdiyi kimi, hələ bir neçə il bundan əvvəl firmanın kömək üçün müstəqil konsultantlara müraciət etməsi müvəffəqiyyətsizlik əlaməti hesab olunurdu, indi isə situasiya dəyişmişdir və biznesin inkişafı üçün strateji məsələlərin həlli, həmçinin də müasir informasiya texnologiyaları bazasında, konsultantlara kompaniyanın artım mərhələsində mütləq partnyorlar nüfuzunu qazanmağa imkan vermişdir [1]. İndi artıq konsultantların olmaması iqtisadi müvəffəqiyyətsizlik və ya gerilikdən xəbər verir. Konsaltinq qruplarının nümayəndələri bunu onunla izah edirlər ki, bir çox firma rəhbərləri artıq yalnız intuisiyaya əsaslanan idarəetmə qərarlarının qəbul edilməsi üzrə qərarın məsuliyyətini öz üzərlərinə götürməyə cürət etmirlər və üstünlük riyazi və statistik hesablama və təhlilə verilir.

İnformasiya texnologiyalarının strukturunda iki başlıca istiqamət fərqləndirilmişdir:

- işləyib hazırlama və sistem inteqrasiyası;
- idarəetmə konsaltinqi sahəsində informasiya texnologiyaları.

İnformasiya texnologiyaları bazarının mühüm artımı, doğrusu, Qərb bazarının fonunda o qədər də nəzərə çarpmır. Həqiqətən də ABŞ, Yaponiya və Avropada İT ən iri konsaltinq qruplarının gəlirlərinin əsas hissəsini təşkil edir. Xüsusi halda, Avropa idarəetmə konsaltinqi assosiasiyası federasiyasının verdiyi məlumatlara görə, Avropada 2000-ci ildə İT-konsaltinqin payına qazancın 40%-indən çoxu düşür. Bundan başqa, son iki il ərzində ən iri konsaltinq kompaniyaları reytinqində lider mövqe İBM Global Services kompaniyasına məxsusdur. Bu kompaniya üçün informasiya texnologiyaları prioritet fəaliyyət istiqaməti kimi çıxış edir.

Dünyada nüfuzlu konsaltinq firmalarından biri olan "PriceWaterhouse Coopers" ən yaxın bir neçə il üçün biznes strategiyaların, biznes planlaşdırmanın işlənib hazırlanması və strateji informasiya sistemlərinin tətbiqinin əhəmiyyətli dərəcədə artacağını proqnozlaşdırır.

Bu gün konsultantlar müəssisələrdə təkcə iri idarəetmə sistemləri (R3, BAAN, Qalaktika, Parus, Tekton, NS-2000) yox [2], həm də analitik (İNEK-Analitik, Alt-İnvest, Audit Expert) və marketinq proqramlarını tətbiq edirlər. Son qrupda liderlər sırasına Marketing GEO, Kasatka, Marketing Expert, BEST-Marketinq, Vortex və Statistica daxildir.

**Məşhur marketinq proqramları çərçivəsində həll olunan məsələlər.**

Məşhur marketinq proqramları çərçivəsində həll olunan əsas məsələlərin nəzərdən keçirilməsinə keçid alaq. Bizim məqsədimiz marketinq sahəsində proqram məhsulları bazarının qlobal, hər şeyi əhatə edən tədqiqatının həyata keçirilməsindən ibarət olmadığından, proqramların əsas funksional imkanlarının təsviri, onların rəqabət üstünlüklərinin fərqləndirilməsi və onlardan bəzilərinin müqayisəli qiymətləndirilməsi ilə kifayətlənək [2].

***Statistica və Vortex*** proqramlarından başlayaq. Bu məhsullar marketinq tədqiqatlarının nəticələrinin işlənməsi, təhlili və təqdim edilməsi üzrə dar ixtisaslaşmış proqramlar sahəsinə aiddir. Proqramlar iqtisadi statistika nəzəriyyəsi metodlarının hamısından olmasa da əksəriyyətindən istifadə edirlər. Misal üçün, klaster, amilli, korrelyasiya-reqressiya təhlili metodları müxtəlif növ asılılıqlar qurmağa imkan verir və əlaqələrin qiymətləndirilməsi üçün qeyri-parametrik əmsallardan istifadə edirlər. Bu proqramlar çoxlu sayda və tipdə məsələlərlə, o cümlədən semantik diferensiallarla, tərcih şkalaları ilə və s. işləməyə imkan yaradır. Vortex sisteminin qiyməti 180 dollardır. Qeyd etmək lazımdır ki, bu sinifdən olan məhsullar konsaltinq firmaları və sosioloji agentliklər üçün faydalıdır, çünki kifayət qədər fəal və müntəzəm şəkildə istifadə oluna bilərlər. Bazarın tədqiqini il ərzində iki dəfədən çox həyata keçirməyən müəssisələr tərəfindən belə bir proqramın əldə edilməsini əksər hallarda az rasional kimi qiymətləndirmək lazımdır.

***Marketing GEO*** - müştərilər, malgöndərənlər, dilerlər və rəqiblər haqqında marketinq informasiyalarının saxlanması, elektron xəritədə təqdim edilməsi və təhlili üçün nəzərdə tutulmuş informasiya-analitik sistemdir. Marketing GEO Dövlət Statistika Komitəsinin regionlar və müəssisələr üzrə verilənlər bazasını özünə daxil edir və 3 modifikasiyada təqdim edilir: Marketing GEO İNFO Gündəlik, Marketing GEO Standard, Marketing GEO İNFO. Obyektin təsviri zamanı bir əmtəə üzrə bir neçə qiymət, hər bir qiymət üzrə güzəştlər, güzəştlərin nəzərə alınması ilə satış həcmlərini təyin etmək olar. Xərclər haqqında məlumatlar istehsal (daimi və dəyişən) və yerdə qalan xərclərə (satış və idarəetmə) bölünür. Gəlir və xərclər haqqında məlumatların daxil edilməsindən sonra istənilən seqment/obyektin mənfəət/gəlirini hesablamaq olar. Proqrama, həm sadə, həm də mürəkkəb trend modellərini, misal üçün, həm zaman sırasının öncəki qiymətlərini nəzərə alan, həm də proqnozlaşdırılan əlamətə təsir göstərən çoxamilli reqressiya modeli quran proqnozlaşdırma sistemi də daxildir.

Strategiya sahəsində proqram Ansoff matrisinin strateji tərkibini qurmağa və hesablamağa, SWOT-təhlil (əmtəənin xüsusiyyətlərinin istehlakçı tərcihləri və rəqib əmtəələrin xarakteristikaları ilə müqayisəsi) və portfolio-təhlil (matris modellərinin qurulması) aparmağa imkan yaradır. Məlumat və proqnozları qrafiklər şəklində təqdim etmək olar. Proqram özünə proqram vasitəsilə işlənib hazırlanmış strateji marketinq planının bütün formalarının çapa və ya Word proqramına ötürülməsinə imkan verən hesablama generatorunu daxil edir.

Beləliklə, Marketing Expert proqramı əsas etibarı ilə istehlakçıların seqmentləşdirilməsi, rəqabətin qiymətləndirilməsi və SBV-lərinin (firmanın) inkişaf strategiyasının qurulması məsələsinin həllinə istiqamətlənmişdir. Proqram BEST-marketinqlə müqayisədə daha kompleks yanaşma və Kasatka ilə müqayisədə daha ixtisaslaşmış istiqamətliliklə fərqlənir. Demək olar ki, Marketinq Expert istənilən fəaliyyət miqyasından olan firmalar üçün nəzərdə tutulmuşdur və marketinqin strateji planlaşdırılması sahəsinə istiqamətlilik sayəsində bazarda öz azlığına malikdir.

Marketing Expertin qeyri-şəbəkə versiyasının qiyməti 1200 dollardır, şəbəkə versiyasında isə hər bir əlavə istifadəçi yeri alıcıya 600 dollara başa gələcəkdir.

***Kasatka.*** Xarici tərtibatına görə kifayət qədər gözəl, çoxlu sayda, o cümlədən audio formatda qeydlərə malik olan məhsuldur. Proqramın üstünlüyü, firmanın marketinq bölmələrinin hesabdarlığı və sənəd dövriyyəsi sisteminin keyfiyyətli şəkildə qurulmasına imkan yaradan çoxlu sayda savadlı şəkildə tərtib olunmuş yekun sənədlərin mövcud olmasındadır. Proqram müxtəlif təqdimatların həyata keçirilməsi və tələbələrin tədrisi üçün yaxşıdır (marketinq ədəbiyyatı kitabxanası, çoxlu sayda konkret nümunələr sayəsində). Aşağıdakı spektrdə modifikasiyalar təqdim olunur (menecment bloku nəzərə alınmadan) (cədvəl 1)

*Situasiyalı təhlil (ST).* Bütün fəaliyyət sahələri ilə bağlı 323 sual üzrə, qeydlər altsistemi ilə təchiz olunmuş "sual-cavab" sistemidir. Təhlilin aparılması nəticələrinə görə (bu prosedura 3-4 saat çəkir) ali rəhbərlik üçün sənəd-avtomatik qiymətləndirmə-tövsiyə, sualın işlənməsi dərəcəsinin, mümkün mənfi simptomların və əgər situasiya dəyişdirilməsə, ortaya çıxa bilən mümkün problemlərin qiymətləndirilməsi, habelə təşkilatın fəaliyyətinin ümumi qiymətləndirilməsi verilir.

*SWOT-təhlil.* Bu təhlil müəssisənin güclü və zəif tərəflərinin, bazardakı imkan və təhlükələrin, iqtisadi, siyasi, bazar, texnoloji, beynəlxalq, rəqabət və sosial davranış amillərinin təsirinin aşkar edilməsi üçün nəzərdə tutulmuşdur. Bu 7 amildən hər biri üçün onların vaciblik dərəcəsi müəyyən edilə bilər.

*Mini-marketinq* çərçivəsində fəaliyyət ardıcıl olaraq aşağıdakı istiqamətlər üzrə aparılır:

- Maraqlı bazarlarda verilmiş əmtəə növü üzrə strategiyanın işlənib hazırlanması;
- İstehlakçı üçün verilmiş əmtəə növünün cazibədarlığının qiymətləndirilməsi;
- Əmtəənin rəqabət qabiliyyətliliyinin və verilmiş bazarda rəqabətin səviyyəsinin qiymətləndirilməsi;
- STV modulunun müəyyən edilməsi üçün strategiyanın işlənib hazırlanması (inkişaf, məhsul, satış, irəlilədilmə və qiymət strategiyaları);

- Əmtəənin həyat dövrünün hər bir mərhələsi üçün verilmiş modul üzrə tədbirlər büdcəsinin tərtib edilməsi;
- Verilmiş modul üzrə audit və nəzarət.

*Cədvəl 1*

**"Kasatka" kompleks məhsulu**

| | | |
|---|---|---|
| Kasatka: situasiyalı təhlil | Özünə situasiyalı və SWOT təhlili daxil edir | 30$ |
| Kasatka: mini-marketinq | Bazarın qiymətləndirilməsi, tədqiqi və bir marketinq modulu ilə iş (əmtəə-coğrafi bazar-seqment) | 50$ |
| Kasatka: marketinq | Bir neçə STV-nin idarə edilməsi imkanı ilə konkret layihə üzrə tam marketinq kompleksi, bütün firma üzrə ümumi qiymətləndirmə və analitika. Tələbin, cazibədarlığın, rəqabətin qiymətləndirilməsi, strategiyanın işlənib hazırlanması, büdcələşdirmə, nəzarət və s. | 199$ |
| Kasatka: kompleks | Marketinq və menecment bloklarını daxil edir | 150$ |
| Şəbəkə versiyaları (5 iş yeri üçün) | | |
| Kasatka: hakimiyyətin 3 səviyyəsi | Hakimiyyəti 3 səviyyəyə bölünən, hər bir səviyyə üçün müəyyən alətlərə malik olan, layihə və funksiyalara ayrıca çıxışı olan Kasatka-kompleks | 590$ |
| Kasatka: biznes | İnternet sistemi, biznes-planın işlənib hazırlanması üzrə alətlərlə tamamlanır (yerli spesifikliyə uyğunlaşma imkanı ilə) | 860$ |
| Kasatka: peşəkar | Rəhbərlik qarşısında hesabat verilməsi üzrə strukturlaşdırılmış blokla, marketinq və menecment üzrə hesablamaların avtomatik həyata keçirilməsi üzrə modulla, axtarış İnternet-sistemi ilə tamamlanır | 1900$ |
| Kasatka: sənaye | Kasatka: peşəkar + sorğu informasiyası və axtarış İnternet sistemi vasitəsilə əldə edilən statistik məlumatlar, layihənin bütün əməkdaşları və rəhbərləri arasında məsələlərin qoyulması və onlara nəzarət sistemi | 3900$ |
| Kasatka: korporasiya | Kasatka: sənaye + uzaqda yerləşən nümayəndələri olan kommunikasiya sistemi (videokonfranslar, məsələlərin məsafədən qoyulması və onun üzərində nəzarət sistemi, korporasiyadaxili poçt) | 7000$ |

Verilmiş bloklardan hər biri 10-dan 30-a qədər məsələlərə (hər bir sual üzrə 3-dən 7-yə qədər) bölünmüş blokdan ibarətdir. Proqram hər bir məsələyə bir neçə alternativ həll, məşhur müəssisələrin marketinq təcrübəsindən həll nümunəsi və verilmiş mövzu üzrə marketinq ədəbiyyatından çıxarış, habelə hər bir məsələ üzrə əsas anlayışları və işin məqsədlərini izah edən audio yardım təqdim edir.

*Kasatka: hakimiyyətin üç səviyyəsi.* Bu kompleks üç layihə üzrə işi həyata keçirməyə imkan verir, hakimiyyətin-informasiyaya, obyektlərə və funksiyalara çıxışının üç səviyyəsinə malikdir (korporativ hakimiyyət, layihəyə rəhbərlik, layihədə bölmə səviyyəsi). Hər bir səviyyə yalnız müəyyən hakimiyyət səviyyəsinə uyğun gələn özünün xüsusi alətlərinə malikdir. Kompleks orta ölçülü müəssisələr üçün nəzərdə tutulmuşdur.

*Kasatka: peşəkar.* Orta ölçülü müəssisələr üçün ixtisaslaşmış versiyadır. Marketinq və menecment məsələləri üzrə cəbri hesablamaların həyata keçirilməsi üçün modullar bu versiyadan başlanır, bu modullar açıq olur və istifadəçiyə onları müstəqil olaraq dəyişməyə imkan verir. İnternet axtarış sistemi xarici iqtisadi fəaliyyət üçün nəzərdə tutulmuşdur və başqa ölkələr haqqında informasiya toplamağa, mövzu kataloqları tərtib etməyə, zəruri saytların siyahısı, onların təsviri və sənədlərin toplanması üçün imkan yaradır.

*Kasatka: sənaye.* Sənaye müəssisələri üçün ixtisaslaşmış versiyadır.

*Kasatka: korporasiya.* İri müəssisələr üçün ixtisaslaşmış versiyadır, baş idarə “Kasatka”sı ilə uzaqda yerləşən idarə “Kasatka”sının inteqrasiyası sayəsində uzaqda yerləşən nümayəndəliklərlə işləməyə imkan yaradır.

Ümumi halda, Kasatka sistemi müəssisədə marketinqin idarə edilməsi çərçivəsində, praktiki olaraq, bütün məsələlər blokunu əhatə edir. Bundan başqa, proqram özündə müəssisə səviyyəsində marketinq və menecmentin inteqrasiyalı qarışığını əks etdirir və bu da başqa marketinq informasiya sistemlərindən fərqləndirici cəhət kimi çıxış edir. Kasatka ekspert sisteminin ayrı-ayrı elementlərinə malikdir və universallığa namizəd kimi çıxış edir.

***Best-marketinq.*** Bu sistem özündə rəqabət şəraitində müəssisənin bazar mövqelərinin qiymətləndirilməsi üçün alətləri əks etdirir. Fərqləndirici xüsusiyyəti interfeysin sadəliyindədir. İstifadəçilərlə ünsiyyət “sual-cavab” sistemi əsasında həyata keçirilir. Cavablar kimi “pis/yaxşı”, “birinci dərəcəli/ikinci dərəcəli” qiymətləndirmələri sistemindən istifadə olunur. Daxil edilən keyfiyyət parametrləri sistem tərəfindən kəmiyyət parametrlərinə çevrilir və zəruri hesablamalar aparılır. Nəticələrin təqdim edilməsi üçün SWOT-təhlil metodikasından, Ansoff matrisindən, “4P” metodundan istifadə olunur. Sistem perspektiv bazar azlıqlarını müəyyən etməyə, geniş parametrlər sırası üzrə seqmentləri fərqləndirməyə, əmtəənin rəqabət qabiliyyətliliyini müəyyənləşdirməyə, reklamın və onun effektivliyinin artırılması, satışın stimullaşdırılması üzrə tövsiyələri təhlil etməyə, satışın oriyentasiyalı bölüşdürülməsini təyin etməyə və qrafiklər qurmağa imkan yaradır. Rəqiblərin təhlili üçün alət kimi çıxış edən əlavə rəqiblərin bazarda iştirak etmə dərəcəsini hesablamağa, əmtəə üzrə müqayisəli təhlil aparmağa və reklam kampaniyasının müqayisəli təhlilini həyata keçirməyə imkan verir. Sonda Best-marketinq proqnoz satışları, reklam büdcəsini, irəlilədilməsini və başqa marketinq büdcələrini planlaşdırır.

Beləliklə, Best-marketinq Kasatka ilə müqayisədə özündə daha az universal məhsulu əks etdirir, daha az texnoloji tədqiqatlardan istifadə edir, işdə sadə və təyinatlıdır, daha çox orta ölçülü firmalar seqmenti üçün nəzərdə tutulmuşdur. Əməliyyat marketinqi bloku daha tam şəkildə təqdim edilmişdir.

Qeyd etmək lazımdır ki, strateji marketinq planlaşdırılması proqramının yaradılması konsaltinq xidmətləri bazarının artan tələbatları ilə şərtlənir. İnformasiya idarəetmə texnologiyaları bazarı çərçivəsində strategiyaların optimallaşdırılması üzrə modeli ucuz, lakin məhsul marketinqi sahəsində müasir innovasiya məsələlərinə uyğun gəlməsi nöqteyi-nəzərindən keyfiyyətli hesab etmək olar. Bu model həm kiçik kommersiya firmaları, həm də iri müəssisələr və bələdiyyə idarəetməsi orqanları seqmenti üçün strateji planlaşdırma üzrə xüsusi dar tələbatları təmin etmək üçün nəzərdə tutulmuşdur. Bundan başqa, o, tədris məqsədləri üçün də istifadə oluna bilər, çünki özündə kifayət qədər nəzəri bazanı əks etdirir.

Optimallaşdırma modelinin innovasiyalılığı ondan ibarətdir ki, o, marketinq planlaşdırması prosesini standart marketinq tədqiqatlarına alternativ yanaşma mövqeyindən nəzərdən keçirir. O, həm klassik marketinq nəzəriyyəsinə, həm də statistika və oyunlar nəzəriyyəsi çərçivəsində riyazi modelləşdirməyə, yəni proqnozlaşdırmanın obyektiv metodlarına əsaslanır. Tövsiyələrin modelləşdirilməsi, nəticədə əldə edilən məlumatların keyfiyyəti ümumi şəkildə giriş verilənlərinin dəqiqliyindən asılıdır.

## Nəticə

Müəssisənin marketinq fəaliyyətinin strateji planlaşdırılmasını bazardakı qeyri-müəyyənlik şəraitində strategiyanın işlənib hazırlanması konsepsiyasında, alət kimi “təbiətlə oyun” riyazi modelindən istifadə edərək nəzərdən keçirmək lazımdır. Oyunlar nəzəriyyəsi aparatı hər bir STV strategiyası üçün matris formasında tələbin bütün mümkün tərəddüdləri çoxluğunu əks etdirir və riyazi kriteriyalar dəstinin köməyilə optimal strategiyanın seçilməsinə imkan yaradır.

Müəssisədə zəruri marketinq informasiya kompleksinin göstəricilər sistemi iki qrup göstəricilərdən ibarət olmalıdır: daxil olan və hesabi. Onlar müəssisədə marketinq informasiyasının sistemləşdirilməsi probleminə unifikasiyalı yanaşmanı əks etdirir, çünki özünə mikromühitin

stoxastik parametrlərini daxil edir və müəssisənin fəaliyyətinin iqtisadi parametrlərini və marketinq tədqiqatlarının nəticələrini vahid konsepsiyada birləşdirməyə imkan verir.

### Ədəbiyyat

1. Леманн Д.Р., Викер Р.С. Управление маркетингом. Пер. с англ. М.: Вильямс. 2004, 624 с.
2. Богданова Е.Л. Информационный маркетинг: Учеб. Пособие / Е.Л.Богданова. СПб ГИЭА, 1997, 140 с.
3. Лавлок К. Маркетинг услуг: персонал, технология, стратегия. Пер. с англ. М.: Вильямс. 2005, 1008 с.
4. www.ekonomizdat.ru
5. www.vilyams.ru
6. www.rea.ru

***С.С.Мамедова***

### Позиционирование модели управления маркетингом на рынке информационных услуг

**Резюме**

В статье рассмотрены информационное обеспечение управления маркетингом на предприятии, изучены задачи, решаемые в рамках маркетинговых программ. Проведены описание функциональных возможностей основных программ в сфере маркетинга, дифференциация их конкурентных преимуществ и сравнительная оценка некоторых из них.

***Ключевые слова: маркетинг, информационные технологии, консалтинговые услуги, статистики и маркетинга бортех ЭЕО, касатка, бест-маркетинга.***

***S.S.Mammadova***

### Positioning of the model of marketing management for the information services market

**Summary**

The article marketing enterprise information management, the main issues have been considered within the framework of marketing programs. Description of the functional capabilities in the field of marketing programs, competitive advantages and differentiation, and some of them carried out a comparative evaluation.

***Keywords: marketing, information technology, consulting services, statistics, and vortex marketing GEO, kasatka, best-marketing.***

**UOT 338. 46**

***Rəhim Hüseyn oğlu HÜSEYNOV***
***İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun dissertantı***

# MARKETİNQ XİDMƏTLƏRİ VƏ GENİŞ TƏKRAR İSTEHSAL PROSESİNDƏ ONUN ROLU

**Xülasə**

Məqalədə konsaltinq xidmətlərinin iqtisadiyyatda oynadığı rol və konsaltinq xidmətlərinin inkişaf mərhələləri nəzərdən keçirilmişdir. Məqalədə həmçinin marketinq xidmətlərinin əhəmiyyəti və marketinq xidmətləri bazarının xüsusiyyətləri araşdırılmışdır. Marketinq xidmətlərinin outsorsinqinin faydaları da öyrənilmişdir.

***Açar sözlər: marketinq, geniş təkrar istehsal, marketinq xidmətləri, outsorsinq.***

## Giriş

Təkrar istehsal prosesinin iki növü mövcuddur: sadə təkrar istehsal, geniş təkrar istehsal. Əgər sadə təkrar istehsal zamanı istehsal eyni həcmdə təkrarlanırsa, geniş təkrar istehsalda istehsal genişlənmiş, böyümüş formada təkrarlanır. Təkrar istehsalın dörd fazası mövcuddur: istehsal (nemətlərin yaradılma prosesi), bölüşdürmə, mübadilə və istehlak. Marksizmdə təkrar istehsal prosesində istehsal ön plana çəkilir, o əsas və aparıcı faza hesab edilirdi. Marketinq nəzəriyyəsi və praktikasının əsas çıxış nöqtəsini isə aşağıdakı tezis təşkil edir: "alınacaq məhsullar istehsal edilməlidir". Bu, marketinqin əsas prinsipi olsa da təbii ki, istehsal olunmuş və tələbat olmayan məhsulların satılması da marketinqin həyata keçirməli olduğu vəzifələrdəndir. Bununla da marketinq istehsalla istehlakı əlaqələndirərək bazarı tənzimləyən mexanizm rolunu oynamış olur. Hələ Adam Smit 1776-cı ildə yazırdı ki istehlak istehsalın son məqsədidir. Bu ideya sonradan marketinq adlanacaq nəzəriyyənin bünövrəsini təşkil etmişdi. Marketinq nəzəriyyəsi XIX əsrdə ABŞ-da şirkətlərin qarşılaşdığı satış problemlərinə reaksiya kimi yaranmışdır.

***Məqalənin əsas məzmunu.*** İxtisaslaşmanın dərinləşməsi və rəqabətin intensivləşməsi nəticəsində idarəetmədə buraxılan səhvlərin böyük maddi zərərlərə və bazarda bərpa olunmayan mövqe itkilərinə səbəb olması menecerləri qərar qəbulu prosesinə maksimum ehtiyatlı yanaşmağa vadar etmişdir. İnformasiyanın əldə edilməsinin getdikcə asanlaşması, uğurlu biznes modellərinin sürətlə yayılması, biznes mühinin dinamik dəyişməsi əvvəllər mövcud olan idarəetmə reseptlərini unikal şərait üçün qeyri-münasib edə bilər. Şirkət rəhbərləri təşkilat daxilində mövcud olmayan bilik və bacarıqları kompensasiya etmək və idarəedicilərin qarşılaşdığı qeyri-standart və mürəkkəb problemləri həll etmək üçün kənardan cəlb olunan məsləhətçilərin (konsultantların) köməyinə getdikcə daha çox ehtiyac duymağa başlamışlar. Ümumiyyətlə, konsaltinq xidmətlərinin inkişafı və keçdiyi mərhələlər bazarın inkişaf xüsusiyyətlərinə uyğun olmuş bir növ ona inikas etmişdir. Bunu konsaltinq xidmətləri bazarının inkişaf mərhələlərinin əks olunduğu aşağıdakı cədvəldən də görmək olar (Cədvəl 1).

Konsaltinq xidmətləri bazarının mühüm tərkib hissəsi olan marketinq xidmətləri bazarının inkişafı da təşkilati və menecment probləmlerinin mövcudluğunun yaratdığı daimi qeyri-müəyyənlik və menecerlərdən həmişə rasional və innovativ davranması tələbatından irəli gəlir. Təşkilatın qarşılaşdığı problemlər əsasən resurslara görə ətraf mühitdən asılılıq və ətraf mühitin yaratdığı qeyri-müəyyənlik fonunda əmələ gəlir.

*Cədvəl 1*

***Dünya konsaltinqinin inkişafının əsas fazaları***

| Dövr | Bazarın xüsusiyyəti | Konsultantın öhdəliyi |
|---|---|---|
| 1900-1970 | Sənaye istehsalı sabit və tarazlı inkişaf etdiyi, elmi-texniki tərəqqinin sürətləndiyi, əmtəələrin həyat tsikli beş ildən yuxarı və bazarın kifayət qədər stabil və dayanıqlı olduğu dövr. | İdarəetmə üzrə məsləhətçilərin əsas funksiyaları xüsusi biliklərin təqdim olunması idi. Konsaltinq məhsulu metodologiya və yaxşı işlənmiş metodiki məsləhət idi. |
| 1971-1990 | Bu dövr elmi nailiyyətlərin istehsala sürətlə tətbiq olunduğu, əmtəənin həyat tsiklinin qısaldığı, rəqabətin kəskinləşdiyi və bazarın qeyri sabitliyinin müşahidə olunduğu dövrdü. İdarəetmədə yeni anlayışlar meydana gəldi: strategiya, strateji planlaşdrma, idarəetmənin strateji strukturu. | Bu illərdə konsultantlar müəssisədə işləməyə və muzdlu menecerə çevrilməyə başladılar, onlar xarici mühitin zəif siqnallarını hiss edə, yeni problemləri və imkanları görə və reallaşdırma yollarını göstərə bilirdilər. Konsultant işçilərin həll edə bilmədiyi problemləri həll etmək üçün lazım idi. |
| 1991-indiyə kimi | Bu dövr bazar mühitinin dinamikləşməsi və yeniliklərin intensivləşdiyi dövrdü. Milli iqtisadi sərhədlər aradan qaldırılmağa başlandı. İstehsalçıların inhisarçılığı bazarın qloballaşması və külli miqdar əvəzedici-məhsulların meydana gəlməsi ilə demək olar ki mümkün deyildi. İstehsal və idarəetmə proseslərinin kütləvi kompyuterləşməsi baş verir. | Konsultantların rolu mürəkkəb və rəngarəngdir. Birincisi, konsultant problemləri dəqiq müəyyənləşdirməyi bacaran, “xəstəlik” diaqnozunu təyin edən, menecerlərə təşkilatda nəyin və niyə pis olduğunu göstərən, “müalicə” üsulları və metodlarına dair təklif verən və yenidən təşkilin strategiya və taktikasını hazırlayan ekspert və analitikdir. İkincisi, konsultant müəssisə üçün biznes prosesləri və idarəetmə texnologiyaları hazırlayan şəxsdir. |

*Mənbə: (1)*

Təşkilatın qarşılaşdığı problemləri dörd kateqoriyada təsnifləşdirmək olar: məhdudluq, qeyri-müəyyənlik, qeyri-sabitlik və ziddiyyət. Beləliklə, təşkilatın qarşılaşdığı problemlərə görə lazım olan xidmətləri aşağıdakı kimi qruplaşdırmaq olar (Cədvəl 2).

*Cədvəl 2*

***Təşkilatın qarşılaşdığı problemlərin zəruri etdiyi xidmətlər***

| | |
|---|---|
| **Məhdudluq (əsas diqqət: səmərəli fəaliyyət)** Biznes proseslərinin reinjinerinqi, statistik prosesə nəzarət, kütləvi keyfiyyət, standartlar. | **Qeyri-müəyyənlik(əsas diqqət: səmərəlilik)** Təlimatlandırma, strateji planlaşdırma, struktur və dizayn, məqsədli idarəetmə, ssenari planlaşdırması, bazarın kəşfiyyatı. |
| **Qeyri-sabitlik (əsas diqqət: etibarlılıq)** Komanda qurmaq, ictimaiyyətlə əlaqə, motivləşdirmə, liderlik, bençmarkinq, təşkilati bilik, beynəlxalq idarəetmə. | **Konflikt (əsas diqqət: razılaşdırmaq, uyğunlaşdırmaq)** Peşə dizaynı, mükafatlandırma, işçi yığımı, işçilərin razı salınması. |

*Mənbə: (2)*

Məhdudluq problemi əsasən istehsalda istifadə olunan resursların məhdudluğundan və məhsullara olan tələbin çatışmamazlığından irəli gəlir. İstehsalda istifadə olunan resursların əldə edilə bilməməsi təşkilatın mövcudluğuna təhlükə yarada bilər. Əgər resurslar qeyri-məhdud və əldə olunması asan və ucuz olsa idi, onda təşkilat resurslara görə ətraf mühitdən asılı olmazdı. Ancaq reallıq ondan ibarətdir ki, resurslar məhduddur və bu da təşkilati səmərəliliyi yüksəltməyə imkan verən üsul və texnikaları təklif edən marketinq xidmətləri üçün bazar yaradır. Eyni zamanda alıcı bazarlarının xüsusiyyətlərinə uyğun olaraq təklifin tələbi üstələməsi və istehsal olunmuş məhsulların reallaşdırılması üçün kifayət qədər tələb həcminin olmaması müəssisədə satış problemlərinin

həlli yollarını göstərən marketinq xidmətlərinə böyük ehtiyac yaratmışdır.

Təşkilati mövcudluq həm daxili, həm də xarici mühitin yaratdığı qeyri-müəyyənlik səbəbindən təhlükə altına düşə bilər. Müəssisənin rəhbərləri gələcəyə yönəlik qərarlar vermək və planları reallaşdırmaqdan ötrü daima ətraf mühitdən informasiya əldə etməyə çalışır. Əgər təkmil informasiya əldə etmək və menecerlərin qərarlarının nəticələrini müəyyənləşdirmək mümkün olsa idi, onda effektiv qərar qəbulu sistemini formalaşdırmaq asan olardı. Ancaq, bildiyimiz kimi, ətraf mühitə mürəkkəblik və dinamik dəyişkənlik xasdır. Təşkiatların qarşılaşdığı informasiya çatışmamazlığı və onların qeyri-təkmilliyi qərarların rasionallığını məhdudlaşdıran amil rolunu oynayır. İnformasiya çatışmamazlığı və qeyri-təkmilliyi qərar qəbulu, struktur formalaşdırmaq, kommunikasiya prosesləri, informasiyanın toplanması və təhlili, strategiya və məqsədlərin hazırlanmasında marketinq xidmətlərinin əhəmiyyətini yüksəldir.

Marketinq xidmətlərini zəruri edən digər problem isə təşkilatın həm daxili, həm də xarici mühitinin qeyri-sabitliyidir. Marketinq xidmətləri daxili marketinq metodlarını tətbiq etməklə işçiləri şirkətin strategiyasına inandıra, onları məlumatlandıra və prosesin tərkib hissəsinə çevirə bilər.

Marketinq yeni məhsul və xidmətlərin yaranmasına imkan verən tədqiqatları və yeni ideyaları stimullaşdırır. Marketinq istehlakçılara məhsullar arasında seçim imkanı yaradır. Əgər istehlakçıların tələbatları ödənilərsə, onda məşğulluq səviyyəsinin yüksəlməsi, gəlirlərin artımı, həyat səviyyəsinin yüksəlməsi baş verər. Marketinqin məqsədi müəyyən vaxt ərzində müəssisənin marketinq fəaliyyətinin bilavasitə məzmununu müəyyənləşdirən göstəricilər və keyfiyyət xüsusiyyətlərini müəyyənləşdirmək, əmtəənin (xidmətin) keyfiyyətini yüksətmək, onun əldə edilməsi şəraitini yaxşılaşdırmaq, beləliklə də son nəticədə, ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsini təmin etməkdir.

Marketinq icraçı və istehlakçının birbaşa təmasını genişləndirərək tələbatın ödənilməsinə imkan verən bir çox üsullara malikdir. Marketinq konkret tələbatların ödənməsi üçün istehsalın fərdiləşdirilməsi imkanlarını yaradır. Fərdi tələbatları müəyyənləşdirir və onların ödənməsi üçün tədbirlər planını formalaşdırır. Marketinq xidmətlərinin köməyilə sənaye istehsalı ilə bağlı olmayan və məhsulun texnoloji həyat dövrünün müxtəlif mərhələlərində göstərilməsi zəruri olan xidmətlər həyata keçirilir. Yalnız icraçı və istehlakçının birbaşa əlaqəsində ödənilməsi mümkün olan sosial, psixoloji, intellektual və mənəvi tələbatların mövcudluğu onların ödənməsi üçün marketinq xidmətlərinin göstərilməsini zəruri edir.

Marketinq geniş təkrar istehsal prosesində mal, iş və xidmət axınının səmərəliliyini yüksəltməklə cəmiyyətin həyatında müsbət rol oynayır. Onun oynadığı rola və göstərdiyi müsbət təsirlərə aşağıdakıları aid etmək olar, marketinq:

• cəmiyyət üzvlərinin ehtiyac duyduqları mal və xidmətlərin istehsal olunmasına və bununla da ehtiyaclarının ödənilməsinə şərait yaradır;

• cəmiyyət üzvlərinin seçimini müəyyənləşdirərək ən çox ehtiyac duyulan malların istehsalını və həcmini təyin edir;

• cəmiyyət üzvlərinin mal və xidmətlərə olan ehtiyaclarının həcmini, çeşidini, keyfiyyətini müəyyənləşdirərək ehtiyacların ödənməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə nail olur;

• istehsal və istehlakı uyğunlaşdıraraq mümkün ziddiyyətləri minimumlaşdırır və ümumi inkişafa müsbət təsir göstərir;

• düzgün idarəetmə sisteminin tətbiqi nəticəsində satış sistemində ortaya çıxa biləcək əlavə xərcləri azaldır. Xidmət mədəniyyətini artırır, gəlirləri artırır, vergi ödəmələrini yüksəldir və s.

Marketinq geniş təkrar istehsal prosesində yuxarıda qeyd olunan faydaları ilə yanaşı müəssisələrin də fəaliyyətinə birbaşa olaraq müsbət təsir göstərir:

• markletinq fəaliyyətinin düzgün qurulması müəssisənin davamlı fəaliyyət göstərməsinə zəmanət verir;

• marketinq bazarı öyrənərək istehsalçının nə, nə qədər, nə zaman, necə və kimin üçün istehsal

etməli olduğunu müəyyənləşdirir.

• marketinq sahibkarın investisiya və strateji idarəetmə planlarını dəyişə, yeniləşdirə və təkmilləşdirə bilər;

• istehsaldakı ahəngdarlıq və planlaşdırma işləri, nəyi, nə zaman, nə miqdarda haraya, hansı vasitələrlə çatdırılmasında da marketinq əvəzsiz rol oynayır.

Marketinq xidmətlərinin cəlb olunduğu bazarın spesifik xüsusiyyətlərini isə aşağıdakı kimi qruplaşdırmaq olar:

- xidmət istehlakçılarının sayının məhdudluğu. Adətən bu xidmətlərdən artım və inkişaf mərhələsində olan müəssisələr istifadə edir;
- istehlakçı və xidmət təchizatçısının sıx təması;
- istehlakçıların peşəkarlığı. Adətən bu xidmətlərin cəlb edilməsi ilə müəssisə rəhbərləri məşğul olur;
- marketinq xidmətləri ilkin ehtiyac xidmətləri sırasına daxil deyil;
- xidmətlərin cəlbi zamanı təchizatçının ticarət markasına xüsusi önəm verilməsi və nəticədə markaya görə qiymət əlavəsinin böyüklüyü;
- istehlakçıların marketinq xidmətlərinin cəlbi zamanı reklamla müqayisədə digər şəxslərin rəylərinə fikir verməsi;
- istehlakçı loyallığının yüksəkliyi, razı müştərinin təkrar eyni təchizatçının xidmətindən istifadə etmək ehtimalı böyükdür;
- marketinq xidmətlərinin satışı proesesinin uzunluğu, bəzən danışıqlar aylar və illərlə davam edə bilər;
- marketinq xidmətlərinin unikallığı və qeyri-standart olması onların digər təchizatçıların təklifləri ilə müqayisə edilməsini çətinləşdirir;
- marketinq xidmətlərinin işgüzar tsikllərdən asılılığı. Kəskin fəsli tərəddüdlərin marketinq xidmətləri bazarına təsiri praktiki olaraq qeyri-mümkündür;
- məxfiliyin xüsusi əhəmiyyətə malik olması;
- təqdim olunan xidmətlərin geri dönməzliyi; Göstərilən marketinq xidmətləri nəticəsində müştərinin biznes fəaliyyətində baş verən dəyişikliklərin əvvəlki vəziyyətinə qaytarılmasının praktiki olaraq qeyri-mümkün olması;
- marketinq xidmətlərinin idxal və ixracının son dövrlərdə olduqca fəal surətdə inkişaf etməsi.

Marketinq xidmətlərindən istifadə edərkən idarəedicilərin qarşılaşdığı və qəbul etməli olduğu qərarlardan biri isə onun outsorsinq edib-etməməsi ilə bağlı ola bilər. Marketinq xidmətlərinin outsorsinq edilməsi müəssisənin əsas bacardığı sahələrə daha yaxşı yönəlməsinə imkan verə bilər. Əgər müəssisənin özünün marketinq departamenti olsa belə, marketinqin outsorsinq edilməsi işçilərin bəzi məsuliyyətlərdən azad olmasına və daha yaxşı bildikləri istiqamətlərlə məşğul olmasına səbəb ola bilər. Müəssisədə marketinq departamenti olmadıqda isə outsorsinq bütün marketinq funksiyalarını yerinə yetirə və müəssisənin əsas fəaliyyət növü ilə daha yaxşı məşğul olmasına şərait yarada bilər.

Outsorsinq zamanı müəssisənin məqsədləri, bazar mövqeyi və büdcəsi nəzərə alınaraq lazım olan resurslar müəyyənləşdirilir və istifadə olunur, müəssisə marketinqi daxili departamentə həvalə etdikdə isə daha çox işçilərinin nəyi bacardıqlarına ümid etmiş olur.

Marketinq xidmətlərini outsorsinq edən zaman yarana biləcək əlavə xərclərin qarşısı alına bilər. Marketinq xidmətini kənardan cəlb etməklə müəssisə əlavə ofis yerlərinə, avadanlıqlara və s. qənaət etmiş olur. Eyni zamanda iqtisadi sferada müşayiət olunan sürətli dəyişikliklər müasir biliklərə məxsus mütəxəssislərin mövcudluğunu zəruri edir. Bu isə işçilərin mütəmadi olaraq treyninq və retreyninq məsələlərini zəruri edir. Xərclərin mümkün qədər aşağı salınmasının aktuallaşdığı indiki dövrdə isə müəssisənin bu məqsədlərə daha çox vəsait ayırmasını çətinləşdirir və outsorsinqi cəlbedici edir.

Outsorsinq vasitəsilə şirkət geniş bacarıq diapazonuna malik mütəxəssislərin bilik və bacarığından istifadə etmək imkanı qazana bilər. Müəssisənin işçiləri bir çox mürəkkəb layihələrlə işləmək bacarığına mlaik olmaya bilər, təcrübəli marketinq komandasının outsorsinqi isə müəssisəyə innovativ ideyalar gətirməklə yanaşı maketinq tədbirlərinin nəzərdə tutulan məqsədlərə çatmasını təmin etməsinə zəruri olan yüksək səviyyəli peşəkarlıq gətirə bilər. Outsorsinq şirkətindən təcrübə və reinjinerinq faydaları da əldə oluna bilər.

Bundan əlavə, outsorsinq şirkətə kənardan baxış imkanlarını yaradır. Outsorsinq olunmuş marketoloqlar gündəlik işlərlə məşğul olan menecerlərdən fərqli olaraq müəssisəyə kənardan baxmaq və obyektiv nəticələr əldə etmək imkanına malikdir.

Beləliklə, qeyd edilənləri ümumiləşdirərək demək olar ki, marketinq geniş təkrar istehsalın mübadilə fazasının səmərəli fəaliyyətini təşkil etməklə ümumi prosesin məhsuldar işini təmin etmiş olur. Marketinq əsasən geniş təkrar istehsalın mübadilə fazasında fəaliyyət göstərsə də digər fazaların fəaliyyətinə də ciddi təsir göstərir. O nə, nə qədər, necə istehsal etməyə dair informasiyanı müəyyənləşdirməklə istehsal fazasına, istehsal olunan məhsulun kim üçün istehsal olunduğunu, onlara necə və hansı vasitələrlə çatdırılmalı olduğunu müəyyənləşdirməklə bölüşdürmə fazasına, istehlakı stimullaşdırmaqla, istehlakın məhsul, iş və xidmətə dair münasibətini formalaşdırmaqla istehlak fazasına təsir göstərmiş olur.

**Ədəbiyyat**


1. Евстигнеева Т.В., Рыбченко С.А. Маркетинговое консультирование. Учебное пособие, Ульяновск: УлГТУ, 2007-170 с. 6-7.
2. Betsy J Blunsdonç Beneath fashion: why is there a market for management consulting services, Faculty of Business and Law Deakin University,Victoria, Australia, Professional Service Firms Workshop, University of Alberta, Edmonton, Canada, August 2002 p.17, səh 13.
3. Kotler F. Essentials of Marketing. M.ç, 2007.
4. Məmmədov A.T. Marketinqin əsasları. Bakı, 2007.
5. Axudov M. Müəssisə iqtisadı. Bakı, 2002.
6. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело.- М.: Вешторгиздат, 1990.


***Р.Г.Гусейнов***

**Широкий спектр услуг в области маркетинга и его роли в процессе воспроизводства**

**Резюме**

В статье рассмотрены этап развития консалтинга и роль службы консалтинга в экономике. А также были расследованы сущность особенности рынка службы маркетинга и изучена полезность маркетинговой службы аутсорсинга.

***Ключевые слова: таркетинг, общее воспроизведение, маркетинговые услуги, аутсорсинг.***

***H.R.Huseynov***
**The İnstitute for Scientific Research on Economic Reforms**

**Marketing services and their role in economy**

**Summary**

In the paper was investigated importance of consulting and its development stages. The author also studied role of marketing services and pecularities of marketing services. In the paper benefits of outsourcing of marketing services was described.

***Key words: marketing, production sycle, marketing services, outsourcing.***

**UOT 330.341**

***Emil Mehrəli oğlu MİRZƏYEV***
***Azərbaycan Kooperasiya Universiteti***

# BAZARIN TƏDQİQİ VƏ PROQNOZLAŞDIRILMASINDA MARKETİNQ TƏDQİQATLARININ ROLU

**Xülasə**

Məqalədə marketinq tədqiqatlarının təsərrüfat fəaliyyətindəki rolu, onun formaları və təşkili prinsipləri ətraflı şərh edilir.

***Açar sözlər: marketinq tədqiqatları, istehsalçı, istehlakçı, bazar, təsərrüfat subyektləri, tələbat, təklif.***

## Giriş

Son illər respublikamızda azad sahibkarlığın və əlverişli biznes mühitinin yaradılması və inkişafı təsərrüfat subyektlərini bu sahədə daha da stimullaşdırmışdır. Həmçinin respublikamızda sağlam rəqabət mühitinin təmin edilməsi də sahibkarları öz fəaliyyətlərini daha uğurlu təşkil etməyə sövq etmişdir. Ölkədə aparılmış uğurlu iqtisadi siyasət və bazar mühitinin inkişafı marketinq tədqiqatlarının tətbiqini daha da zəruri etmişdir. Hal-hazırda iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bu sahədə MİS ( marketinq informasiya sistemi) və marketinq tədqiqatları bazası yaradılmışdır. Aparılmış tədqiqatlar sübut edir ki, müəssisənin istehsal- satış fəaliyyətini marketinq tədqiqatları olmadan təsəvvür etmək olmaz.

***

Hər bir təsərrüfat fəaliyyətinin səmərəli nəticəsi ilk növbədə onun düzgün təşkili və planlaşdırılmasından asılıdır. Müasir bazar münasibətləri şəraitində hər bir təsərrüfat subyekti bu məsələlərə ciddi fikir verməlidir. Sahibkarlar istehsal fəaliyyəti və bazara məhsul çıxarmazdan əvvəl ilk növbədə onu ətraflı şəkildə tədqiq etməli və proqnozlaşdırmalıdırlar. Bu zaman onlar, bazarın tutumu, potensial istehlakçı tələbatları və qiymət səviyyəsi haqqında informasiyaya malik olmalıdırlar. Bu baxımdan biznes fəaliyyətinin uğurlu təşkili məhz marketinq tədqiqatlarından asılıdır. Marketinq tədqiqatları elə bir kompleks sistemdir ki, özünə bazar mühitinin, rəqiblərin təsərrüfat fəaliyyətinin mövcud durumunu daxil edir. Həmçinin marketinq tədqiqatları ölkədəki mövcud iqtisadi, siyasi durumu əks etdirən informasiya mənbəyidir. Adları aşağıda sadalanan elementlər marketinq tədqiqatlarının obyekti ola bilər:

1. İstehsal və xidmət müəssisələri;
2. Rəqib firmalar və təsərrüfat subyektləri;
3. Məhsul bazarları;
4. İstehlakçı qrupları;
5. Qiymət səviyyəsi.

Kompleks informasiya sistemi olan marketinq tədqiqatlarının komplekslilik, obyektivlik, operativlik, səmərəlilik kimi prinsipləri vardır. Marketinq tədqiqatlarının komplekslilik pinsipinə görə bazarın mövcud vəziyyəti və istehlakçı ehtiyacları kompleks ətraflı şəkildə araşdırılmalı və tədqiqat obyekti haqqında dolğun informasiya olmalıdır. Obyektivlik prinsipinə görə mövcud obyekt dolğun və dəqiq təhlil edilməli, yalnış informasiyaya yol verilməməli, haqlı rəqabət prinsipi təmin edilməlidir. Marketinq tədqiqatlarının səmərəlilik prinsipi tədqiq edilmiş obyektin ilk növbədə təsərrüfat fəaliyyəti və subyekti üçün nə dərəcədə səmərəli olmasından və bu tədqiqatlara çəkilən xərcləri artıqlaması ilə ödəməsindən asılıdır. Təsərrüfat-maliyyə fəaliyyətinin öncədən planlaşdırılması və proqnozlaşdırılması isə marketinq fəaliyyətinin operativlik prinsipini əmələ gətirir. Həm də bu prinsipin mahiyyəti odur ki, marketinq tədqiqatları vasitəsilə müəssisə onun üçün gə-

ləcəkdə yaranan potensial təhlükədən sığortalanır və bu tədqiqatlar vasitəsilə təsərrüfat risklərinin əvvəlcədən qarşısı alınır. Marketinq tədqiqatlarının ən üstün cəhətlərindən biri odur ki, o bazarla birbaşa olaraq əlaqələrin yaradılmasına imkan verir. Həmçinin marketinq tədqiqatları biznes fəaliyyətinin ən optimal şəkildə təşkilinə imkan verir. Bu tədqiqatlar vasitəsilə sahibkarlar yeni məhsul bazarları, əmtəə nişanı və məhsul yeridilişi üsulları haqqında ətraflı məlumata malik olurlar. Qeyd etmək lazımdır ki, marketinq tədqiqatlarının təşkilində yeganə problem sahibkarların informasiya qıtlığıdır. Yəni təsərrüfat subyektləri bu barədə çox az informasiyaya malikdirlər. Çox təəssüf ki, əksər təsərrüfat subyektləri öz fəaliyyətlərində marketinq tədqiqatlarından az istifadə edərək biznes fəaliyyətini kortəbii şəkildə təşkil edirlər. Həmçinin marketinq tədqiqatları maliyyə və zaman sərfi tələb edir. Marketinq tədqiqatlarının təşkilinə sərf olunan vəsaitlər şirkətin reklam xərclərinə daxil edilir və buna görə də müəssisənin reklam büdcəsi planlaşdırılarkən marketinq tədqiqatlarına sərf olunan vəsaitləri nəzərə almaq lazımdır. Marketinq tədqiqatlarının təşkilinə aşağıdakıları aid etmək olar:

1. Bazar konyukturasının tədqiqi;
2. Bazarın seqmentləşdirilməsi;
3. Biznes planların hazırlanması;
4. Məhsul və xidmət növləri üzrə sosioloji sorğuların keçirilməsi;
5. Kütləvi informasiya vasitələri ilə araşdırmaların təşkili;
6. Mövcud sahə üzrə konfrans və seminarların təşkili.

Marketinq tədqiqatlarının əsas obyekti müəssisələrdir. Müəssisələr ictimai tələbatı ödəmək və mənfəət əldə etmək məqsədilə məhsul istehsal edən və xidmət göstərən hüquqi şəxslərdir. Əsasən bir neçə əlamətlərinə görə təsnifləşdirilir:

1. İstehsal etdiyi məhsulun təyinatına görə müəssisələr iki yerə: istehsal vasitələri və istehlak məhsulları istehsal edən müəssisələrə ayrılır. Həmçinin müəssisələrin istehsal, xidmət, kiçik, orta və iri növləri olur. Rəqabət fəaliyyəti, mövcud vəziyyət və rəqiblərin tədqiqi marketinq tədqiqatlarının əsasını təşkil edir. Rəqiblərin tədqiqi prosesində rəqib müəssisələrin fəaliyyətinin zəif və güclü tərəfləri, onların satışının həcmi və bazar payı, rəqiblərin məhsulları, məhsulların qiymətləri, satış kanalları, satışın həvəsləndirilməsi, formaları, onların göstərdikləri xidmət növləri, bu xidmətlərin keyfiyyəti və bu qeyd olunanlara istehlakçıların münasibəti və rəqibləri xarakterizə edən digər göstəricilər öyrənilir [1; s. 61]. Həmçinin rəqiblərin tədqiqi vasitəsilə ədalətli rəqabət təmin olunur.

Bazarlar və onların tədqiqi marketinq tədqiqatın ən əsas tədqiqat obyektidir. Bazar anlayışına iqtisadi ədəbiyyatlarda müxtəlif təriflər verilir. Bazar istehsalçılarla istehlakçılar arasında iqtisadi münasibətlərin həyata keçirildiyi iqtisadi məkandır. Bazar mübadilə sferasında daim təkrarlanan alqı-satqı aktlarının məcmusudur və s. Bazarlar əsasən, aşağıdakı əlamətlərinə görə təsnifləşdirilir:

1. Tələb və təklif arasındakı nisbət səviyyəsinə görə bazarlar istehsalçı bazarı və istehlakçı bazarına bölünür. İstehsalçı bazar elə bir bazardır ki, burada hər bir şeyi istehsalçılar diktə edir və formalaşdırır. Bu tip bazarlarda tələbin səviyyəsi çox yüksək, təklif isə olduqca aşağı olur. İstehlakçı bazarında isə hər bir şey istehlakçı arzuları ilə formalaşır. Yəni bu tip bazarda təklifin səviyyəsi çox yüksək, tələbin səviyyəsi isə olduqca aşağı olur. Bazarlar əsasən, malların sahəvi mənsubiyyətinə görə də planlaşdırılır. Bu zaman məhsul bazarı onun aid olduğu mal qrupu ilə adlandırılır.

2. Təsərrüfat münasibətlərinə görə bazarlar əsasən aşağıdakı kimi qruplaşdırılır:

a) Azad bazarlar;
b) Qapalı bazarlar;
c) Tənzimlənmiş bazarlar.

Azad bazarlar dedikdə elə bazarlar nəzərdə tutulur ki, bu tip bazarlarda iqtisadi münasibətlərin həyata keçirilməsi zamanı təsərrüfat subyektləri heç bir maneə il üzləşmirlər.

Qapalı bazarlar dedikdə, səhmdar cəmiyyətlər və onların bazarları, eləcə də şirkətdaxili mal bazarları nəzərdə tutulur.

Tənzimlənmiş bazar isə elə bazardır ki, burada strateji məhsulların qiymələri tərəddüd edir və xüsusi dövlət müdaxiləsi ilə qaydaya salınır. Marketinq tədqiqatları vasitəsilə istehlakçılar, onların davranışları tədqiq edilir və bazar proqnozlaşdırılır. İstehlakçıların tiplərinə görə bazarlar son istehlakçılar bazarına, işgüzar istehlakçılar bazarına, vasitəçilər bazarına və dövlət təşkilatları (institusional istehlakçılar) bazarına bölünür [1; s. 49]. Son istehlakçılar bazarı dedikdə elə bazar nəzərdə tutulur ki, bu bazarda istehlakçılar yalnız şəxsi tələbatlarını ödəmək məqsədilə məhsul alırlar. Alıcı və satıcıların sayının həddindən çox olması və liberal bazar mühiti bu növ bazara xas olan əsas xarakterik cəhətlərdir. İşgüzar istehlakçılar bazarının əsas xarakterik cəhəti odur ki, burada olan istehlakçılar material və xammalı, yarımfabrikatları alıb emal edərək mənfəət əldə etmək istəyirlər. Bu bazarın əsas xüsusiyyəti odur ki, burada tələbatların həcmi çoxdur, istehlakçı qıtlığı yaşanır və istehlakçılar ərazi cəhətdən sıx yerləşmişlər. Vasitəçilər bazarının əsas subyektləri topdan və pərakəndə satış ticarət vasitəçiləridir. Onlar vasitəçilik etmək məqsədilə istehsalçı və istehlakçıları görüşdürür, həmçinin məhsul və xidmətlər əldə edirlər. Alıcıların məhsul almaq imkanlarına görə də bazarlar aşağıdakı kimi fərqləndirilir:

1. Potensial bazar- elə bir bazardır ki, bu bazarda hər hansı bir məhsulun əldə edilməsinə maraq göstərən istehlakçılar olur.

2. Mənimsənilmiş bazar-elə bir bazardır ki, müəyyən bir məhsulu almış istehlakçıların məcmusu bu bazarı təşkil edir. Marketinq tədqiqatlarının təşkilinin əsas prinsipi onun səmərəli təşkilinə istiqamətlənir. Belə ki, marketinq tədqiqatlarının təşkilində iki əsas amili-makro və mikro mühit amillərini nəzərə almaq lazımdır. Marketinq tədqiqatlarının makromühit amillərinə əsasən müəssisədənkənar amillər təsir edir ki, buraya da bazardakı mövcud vəziyyət, ölkədəki iqtisadi və siyasi vəziyyət, maliyyə-kredit sistemindəki dəyişikliklər aid edilir. Marketinq tədqiqatlarının mikromühit amillərinə isə müəssisədaxili amillər aid edilir ki, buraya da reklam və ictimaiyyətlə əlaqələr, ixtisaslı kadrlar aid edilir. Qeyd etmək lazımdır ki, marketinq tədqiqatlarının təşkilində aşağıdakı göstəricilərə əməl edilməlidir:

1. Bu tədqiqatlar məcburi deyil, könüllülük prinsipi əsasında aparılmalıdır;
2. Marketinq tədqiqatları əsasən elmi cəhətdən əsaslandırılmalı və planlaşdırılmalıdır;
3. Bu tədqiqatların təşkili zamanı ədalətli rəqabət prinsipi təmin edilir;
4. Marketinq tədqiqatları etik normalara cavab verməli və istehlakçı mənafeyi, toxunulmazlığı prinsipinə əsaslanmalıdır;
5. Tədqiq olunmuş obyekt haqqında informasiyalar təsərrüfat subyektləri əleyhinə istifadə edilməməli, qərəzli xarakter daşımamalıdır.

Marketinq tədqiqatları tədqiqat obyektinin seçilməsindən asılı olaraq aşağıdakı formalarda olur:

1. Kəşfiyyat (axtarış) tədqiqatı-bu yeni mal və yeni ideyaların axtarışına yönəlmiş tədqiqatdır [2; s. 133].
2. Təsviredici-bu baş verən hadisə və prosesləri başa düşmək üçün aparılan tədqiqatdır [2; s. 133]. Bu tədqiqatın əsas prinsipi istehlak bazarının və onun iştirakçılarının araşdırılması və mövcud vəziyyətin qiymətləndirilməsidir.
3. Təsadüfi ( eksperiment) tədqiqat-bu səbəb- nəticə əlaqələrini aşkar etmək üçün aparılan tədqiqatdır [2; s. 133].

İnformasiyanın toplanması baxımından marketinq tədqiqatları aşağıdakı formalarda olur:

a) Təkrar informasiyaya əsaslanan marketinq tədqiqatları. Təkrar informasiya dedikdə elə informasiya növü nəzərdə tutulur ki, bu informasiya əvvəllər hər hansı bir məqsədlə toplanılıb və ondan başqa bir problemin həllində yenidən istifadə edilir. Marketinq tədqiqatlarının təşkilində ilkin informasiyanın rolu olduqca böyükdür. İlkin informasiya isə sorğu, müşahidə eksperiment, defi fokus qrup və testləşdirmədən istifadə olunur. Marketinq tədqiqatlarının təşkilinin ən əsas

formalarından biri məhsul və xidmət növü haqqında sorğuların keçirilməsidir. Bu metod məhsul və xidmət növü haqqında birbaşa informasiya toplanılmasının ən optimal metodudur. Bu metod vasitəsilə respondentə (istehlakçıya) suallar verməklə onun bilikləri, nəzəri baxışları və nəyə üstünlük verdiyi öyrənilir. Sorğular müxtəlif formalarda təşkil edilə bilər.

1. Birbaşa və dolayı.
2. Açıq və qapalı formada.

Müşahidə metodunda marketinq tədqiqatçısı yalnız istehlakçıların davranışlarını öyrənir.

İstehlakçı qruplarını tədqiq edərkən eyni zamanda bazarın seqmentləşdirilməsi də təyin edilir. Bazarın seqmentləşdirilməsi dedikdə, müxtəlif əlamətlərə görə bazarların qruplaşdırılması nəzərdə tutulur. Bu baxımdan seqmentləşdirmənin əsas forması sosial- iqtisadi seqmentləşdirmədir. İqtisadi seqmentləşdirmə dedikdə ilk növbədə istehlakçılar aşağıdakı formalarda qruplaşdırılır:

1. Ən ali sosial qrup. Bu qrup əsasən elit təbəqəli istehlakçıları və varlı şəxsləri əhatə edir və bazarın 0, 5%-ni təşkil edir.
2. Yuxarı sosial qrup - bu qrupa peşəkar menecerlər və uğur qazanan biznesmenlər aid edilir ki, bu da əhalinin 1, 5%-ni təşkil edir.
3. Orta sosial qrup. Bu qrupa müəssisə rəhbərləri, dövlət qulluqçuları və s. şəxslər aid edilir ki, bu da əhalinin 45%-ni təşkil edir.
4. Aşağı sosial qrup. Bu qrupa elə şəxslər aid edilir ki, onlar da daim yaxşı yaşamağa çalışırlar və əhalinin 25%-ni təşkil edirlər.

Bazarlar seqmentləşdirilərkən istehlakçının psixoqrafik xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Burada əsas problem onların məhsula münasibəti və istehlakçı davranışıdır. İstehlakçı davranışı dedikdə, konkret məhsul və xidmət növünün seçilməsi zamanı əmələ gələn və alış zamanı yaranan situasiyalarda istehlakçıların özlərini aparma mexanizmi başa düşülür.

Bu baxımdan istehlakçılar aşağıdakı kimi qruplaşdırılır:

1. Super novatorlar-bu növ istehlakçılar bazarın tutumunun 2,5%-ni təşkil edir və riskli eksperimentə bu tip istehlakçılar meylli olurlar.
2. Novatorlar. Bu növ istehlakçılar riskə az meylli olsalar da, yüksək təmin olunmuşlar. Bu qrup istehlakçılar bazarın tutumunun 13, 5%-ni təşkil edir.
3. Adi alıcılar. Bu qrup alıcılara kənd əhalisi, gəlirləri olduqca aşağı olan və ictimai həyatda fəal olan şəxslər daxildir. Bu qrup istehlakçılar riskdən qaçırlar və bazarın 34 %-ni təşkil edirlər.
4. Konservatorlar. Bu elə istehlakçılar qrupudur ki, dəyişiklikləri və innovasiyaları bəyənmir, çox ehtiyatlı qərarlar verirlər. Bu tip istehlakçılar da bazarın 34%-ni təşkil edirlər.
5. Superkonservatorlar. Bu tip istehlakçılar da öz adət- ənənələrinə və keçmişlərinə bağlıdırlar.

Marketinq tədqiqatları təşkil edilərkən xüsusi informasiya mənbəyi olan Marketinq İnformasiya Sistemi (MİS) elə bir sistemdir ki, özünə məlumatların toplanması, emalı, çatdırılması, təhlili və qiymətləndirilməsini həyata keçirən insanları və informasiya texnologiyalarını daxil edir. Marketinq informasiya sistemi şirkətin marketinq menecerlərinə və digər menecerlərə xidmət göstərir [3; s. 110]. Marketinq informasiya sisteminin ən üstün cəhətlərindən biri odur ki, o rəqib firmaların fəaliyyətini tam araşdırmağa imkan yaradır. Lakin praktikada elə hallar olur ki, şirkət rəqib firmalar haqqında tam informasiyanı əldə edə bilmir və nəticədə informasiyanın toplanması, emalı və s. ilə bağlı şirkət xərcləri arta bilər. Şirkət rəqib firmaları haqqında informasiya əldə edərkən bazar payını da araşdırmalı və əmin olmalıdır ki, yeni məhsul və xidmət növünü bazara çıxararkən onunla həmcins məhsul və xidməti istehsal edən başqa bir müəssisə olmamalıdır. Həmçinin marketinq informasiya sistemi bazarın proqnozlaşdırılmasında da əhəmiyyətli rol oynayır. Bazarın proqnozlaşdırılması dedikdə, müəyyən dövr üçün bazarın potensial əmtəə və xidmətlərlə dolması və tutumu ehtimalı nəzərdə tutulur.

## Nəticə

Məqalədə deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, daim dəyişən biznes mühiti yalnız marketinq tədqiqatları vasitəsilə tənzimlənməlidir. Bu mühitə uyğunlaşmaq üçün sahibkarlar daim bazarı tədqiq etməli, informasiyaları yeniləşdirməlidirlər. Müəssisə yalnız bu yolla uğurlu istehsal-satış fəaliyyətinə nail olar və bazardakı mövqeyini möhkəmləndirər.

## Ədəbiyyat

1. A.Məmmədov. Marketinqin əsasları. Bakı, 2007.
2. T.Ş.Şükürov, R.S.Şükürov. Marketinq tədqiqatları. Bakı, 2007.
3. Q.Armstronq, F.Kotler. Marketinq: ilk addım.

*Е.М.Мирзоев*

**Роль маркетинговых исследований в исследовании и прогнозировании рынка**

**Резюме**

Обобщая все сказанное в статье, можно прийти к такому выводу, что постоянно меняющиюся бизнес среду должно регулироваться только посредством маркетинговых исследований. Для того чтобы адаптироваться в эту среду предприниматели должны постоянно исследовать рынок, и обновлять информацию. Предприятие только таким способом может достичь удачной прокуводственно- продажной деятельности и укрепить положение на рынке.

***Ключевые слова: маркетинговые исследование, производитель, потребитель, субъекты хозяйства, спрос, предложение.***

*E.M.Mirzoyev*

**The role of marketing researches in predicting and researching of consumer market**

**Summary**

As summarizing above article it can he cocluded that complicated and changeable marketing circumstance should be regulated only through marketing research. Possesors must constantly make researching of market and update information in market circumstance for making optimal decision. Only being based to these researches it will be possible to organize producing-sales activity successfully and achieving success in the market.

***Key words: marketing researches. producer consumer. the subjects of market economy. requiremet. suggest.***

**UOT 330. 341. 1**

***İlqar Akif oğlu MƏNSİMZADƏ***
***Azərbaycan Kooperasiya Universitetinin doktorantı***

# YENİ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN KƏND TƏSƏRRÜFATI ÜÇÜN KADRLARIN HAZIRLANMASINDA ROLU

**Xülasə**

Hazırda İKT-nin sosial-iqtisadi proseslərə təsiri getdikcə daha da artmaqdadır. Bunun nəticəsində kadrların hazırlanması, əmək və məşğulluq prosesində və münasibətlərində ciddi dəyişikliklər baş verir. İKT-nin imkanları iqtisadiyyatın ayrı-ayrı sahələrində, eləcə də kənd təsərrüfatı üzrə kadrların hazırlanması işində kifayət qədər əhəmiyyətli rol oynaya bilər.

***Açar sözlər: informasiya-kommunikasiya texnologiyaları, informasiya cəmiyyəti, təhsilin informasiyalaşdırılması, distant təhsil, distant əmək münasibətləri, aqrar münasibətlər, kənd təsərrüfatı.***

## Giriş

İnformasiya-Kommunikasiya Texnologiyalarının (İKT) təsiri nəticəsində yaranmış yeni iqtisadi forma və proseslər əmək və məşğulluq məsələlərinə yanaşmanın da köklü şəkildə dəyişilməsinə səbəb olmuşdur. Artıq getdikcə tamamilə yeni ixtisas və iş yerləri, həmçinin əvvəllər mövcud olmamış yeni istehsal sahələri meydana çıxır və ənənəvi sahələrin funksiyalarında da dəyişikliklər baş verir. Eyni zamanda, milyonlarla insanların əmək fəaliyyətinin məzmunu və şərtləri dəyişir, mürəkkəb istehsal tapşırıqlarının həlli sürəti artır və idarəetmənin effektliyi yüksəlir.

**Kənd təsərrüfatı və İKT**

Kənd təsərrüfatı-informasiya texnologiyalarının (İT) tətbiq edilməsi üçün ideal şəraitə malikdir. Bu baxımdan, yeni şərtlər daxilində respublikada sahibkarlıq subyektlərinin səmərəli və davamlı istismarı üçün öz daxili resurslarını üzə çıxarmağa qadir olan, xarici investisiyaları cəlb edən qabaqcıl informasiya texnologiyaları tətbiq etmək zəruridir.

Amerika nəşri "Elm və texnologiya göstəriciləri" informasiya texnologiyalarını 3 əsas texnologiyanın kombinasiyası kimi göstərmişdir: rəqəmli hesablamalar, informasiya saxlanması və telekommunikasiya şəbəkələri ilə ədədi siqnalların translyasiyası. İT, adətən, məlumat, mətn, nümunə və səslərin yığılması, saxlanılması, işlənilməsi, ötürülməsi və nümayiş etdirilməsi üçün mikroelektronikanı istifadə edən texnologiyalar kimi göstərilir [1].

İnkişaf etmiş ölkələrin kənd təsərrüfatında İT-nin tətbiqi üçün tez-tez imkan yaranır və bunun üçün mühüm səylər göstərilir. Ən məşhur texnologiyalar kompüter proqramları ilə həyata keçirilir. Bu, ilk növbədə, kənd təsərrüfatında heyvanların yemlənməsinin rasionunu optimallaşdırma proqramları; gübrələrin dozasının hesablanması haqqında; torpaq idarəetməsi haqqında; bitkilərin qidalanma rejiminin və mikroiqlimin tənzimlənməsi; iqtisadi səmərəliliyin qiymətləndirilməsi və s-dir.

Kənd təsərrüfatı istehsalçılarının İT-yə marağının olmaması, adətən, fermerlərin yaşı və təhsil səviyyəsinin aşağı olması ilə izah olunur. Belə hesab olunur ki, İT-nin tətbiq edilməsində narazılıqlara əsas səbəb iqtisadi səbəblərdir. Əsasən, kənd təsərrüfatı məhsullarının yetişdirilməsində adi (standart) texnoloji əməliyyatlardan və gəlir əldə etmək məqsədilə, bitkilərin qorunmasında nisbətən ucuz vasitələrdən istifadə olunur.

Təsərrüfatda İT-nin tətbiq edilməsinin əlamətlərindən biri - kompüterlərin olması və onların internetə qoşulmasıdır. Burada İT əsasən, mühasibat uçotu və kənd təsərrüfatı proseslərinin avtomatlaşdırılması üçün istifadə olunur.

Müxtəlif rabitə sistemləri ilə mübadilə olunan informasiyanın daim artan sürət və həcmi istehsalçıların davamlı təchizatını məlumat bazası ilə təmin edəcək. Bu məlumatlar onların cari vəziyyətləri haqqında faydalı məlumatlar almaq və mümkün həllərin nəticələrini proqnozlaşdırmaq

üçün bioloji və fiziki sistemlərin əsaslarına inteqrasiya olunmalıdır. İnternetdən istifadə vasitəsilə elmi inkişafın tətbiq edilməsi informasiya sistemlərinin funksional imkanlarının genişləndirilməsi üçün vacibdir.

Kənd təsərrüfatının informasiya cəmiyyətində aparılması ölkənin istənilən nöqtəsindən istənilən anda xarici mənbələrdən (xarici internet şəbəkələrindən) arasıkəsilməz informasiya mübadiləsini təklif edir. Məsələn, gün ərzində sinoptiklərin məlumatlarının daimi yenilənməsi fermerləri məlumatlandıracaq. Bu, bitkilərin qorunmasında kimyəvi maddələrin tətbiqinin effektivliyini artıracaq, eləcə də ətraf mühitin çirklənməsinin qarşısını alacaqdır. Hətta fermerlərin bitki xəstəliklərindən xəbərdar olmaları üçün sistemlər də mövcuddur.

Müasir İT vaxtdan və olduqları yerdən asılı olmayaraq fermerlərə məsləhətlər, tövsiyələr almağa şərait yaradır. Fermer öz problemlərini fotoşəkillər və videoyazılar vasitəsilə adi nitqlə təsvir edə bilər. Bu zaman, vaxt və fermerin olduğu yer avtomatik müəyyənləşdirilir. Sonra o, elektron poçt vasitəsilə öz materiallarını müvafiq kənd təsərrüfatı orqanlarına göndərə və az bir zamanda cavab ala bilər və ya internet vasitəsilə bilavasitə dialoq rejimində öz problemini həll edə bilər.

Kənd təsərrüfatı tədqiqatlarında neçə illər ərzində yığılmış biliklər məlumat bazasının yenilənməsi yolu ilə praktiki faydalı informasiya əldə etmək üçün tətbiq edilməlidir. Bu da onu göstərir ki, İT-elmi-tədqiqat işlərinin əvəzedilməz mənbəyidir.

İnformasiya Texnologiyaları (İT) uzun müddət kənd təsərrüfatında qərar qəbul etmənin inkişafı üçün böyük potensial hesab olunurdu. İT dünyaya qlobal bağlanıb və indi bizim həyat tərzimizi və ictimai şüuru dinamik şəkildə dəyişir. Kənd təsərrüfatının bütün sahələrində informasiya texnologiyaları biznesin idarə edilməsində və uğur qazanmasında vacib şərtlərdəndir.

İnformasiya Texnologiyaları ictimaiyyətdə və kənd təsərrüfatında sürətlə özünü göstərməyə başlamışdır. İT bizim informasiyadan necə istifadə etdiyimizə, informasiyanı necə hesabladığımıza və insanlarla necə əlaqələndirdiyimizə istinad edir. İnsanlar kompüter və informasiya texnologiyalarına malik olmalıdırlar. Kənd təsərrüfatı sənayesində iştirak etmək və məlumatlı qərarlar qəbul etmək üçün insan məlumatı toplamaq, yeniləndirmək və manipulyasiya etmək qabiliyyətinə malik olmalıdır.

**İKT-dən istifadə sayəsində kənd təsərrüfatında kadr hazırlığı**

İnformasiya texnologiyalarından yaradıcı istifadə edən insanlar bu gün kənd təsərrüfatında qabaqcıl karyera qura bilirlər. Bugünkü kənd təsərrüfatı işlərində işçi qüvvəsinin daha çox texnoloji biliklərinin olması tələb olunur.

İnformasiya cəmiyyətinin sosial-iqtisadi simasını müəyyən edən amillərdən biri də distant əmək münasibətləridir. Ümumi şəkildə, distant əmək münasibətləri dedikdə, işəgötürənlə işçi arasındakı münasibətlərin zaman və məkan baxımından mərkəzsizləşdirilməsi (desentralizasiyası) başa düşülür [5]. Yəni işçi (icraçı) işəgötürənin (sifarişçinin) tapşırığı əsasında müəyyən işi məsafədən yerinə yetirir. Əslində, distant əməyi xarakterizə edən münasibətlərin müxtəlif formaları əvvəllər də mövcud olub. Lakin müasir İKT vasitələrinin, xüsusən İnternetin meydana gəlməsi və geniş surətdə tətbiqi nəticəsində distant əmək münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, bir sıra sosial-iqtisadi faydalarına görə aktuallıq kəsb etməyə başladı. Müasir şəraitdə distant əmək münasibətlərinin xüsusiyyəti ondan ibarətdir ki, işçi ilə işəgötürən arasındakı münasibətlər-iş tapşırığı, işin yerinə yetirilməsi, işin nəticəsinin təhvil verilməsi İKT vasitələrinin, xüsusən, kompüter şəbəkələrinin və İnternet texnologiyalarının köməyi ilə həyata keçirilir. Başqa sözlə desək, distant əmək münasibətlərinin obyekti kimi kompüter vasitəsilə yerinə yetirilə və İnternet vasitəsilə çatdırıla bilən işlər çıxış edir. Yəni distant əmək münasibətləri şəraitində işəgötürən və işçi bir-birlərindən yüzlərlə kilometr aralıda ola bilər, İnternet isə bu halda işlərin nəticələrini göndərmək üçün vasitəçi rolunu oynayır, işəgötürənlə (sifarişçi ilə) işçi (icraçı) arasındakı pul hesablaşmaları bank, poçt və ya elektron ödəniş vasitəsilə həyata keçirilir. Məsələn, sifarişçi icraçıya elektron poçt vasitəsilə ingilis dilində mətn göndərir, icraçı həmin mətni tərcümə

edib elektron poçtla sifarişçiyə qaytarır və bunun əvəzində qonorar alır.

Müasir İKT vasitələrindən istifadənin və elmi-texniki tərəqqinin kənd təsərrüfatının inkişafında və bu sahə üzrə kadr hazırlığı prosesində müstəsna rolu vardır. Bu isə əsasən, texnika və texnologiyanın təkmilləşdirilməsi, istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, elmi nailiyyətlərin və qabaqcıl təcrübənin istehsala tətbiqi sahəsində baş verir. Elmi-texniki tərəqqi insan amilinin fəallaşdırılmasına, məhsuldar qüvvələrin, xüsusən onun fəal ünsürlərinin inkişafına, cəmiyyətdə iqtisadi və sosial tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsinə, maddi nemətlər bolluğu yaranmasına təminat verən prosesdir. Kənd təsərrüfatında elmi-texniki tərəqqi özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir. Onun ən başlıca xüsusiyyətlərindən biri, torpaqla əlaqədə fəaliyyət göstərməsidir. Yüksək münbit torpaqlarda insan əməyi daha məhsuldar olur, əkin sahələrindən daha çox məhsul götürülür.

Aqrar sahənin qarşısında kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri də durur. Bu isə kənd təsərrüfatında istehsal resurslarından: torpaqdan, maddi-texniki vasitələrdən daha səmərəli istifadə edilməsini, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalda tətbiq olunmasını, istehsal proseslərinin intensivləşdirilməsini və ən önəmlisi isə, bu sahədə yüksək texniki və texnoloji biliklərə malik kadrların hazırlanılmasını və iştirakını təmin etməyi tələb edir. İqtisadi səmərəliliyin əsas göstəricilərindən biri əmək məhsuldarlığıdır. Əmək məhsuldarlığının yüksəldilməsi hesabına orta illik hər bir işçiyə məhsul istehsalı artır, məhsul vahidinə çəkilən istehsal xərcləri azalır və istehlak fonduna ayrılan vəsaitin həcmi çoxalır. Kənd təsərrüfatında istehsal edilən məhsulun maya dəyəri iqtisadi səmərəliliyi əks etdirən əsas göstəricilərdəndir. Bu da məlum həqiqətdir ki, məhsul vahidinin maya dəyəri aşağı salındıqda təsərrüfatların xalis gəliri artır, istehsalın rentabellik səviyyəsi yüksəlir.

İT dəqiq kənd təsərrüfatında gübrələr və pertisidlər üçün tətbiq edilən kompüterləşdirilmiş təsərrüfat maşını kimi yeni metodları dəstəkləyir. Təsərrüfat heyvanları elektron sensorlar və identifikasiya sistemləri ilə qidalandırılır və nəzarət edilir. Onlayn alış-veriş bütün dünyada məşhurlaşıb. Lakin burada ən mühüm rolu rabitə oynayır ki, bunu da internet bizə əlaqə yaratmağa ideal imkan yaradır.

Aşağıdakılar informasiya texnologiyalarının kənd təsərrüfatında kadr hazırlığında tətbiq edilən xüsusi yollarıdır:

- Sadə internet proqramları;
- PowerPoint Prezentasiyalar;
- Global Position-ing Systems (GPS);
- E-Ticarət.

Müasir zamanda informasiya qıtlığı fermerlər üçün böyük zərərə səbəb olur. Bu boşluğu informasiya texnologiyaları doldura bilər. Kənd təsərrüfatının bütün sahələrində tələb olunan informasiya səmərəliliyin artmasında yüksək potensiala malikdir.

İnformasiya texnologiyaları sürətlə genişlənir və insanın həyat fəaliyyətində bütün sahələri əhatə edir.

Kənd təsərrüfatı universitetləri nəinki yeni İT-dən istifadə edən tələbələr hazırlamalı, həm də fermerlərə internetin müxtəlif sahələrindən istifadə etməyə kömək göstərməlidirlər.

Hazırda müasir İKT vasitələrinin təsir dairəsi onların meydana gəldiyi ölkələrin milli sərhədlərini sürətlə aşaraq dünyanın bütün regionlarını əhatə edir. Həm də bu təsir cəmiyyət həyatının bütün sahələrində özünü qabarıq şəkildə göstərməkdədir. Artıq bəşəriyyət İKT-nin insanın həyat və fəaliyyətinin bütün sferalarına dərindən nüfuz etməsi, informasiya və biliklərin strateji resursa çevrilməsi ilə xarakterizə olunan yeni bir mərhələyə - informasiya cəmiyyətinə qədəm qoymuşdur. İnformasiya cəmiyyətinin qurulması problemlərinə həsr olunmuş Ümumdünya Sammitində (Tunis, 2005) milli inkişaf naminə bütün sahələrdə, o cümlədən də təhsildə İKT-nin imkanlarından istifadəyə dair tövsiyələr irəli sürülmüşdür. Planetar təfəkkürə malik, dünyada ən mütərəqqi ideya

və bilikləri dərk etməyə və həyata keçirməyə qadir olan vətəndaşların yetişdirilməsinə nail olmaq üçün "hamı üçün təhsil", "ömür boyu təhsil" konsepsiyaları YUNESKO tərəfindən XXI əsrin təhsilinin əsas prinsipləri elan edilmişdir [2].

İnformasiya cəmiyyətində biliklər iqtisadiyyatı və təhsil sistemi arasında sıx əlaqə var. Belə ki, biliklər iqtisadiyyatına gedən yol təhsildən keçir. İnformasiya həcminin və texnologiyaların sürətli artımı təhsilin məzmun və texnoloji baxımdan daim təkmilləşdirilməsini tələb edir. Bu sahədə problemləri müzakirə etmək üçün 2009-cu ildə YUNESKO Paris şəhərində "Ali təhsilə dair ümumdünya konfransı" (WCHE-2009) təşkil etmişdir. Konfransın əsas nəticələri İKT-nin tətbiqi ilə rəqabətqabiliyyətli əmsal uçurumun ləğvi, təhsilin keyfiyyətinin yüksəldilməsi, əlyetərliyin təmin edilməsi kimi tövsiyələrin verilməsidir. Konfransda XXI əsrdə ali təhsil üzrə aşağıdakı qlobal meyllərin olduğu qeyd edildi:

- Təhsilin qloballaşması və beynəlmiləlləşməsi;
- Tələbələrin sayının sürətlə artması nəticəsində ali təhsilin kütləviləşməsi;
- Biliklərə əsaslanan iqtisadiyyatın inkişafı ilə əlaqədar ali təhsilə ehtiyacın kəskin artması;
- Biliklərə əsaslanan cəmiyyətin formalaşması zərurəti;
- Universitetlərin cəmiyyətdə rolunun yüksəlməsi;
- Müasir şəraitə uyğun yeni tip ali təhsil müəssisələrinin yaranma zərurəti.

İnformasiya cəmiyyətində İKT-nin verdiyi imkanlar əsasında təhsilin planlaşdırılması və reallaşdırılması əhatəsi dəyişir. İKT-nin sürətli inkişafı təhsilin qloballaşmasına real imkan yaradır. Bu gün İKT vasitəsilə istənilən zamanda və məkanda, istənilən formada təhsil almaq mümkündür. Bu gün təhsilin müasir texnologiyalara olan tələbatı artır, təhsil modelləri, təhsil prosesi iştirakçılarının rolları tədricən dəyişir. Tədqiqatlar sübut edir ki, təhsildə İKT-nin səmərəli tətbiqi təhsilin keyfiyyətini 80%-dək yüksəldə bilər [3, s. 31].

***Azərbaycanda İKT-nin inkişafı və kənd təsərrüfatı üzrə kadrların hazırlanması***

Son illərdə ölkəmizdə informasiya cəmiyyətinin bərqərar olması və bunun tərkib hissəsi kimi İKT-nin geniş tətbiq edilməsi istiqamətində sistemli fəaliyyət aparılır. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)", bu Strategiyanın icrasının ilkin mərhələsini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 21 oktyabr tarixli 1055 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" (Elektron Azərbaycan)" və həyata keçirilən genişmiqyaslı işlər qeyd edilə bilər. Hal-hazırda respublikada İKT sektorunun inkişaf tempi bu sahədə ümumdünya göstəricilərini təxminən üç dəfə qabaqlayır. Dünya İqtisadi Forumu tərəfindən 2008-2009-cu illər üçün hazırlanmış "İnformasiya texnologiyalarının qlobal inkişafı haqqında hesabat"da Azərbaycan 134 ölkə sırasında 60-cı yeri tutmaqla, bir çox nüfuzlu ölkələri qabaqlamışdır və MDB-nin iştirakçısı olan dövlətlər arasında lider olmuşdur [4].

2003-cü ildə qəbul edilmiş "Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)" sənədində hazırkı dövrdə Azərbaycan üçün məhz təhsil sahəsi İKT-nin tətbiq istiqamətləri içərisində ən yüksək prioritetə malik istiqamət hesab edilmişdir. Artıq Azərbaycanda təhsilin modernləşdirilməsi, təhsildə informasiya texnologiyalarının tətbiqi istiqamətində ilkin addımlar atılıb. Azərbaycan hökuməti və bir sıra beynəlxalq qurumlar tərəfindən təhsil sisteminin yenidən qurulması istiqamətində müəyyən proqramlar və layihələr gerçəkləşdirilməkdədir. İKT-nin təhsildə tətbiqi üzrə bir sıra nəzəri məsələlər araşdırılıb və həm müsbət, həm də mənfi tərəflər ortaya çıxarılıb.

Azərbaycanda aqrar sahədə təhsilin tarixinə qısa nəzər yetirək:

Azərbaycanda kənd təsərrüfatı təhsilinin təşkili fikri hələ XIX əsrin sonlarında meydana gəlmişdi. Bu mütərəqqi ideya ilk öncə məşhur "Əkinçi" qəzetinin yaradıcısı Həsən bəy Zərdabi-

dən gəlmişdir. Onun “Torpaq, su və hava”, “Barama qurdunun saxlanması” adlı əsərləri xüsusi maraqla qarşılandı. Bu təsirlər altında Nəcəf bəy Vəzirov o zaman Moskvada Petrovsk-Razumovski adına Meşə Təsərrüfatı Akademiyasını bitirərək kənd təsərrüfatı üzrə ilk diplomlu mütəxəssis kimi doğma yurduna qayıtdı.

1918-ci ilin may ayında Şərqdə ilk müstəqil müsəlman respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən kənd təsərrüfatının inkişafına, ölkənin aqrar bölümü üçün mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirilirdi.

1920-ci il dekabrın 14-də Bakı şəhərində Azərbaycan Politexnik İnstitutunun nəzdində kənd təsərrüfatı fakültəsi yaradılmaqla Azərbaycanda ali kənd təsərrüfatı təhsili üzrə mütəxəssis hazırlığına başlanılmışdır. 1920-ci il dekabrın 16-da fakültənin Elmi Şurasının ilk yığıncağı keçirilir. Dekabrın 18-də Elmi Şuranın növbədənkənar yığıncağında fakültə dekanları, digər bölmə rəhbərləri təyin edilir. 1921-ci ilin yanvarında fakültəyə ilk dəfə cəmi 24 nəfər qəbul edilmiş, yanvarın 2-də fakültədə ilk zənglə birinci dərs başlanılmışdır. 1921-ci ilin sentyabrında fakültəyə 78 nəfər tələbə qəbul edilmişdir. Fakültənin nəzdində botanika, zoologiya, kənd təsərrüfatı maşınları, kənd təsərrüfatı heyvanlarının anatomiyası və fiziologiyası, meteorologiya, torpaqşünaslıq və ümumi əkinçilik kafedraları yaradılmışdı. 1922-ci ilin əvvəllərində Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə fakültəyə tədris-təcrübə təsərrüfatı yaratmaq üçün Qusarda keçmiş Bakı gimnaziyasının tərkibində 4 hektar əkin yeri ayrılır. Bu torpaqların təcrübə və elmi işlərin aparılması üçün çox da yararlı olmaması, həmçinin burada lazımi şəraitin yaradılmaması tədris-təcrübə təsərrüfatının ləğvinə səbəb olur. Amma, 1925-ci ildə Azərbaycan SSR Xalq Torpaq Komissariatı yeni təsərrüfat üçün keçmiş Göyçay qəzasında 2 min hektardan ibarət bir sahə (Ərəb Mehdibəy sahəsi) ayırır [6].

Hazırda respublikamızda aqrar sahədə ixtisaslı kadrların hazırlanması sahəsində aparıcı təhsil müəssisəsi Azərbaycan Dövlət Aqrar Universitetidir (ADAU).

Eyni zamanda, respublikamızda aqrar sahənin iqtisadiyyatının öyrənilməsi vəzifəsini də Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu yerinə yetirir.

Bundan başqa, kənd təsərrüfatı sahəsində Aqrar Elm Mərkəzi və ona daxil olan ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən institutlar həm aqrar sahədə elmi tədqiqatlar, həmçinin mütəxəssislərin hazırlanması prosesində müstəsna rol oynayırlar.

Qeyd edək ki, cəmiyyətin informasiyalaşdırılması kimi qlobal proseslər nəticəsində yeni informasiya mühiti yaranır. Müasir insanın fəaliyyəti informasiya mühitində formalaşır. Bu mənada, təhsilin məzmunu, texnologiyaları, təşkili və idarə edilməsi metodları, kadr hazırlığı prosesinə müasir dövrün ehtiyaclarına və tələbatlarına uyğun yenidən baxılmalıdır. Çünki təhsilin informasiyalaşdırılması kimi qlobal əhəmiyyətli, mürəkkəb texnoloji problemin həlli təşkilati, texniki, elmi-metodik, layihələndirmə, kadr, maliyyə və s. kimi məsələlərin kompleks həllini tələb edir.

## Ədəbiyyat

1. http://www.nifu.no/English/Documents/Statistics/
2. Towards Knowledge Societies. UNESCO World Report, 2005 (www.unesco.org/new/en/communication-and-information/resources/publications-and-communication-materials)
3. Əhmədov İ. Ali təhsilin İKT əsaslı innovativ inkişafı. Elm və İnnovasiya, №3, 2010, s.31.
4. http://www.president.az/articles/564
5. Mahmudova R.Ş. Distant əmək münasibətləri: beynəlxalq təcrübə və Azərbaycanda tətbiq edilməsi perspektivləri. İnformasiya Cəmiyyəti Problemləri, №1, 2010, s.56
6. http://www.adau.edu.az/view.

***И.А.Мансимзаде***
***Докторант Азербайджанского***
***Университета Кооперации***

**Роль использования новых информационных технологий в подготовке кадров в области сельского хозяйства**

**Резюме**

В настоящее время все больше растет влияние ИКТ на социально-экономические процессы. В результате этого происходят значительные изменения в процессе подготовки кадров, трудовых отношений и занятости. Возможности ИКТ могут играть достаточно значимую роль при подготовке кадров для разных сфер экономики, а также в области сельского хозяйства.

***Ключевые слова: информационные коммуникационные технологии, информационное общество, информатизация образования, дистанционное обучение, дистанционные трудовые отношения, сельское хозяйство.***

***I.A.Mansimzadeh***
***Azerbaijan Cooperation University***

**The role of the usage of information technologies in the personnel preparation for the agriculture**

**Summary**

Nowadays the influence of ICT to the social-economical processes is getting increased day by day. As a result of it great changes have taken place in the personnel preparation, in the preparation of business processes and relations. Quite an important role of possibilities of ICT on different economical spheres, as well as in the personnel preparation for the agriculture are substantiated in this article.

***Key words: information and communication technologies, information society, the act of the informatization of education, distant education, distant business relations, agricultural affairs, agriculture.***

**UOT 330. 341**

***Mirağa ƏHMƏDOV***
***Azərbaycan Dövlət İqtisad Universiteti, dosent***

# AZƏRBAYCANDA DAŞINMAZ ƏMLAK BAZARININ FORMALAŞMASI VƏ TƏNZİMLƏNMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ MƏSƏLƏLƏRİ

**Xülasə**

Məqalədə Azərbaycanda daşınmaz əmlak bazarının inkişaf mərhələləri tədqiq olunur, daşınmaz əmlak bazarında mövcud vəziyyət qiymətləndirilir, daşınmaz əmlak bazarını xarakterizə edən əsas göstəricilər təhlil olunur, daşınmaz əmlak bazarında risklər və onları müəyyən edən amillər aşkara çıxarılır, daşınmaz əmlak bazarının tənzimlənməsi istiqamətləri əsaslandırılır.

***Açar sözlər: daşınmaz əmlak bazarı, likvidlik əmsalı, ekspozisiya müddəti, əmlakın gəlirliliyi, risklər.***

## Giriş

Milli miqyasda iqtisadiyyatın effektiv fəaliyyətinin ayrılmaz şərtlərindən biri daşınmaz əmlak bazarının yüksək inkişaf səviyyəsi sayılır. İnkişaf etmiş daşınmaz əmlak sferasının mövcudluğu xeyli dərəcədə bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin yəni iqtisadi agentlərin təsərrüfat fəaliyyətinin fərdi ayrılığının və azadlığının reallaşmasına, eləcə də cəmiyyətin məhsuldar qüvvələrinin mövcudluğu və təkrar istehsalı üçün əlverişli şəraitin yaradılmasına kömək edir.

Müasir mərhələdə daşınmaz əmlak bazarının qurulması və inkişafının nisbətən uzun olmayan tarixi xeyli dərəcədə onun kifayət qədər öyrənilməsini və onun tənzimlənməsinə adekvat (effektiv) yanaşmaların faktiki şəkildə mövcud olmadığını şərtləndirir. Daşınmaz əmlak bazarı əsasən bazar iqtisadiyyatına keçid dövründə formalaşmağa başlamış və daha dinamik, bir qədər də kortəbii inkişaf tapmışdır. Daşınmaz əmlak bazarının cari vəziyyətinin təhlili mümkünlüyünü, onun inkişaf meyllərinin, dövlət tənzimlənməsinin daha effektiv istiqamətlərinin öyrənilməsini apardığımız hazırkı tədqiqatın çox mühüm şərti hesab edirik. Bundan başqa, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına daha böyük inteqrasiyası milli daşınmaz əmlak bazarının inkişafına əhəmiyyətli təsir göstərir. Belə vəziyyət də xeyli dərəcədə daşınmaz əmlak bazarının və onun inkişafına dövlətin təsirinin mövcud meyllərinin tədqiqini zəruri edir.

## 1. Azərbaycanda daşınmaz əmlak bazarının inkişaf meyilləri.

Daşınmaz əmlak bazarı və onun inkişaf səviyyəsi milli iqtisadiyyatın inkişaf səviyyəsini əks etdirir. Azərbaycanda daşınmaz əmlak bazarının inkişafını aşağıdakı mərhələlərə bölmək mümkündür:

1.1993-cü ildə vətəndaşların şəxsi istifadəsində olan mənzillərin özəlləşdirilməsinə start verildi və bununla da daşınmaz əmlak bazarının fəaliyyəti başlandı. Lakin bazarı tənzimləyən qanunların olmadığından, ilk illərdə bazarda vakuum olduğundan qiymətlər tez bir zaman kəsiyində yuxarıya doğru əyri xətlə qalxdı. Bu zaman bazarda daşınmaz əmlakla aparılan əməliyyatlardan gəlir göstəricisi çox yuxarı həddə çatdı. Məhz həmin illərdə bazara peşəkar bazar iştirakçılarının gəlməsi başlandı. Bazar yeni formalaşır, satıcılar az, mənzil almaq istəyənlər isə çox idi.

2. Növbəti mərhələdə bazarı tənzimləyən yeni qanunvericilik sənədləri işlənilir, bazarda banklar və sığorta təşkilatları, qiymətləndiricilər və s. bazar iştirakçıları fəaliyyətə başlayır və özlərinin xidmətlərini təklif edirdilər. Qiymətlər isə artmaqda davam edirdi.

3. Dünya neft bazarında tənəzzül başlayır, neftə qoyulan qiymətlər bir sıra layihələri perspektivsiz etdiyindən, xarici şirkətlərin bir çoxu ölkəni tərk edir. Nəticədə bazarda mənzilə tələb azalır, buna uyğun isə qiymətlərdə 2 dəfəyə yaxın azalma baş verir.

4. 1999-cu ilin birinci yarısından bazarda sabitləşmə müşahidə edilir, qiymətlər normallaşır, paytaxtın ilkin daşınmaz əmlak bazarı istehlakçılara ilk təkliflərini edir. Ölkə iqtisadiyyatında can-

lanmalar müşahidə edilir, inflyasiya tamamilə durdurulur, manatın devalvasiyası müşahidə edilir, yerli investorlar artıq ölkə iqtisadiyyatına investisiya yatırımı etməyə cəsarət edirlər.

5. Daşınmaz əmlak bazarı özünün tənəzzül mərhələsindən stabilləşmə mərhələsinə qədəm qoydu. İlk çoxmənzilli yaşayış binalarının tikintisi əhali üçün bir qədər cazibədar görünürdü.

6. 2002-ci ildən ilk dəfə ölkənin daşınmaz əmlak bazarında sıçrayışlı canlanma müşahidə edilir. Ölkənin iqtisadi artımına uyğun bazarda daşınmaz əmlaka tələb formalaşır, dünya neft birjalarından gələn ölkə üçün sərfəli xəbərlər daxili bazarı investorlar üçün cazibədar edir. Digər tərəfdən də hökumət bazarda apardığı liberal siyasətilə tikintiyə geniş meydan açır. Beləliklə, daşınmaz əmlak bazarı iqtisadiyyatın digər sektorlarını tam qabaqlayan vertikal inkişaf mərhələsinə qədəm qoyur. Lakin, bazarda naşı iştirakçıların çoxluğundan risklər günü-gündən böyüyür və dövlətin üzərinə düşən tənzimləyici və qoruyucu funksiyasını yerinə yetirməyin zəruriliyi daha da artır.

**2. Daşınmaz əmlak bazarında mövcud vəziyyətin qiymətləndirilməsi.**

1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalansa da, real işlər 1995-ci ilin martından, yəni Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranmasından sonra başlandı. Belə ki, ilkin neft layihəsi 1997-ci ilin ortalarında baş tutdu və həmin vaxt ABƏŞ-də əmək haqqı 300 ABŞ dolları ətrafında idi. Həmin dövrdə insanlar 50 dollar əmək haqqı alırdı. İlkin neftin çıxarılması ilə paralel tikinti layihələri davam edirdi. 1995-ci ildən 1998-ci ilə qədər layihələrin cəmi 1,5 milyard dollar qiyməti var idi. Bu vəsaitin real olaraq təxminən 30 faizi, yəni 500 milyon dolları Azərbaycanda xərclənmişdi. Bu müddətdə 3 min nəfərin işlədiyi layihələr 1998-ci ildə başa çatdı və həmin işçilərin 1500 nəfəri işdən getdi. Tədqiqatlar göstərir ki, məhz həmin dövrdə təxminən bir il sonra daşınmaz əmlak bazarında da durğunluq yarandı. Yəni, neft layihələrindən əldə olunan vəsaitlər birbaşa olaraq daşınmaz əmlak bazarına təsir edirdi və 1996-cı ildən başlayan qiymət artımı artıq 1999-cu ildə başa çatdı və bu durğunluq 2-3 il davam etdi. Məhz bu proses daşınmaz əmlak bazarına ətalətlə təsir göstərdi, yəni təxminən 1 ildən sonra özünü göstərdi.

2003-cü ilə qədər Azərbaycanda heç bir neft layihəsi həyata keçirilmədi. Baxmayaraq ki, 1999-cu ilin 18 noyabrında BTC layihəsi imzalanmışdı, ancaq kreditlərin ayrılması ilə əlaqədar olaraq real işlərə 2003-cü ilin aprel ayında başlanıldı. Həmin layihə ilə əlaqədar kəmərin keçəcəyi xətt boyunca 14,1 milyard dollar kompensasiya məsələsi başladı və 2006-cı ilin sonuna qədər «bp» şirkətinin operatoru olduğu layihələr üzrə 8 min nəfər işə cəlb olundu. Şirkətin özünün ştatı isə artıq 2 min nəfər olmuşdu. Azərbaycanda həmin vaxt investisiya həcmi artıq 10 milyard dolları keçdi. Belə bir faktı qeyd edək ki, 2002-ci ildə Parlament prospektində 19 min dollara alınan 3 otaqlı mənzilin qiyməti 2003-cü ilin ortasında artıq 40 min dolları keçmişdi. Qiymət artımına təsir edən faktorlardan biri də o idi ki, Azərbaycanın neft sektorunda və köməkçi sahələrdə işləyən əcnəbilərin sayı 5 min nəfərdən artıq idi. Bu işçilərin də evlə təminatı mühüm məsələlərdən idi. Xüsusən, «bp» şirkətinin də mənzillərlə bağlı xüsusi tələbləri var idi. Onların «Rövşən-Oğuz» şirkəti ilə müqavilələri var idi ki, mənzil icarələndikdən sonra təmir olunur, elektrik, yanğın, qaz təhlükəsizliyi tədbirləri icra olunurdu. Bu dövrlərdə həm kirayə qiymətləri, həm də evlərin qiyməti artırdı. Artıq 2003-cü ildən sonra Bakıda evlərin qiymətinin sıçrayışlı artımı başladı. Çünki həmin dövrdən etibarən BTC layihəsi üzrə insanlara birbaşa 14,1 milyon dollar kompensasiya ödənildi. Həmin kompensasiya da artıq əldə idi. Kompensasiya alan insanlarla aparılan sorğular zamanı onların 80 faizi bildirdi ki, ələ aldıqları pulu daşınmaz əmlaka yatırıblar. Bir qismi maşın almışdı, bir qismi toy eləmişdi və s. Azərbaycanda bütün kompensasiya alanlardan cəmi 5-6 nəfəri vəsaiti biznesə yatırmışdı. Məhz bu pullar nəinki Bakıda, hətta regionların daşınmaz əmlak bazarında qiymətləri daha da artırırdı. Həmin vaxt adi mişar daşının qiyməti beş dəfə artmışdı.

Doğrudur, 2003-cü ildən sıçrayışlı artım 2008-ci ilin sonuna qədər davam etdi. Baxmayaraq ki, 2006-cı ildə layihələr üzrə işlər yekunlaşdı və 10 min insan müxtəlif işlərdən məhrum oldu. Artıq 2009-cu ilə "bp" şirkətinin ştatlı işçiləri 1889 nəfər oldu. 2006-cı ildən etibarən tədricən əcnəbi işçilərin sayı da azaldı, 70-ə yaxın menecer azərbaycanlılarla əvəzləndi. Hətta "bp"ni kirayə ev-

lərlə təmin edən yerli şirkətlərlə müqavilələr dayandırıldı və s. Maraqlıdır ki, 2006-cı ildə neft layihələri başa çatsa da, nə üçün sonrakı 2 il ərzində qiymət düşmədi? Bildiyimiz kimi, neftdən gələn gəlirlər Dövlət Neft Fondunda toplanır və həmin vəsaitin bir hissəsi büdcəyə transfer edilir. 2006-cı ildən neftin qiymətinin yüksək sürətlə qalxması nəticəsində artıq milyardlarla, yəni təqribən 3 milyard dollar vəsait büdcəyə daxil olurdu və onun yarısı müxtəlif layihələrə ayrılırdı. Bu layihələrə sərf olunan vəsait nəticəsində daxili investisiya həcmi xarici investisiyanı üstələdi. Artıq xarici investisiya çox cüzi bir hissədir. Daxili investisiya da, demək olar ki, ancaq tikinti layihələrinə sərf olundu.

Tikinti layihələri, həmçinin insanların öz vəsaitlərini əmtəə şəklində daşınmaz əmlak bazarına yatıraraq biznes qurmaları bu bazarda qiymətlərin 2 il ərzində yüksələn xətlə getməsinə səbəb oldu. Həmin dövrlərdə bir qədər pulu olan şəxslər şəhərin müxtəlif yerlərində evlərin alınıb, satılması ilə ciddi şəkildə məşğul idi. Qərb ölkələrində mövcud olan müxtəlif birja oyunları, qiymətli kağızlar bazarı Azərbaycanda olmadığından insanların pul qazanmaq üçün yeganə mənbəyi əmtəə bazarı idi. Bu da ən çox özünü daşınmaz əmlak bazarında büruzə verirdi. Məhz bu səbəblər təsir göstərdi və həmin yuxarıda qeyd etdiyimiz ətalət prinsipi yalnız 2009-cu ildə özünü biruzə verdi.

**3. Daşınmaz əmlak bazarını xarakterizə edən əsas göstəricilərin tədqiqi.**

Daşınmaz əmlak bazarının əsas əlamətlərindən biri onun əməliyyat xərclərinin yüksək olmasıdır. Bu əməliyyat xərclərinin miqdarı əsasən də bazardakı məlumat bolluğundan, hazırdakı iştirakçıların sayından, əməliyyat şəraitindən, qoyulan vergidən, qeydiyyat üçün əlavə toplanan sənədlərin və instansiyaların sayından və s. asılıdır. Bütün bu əlavə xərcləri aşağıdakı kimi qruplaşdırmaq olar:

-məlumatın yığılması;
- danışıqların aparılması və müqavilənin bağlanması;
- əməliyyat predmetinin qiymətləndirilməsi;
- hüquqi sənədlərin araşdırılması və dövlət qeydiyyatı;
- rieltor xidmət xərcləri.

Daşınmaz əmlakın alqı-satqı prosesini izləsək aşağıdakı siyahı alınar:

- obyektin axtarılması;
- obyektin texniki və hüquqi məlumatlarının alınması;
- əldə olunan məlumatların yoxlanılması;
- ilkin danışıqların aparılması;
- müqavilənin bağlanması;
- obyektin dəyərinin ödənilməsi;
- dövlət qeydiyyatı;
- məsləhət və vasitəçilik xidmətlərinin ödənilməsi;
- obyektin təhvil-təslimi.

Bakı şəhərində aparılan araşdırmalar onu göstərir ki, obyektin alqı-satqısı vaxtı bütün bu sadalanan əlavə xidməti sahələrə xərclənən pul vəsaiti ümumi obyektin alqı-satqı qiymətinin 2,5%-ni təşkil edir.

Əgər konkret olaraq hər xidmət sahəsi üzrə xərcləri ayrı-ayrı göstərsək, Bakı şəhəri üzrə aşağıdakı rəqəmlər alınar:

- obyektin axtarılması xərci-0,02%;
- sənədlərin hazırlanması və müqavilənin bağlanması xərci - 0,1%;
- vasitəçilərin xərci - 2% (alıcı - %-i; satıcı -%-i);
- dövlət qeydiyyatı xərci - 0,01%.

Əlbəttə, hər bir satıcı və yaxud alıcı bribaşa özü hər hansı bir vasitəçisiz bu işlərlə məşğul ola bilər. Lakin, onun bu halda risk dərəcəsi, xərcləri və vaxtı bütün bu işlərin görülməsinə daha çox gedəcək, nəinki mütəxəssisin xidmətindən istifadə etsə.

Daşınmaz əmlakın transaksiya xərclərinin çoxluğu daşınmaz əmlak üçün müəyyən qədər likvidlik problemi də yaradır (digər aktivlərlə müqayisədə daşınmaz əmlakın realizəsinə daha çox vaxt və vəsait tələb olunur). Likvidlik daşınmaz əmlakın nağd pula çevrilməsi sürətini əks etdirən göstərici olmaqla yanaşı, şəxsin (fiziki və ya hüquqi) öz öhdəliklərini bağlamaq imkanı və əmlakın özünün dəyərini saxlamaq imkanının göstəricisidir. Bütün bunlarla yanaşı bu gün bu göstərici həmçinin bazarın aktivliyini müəyyən edən amillərdən sayılır [1, s. 339-340].

Son illər (2003-2010) ərzində respublikanın digər aktiv şəhərlərindən fərqli olaraq Bakı şəhərində əmlakın likvidlik əmsalı daha yüksək olmuş və bu göstərici hətta bir sıra digər inkişaf etməkdə olan və inkişaf etmiş paytaxt şəhərlərinin müvafiq göstəricilərini arxada qoymuşdur. Əgər dünya daşınmaz əmlak praktikasında əmlakın realizə müddəti 2-4 ay normal sayılırsa, Bakı şəhərində bu göstəricilər aşağıdakı şəkildə dəyişmişdir (cədvəl 1):

***Cədvəl 1***

***Bakı şəhərinin daşınmaz əmlak bazarı üzrə göstəricilərin inkişaf dinamikası***

| | 1999 | 2005 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|
| 1. Daşınmaz əmlak bazarında likvidlik əmsalı | 0,53 | 0,69 | 0,78 | 0,81 | 0,84 |
| 2. Daşınmaz əmlak bazarında ekspozisiya müddəti, gün | 52 | 36 | 33 | 30 | 28 |
| 3.Əmlakın gəlirliliyi, % | 1,27 | 1,15 | 0,95 | 0,93 | 0,78 |

Paytaxtda əmlakın satış müddəti qısa olsa da (əmlakın satış qiyməti bazar qiymətlərini real əks etdirdiyi halda göstərilən və ya daha qısa müddətə satılıb, qiymətlər reallığı əks etdirmədiyi halda isə əmlak bazarda aylarla satışda qalır), regionlarda bu müddət daha uzun olmuş (likvidlik əmsalı aşağı olmuş), lakin zaman keçdikcə bu göstərici dinamik olaraq artmışdır. (əmlakın likvid günlərinin monitorinqi 10 rayon və 3 şəhər üzrə aparılıb): Qeyri-yaşayış sahələri üzrə isə əmlakın ekspozisiya müddəti yaşayış sahələrinin ekspozisiya müddətindən illər üzrə 1,4-1,7 dəfə artıq olmuşdur. Mütəxəssislər bu müddətin nisbi çoxluğunu da bazarda əmlakın daha baha olması, alıcıların isə nisbətən az olması ilə izah edirlər.

**4. Daşınmaz əmlak bazarında risklər və onları müəyyən edən amillər.**

Aparılan hər bir əməliyyatın və yaxud layihənin real nəticəsinin planlaşdırılan nəticədən mənfi tərəfə enmə ehtimalı risk kimi başa düşülür. Daşınmaz əmlak bazarında dövr edən əmlakın mürəkkəb tərkibi baxımından risk xüsusi əhəmiyyət kəsb edir və bu riskin səviyyəsi əmlakı idarəetmə qabiliyyətindən çox asılıdır.

Öz xüsusiyyətlərinə görə risklərin aşağıda göstərilən mümkün formaları var [2, s. 11]:

• hüquqi-mülkiyyət hüququnun itirilməsi, sənədləşmədən sonra ortaya çıxan problemlər və s.;

• texnoloji-konstruktiv səhvlər, tikinti materiallarının düzgün seçilməməsi, binanın yerləşdiyi ərazinin problemləri və s.;

• inzibati-vergi siyasətinin və dərəcəsinin dəyişməsi, yeni tələblərin ortaya çıxması və s.;

• iqtisadi-bazardakı tələb və təklifin düzgün qiymətləndirilməməsi, rayonun və yaxud ərazinin iqtisadi inkişaf proqnozunun düzgün verilməməsi, rəqabət mühitinin düzgün qiymətləndirilməməsi və s.;

• maliyyə-kredit mənbəyinin, onun qaytarılma müddətinin, partnyorun düzgün seçilməməsi və s.

Respublikada əmlak bazarının formalaşması təcrübəsi göstərir ki, alqı-satqı əməliyyatında hüquqi təhlilin aşağı səviyyəsi və bu zaman hər hansı 3-cü şəxsin bu daşınmaz əmlakın alqı-satqı əməliyyatına mümkün iddiası barədə məlumatın, demək olar ki, olmaması sonrakı məhkəmə çəkişmələrinə səbəb olur. Ona görə də hüquqi araşdırmaların aparılması, əmlakla aparılan əməliyyatın və əmlakın sığortası bu risklərin dərəcəsini minimuma endirir.

Əmlakla aparılan əməliyyatların sığortalanma ənənəsi Azərbaycanda hələ də formalaşmasa da, əmlakın sığortalanması ənənəsi artıq bazarın mexanizmlərindən birinə çevrilməkdədir. Son illərdə

əmlakın sığorta təşkilatları tərəfindən sığortalanma dinamikası tədricən bu bazarın formalaşmasından xəbər verir.

Texniki risklər adətən, daşınmaz əmlakın texniki ekspert zəifliyi və yerləşdiyi ərazinin, torpağın və binanın özülündəki çatışmazlıqlar ilə əlaqədardır. Bəzən isə hər hansı mənzil sahiblərinin özbaşına mənzildə apardığı rekonstruksiya işləri risk dərəcəsini xeyli artırır.

Paytaxt və regionlarda aparılan müşahidələr onu göstərir ki, sakinlər tərəfindən ən çox binaların xarici konstruksiyalarında dəyişikliklər (əlavə eyvanların çıxarılması və ya genişləndirilməsi, binanın damında əlavə mərtəbənin tikilməsi və s.) Sumqayıt və Bakı şəhərləri sakinləri tərəfindən aparılıb. Binadaxili və ya mənzildaxili rekonstruksiya işləri üzrə isə Bakı şəhəri şəriksiz liderdir.

Çoxmənzilli yaşayış binalarının l-ci mərtəbəsi və zirzəmilərinin rekonstruksiyası isə daşınmaz əmlak bazarının təhqiqatı aparılmış bütün iri səhərlərdə müsahidə edilmişdir. Bu göstərici üzrə də paytaxt Bakı şəhəri şəriksiz liderdir. Mütəxəssislər belə halları məhz bazarda yaranmış tələbin nəticəsi kimi izah edirlər. Rəyi öyrənilmiş əhalinin bir qismi isə yaranmış bu vəziyyətə məhz cavabdeh dövlət və ictimai təşkilatların biganəliyinin nəticəsi kimi baxırlar.

Daşınmaz əmlakla əməliyyat zamanı inzibati risklər xüsusi əhəmiyyət kəsb edir. Belə ki, hər hansı böyük bir layihənin həyata keçirildiyi vaxt yerli icra orqanının, vergi sisteminin və yaxud hər hansı ekoloji tələbin dəyişməsi çox pis nəticələrə səbəb olur.

Beləliklə, bu bazarda inzibati riskin səviyyəsi digər bazarlara nisbətən mütəxəssislər tərəfindən daha yüksək qiymətləndirilir.

Əmlak bazarında gedən bütün bu proseslərin mürəkkəbliyi bazar iştirakçılarından tələb edir ki, yerli şəraiti, perspektiv inkişafı və bazardakı prosesləri ardıcıl izləməklə düzgün qərarlar çıxarda bilsinlər. Eyni zamanda daşınmaz əmlak bazarında mümkün və diqqət tələb edən maliyyə risklərini aşağıdakı kimi qruplaşdırmaq olar [3, s. 44-52]:

• maliyyə sistemində baş verən dəyişikliklər ilə bağlı risklər kredit faiz dərəcələrinin dəyişməsi, inflyasiya tempinin proqnozdan kənarlanması, alternativ investisiya gəlirinin dəyişməsi və s.;

• maliyyə fəaliyyəti və qərarların seçilməsi riski. Məsələn: kredit götürmək və yaxud qiymətli kağız buraxmaq. Əgər birinci, hər ay götürülən kreditin əsas və əlavə hissələrinin mütləq qaytarılmasını nəzərdə tutursa, ikinci halda bu fərqlənir. Azərbaycan şəraitində tikinti şirkətləri alıcı kontingentinin etibarını hələ qazanmadığından onların buraxacağı qiymətli kağızların bazarları şübhə doğurur.

• maliyyə hesabatlarının keyfiyyət riski. Məsələn: layihənin həyata keçirilməsi müddətində onun aşağı likvidliyi əlavə kredit mənbələrinin axtarılma zəruriliyini yaradır ki, bu da arzuedilməz hala gətirib çıxarda bilər.

Onu da qeyd edək ki, aqrar sferada maliyyə riskləri kəndin sosial problemlərinin həlli, o cümlədən sosial infrastrukturun inkişafını təmin etmək məqsədi ilə bütün səviyyələrdə maliyyə resurslarının çatışmazlığı ilə bilavasitə əlaqədar olur. Maliyyə risklərinin səviyyəsi yalnız bölgələrin sosial-iqtisadi inkişafının təmin edilməsi və aqrar sahəyə investisiya resurslarının cəlb edilməsi nəticəsində aşağı salına bilər [4, s.133].

İpoteka kreditlərinin qaytarılmaması riski ümumi iqtisadi və ya subyektiv amillərlə şərtləndirilə bilər. Bunlara daşınmaz əmlak bazarında ümumi qiymətlərin düşməsi, iqtisadi tənəzzül, işsizlik və digər problemlər aid edilə bilər [5, s.105-107].

1992-ci ildə Bakı şəhərində tikintisinə başlanılmış kooperativ binanın maliyyə hissəsinin həllini müəssisə öz üzərinə götürərək həmin binada ev alacaq işçilərinə ssuda formasında və hər bir gələcək mənzil sahibinin ərizədə göstərdiyi məbləğə uyğun ödəniş etmişdi (hər ailəyə orta hesabla 10 min manata yaxın). Bir il müddətinə bina təhvil verilmişdi. Lakin, qaytarılacaq kreditlərin dəyəri ölkədə baş vermiş yüksək inflyasiyanın qurbanına çevrilmisdi. Nəticədə bir mənzilə ayrılmış kreditin dəyəri müəssisəyə qaytarılan kreditin yeni dəyəri ilə 1 fəhlənin 2 aylıq əmək haqqına bərabər olmuşdu.

Kreditlərin subyektiv səbəblərdən qaytarılmaması riskini minimuma endirmək üçün kreditin qaytarılma ehtimalının qiymətləndirilməsini (anderraytinq) aparmaq olar. Lakin, bu proses müəyyən qədər əlavə vəsait tələb etdiyindən kreditin gəlirliyinə kölgə salan faktora çevrilir. Məhz bu baxımdan kreditorun ödəmə qabiliyyətliliyi, onun gəlirinin ödəyəcəyi ipoteka faiz dərəcəsinə olan nisbəti ilə ölçülür (bu gün qüvvədə olan nisbət 2/1 təşkil edir).

Kreditor tərəfindən kreditin qaytarılması şəraitində həm kreditor və həmçinin kredit təşkilatı müəyyən maliyyə zərəri ilə qarşılaşırlar. Əgər borclu daşınmaz əmlakın istismar, təmir, ödənilmiş faiz dərəcələri və ya əmlakın idarəedilmə xərclərini çəkmişsə, kredit verən təşkilat məhkəmə çəkişmələrində bir sıra inzibati xərclərə məruz qalır. Əmlakın qiymətinin düşməsi nəticəsində əmlakın satılmasından əldə ediləcək məbləğ borclunun ödəyə bilmədiyi məbləğdən az olarsa, bu fərqi də ziyanına silməli olur.

Kredit təşkilatı tərəfindən kredit risklərinin idarəolunması üzrə qəbul etdiyi riskin səviyyəsindən asılı olaraq plan hazırlanır. Kredit təşkilatı üçün müştərinin ödəmə qabiliyyətini - anderraytinqini hesablayan zaman onun ödəyəcəyi məbləğin qoyduğu girovun dəyərinə olan nisbəti əsas təşkil edir (təbii, gözlənilən qiymət dinamikası əsas götürülərək). Girovun dəyəri və qalıq kreditin nisbət ölçüləri dövri olaraq yoxlanılır və hər hansı bir qlobal iqtisadi dəyişiklik olarsa mütləq nəzərə alınır.

Müştərinin aylıq ödəyəcəyi məbləğ onun aylıq gəlirinin 25-36%-dən artıq olmadığı hal daha aşağı risk sayılır. Ümumi ödəniləcək əlavə faiz dərəcəsi isə əmlakın dəyərinin 80%-nə qədər qəbul olunur. Bu gün Azərbaycanda qüvvədə olan dövlət ipoteka kredit qaydalarına əsasən isə bu rəqəm təxminən 76% səviyyəsindədir.

Faiz dərəcələri riski əsasən dəyişkən faiz dərəcələri tətbiq edilən və qiymətli kağızlar bazarı - fond bazarı inkişaf tapmış ölkələrdə mövcuddur. Belə ki, bu növ risklər faiz dərəcələrinin dəyişmə tempi ilə qiymətli kağızların dəyərlərinin dəyişmə tempinin və borclunun gəlirlərinin üst-üstə düşməməsi anında mövcud olur. Azərbaycanda bu risk bu gün özünü depozitlər üzrə faiz dərəcəsinin artımının kreditlər üzrə faiz dərəcəsinin artımı ilə üst-üstə düşməməsi kimi büruzə verir.

Alternativ risklər əsasən kredit vaxtından əvvəl qaytarıldıqda gözlənilir. İpoteka kredit şərtləri həm kredit təşkilatı və həmçinin müştəri üçün alternativ seçim etməyə şərait yaradır. Bir sıra ölkələrdə bir tərəfdən kredit təşkilatı dövri olaraq faiz dərəcələrini dəyişmək imkanı əldə edirsə, digər bir tərəfdən müştəriyə pul verilən anda faiz dərəcəsini razılaşdırmaq imkanı da verirlər. Əgər faiz dərəcəsi digər alternativlərin faiz dərəcələrindən aşağıdırsa müştəri krediti götürür, digər halda isə o qərarını dəyişir. Başqa bir halda isə faiz dərəcələri bazarda aşağı düşərsə, müştəri sərfəli kredit təşkilatından aşağı faizlə götürdüyü kreditin hesabına əvvəlki yüksək faizli krediti bağlamaq imkanı əldə edir.

Bundan başqa, daşınmaz əmlak bazarında mövcud olan likvidlik riski də müəyyən problemlər ilə sıx bağlıdır. Bu növ risk əsasən kredit təşkilatlarında vəsait çatışmazlığı əsasında aktivlərini bazar qiyməti ilə satmaq arzusu ilə bağlı olur. Likvidlik riskinin idarə olunması bir sıra maliyyə əməliyyatlarının aparılması ilə bağlıdır: nəğd pul daxilolmalarının dəqiq analizi, pul daxilolmalarını mənbələrinin dəqiqləşdirilməsi və xərclərin hesablanması və s. İnkişaf etmiş ölkələrdə nəğd pulun mobilizasiyası üçün bir sıra mənbələrdən istifadə rolu aktivlərin satışı, likvid portfeli, depozitlər, girov ilə borc (kredit) götürmə və s-dir.

Real həyatda bütün yuxarıda sadalanan risklər bir-biri ilə sıx əlaqədədir. Belə ki, ödəməqabiliyyətli tələbin məhdudluğu müqabilində maliyyə və iqtisadi planlaşdırmanın olmaması daha ağır nəticələrə gətirib çıxarar.

İlkin və təkrar daşınmaz əmlak bazarındakı risklər öz növlərinə görə də fərqlənir: əgər ilkin bazar üçün texnoloji və iqtisadi risk mövcuddursa, təkrar bazar üçün hüquqi risklər var.

Təbii haldır ki, bu riskləri tamamilə yox etmək mümkün deyil, ancaq aşağıdakı şərtlər daxilində

riskləri bir qədər azaltmaq mümkündür:

• daşınmaz əmlak ilə əqdlər zamanı bütün riskləri öyrənmək;
• riskləri analiz etmək;
• risklərin və onu aradan götürmək üçün xərcin araşdırılmasını aparmaq;
• riskin aradan götürülməsi üçün tədbir görmək.

Bütün bu şərtlər daxilində investor risklərdən maksimum yayına bilər, lakin tam qurtara bilməz. Məhz bu baxımdan planlaşdırılan investisiya layihəsinin hesabatında risk dərəcələrinin nəzərə alınması məqbul sayılır.

**5. Daşınmaz əmlak bazarının tənzimlənməsi istiqamətləri.**

Daşınmaz əmlakın ikili təbiəti, oradakı əlaqələrin sıxlığı, maliyyə bazarı və iqtisadiyyatın real sektoru bazarın seqmentlərinin qarşılıqlı əlaqəsini aşağıdakı formada özündə əks etdirir:

• bazar iqtisadiyyatının real sektorunun təsirini öz üzərində hiss edir;
• əmlak bazarı eyni vaxtda maliyyə bazarı və istehlakçıların istifadə resursları kimi çıxış edir;
• daşınmaz əmlak bazarı ilkin və ikinci əmlak bazarı formasında olur.

Müxtəlif faktorların bazarın seqmentlərinin qarşılıqlı əlaqələrinə təsirini bilmək üçün bazarda aşağıdakı sahələri araşdırmaq tələb olunur:

• əhalinin gəliri və işgüzarlığının mənzil kirayəsinə təsiri;
• icarə haqqının səviyyəsinin daşınmaz emlak bazarının inkişafına təsiri;
• əmlak bazarındakı qiymətlərin yeni tikintinin həcminə təsiri;
• yeni tikintinin həcm, keyfıyyət və qiymət göstəricilərinin bazardakı təklif portfelinə təsiri;
• təklifın qiymətinin icarə haqqına təsiri;
• dövlət siyasətinin əmlak bazarına təsiri;

Mənzil xidmətlərinə tələb icarə haqqının səviyyəsindən, istehlakçıların sayından və gəlirlərinin miqdarından formalaşır. O cümlədən, istehlakçıların sayı və gəlirləri də öz növbəsində iqtisadiyyatın vəziyyətindən asılıdır. Deməli, daşınmaz əmlak bazarındakı tələb əsasən 2 faktordan-icarə haqqının miqdarından və iqtisadiyyatdakı ümumi vəziyyətdən yaranır.

Yaşayış mənzili bazarında kirayə ilə satış qiymətlərinin artımı və mənzil tikintisinin həcmi illər üzrə müvafıq dinamika ilə inkişaf edib. Əgər kirayə qiymətinin yuxarı həddi tikintinin həcminin artımı üçün stimul rolunu oynamışdırsa, kirayə qiymətinin artımı üçün şəhər üzrə aktivliyin yüksəlməsi stimul rolunda çıxış etmişdir.

Əmlak bazarında stabillik hökm sürürsə, dcməli, tələb təklifə uyğundur. Bu ərəfədə stabilliyə icarə haqqının səviyyəsi uyğun gəlir. Nəzərdə tutulan bu hədd investorun əmlakdan götürdüyü gəlir formasında özünü əks etdirir. Deməli, daşınmaz əmlak bazarında mövcud gəlir səviyyəsi maliyyə bazarında da daşınmaz əmlakı cazibədar edir.

Daşınmaz əmlak bazarının dövlət tənzimlənməsinin xüsusiyyətləri aşağıdakılar hesab olunur [6, s. 69-70]:

- bütün iqtisadi sistemin əhəmiyyətli ünsürü kimi daşınmaz əmlak bazarının lüzumsuz inzibati nizamlanması;
- dövlətin təşəbbüsü ilə, “yuxarıdan” bazar infrastrukturu institutlarının yaradılması;
- bazarların regional xarakteri (daşınmaz əmlak obyektlərinin stasionarlığı).

Yuxarıda sadalanan bütün xüsusiyyətlər daşınmaz əmlak bazarı iştirakçılarının rəqabətqabiliyyətliliyinə və bazarın effektivlik göstəricilərinə mənfi təsir göstərməklə bütövlükdə daşınmaz əmlak sferasının nizamlanmasına və idarə olunmasına əhəmiyyətli təsir göstərirlər.

İnvestor daşınmaz əmlaka gəlir gətirən aktiv kimi baxarkən o, bu aktivin başqa növ aktivlərə nisbətən gəlirini müqayisə edir. Daşınmaz əmlakın gəlirliliyi icarə (kirayə) haqqının həmin əmlakın dəyərinə nisbətində götürülür. İnvestor bu növ aktivi başqa növ aktivlərlə müqayisə edəndə aşağıdakıları nəzərə almalıdır:

• daşınmaz əmlakın aktiv kimi özünəxas olan xüsusiyyətləri, yəni gəlirin stabilliyi, inflyasi-

yadan asılı olmaması;

• alternativ investisiyaların gəlir faizləri;

• icarə haqlarının gözlənilən dinamikası;

• uzunmüddətli qiymətli kağızların faiz dərəcələri;

• əmlak vergisi dərəcəsi;

• əmlak riskləri və s.

Bakı şəhəri üzrə son 6 il ərzində daşınmaz əmlakın gəlir dinamikası azalan xətlə getsə də daşınmaz əmlakın cazibədarlığı hələ də öz aktivliyini saxlamaqdadır. Bu vəziyyəti isə mütəxəssislər əsasən istehsal sahəsində mövcud problemlər, rentabelliyin aşağı həddi, qiymətli kağızlar bazarının zəif inkişafı, inflyasiyanın tempi və daşınmaz əmlak bazarına daxilolma əmsalının yuxarı göstəricisi ilə izah edirlər.

Ümumiyyətlə, daşınmaz əmlakdan gəlir dərəcəsi başqa növ aktivlərdən nisbətən aşağı dərəcəyə malik olması və ancaq öz stabilliyi ilə seçilir. Bakı şəhərində bu göstərici aylıq 0,7-1% səviyyəsində təşkil etdiyi halda, respublikanın başqa şəhərlərində bu göstərici aylıq 0,2-0,4% səviyyəsindədir. Nisbətən inkişaf etmiş ölkələrdə bu göstərici aylıq 1% səviyyəsində qəbul olunsa da həmin ölkələrin iş adamları Azərbaycanın daşınmaz əmlak bazarında mövcud riskləri nəzərə alaraq bu göstəricinin 3%-dən yüksək olmasını məqbul sayırlar. Bakı şəhərində daşınmaz əmlak bazarında aparılan tədqiqatlar bu göstəricinin yüksələcəyindən xəbər verir.

Bu gün Bakı şəhərində aparılan yeni tikintinin həcmi daşınmaz əmlakın satış qiyməti və yaxud gəlir dərəcəsini özündə əks etdirir. Belə ki, yeni tikilən mənzilin satış qiyməti ona çəkilən xərc və bazardakı tələb əsasında formalaşdığından və tikintiyə çəkilən xərc onun satış qiymətinin təxminən yarısını təşkil etdiyindən, demək olar ki, yeni tikintiyə hələ tələbat uzun müddət qalacaqdır.

**Nəticə**

Daşınmaz əmlak bazarında stabil inkişafı təmin etmək üçün ayrı-ayrı faktorların əmlak bazarına təsirini nəzərə almaq tələb olunur:

• risklərin azalması, amortizasiya ayırmalarının artması mənzilin qiymətini qaldırır, tikintiyə investisiya artır:

• qısamüddətli kreditlərin faiz dərəcələrinin artması tikinti xərclərini artırır, investisiya azalır, icarə haqqı artır, qiymətlər qalxır;

• dövlət qiymətli kağızların gəlir dərəcəsini artırsa daşınmaz əmlaka qoyulan investisiyanın gəliri azalır, əmlakın qiyməti düşür, tikinti azalır, investisiya azalır və icarə haqqı artır;

• mənzil fondunun təmir və saxlanma xərclərinə dövlət tədricən maliyyə köməyini azaltdıqca, daşınmaz əmlakın bazardakı qiyməti və icarə haqqı artır;

• dövlət mənzil tikintisinin artımı icarə haqqını aşağı salır, əmlakın qiyməti düşür, tikintiyə özəl investisiya azalır.

Əmlak bazarında gedən proseslərə düzgün qiymət vermək üçün yuxarıda sadalanan bazar seqmentlərinin bütün qarşılıqlı əlaqələrini nəzərə almaq məqsədəuyğun sayılır.

**Ədəbiyyat**


1. Энциклопедия финансового риск-менеджмента. Под ред. А.А. Лобанова и А.В. Чугунова. 2-е изд.-М.: Альпина Бизнес Букс, 2006, 544 с.
2. Шапкин А.С. Экономические и финансовые риски. Оценка, управление, портфель инвестиций. 5-е изд.-М.: Издательство- торговая корпорация «Дашков и Ко», 2006, 544 с.
3. Kazımlı X.H., Quliyev İ.Q. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Dərs vəsaiti. Bakı, «İqtisad Universiteti», 2011, 187 s.
4. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsinin problemləri. Bakı, «Nurlar», 2004, 504 s.
5. Основы ипотечного кредитования. Науч. ред. и рук.авт. колл. Н.Б.Косарева-М.: Фонд «Институт экономики города»: ИНФРА-М, 2007, 576 с.

*Мирага Ахмедов*
*доцент АГЭУ*

**Организационно-экономические вопросы формирования и регулирования рынка недвижимости в Азербайджане**

**Резюме**

В данной статье исследуется этапы развития недвижимости в Азербайджане, оценивается современного состояния на рынке недвижимости, дается анализ основных показателей, характеризующие рынка недвижимости, выявляется риски и определяющие их факторы на рынке недвижимости, обосновывается направлений регулирования рынка недвижимости.

***Ключевые слова: рынок недвижимости, коэффициент ликвидности, период экспозиции, доходность имущества, риски.***

***doc. Miragha Ahmadov***
***Azerbaijan State Economic University***

**Real estate appraisal and its impacts on formatting of relations**

**Summary**

This article evaluates the impacts of market conjuncture on real estate market, analyse how financial market influence to real estate market, identifies the role of real estate as economic activity, shows evidence of investments in real estate markets.

***Key words: real estate market, real estate relations, investment.***

# XARİCİ İQTİSADİ ƏLAQƏLƏR VƏ DÜNYA TƏCRÜBƏSİ

**UOT 339. 9**

***İmaməddin İbrahim oğlu MEHRƏLİYEV***
***Azərbaycan Kooperasiya Universiteti***

***İsrafil Sahib oğlu ABDULLAYEV***
***"Transbroker"MMC***

## AZƏRBAYCAN İQTİSADİYYATININ DÜNYA TƏSƏRRÜFAT SİSTEMİNƏ İNTEQRASİYASINDA GÖMRÜK SİYASƏTİNİN ROLU

**Xülasə**

Məqalədə Azərbaycan İqtisadiyyatının Dünya təsərrüfat sisteminə inteqrasiyasında gömrük siyasətinin rolu verilir. Daha doğrusu, xarici iqtisadi fəaliyyətin əsas iştirakçıları olan sahibkarlıq fəaliyyətinin inkişafı sahibkarlığın inkişafına dövlət yardımı, sahibkarlığın inkişafına investisiyaların, o cümlədən daxili və xarici investisiyaların rolu verilir. Eyni zamanda illər üzrə sahibkarlığın inkişafına qoyulan investisiyaların dinamikası verilir. Burada son zamanlar daxili investisiyaların payının artması, eyni zamanda kiçik sahibkarlığın daha yüksək templə artdığı müşahidə edilir. Eyni zamanda idxal-ixrac potensialının artım tempi müşahidə olunur ki, bunlar ölkə prezidentinin sahibkarlığın inkişafına xüsusi qayğısı kimi qiymətləndirilir. Eyni zamanda gömrük işi sahəsində aparılan modernləşmə prosesləri, ölkədə ixracın stimullaşdırılması nəticəsində büdcəyə daxil olmaların miqdarının ilbəil artması müşahidə olunur.

***Açar sözlər: inteqrasiya, sahibkarlıq, ixrac potensialı, xarici iş adamları, daxili bazar, özəl şirkətlər, investisiyalar, ticarət dövriyyəsi, gömrük-tarif tənzimlənməsi, gömrük ödənişləri.***

***

Azərbaycanın dünya təsərrüfat sisteminə sürətli inteqrasiyasının təmin edilməsi, xarici ticarət dövriyyəsinin yüksək templə artımı, dünyanın müxtəlif ölkələri ilə ticarət əlaqələrinin qurulması, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb olunması, Şərq-Qərb və Şimal-Cənub ticarət yollarının kəsişməsində yerləşən ölkəmizin tranzit yüklərinin daşınmasında başlıca tranzit ölkəsi mövqeyini əldə etməsi, ölkənin daxili bazarının məqsədyönlü şəkildə qorunması, yerli istehlakçıların həmin bazardakı rəqabət qabiliyyətinin artırılması və onların ixrac potensialının yüksəldilməsi müəyyən dərəcədə ölkənin gömrük sisteminin səmərəli fəaliyyətindən asılıdır.

Azərbaycanda sahibkarlığın inkişafı və bütövlükdə iqtisadi-sosial sahədə əldə etdiyimiz naliyyətlər çağdaş dünyamızın görkəmli şəxsiyyəti, ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Məhz onun rəhbərliyi altında sahibkarlığa dövlət qayğısı artmış, onların hüquqlarının müdafiəsi və ölkədə döblət-sahibkar münasibətlərinin inkişafı sahəsində köklü dönüş yaramışdır. Bir sözlə, biznes mühiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.Fərəhli haldır ki, ölkədə sahibkarlığa qayğı Heydər Əliyev siyasi kursunun layiqli davamçısı hörmətli prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq qəti olaraq müəyyən edilmişdir ki, Azərbaycanın inkişafı bazar iqtisadiyyatı yoludur, onun uğurlu gələcəyi isə ölkədə sahibkarlığın inkişafı ilə bağlıdır.

Ölkədə sahibkarlığın inkişafı və iqtisadi tərəqqi dövlətin həyata keçirdiyi düzgün iqtisadi siyasətə söykənir. Bu siyasətin mühüm qollarından biri də gömrük siyasətidir. Danılmaz həqiqətdir ki, ötən müddət ərzində görülən işlər və həyata keçirilən tədbirlər nəticəsində ölkədə dövlət müstəqilliyimizin əsas atributlarından biri olan müasir gömrük sistemi formalaşıb. Bu gün Azərbaycan gömrük orqanları fiskal siyasəti həyata keçirməklə dövlət büdcəsi gəlirlərinin beşdə bir hissəsindən çoxunu təmin edir. Daxili bazarı və bütövlükdə dövlətin iqtisadi maraqlarını qorumaq üçün gömrük-tarif tənzimlənməsi tədbirləri və gömrük işi sahəsində valyuta nəzarəti həyata keçirilir. Xarici-iqtisadi tədbirlərdə gömrük-tarif tənzimlənməsi tədbirləri tətbiq edilir.

Bu ilin fevral ayının 12-də Bakı Biznes Mərkəzində keçirilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda Prezident ilham Əliyev demişdir: "Sahibkarlığa dəstək ölkəmizin uğurlu inkişafını təmin edəcəkdir. Mən daim sahibkarlarla görüşürəm, həm Bakıda, həm də bölgələrdə açdığım müəssisələrin sayı bəlkə də indi yüzlərlə, minlərlə ölçülür. Ancaq hər bir yerdə yerli icra orqanlarının rəhbərləri, icra başçıları, vəzifəli şəxslər sahibkarlara kömək göstərməlidirlər. Onların fəaliyyətinə dəstək verməlidirlər, onları incitməməlidirlər, onların işinə müdaxilə etməməlidirlər. Sahibkarlığın inkişafı dövlət siyasətidir və yerli icra başçısı yerlərdə dövlət siyasətini aparan şəxsdir və o, dövlət siyasətindən kənarda heç bir iş görə bilməz." Bundan başqa, ölkə başçısının yerli sahibkarlar və Azərbaycanda çalışan xarici iş adamları ilə keçirdiyi görüşlərdə və sahibkarlığın inkişafı ilə bağlı imzaladığı son fərmanlarda bu qurumun fəaliyyəti ilə bağlı müddəalar geniş şəkildə öz əksini tapmışdır. Hazırda Azərbaycan iqtisadiyyatında özəl bölmənin xüsusi çəkisi artmaqdadır.

"Sahibkarlığın inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. İlk növbədə sahibkarlığın inkişafı üçün çox ciddi siyasi iradə vardır, sahibkarlara yüksək səviyyədə, prezident səviyyəsində verilən dəstəklər, əlbəttə ki, onları ruhlandırır və onların bəzi hallarda rastlaşdığı problemləri aradan qaldırır. Hələki bu problemlər var-bürokratiya, müəyyən əngəllər, onların işlərinə əsassız müdaxilələr. Əlbəttə, prezident tərəfindən sahibkarlığın inkişafına verilən dəstək onların da biznes mühitinin yaxşılaşdırılmasına xidmət göstərir. Halbuki, bu sahədə hələ görüləsi işlər çoxdur, nöqsanlar da vardır. Özəl şirkətlərlə dövlət şirkətlərinə göstərilən diqqət eyni olmalıdır və hesab edirəm ki, biz buna nail oluruq" [1].

Hazırda Azərbaycan Respublikasında kiçik müəssisələrin inkişafı dinamikasını təhlil etdikdə aydın olur ki, ilk illər onların sayı yüksək sürətlə artmış, sonradan nisbətən zəifləmiş və son illər isə yenidən artım yüksəlmişdir. Əgər 1991-ci ildə kiçik müəssisə subyektlərinin sayı 312olmuşdursa, 1999-cu ildə 19063, 2009-cu ildə isə 76379-a çatmışdır. On ildə onların sayı 4 dəfədən çox artmışdır. Onlardan 60%-i (45.5 mini) Bakı şəhərində fəaliyyət göstərir. Kənd təsərrüfatı və balıqçılıqda 10 min kiçik müəssisə fəaliyyət göstərir.

Kiçik müəssisələrin -29.4%-ini və ya 38.5%-i ticarət sferasında fəaliyyət göstərir.

Əgər sahibkarlığın özəl sektorunun ümumi daxili məhsuldakı payına nəzər salsaq görərik ki, artıq 80%-dən çoxdur. Son rəqəmlərə görə ümumi daxili məhsulda özəl sektorun payı 83% təşkil edir. Cəmi 20 il ərzində bazar iqtisadiyyatı şəraitində yaşayan ölkə üçün bu, hesab edirəm ki, böyük göstəricidir.

Son illər Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara güzəştli şərtlərlə 1 milyard 200 milyon manat kredit verilmişdir.

Ötən 2012-ci il ərzində ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi -22.1 milyard olmuşdur. Bu il də bu qədər vəsait qoyulması nəzərdə tutulur.

**2012-ci ildə əsas kapitala qoyulan investisiyaların mənbələr üzrə bölgüsü**

Xarici   Daxili   Neft sektoru   Qeyri-neft sektoru



2003-2012-ci illərdə Azərbaycan İqtisadiyyatına yönəldilən 128.3 milyard dollar investisiyadan 65.7 milyard dollarını daxili investisiyalar təşkil etmiş və xarici ticarət dövriyyəsi 6.4 dəfə artmışdır.

"Qlobal rəqabətlilik Hesabatı"nda ölkəmiz 144 ölkə arasında 46-cı, MDB məkanında isə ardıcıl olaraq dörd ildir ki, birinci yerdədir.

Müstəqillik dövründə Azərbaycanın iqtisadiyyatına ümumilikdə 140 milyard dollardan artıq sərmayə qoyulub. 2012-ci ildə Azərbaycanın ÜDM-i 54 milyard manat təşkil edib [2].

Xüsusi bölmənin nümayəndələri vasitəsilə dünyanın 146-dan artıq ölkəsi ilə ticarət əlaqələri qurmuş Azərbaycanda bazar iqtisadiyyatına keçidin tam şəkildə reallaşdığı heç kəsdə şübhə doğurmur.

Hazırda bütövlükdə iqtisadiyyatımızın gələcəyi ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmiş özəl sektorun ortaya çıxan problemlərinin yerindəcə və qısa müddətə həll olunmasından, onun inkişafı üçün əlverişli şəraitin yaradılmasından və sahibkarların fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınmasından asılıdır. Məhz bunu nəzərə alan möhtərəm prezidentimiz Azərbaycanda çalışan həm yerli, həm də xarici sahibkarlarla görüşlər keçirərək onların arzu, şikayət və təkliflərini dinləyir və bu görüşlərin məntiqi nəticəsi kimi ölkəmizdə özəl sektorun və bütövlükdə iqtisadiyyatın sürətli inkişafına yeni impuls verəcək 2 mühüm fərman imzalamışdır.

***Cədvəl-1***

***İqtisadiyyata yönəldilən investisiyalar.***
***(bütün mənbələr üzrə xarici investisiyalar nəzərə alınmaqla)***

| | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|
| Milyon man. | 1289,8 | 6733,4 | 7415,6 | 10353,9 | 13328,0 | 10475,0 | 14118,9 | 17048,8 |
| Milyon dol. | 1441,4 | 7118,5 | 8300,4 | 12066,4 | 16222,0 | 13033,5 | 17591,5 | 21588,9 |
| O cümlədən xarici investisiyalar | | | | | | | | |
| Milyon man. | 829,5 | 4628,5 | 4514,2 | 5727,2 | 5625,3 | 4395,1 | 6619,7 | 8849,8 |
| Milyon dol. | 927,0 | 4893,2 | 5052,8 | 6674,3 | 6847,4 | 5468,6 | 8247,8 | 8673,9 |
| daxili investisiyalar | | | | | | | | |
| Milyon man. | 460,3 | 2104,9 | 2901,4 | 4626,7 | 7702,7 | 6079,9 | 7499,2 | 10199,0 |
| Milyon dol. | 514,4 | 2225,3 | 3247,6 | 5391,8 | 9374,6 | 7564,9 | 9343,7 | 12915,0 |

*Azərbaycanın statistik göstəriciləri, Bakı-2011-ci il*

Bu fərmanların müddəaları sahibkarlığın problemləri və inkişafı ilə bağlı bütün başlıca istiqamətləri özündə əks etdirməklə yanaşı, həm də müvafiq icra hakimiyyəti orqanları üçün sahibkarlığın dəstəklənməsi yönündə proqram vəzifələri müəyyən etmişdir. Bu baxımdan gömrük orqanları da istisnalıq təşkil etmir. Ölkədə ixracın həvəsləndirilməsi və daxili bazarın qorunmasını təmin edən gömrük rüsumlarının tətbiqi, sərbəst gömrük zonasının və gömrük anbarlarının yaradılması, eləcə də qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi və sahibkarlıq fəaliyyətinə gömrük orqanları tərəfindən qanunsuz müdaxilələrin qarşısının alınması barədə müddəaların hə-

yata keçirilməsi məqsədilə gömrük orqanlarının bu istiqamətlərdəki işini yenidən qurmaq üçün tədbirlər planı müəyyənləşdirilmiş və onun həyata keçirilməsi istiqamətində konkret addımlar atılır. Hazırda Dövlət Gömrük Komitəsində (DGK) müxtəlif beynəlxalq təşkilatların - Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının və Ümumdünya Gömrük Təşkilatının yaxından köməyi ilə ciddi modernləşmə prosesi aparılır. Bu proses nəticəsində müstəqil gömrük brokerləri sisteminin formalaşması, ölkədə tranzit keçən yüklər üzrə gömrük ödənişlərinin sığortalanması (həmçinin daxili gömrükxanalara gedən yüklərin), gömrük vergi və rüsumlarının ödənilməsində müvafiq banklar tərəfindən əvəz edilmiş veksellərdən istifadə qaydasının təsdiqi, bütün gömrük orqanlarını əhatə edən informasiyanın ötürülməsinin "on-line" sisteminin qurulması, bir qrup mallar üzrə spesifik gömrük rüsumlarının advalor rüsumlarla əvəzlənməsi, bir pəncərə sisteminin tətbiq edilməsi və s. göstərmək olar. Bütün bu tədbirlərin əsas məqsədi bir tərəfdən ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün gömrük nəzarətinin daha da gücləndirilməsidirsə, digər tərəfdən də ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi, iş adamlarının gömrüklə bağlı vaxt itkisinə yol verilməməsi, gömrük rəsmiləşdirilməsi prosesində xarici ticarətlə məşğul olan sahibkarlarla gömrük işçilərinin birbaşa təmas imkanlarının aradan qaldırılmasıdır.

Onu da qeyd etmək lazımdır ki, gömrük orqanlarının bugünkü strukturu özəl bölmənin gömrük əməliyyatlarını vaxtında və operativ şəkildə həyata keçirməyə imkan verir. Öz fəaliyyətlərinin xüsusiyyətlərinə görə bazar iqtisadiyyatı şəraitində özəl bölmənin nümayəndələri ilə ən çox təmasda olan dövlət qurumları vergi və gömrük orqanlarıdır. Digərlərindən fərqli olaraq bu iki dövlət orqanı həm tənzimləmə, həm də fiskal funksiya yerinə yetirir. Həm vergi orqanları, həm də gömrük orqanları vergi ödəyicilərinin dövlət büdcəsinə qanunvericiliklə nəzərdə tutulmuş vergilərin vaxtında və tam həcmdə ödəmələri toplayaraq büdcəyə köçürülməsini təmin edirlər.

Bu baxımdan qeyd etmək lazımdır ki, 1993-cü ildən başlayaraq illik ticarət dövriyyəsi və büdcə proqnozlarının dinamikasına nəzər yetirsək görərik ki, əgər 1993-cü ildə ticarət dövriyyəsi cəmi 863,7 milyon ABŞ dolları həcmində idisə, bu rəqəm 1994-cü ildə 1038,4 milyon ABŞ dollarına qədər artmış, 1996-cı ildə 1681,04 milyon ABŞ dolları təşkil etməkə, 1993-cü illə müqayisədə 194,6% artmışdır.Bu dövrlər ərzində ticarətin asanlaşdırılması məqsədilə normativ-hüquqi aktlar qəbul edilməklə illik ticarət dövriyyəsinin daha da artmasına nail olunmuşdur.

Belə ki, 2000-ci ildə illik ticarət dövriyyəsi 2923,1 milyon dollar, 2001-ci ildə 3751,9 milyon dollar təşkil etmiş, daha sonrakı illərdə, o cümlədən 2003-cü ildə bu göstərici 5200,5 milyon, 2005-ci ildə 8567,5 milyon, 2007-ci ildə 11771,8 milyon ABŞ dollarına qədər artmaqla, 1993-cü və 1994-cü illərlə müqayisədə böyük artım müşahidə olunmuşdur.

Bu illər ərzində ölkəmizin dünya iqtisadiyyatına sürətli inteqrasiyası və milli gömrük xidmətinin modernləşdirilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlərin nəticəsi olaraq 2008-ci ildə ölkəmizin idxal-ixrac əməliyyatları üzrə illik ticarət dövriyyəsi artaraq 54925,5 milyon ABŞ dollarına çatmışdır. 2011-ci il ərzində bu göstərici 36326,9 milyon ABŞ dolları məbləğində olmaqla, 1994-cü illə müqayisədə 35288,5 milyon ABŞ dolları, 1995-ci il ilə müqayisədə isə 35239,8 milyon ABŞ dolları məbləğindən artıq olmuşdur.

***Cədvəl-2***

**Azərbaycanın ticarət dövriyyəsinin göstəriciləri (1991-2011-ci illər, mln. ABŞ dolları ilə)**

| İllər | Dövriyyə | İdxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| 1991 | 4002.2 | 1881.3 | 2120.9 | 239.7 |
| 1992 | 2423.8 | 939.8 | 1483.9 | 544.1 |
| 1993 | 1353.5 | 628.8 | 724.6 | 95.8 |
| 1994 | 1430.6 | 777.9 | 652.7 | -125.2 |
| 1995 | 1304.9 | 667.6 | 637.2 | -30.4 |
| 1996 | 1591.9 | 960.6 | 631.2 | -329.4 |
| 1997 | 1575.6 | 794.3 | 781.3 | -13.0 |
| 1998 | 1682.6 | 1076.5 | 606.1 | -470.3 |
| 1999 | 1965.1 | 1035.9 | 929.2 | -106.6 |
| 2000 | 2917.3 | 1172.0 | 1745.2 | 573.1 |
| 2001 | 3745.3 | 1431.1 | 2314.2 | 883.0 |
| 2002 | 3833.0 | 1665.6 | 2167.5 | 501.9 |
| 2003 | 5218.1 | 2626.4 | 2591.7 | -34.7 |
| 2004 | 7131.4 | 3515.9 | 3615.5 | 99.5 |
| 2005 | 8547.2 | 4200.4 | 5713.5 | 171.1 |
| 2006 | 11638.9 | 5266.7 | 6372.2 | 1105.2 |
| 2007 | 11771.7 | 5713.5 | 6058.2 | 344.7 |
| 2008 | 54926.0 | 307170.0 | 47756.0 | 40586.0 |
| 2009 | 20824.5 | 6123.1 | 14701.4 | 8578.3 |
| 2010 | 27960.8 | 6600.6 | 21360.2 | 14759.6 |
| 2011 | 36326,9 | 9756,0 | 26570,9 | 16815,0 |

*Azərbaycanın statistik göstəriciləri, Bakı-2011-ci il*

Bununla yanaşı 1993-2011-ci illər üzrə gömrük tarif-tənzimlənməsi sistemi vasitəsilə dövlət büdcəsində toplanılan gömrük vergi və rüsumlarının da həcmi dinamik xətlə artmış, büdcə gəlirlərində gömrük ödənişlərinin xüsusi çəkisi ilbəil yüksəlmişdir.

Statistik göstəricilərin təhlili göstərir ki, əgər 1994-cü ildə dövlət büdcəsnə cəmi 3479,8 min manat gömrük ödənişləri toplanmışdırsa, bu göstərici artaraq 1998-ci ildə 112 330,6 min manat, 2000-ci ildə 143 921,3 min manat, 2008-ci ildə 1 110 373,8 min manat, 2011-ci ildə 1 141 528,5 min manat olmuşdur. 2012-ci il "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən Dövlət Gömrük Komitəsi üçün 1 200 000,0 manat illik büdcə proqnozu müəyyənləşdirilmişdir. 1994-cü illə müqayisədə 2012-ci ildə büdcə proqnozu 1 196 520,2 min manat artmışdır.

***Cədvəl-3***

***Xarici ticarət dövriyyəsi üzrə gömrük məlumatları***

| | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|
| Xarici ticarət dövriyyəsi, mln. ABŞ dolları | | | | | | | | |
| | 2917,3 | 8558,4 | 11638,9 | 11771,7 | 54926,0 | 20824,5 | 27960,8 | 36326,9 |
| O cümlədən | | | | | | | | |
| İxrac | 1745,2 | 4347,2 | 6372,2 | 6058,2 | 47756,0 | 14701,4 | 21360,2 | 26570,9 |
| İdxal | 1172,1 | 4211,2 | 5266,7 | 5713,5 | 7170,0 | 6123,1 | 6600,6 | 9756,0 |
| Əvvəlki ilə nisbətən | | | | | | | | |
| İxrac | 187,7 | 120,2 | 146,6 | 95,1 | 788,3 | 30,8 | 125,3 | 88,7 |
| İdxal | 113,1 | 119,8 | 125,1 | 108,5 | 125,5 | 85,4 | 105,0 | 145,3 |

*Azərbaycanın statistik göstəriciləri, Bakı-2011-ci il.*

Məhz bu xüsusiyyətə görə də sahibkarların vergi və gömrük orqanları ilə yaranan problemlərinə digər dövlət orqanlarına nisbətən daha çox təsadüf olunur. Bu problemlərin vaxtında araşdırılaraq yerindəcə həll olunması, təbiidir ki, ölkədə sahibkarlığın normal inkişafı üçün son dərəcə əhəmiyyətlidir.

Beynəlxalq ticarətdə yüklərin yerləşdirilməsinə bir ölkənin sərhəddindən digərinə keçirilməsi kimi baxılır. Xarici iqtisadi fəaliyyətin mal dövriyyəsinin tənzimlənməsi üçün dövlət idarələri mövcuddur ki, bunların da içərisində gömrük işi xidməti xüsusi yer tutur. Beləliklə, gömrük işi xarici ticarət sahəsi ilə bilavasitə bağlıdır.

Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi gömrük işinin əsasları tətbiq edilmədən mümkün deyildir. Belə ki, sərhədlərin kəsişməsi və həmin sərhəddən müxtəlif yüklərin keçirilməsi həmişə gömrük sistemi ilə qarşılaşır və gömrük işinin orada tətbiqi olmadan mümkün deyildir. Dünya təcrübəsində gömrük işi xarici ticarətin vacib həlqələrindən biri kimi çıxış edir.

Hazırda Azərbaycan Respublikasında ildə orta hesabla 369998 mindən yuxarı hüquqi və fiziki şəxs, o cümlədən 5417-dən çox hüquqi və 432141-dən artıq fiziki şəxs xarici iqtisadi fəaliyyətlə məşğul olur və bunlardan təqribən 65-70%-i Bakı, Sumqayıt şəhərlərində, qalanı isə respublikanın digər şəhər və rayonları, habelə Naxçıvan MR-də fəaliyyət göstərirlər.

***İllər üzrə yeni yaradılmış hüquqi şəxslərin sayı***




Xarici ticarət iştirakçılarının bütün respublika üzrə fəaliyyətini asanlaşdırmaq və gömrük rəsmiləşdirilməsi yerlərini bilavasitə malların istehlak yerlərinə yaxınlaşdırmaq məqsədilə ölkənin bütün ərazisini əhatə edən gömrükxana və gömrük postları şəbəkəsi qurulmuşdur. Hazırda Bakı Hava Nəqliyyatında Baş Gömrük İdarəsi, Xaçmaz, Balakən, Tovuz, Xudafərin, Biləsuvar, Astara, Culfa və Sədərək sərhəd gömrükxanaları və bunların tabeliyində 20 sərhəd gömrük postu, Gəncə, Şirvan, Sumqayıt və Yevlax daxili gömrükxanaları, bunların tabeliyində olan, habelə sərhəd gömrükxanalarının daxili rayonlarda yerləşən 25 gömrük postu. Enerji və Xəzər dənizində Azərbaycan Respublikasının iqtisadi mənafeyinin qorunması üçün ixtisaslaşdırılmış gömrükxanaları və müstəqil Bakı aksiz gömrük postu fəaliyyət göstərir. Daxili gömrük postları başlıca nəqliyyat qovşaqlarının və əhalinin sıx yaşadığı şəhər və rayonların ərazisində - Şəkidə, Kürdəmirdə, Masallıda, Lənkəranda və Mingəçevirdə təşkil olunmuşdur. Belə gömrük şəbəkəsi bir tərəfdən ölkənin iqtisadi təhlükəsizliyinin qorunması vəzifəsinin daha səmərəli yerinə yetirilməsi üçündürsə, digər tərəfdən də sahibkarlığın gömrük rəsmiləşdirilməsi ilə bağlı həm zaman, həm də məsrəf qənaətinə imkan verən malın rəsmiləşdirmə yerinə yaxınlığı prinsipini təmin etmək üçündür. Yəni bu gün Mingəçevirdə, yaxud Şəkidə hər hansı sahibkar mal idxal və ixracı üzrə rəsmiləşdirmə aparmaq üçün Yevlaxa və ya Balakənə getmir və öz şəhərində yerləşən gömrük postu vasitəsilə bu prosesi reallaşdırır.

Eyni zamanda, tam əhatəli gömrük şəbəkəsinin yaradılması sahibkarlığın öz problemləri barədə gömrük orqanlarına daha tez müraciət edərək cavab almağına imkan verir.

Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı" tam yerinə yetirilmiş, Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının

inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan), eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ-hüquqi aktlar əsasında dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində hüquqi baza formalaşdırılmışdır. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Gömrük Xidmətinin Vahid Avtomatlaşdırılmış İdarə Sistemi (VAİS)" layihəsi artıq fəaliyyət göstərir.

"Bizim məqsədimiz iqtisadi cəhətdən güclü və siyasi cəhətdən müstəqil Azərbaycan dövləti qurmaqdır." – deyən cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Azərbaycanda dövlət quruculuğu siyasətində bundan sonra da daim diqqət mərkəzində olacaq, dövlətçiliyimizin qorunması sahəsində və beynəlxalq arenada daha böyük uğurlar qazanmasında mühüm rol oynayacaqdır. Milli iqtisadiyyatımızın tempinə uyğun olaraq sonrakı illərdə də Azərbaycan Respublikasının gömrük xidməti öz prioritetliyini saxlamaqla, daim inkişaf və müasirləşmə istiqamətində işini quracaqdır.

**Ədəbiyyat**

1. Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransın materialları. "Azərbaycan" qəzeti 13 fevral 2013-cü il.
2. Səfər Mehdiyev. Azərbaycanın gömrük xidməti ölkənin artım dinamikasına uyğun inkişaf yolundadır. Azərbaycan Respublikası DGK-nin 20 illik yubileyinə həsr edilmiş "Qloballaşma Mühitində iqtisadi təhlükəsizliyin təmin olunmasında gömrük tənzimlənməsinin rolu" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransın materialları. Bakı-2012.
3. Bağırov O.İ. Azərbaycan Respublikasının xarici siyasətinin təkmilləşdirilməsiyolları. "Kooperasiya" jurnalı №3 (26)-2012.
4. E.A.Quliyev, İ.İ.Mehrəliyev. Müasir dövrdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin prinsipləri. Bakı-2011.
5. E.A.Quliyev, İ.İ.Mehrəliyev. Gömrük işinin təşkili. Bakı, 2012.
6. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2011.
7. İ.İ.Mehrəliyev. Gömrük nəzarəti və qeydiyyatı xarici iqtisadi təhlükəsizliyin vacib həlqəsidir. Bakı Biznes Universiteti, "Audit jurnalı, 2004-cü il, №1.

***Проф. И.И.Мехралиев***
***Азербайджанский Университет Кооперации***
***И.С.Абдуллаев***
***Юрист, специалист по таможенному оформлению, «Трансброкер» ММС***

## Роль интеграции таможенной политики Азербайджанской экономики в мировую хозяйственную систему

**Резюме**

В статье рассматривается роль интеграции таможенной политики Азербайджанской экономики в мировую хозяйственную систему. Вернее дается роль развитию предпринимательской деятельности основным участникам внешне-экономической деятельности, государственной поддержке развития предпринимательства, инвестициям в развитии предпринимательства, в том числе внутренним и внешним инвестициям. В тоже время дается динамика вложенных инвестиций в предыдущие годы, в развитие предпринимательства. В последнее время здесь наблюдается повышение доли внутренних инвестиций, в тоже время рост мелкого предпринимательства с более высокими темпами. В тоже время наблюдается рост вы-

сокого темпа импортно-экспортного потенциала, что оценивается как особое внимание главы государства на развитие предпринимательства. В тоже время процессы модернизации проводимые в сфере таможенного дела, в итоге стимулирования экспорта в стране, привели год за годом к наблюдению роста доходов в государственный бюджет.

***Ключевые слова: Интеграция, предпринимательство, экспортный потенциал, зарубежные деловые люди, внутренний рынок, частные предприятия, инвестиции, торговый оборот, регулирование таможенного тарифа, таможенные платежи.***

***Professor Imamaddin Ibrahim Mehraliyev***
***Azerbaijan Cooperation University***
***Israfil Sahib Abdullayev***
***Lawyer, Customs Clearance Specialist, Transbroker LLC***

## The role of customs policy in the integration of Azerbaijan economy into the World Economic System

### Summary

The article addresses the role of customs policy in the integration of Azerbaijan economy into the World Economic System. To be more precise, the article deals with development of businesses, which are main participants of foreign economic activity, public assistance in the development of entrepreneurship, role of domestic and foreign investments in the development of entrepreneurial activity. Furthermore, dynamics of investments made for the development of entrepreneurship is indicated by years. Recently there has been increase in the share of domestic investments, as well as it is observed that small businesses are growing with higher speed. Growth rate of import and export potential is also being observed, which is estimated as a special attention of the president of the Republic to the development of entrepreneurship. Moreover, budget incomes are increasing year-by-year due to modernization works performed in the customs field and encouraging the export.

***Key words: integration, entrepreneurship, export potential, foreign businessmen, domestic market, private companies, investments, trade turnover, customs and tariff regulation, custom charges.***

UOT 330. 341. 1

*Samir Maqsud oglu CAVADOV*
*AMEA-nın İqtisadiyyat İnstitutu*

# NEFT KLASTERLƏRİNİN İNKİŞAFININ DÜNYA TƏCRÜBƏSİ

**Xülasə**

Təbii resursların tükənməsi və neft sektorunun rəqabət qabiliyyətinin inkişafı neftçıxarmanın artımından onun işlənməsinin artımına və neft sektorunun kompleks inkişafına keçidi tələb edir. Bu məqsədlərə neftçıxarma və onun işlənməsi, neft maşınqayırması, elmi-tədqiqat və maarifləndirmə və s. də daxil olmaqla, klasterial keçidin neft sektoruna tətbiqi vasitəsilə çatmaq olar. Məqalədə Norveç və Kanadanın təcrübələrinə baxılır və klaster inkişafın üstünlüyü əsaslandırılır.

***Açar sözlər: neft klasteri, şaquli inteqrasiya olunan neft şirkətləri, rasional istifadə, klasterial rəqabət, balanslaşdırılmış inkişaf.***

***

Təbii resursların, o cümlədən neftin tükənməsi, təbii mühitin pisləşməsi problemlərini və neft sektorunun rəqabətqabiliyyətliliyinin artırılması zərurətini nəzərə alaraq bir çox təbii resursla zəngin olan ölkələrdə ön plana təbii resursların hasilatının artırılması deyil, onun emalı və kompleks inkişafı məsələləri keçir. Buna klasterial yanaşmanın tətbiqi ilə nail olunur. Bunun üçün bir çox ölkələr sahəvi yanaşmadan imtina edib klaster yanaşmasını tədbiq etməyə başlayıblar.

Klasterial yanaşma neft sektorunda da tədbiq edilir. Məqalədə neft klasterinin şaquli inteqrasiya olunan neft şirkətlərindən fərqi açıqlanır və uğurlu nümunələr kimi Kanada və Norvecdə neft klasterləri tədqiq edilir.

**Neft klasteri və onun şaquli inteqrasiya olunan neft şirkətlərindən fərqi**

Neft klasterləri şaquli inteqrasiya olunan neft şirkətlərindən geniş məfhumdur. Belə ki, şaquli inteqrasiya olunan neft şirkətləri əksər hallarda kəşfiyyatdan istehlakçılara qədər istehsal zəncirini nəzərdə tutursa, neft klasterinə həmçinin maşınqayırma şirkətləri, istilik və elektrik enerjisini istehsal edən şirkətlər, təhsil müəssisələri və tədqiqat mərkəzləri və s. daxildir (şəkil 1).

Neft klasterləri inteqrasiya olunan neft şirkətlərinin üstünlüklərinə malikdir, eyni zamanda şaquli inteqrasiyaya xas olan çatışmazlıqları aradan qaldırmağa imkan verir [1, s. 377]:

***Şəkil 1***

**Neft klasteri**



• klasterial yanaşma neft və yardımçı şirkətlərin istehsal göstəricilərini artırmağa, istehsal xərclərini azaltmağa və sahədə innovasiya fəaliyyətini sürətləndirməyə imkan verir;

• klasterial yanaşmada kiçik və orta biznes iri şirkətlərin tərəfdaşı kimi fəaliyyət göstərir və bu kiçik və orta biznesin də inkişafını təmin edir, neft sahəsində xidmət firmalarının göstərdiyi xidmətləri yaxşılaşdırır və bütövlükdə regionun rəqabətqabiliyyətliliyini artırmağa imkan verir;

• klasterin səmərəliliyi sinergetik effekt və bunun nəticəsində innovasiyalara investisiyaların artırılması və yeni şirkətlərin yaranması, ixrac potensialının genişlənməsi, əhalinin məşğulluğunun artması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, yeni texnologiyaların inkişafı, klasterə daxil olan firmaların səmərəliliyi və rəqabətqabiliyyətliliyinin güclənməsi, elm və istehsal arasında sıx əlaqələrin inkişafı, infrastrukturun inkişafı, əhali və işçilərin təhsil səviyyəsinin artması hesabına nail olunur.

***Cədvəl 1***

***Neft sahəsində şaquli inteqrasiya ilə klasterlərin fərqi***

| | Şaquli inteqrasiya olunan təşkilatlar | Klasterlər |
|---|---|---|
| İstehsalın xüsusiyyəti | Sərt ixtisaslaşma. Neft şirkəti kəşfiyyatdan son istehlakçılara qədər bütün zəncirə nəzarət edir. | İnnovativ yanaşma, çevik ixtisaslaşma. Şirkət qonşu sahələrlə əlaqələr qurur. |
| İstehsal xərcləri | Şaquli inteqrasiya olunan neft təşkilatlarında xərclər daha yüksək olur: bir çox hallarda tələb olunan məhsulu istehsal etməkdənsə, onu almaq daha əlverişli ola bilər. | Əksmərkəzləşmə istehsal xərclərini azaldır. |
| İstehsalın səmərəliliyi | Şaquli inteqrasiya olunan neft şirkətlərində çox vaxt bir firmanın istehsalı digər firmaların xərcləri hesabına baş verir və beləliklə, onların inkişafına əngəllər törədir. | Klasterə daxil olan bütün firmaların inkişafı təmin olunur. |
| İdarəetmə | İstehsal zənciri çərçivəsində mərkəzləşmə | Müstəqil firmaların koordinasiyası və əlaqələndirilməsi. |
| Çeviklik | Neft şirkətlərinin çeşid seçmə imkanı məhduddur: bir çox hallarda neft şirkətləri tələb olunan məhsulu başqasından almaq əvəzinə, özləri istehsal edirlər. | Əksmərkəzləşmə neft sektorunda çevikliyi artırır. |
| İzafi istehsal və ya qıtlıq | İstehsal zəncirinin mərhələləri istər istehsal həcmi, istehsal müddəti və istərsə, istehsal xərcləri baxımından bir-biri ilə nadir hallarda uzlaşır. | Firmalar arasında bazar münasibətləri izafi istehsal və ya qıtlığın yaranmasının qarşısını alır. |
| Texnoloji çeviklik | Çevik texnoloji fəaliyyətə məhdudiyyətlər yaradır: əlavə görülməli olan hər bir dəyişiklik və yenilik bütün zəncir boyu dəyişikliklərin və xərclərin aparılmasını tələb edir. | |
| Kadr problemi | Həm istehsal, həm topdan bölüşdürmə və pərakəndə satış sisteminə malik olan firma bu sahələr üzrə bacarıqlı və sahibkarlıq vərdişlərinə sahib işçiləri işə cəlb etməlidir. Bu isə kifayət qədər xərc və vaxt tələb edir. | Əksmərkəzləşmə klasterə daxil olan firmalarda kadr siyasətində çevikliyi artırır. |
| Rəqabət | Şaquli inteqrasiya neft sektorunda mərkəzləşməni gücləndirir, bu da sahədə rəqabəti zəiflədir. | Klasterdə mövcud olan əksmərkəzləşmə rəqabəti zəiflətmir. |
| İnnovasiya siyasəti | Yüksək mərkəzləşmə və zəif rəqabət mühiti innovasiyaları zəiflədir. | Yüksəkdir. Klasterə universitet və tədqiqat mərkəzlərinin daxil olması və klasterdaxili rəqabət innovasiyalara stimul verir. |
| Səmərəliliyin qiymətləndirilməsi | Neft sahəsinin iqtisadi göstəriciləri üzrə | Ərazi və regionun sosial-iqtisadi inkişaf göstəriciləri və rəqabət qabiliyyətliliyinin gücləndirilməsi üzrə |

***Cədvəl 1-in davamı***

| | | |
|---|---|---|
| Qiymətə təsir etmək qabiliyyəti | Şaquli inteqrasiya olunan neft şirkətləri bazar güclərindən istifadə edərək neft məhsullarının satışı zamanı və ya kiçik və orta firmalardan məhsul aldıqda qiymətə nəzarət edə bilirlər. | Həm klasterdaxili, həm xarici rəqabət nəticəsində qiymətə nəzarət yoxdur. |
| Kiçik və orta sahibkarlar ilə münasibətlər | Kiçik və orta firmalar öz infrastrukturuna buraxmırlar, kiçik və orta sahibkarlar şaquli inteqrasiya olunan neft şirkətlər ilə rəqabətdə məğlub olub bazardan sıxışdırılır. | Klasterə kiçik və orta firmalar da daxildir. Kiçik və orta firmalar iri şirkətlərlə əməkdaşlıq və kooperasiya edir və bunun hesabına inkişaf edir. |
| Avadanlıq | Avadanlığın aşınması müşahidə olunur: neft sahəsində yüksək gəlirlər investisiyalara tam transformasiya olunmur. | Yüksək gəlirlər maliyyə vəsaitləri toplamaq və onları yeni avadanlığın alınmasına yönəltməyə imkan verir. |

Neft sahəsində klasterin yaradılması kəşfiyyat işləri, neft hasilatı, emalı, infrastruktur, neft məhsullarının istehlakı, neft maşınqayırması, elektrik və istilik energetikası, elm və təhsilin qarşılıqlı əlaqələndirilməsini nəzərdə tutur. Klasterin yaradılması ilk növbədə neft sektorunda əlavə dəyəri yüksək olan emal sahələrinin xüsusi çəkisinin artmasına gətirib çıxarır ki, bu da neft sektorunun səmərəliliyini artırır və neft ehtiyatlarının intensiv hasilatı və dünya bazarlarına çıxarılmasının qarşısını almağa imkan verir.

Neft hasilatı nisbətən sadə prosesdir: yataq qazılandan sonra neft təzyiq altında çıxarılır. Neft yatağı qurumağa başlayanda isə neftin hasilatı üçün yeni texnologiyalar tələb olunur. Ən çətin proseslərdən biri rəqabətqabiliyyətli neft maşınqayırmasının yaradılmasıdır ki, burada yüksək ixtisaslı kadrların mövcud olması tələb olunur.

Neft klasterlərinin uğuru neft məhsulları istehlakçıları ilə sıx əlaqələrin qurulmasını nəzərdə tutur. Neft məhsullarının istehlakçılarına avtomobil sahibləri, elektrik və istilik stansiyaları və neft məhsullarını istehsal amili kimi istehlak edən firmalar daxildir.

Neft klasterinin uğuru həmçinin neft kəmərləri sisteminin səmərəliliyindən asılıdır. Magistral neft kəmərlərinə əsas tələblər aşağıdakılardır:

- Neft kəmərlərinin buraxılış qabiliyyətinin bütün istiqamət üzrə ödəmə qabiliyyətli tələbə uyğun olması;
- Neft kəmərlərinin müasir texnoloji tələblərə (o cümlədən təhlükəsizlik, ekoloji tələblər) cavab verməsi;
- Nəqletmə xərclərinin minimallaşdırılması;
- Nəqletmə biznesinin maliyyə dayanıqlığı;
- Nəqletmə sisteminin daxili və ixrac istiqaməti üzrə balanslaşdırılmış inkişaf;
- Yerli neft hasilatı və emalı şirkətlərinin ayrı-seçkilik olmadan neft kəməri infrastrukturuna əlçatanlığının təmin edilməsi;
- Satış bazarlarının diversifikasiyası;
- Tranzit ölkələrin təsirinin minimallaşdırılması;
- Perspektiv neft bölgələrində neft sahəsinin infrastruktur şəraitinin yaxşılaşdırılması.

Beləliklə, neft sektorunda klasterin yaradılması aşağıdakı məqsədlərə nail olmağa imkan verir:

- Neft gəlirlərinin əldə edilməsi ilə neft sektorunun səmərəliliyi və ehtiyatların rasional istifadəsi arasında uyğunluğun yaradılması;
- Neft gəlirlərinin rasional istifadəsi;
- Neft sektoru və bütövlükdə ölkə iqtisadiyyatının dünya neft qiymətləri şoklarına qarşı dayanıqlığının artırılması.

**Uğurlu neft klasterləri nümunələri**

Ən uğurlu neft klasterləri, fikrimizcə, Kanada və Norveçdə fəaliyyət göstərir. Bunu, patentlərin

hasilat həcminə nisbəti göstəricisi əsasında demək olar. Belə ki, patentlərin yanacaq istehsalına nisbəti (gündə mln. barel) ABŞ-da 816, Kanadada 129, Norveçdə 59 təşkil edir (2008). Digər ölkələrdə isə bu göstərici çox aşağıdır: Çində 15, Braziliyada 14, Venesuelada 8, Meksika və Rusiyada 4, Birləşmiş Ərəb Əmirliyində və Səudiyyə Ərəbistanında 2-dir.




*Diaqram. Patentlərin yanacaq istehsalına nisbəti (mln. barel gündə, 2008)*
*(Mənbə: Bladek O., Chepenik A., Lazarow A., Merali A., Xia Y. Alberta’s Energy Cluster, 2010)*

Kanadada fəaliyyət göstərən Alberta yanacaq klasterinin nüvəsini neft və qazın kəşfiyyatı, hasilatı, emalı və nəqli ilə məşğul olan firmalar təşkil edir. 1950-70-ci illərdə klasterdə üstünlüyü neft təşkil edirdisə, sonrakı illərdə neftin payı azalmağa və təbii qaz ilə əvəzlənməyə başladı: son illərdə neftin payı 15%-dək azalmışdır, neft qumlarının payı 25%-ə yaxın, təbii qazın payı isə təqribən 60% təşkil edir.




*Diaqram. Alberta neft-qaz klasterində hasilatın strukturu, %*
*(Mənbə: Bladek O., Chepenik A., Lazarow A., Merali A., Xia Y. Alberta’s Energy Cluster, 2010)*

Klasterdə istehsal edilən neft və qaz təmizlənir və başqa yerlərə nəql edilir. Beləliklə, neft-qaz sektorunda dəyər zəncirinin növbəti mərhələləri olan neft və qazın saxlanılması və satışı neft-qaz klasterinə daxil deyil.

Klasterin nüvəsində üç qrup şirkət fəaliyyət göstərir. Beynəlxalq, inteqrasiya olunmuş şirkətlər (məsələn, Britiş Petrolium (British Petroleum), Şell (Shell), Ekson Mobil (Exxon Mobil)) beynəl-

xalq dəyər zəncirində iştirak edir. Bu şirkətlərin təqribən 10-u (onların gəliri 25 mlrd. ABŞ dollarından yüksəkdir) klasterdə fəaliyyət göstərir, yalnız bir şirkətin baş ofisi başqa regionda yerləşir. İri, ixtisaslaşmış şirkətlər (məsələn, TransKanada boru kəməri (TransCanada Pipeline), qazıma və hasilat şirkəti Şlümberje (Schlumberger) və Beyke Haqes (Baker Hughes) qlobal dəyər zəncirinin bir elementini və ya bir regionda mürəkkəb elementləri (məsələn, EnKana (EnCana)) təşkil edir. Bu şirkətlərin illik gəliri 2-2 mlrd. ABŞ dolları təşkil edir.

Nəhayət, klasterə 1000-ə yaxın kiçik, ixtisaslaşmış və məcmu illik gəliri 2 mlrd. Kanada dolları təşkil edən firmalar (məsələn, konsaltinq firmaları) daxildir.

Klasterə həmçinin klasteri dəstəkləyən çoxsaylı elementlər daxildir. Burada ilk növbədə infrastruktur sahələrini göstərmək olar. Kanadada neft resursları əsasən uzaq məsafədə və iqlim şəraiti sərt olan ərazilərdə yerləşir və bu, neft məhsullarının (benzin, istilik və elektrik enerjisi) son istehlakçılara çatdırılması üçün nəqliyyat infrastrukturunun, nəqliyyat şirkətlərinin, inkişaf etmiş kommunal təsərrüfatı sahəsinin mövcud olmasını zəruri edir.

Alberta neft-qaz klasterinin növbəti elementi dövlət qurumlarıdır, həm federal, həm də regional hökumət, həmçinin onlar tərəfindən yaradılan qurumlar. Klasterə daxil olan firmalar Milli Energetika İdarəsi, Alberta Energetika təsərrüfatı İdarəsi və Regional Energetika və Ətraf mühit Nazirliyi ilə əməkdaşlıq etməli və onların razılığını əldə etməlidirlər. Əlavə olaraq işin texniki xüsusiyyətləri işçilərin müxtəlif peşə lisenziyası qurumları tərəfindən sertifikasiyasını tələb edir. Həmçinin neft yataqları yerləşdiyi ərazilər Kanada hindilərinin torpaqları olduğu üçün yataqlarda və ya onların yaxınlığında məskunlaşan hindilər klasterin əsas mənfəətdarlarından biri hesab olunur.

Alberta neft-qaz klasterinin mühüm elementlərindən biri təhsil müəssisələridir. Orta məktəblər, universitetlər, texniki və peşə tədris müəssisələri klasteri mütəxəssislərlə (mühəndislər, menecerlər, geoloqlar və s.) təmin edən mühüm amildir.

Klasterin maliyyə təminatı kapital bazarları vasitəsilə təmin edilir. Neft istehsalının kapital tutumlu olduğunu nəzərə alsaq neft klasterinin uğurunda səmərəli kapital bazarlarının rolu əhəmiyyətlidir: kapital bazarları maliyyə vəsaitləri cəlb etməyə imkan verir, buraxılan qiymətli kağızların likvidliyini təmin edir, maliyyə əməliyyatlarını həyata keçirtməyə imkan verir.

Bununla yanaşı ekspertlər Alberta klasterinin bir sıra çatışmazlıqlarını qeyd edirlər [2, s. 22]:

• Alberta klasterinin əsas çatışmazlıqlarından biri boru infrastrukturunun əsasən ABŞ-a istiqamətlənməsidir.

• Növbəti problem fəhlələr üçün mənzil problemidir: mənzil qiymətlərinin yüksək olması onları fəhlələr üçün əlçatmaz edir.

• Yeni texnologiyaların tətbiqi ilə əlaqədar yüksək tənzimləmə yükü

Neft klasterinin növbəti uğurlu nümunəsi Norveçdir. Əhalisi 5 mln. olan Norveçdə neft klasterində 114 min nəfər çalışır, klasterin satış həcmi isə 52 mlrd. ABŞ dolları (2010) təşkil edir, onun 20 mlrd. dolları xarici istehlakçıların, 32 mlrd. dolları, yəni 60%-i isə daxili istehlakçıların payına düşür [4, s. 14].

Norveç neft klasterinin uğuru aşağıdakı amillərlə əlaqələndirilə bilər [3; s.4]:

• neft şirkətləri (həm yerli, həm də xarici) ilə tədqiqat institutları və universitetlər arasında əməkdaşlıq;

• əlaqəli sahələrin (ticarət donanması, gəmiqayırma və hasilat) səmərəliliyinin artırılması üzrə dövlət siyasəti;

• sərt iqlim və güclü rəqabət nəticəsində firmaların innovasiya fəaliyyəti: sərt iqlim və rəqabət mühiti klasterə daxil olan firmaları innovasiyalara vadar edən ən mühüm amillərdən biri olmuşdur.

## Nəticə

Neft klasterləri şaquli inteqrasiya olunan neft şirkətlərindən geniş məfhumdur. Neft klasterləri inteqrasiya olunan neft şirkətlərinin üstünlüklərinə malikdir, eyni zamanda şaquli inteqrasiyaya xas olan çatışmazlıqları aradan qaldırmağa imkan verir. Neft klasteri həmçinin müxtəlif sahələrin kompleks inkişafını, istehsal, elm və təhsilin inteqrasiyasını təmin edərək neft sektorunun, həmçinin iqtisadi inkişafın dayanıqlığını, səmərəliliyini artırır.

## Ədəbiyyat

1. Батталова А.А. Вертикально интегрированная нефтяная компания – ядро кластера//Электронный научный журнал «Нефтегазовое дело», 2012, № 2
2. Bladek O., Chepenik A., Lazarow A., Merali A., Xia Y. Alberta’s Energy Cluster, 2010
3. Norwegian Academy of Technological Sciences, Offshore Media Group. Norwegian Petroleum Technology: A success story, 2005
4. Norway. Oil and gas cluster: A story of achieving success through supplier development, 2012

***Джавадов С.М.***

## Мировой опыт развития нефтяных кластеров

**Резюме**

Проблема истощения природных ресурсов и рост конкурентоспособности нефтяного сектора требует перехода от роста нефтедобычи к росту его переработки и комплексному развитию нефтяного сектора. Данные задачи достигаются посредством внедрения в нефтяном секторе кластерного подхода, включающего нефтедобычу и его переработку, нефтяное машиностроение, научно-исследовательские и образовательные учреждения и т.д. В статье рассматривается опыт Норвегии и Канады и обосновываются преимущества кластерного развития.

***Ключевые слова: нефтяной кластер, вертикально-интегрированные нефтяные компании, рациональная утилизация, кластерная конкуренция, баланцированное развитие.***

***Javadov S.M.***

## World experience of oil cluster development

**Summary**

In article it is noticed that the growth of oil competitiveness requires the complex development of oil sector that is provided by application of cluster approach. In article experience of Norway and Canada is studied and advantages of cluster approach are shown.

***Key words: oil cluster, vertical integrated companies, rational utilization, cluster competition, development balance.***

**UOT 339.9**

***Cəmilə Əli qızı CƏLİLOVA***
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***

# AZƏRBAYCANDA İQTİSADİ SABİTLİYİN TƏMİN EDİLMƏSİNDƏ BEYNƏLXALQ VALYUTA FONDUNUN ROLU

**Xülasə**

İqtisadiyyatın dinamik inkişafı bir çox amillərdən asılıdır. Bunlardan biri də Azərbaycanın beynəlxalq və regional iqtisadi-maliyyə təşkilatları ilə əməkdaşlığının genişləndirilməsidir. Məqalədə Azərbaycanla Beynəlxalq Valyuta Fondu arasındakı əlaqələrdən səmərəli istifadə edilməsi hesabına makrostabilliyin təmin edilməsi ilə bağlı olan məsələlər öyrənilir.

BVF tərəfindən respublikada həyata keçirilən proqramların iqtisadi islahatların dərinləşməsində, yoxsulluğun azaldılmasında, inflyasiyanın aşağı həddə saxlanılmasında, struktur dəyişikliklərinin aparılmasında yeri qiymətləndirilir.

***Açar sözlər: əməkdaşlıq, makroiqtisadi sabitlik, struktur islahatları, tənzimlənmə.***

***

Bildiyimiz kimi, Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdiyi zaman artıq hələ bir neçə il əvvəlcədən ölkədə iqtisadiyyatın əksər sektorları üzrə inkişaf əhəmiyyətli dərəcədə azalmışdır. Bu istiqamətdə iqtisadi inkişaf 1991-ci ildən sonra daha da zəiflədi. Nəticədə 1992-1993-cü və 1994-cü illər ərzində iqtisadiyyat bütövlükdə böhran vəziyyətinə düşmüşdü ki, bu da istehsalın azalması ilə əlaqədar ÜDM-in həcminin də hər il təxminən 20% aşağı düşməsi ilə müşayiət olunurdu. Bu da öz növbəsində təbii şəkildə ölkədən kapital axınına və hətta əvvəlki dövrlərdə yaradılmış infrastrukturanın da talanaraq xaricə satılmasına səbəb olurdu. Nəticədə tüğyan edən inflyasiya istər əhali, istərsə də dövlət üçün ən böyük problemə çevrilmişdi. Əsas səbəb isə, yuxarıda qeyd olunduğu kimi, tələb və təklif arasında kəskin fərqin yaranması idi. Burada dövləti də tam günahkar saymaq olmaz. Çünki, birincisi, sabit dövlət yox idi, ikincisi, dövlətə tabe orqanların və iri müəssisələrin olmasına baxmayaraq faktiki olaraq onların böyük hissəsi işlək deyildi. Belə şəraitdə isə dövlət praktiki gücə sahiblikdən məhrum olur. Sivil bazar iqtisadiyyatı ölkələrində belə durumda əhalinin sosial vəziyyəti pis olmaya da bilər. Çünki orada iqtisadiyyat dövlətin yox, sahibkarların, yəni, insanların üzərində qurulub. Bizdə isə istehsalla məşğul olmaq üçün nə dövlətdə, nə də sahibkarda güc yox idi (ümumiyyətlə, sahibkarın özü yox idi). Digər tərəfdən də effektli nəzarətin olmaması maliyyə sahəsində müsbət irəliləyişlərə imkan vermirdi. Bütün bunlar 1993-cü ilin sonunadək davam etdi. 1994-cü ilin birinci yarısında artıq müəyyən stabillik əldə olunmuşdu, lakin ilin sonuna doğru inflyasiya yenidən artmağa başladı və noyabr-dekabr aylarında 50%-ə çatdı. Aylıq inflyasiya isə həmin il üçün 29% müşayiət olundu. 1995-ci ildə maliyyə siyasətinin daha da tarımlaşdırılması və həyata keçirilən məqsədyönlü siyasət nəticəsində artıq 1995-ci ilin mart ayında inflyasiya 3%-ə enmişdi.

Əlbəttə, Azərbaycan dövləti tək həm inflyasiyanın qarşısını ala bilməzdi, həm də iqtisadi islahatlar keçirməkdə çətinlik çəkirdi. Bu baxımdan ölkəmizin bir sıra iqtisadi qurumlara üzv olmasının onun üçün çox böyük iqtisadi və siyasi əhəmiyyətə malik olduğu 1994-96-cı illərdə bir daha göründü. Bu qurumların ən mühümlərindən biri isə Beynəlxalq Valyuta Fondudur (BVF). Ümumiyyətlə Fondun öz üzvləri və məqsədləri ilə birlikdə dünya iqtisadiyyatında necə əsaslı rola malik olduğu hamıya məlumdur. Fond, necə deyərlər, daha çox İEOÖ-ə lazımdır. Deməli, hələ İEÖ səviyyəsinə çatmaq üçün xeyli yol getməli olan Azərbaycana isə Fondun xidmətləri daha çox gərəklidir.

Qeyd edək ki, BVF ölkələrlə razılaşdırılmış iqtisadi siyasət həyata keçirir. Nəticədə ölkəmizdə və beynəlxalq aləmdə müəyyən əminlik yaranır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, BVF-yə üzv olmaqla Azərbaycan həm öz iqtisadi inkişafına, həm də Beynəlxalq iqtisadi inteqrasiyaya

yardım etmişdir [3, səh. 129].

Fond Azərbaycanda dövlətlə birlikdə iqtisadi və maliyyə sabitliyinə nail olmaq uğrunda müxtəlif kredit paketləri üzrə proqramlar həyata keçirmişdir ki, bunun da ölkə iqtisadiyyatı üçün əhəmiyyətli nəticələri göz qabağındadır.

Respublikamız BVF ilə birlikdə EFF, CFF, PRGF, STF və s. proqramları üzrə geniş tədbirlər həyata keçirmişdir və bu işlər hazırda davam etməkdədir.

Son 15 ildə BVF Azərbaycanda makroiqtisadi stabilliyin yaradılmasında və struktur siyasətinin həyata keçirilməsində böyük işlər görmüşdür.

Bu tədbirlər bir tərəfdən Azərbaycanın iqtisadi tərəqqisi üçün özül rolunu oynayırsa, digər tərəfdən ölkəyə hədsiz dərəcədə vacib olan neft strategiyasının həyata keçirilməsinə şərait yaradır. Ümumiyyətlə, proqramın həyata keçirilməsi ciddi səylərin hesabına başa gəlir. Həm də bu işlər birbaşa büdcə ilə əlaqəli şəkildə aparılır. Qeyd etdiyimiz işlər istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə müəyyən risklər ilə üzləşə bilir. Lakin o da qeyd olunmalıdır ki, proqram həyata keçirilməzdən əvvəl ilk növbədə onunla bağlı ola biləcək çətinliklər, risklər qiymətləndirilir və nazirliklər, daha yüksək səviyyədə tədbirlər görülür.

Bu baxımdan struktur islahatlarının aparılması və onların sürətləndirilməsi böyük əhəmiyyət kəsb edir. İdarəetmənin təkmilləşdirilməsi və burada korrupsiyaya yol vermənin azaldılması üçün səylər də davam etdirilir. (BVF və Dünya Bankı bu sahədə də Azərbaycana müəyyn köməkliklər edib). Bütün bunlar 1999-cu il 30 iyunda BVF-nin qiymətləndirilməsi zamanı da təqqir olundu. Belə ki, İdarəedici Direktorlar 1998-ci ildəki xarici mənfi təsirlərə baxmayaraq sərt iqtisadi siyasətlə ölkədəki iqtisadi və siyasi stabilliyinin qorunmasını alqışladılar. Direktorlar, həmçinin, bu sabitliyin davamlı olması üçün ilk növbədə struktur islahatlarını intensivləşdirməyin vacibliyini qeyd etdilər. Digər tərəfdən, yaxın müddət üçün maliyyə siyasətlərini qiymətləndirən zaman direktorlar büdcədən nəğd xərclərin artırılması qərarını və monetar vəziyyəti bir qədər müsbət qarşıladılar. Xüsusən də pensiya borclarının ödənilməsi üçün Dövlət Milli Bankındakı depozitlərdən istifadə etmək qərarı təqdirəlayiq bilindi (çünki, bu, kasıb təbəqəyə birbaşa yardım deməkdir). Bunlarla yanaşı dövlət maliyyə sektorundakı strukturun gücləndirilməsi ilə bu sahədəki şəffaflığın təmin olunması üçün bir sıra tədbirlərin həyata keçirilməsinin vacibliyi bir daha vurğulandı.

Valyuta siyasətinə gəldikdə isə, ilk növbədə 2005-2012-ci illər ərzində manatın məzənnəsinin əsasən sabit saxlanıla bilməsi müsbət hal kimi qeyd olundu. Lakin, qeyri-neft sektorundakı iqtisadi fəaliyyətin dəstəklənməsi üçün artıq manatın məzənnəsini buna uyğunlaşdırmağın münasib olduğu ifadə edildi.

Son illərdə Azərbaycanla Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlıq daha çox yoxsulluğun azaldılması istiqamətində davam etdirilir. Lakin bu əməkdaşlıq əlaqələri hələ 2001-ci ildən başlayıb və hazırda davam edir. Belə ki, 2001-ci ilin iyul ayında BVF-nin İcraedici Şurası Azərbaycana prinsipcə 3 illik 80,5 mln. SDR ekvivalentinə bərabər (təxminən 100 mln. ABŞ dolları) Yoxsulluğun Azaldılması və İqtisadi Artımın Təmin Olunmasına Yönəldilmiş Kredit Mexanizmi (PRGF) çərçivəsində kredit təsdiq etmişdir. Məqsəd dövlətin iqtisadi proqramını və yoxsulluğun azaldılmasına yönəldilmiş səylərini dəstəkləmək idi. Bu haqda son qərar isə yoxsulluğun azaldılmasına yönəldilmiş strategiya sənədi (PRSP) müzakirə olunduqdan sonra verilir. [2, s.195]. Biz isə bu xətt üzrə verilmiş kreditlərə keçməzdən əvvəl Proqramın məzmununun nədən ibarət olduğuna və nəyi nəzərdə tutduğuna diqqət yetirək. Bu dövrdə Azərbaycanın makroiqtisadi durumu qənaətbəxş idi. Belə ki, ÜDM-in artımı 11%-ə çatmışdır, qeyri-neft sektorundakı artım isə 13%-ə yaxınlaşmışdr (bunlara neftin qiymətinin yüksəlməsi də müsbət təsir edib,) yoxsulluğun səviyyəsi 6%-ə enmişdir. Bu inkişaf tendensiyası 2012-ci ildə də davam edib və ümumi inkişaf keçən illə müqayisədə xeyli artıb. İllik inflyasiya isə 12 aylıq dövrdə orta hesabla 1,6% həddində müşayiət olunub [5, s. 207].

Həyata keçirilən iqtisadi proqramların isə 3 mühüm məqsədi var: makroiqtisadi stabilliyi davam

etdirmək, idarəetməni gücləndirmək və iqtisadiyyatın qeyri-neft sahələrində inkişafı sürətləndirmək. 2001-2012-ci illərdə həyata keçirilən makroiqtisadi siyasətdə ilk növbədə ÜDM-in artımına nail olmaq, istehlak qiymətlərini, inflyasiyanı stabil saxlamaq nəzərdə tutulub. Proqramın fiksal hədləri isə xərclərin səviyyəsini sabit saxlamaq, o cümlədən fiksal defisiti ÜDM-in 1%-i həddini aşmağa qoymamaqdan ibarətdir.

Həyata keçirilən monitar siyasətin əsas məqsədi məhz aşağı inflyasiya səviyyəsini qorumaqdan ibarətdir.

Makroiqtisadi siyasətin həyata keçirilməsi ilə əlaqədar onu qeyd etmək lazımdır ki, ölkənin bazar iqtisadiyyatına keçməsi dövlətin iqtisadiyyatdakı rolunu dəyişdi. Yəni, onun iqtisadiyyatda, xüsusən istehsalda funksiyaları azaldığı zaman tənzimləyici və yönəldici funksiyaları daha da qabarmışdır. Eyni zamanda dövlət həm də ictimai xidmətin və sosial müdafiənin təşkilində ən böyük rol oynayır. Makroiqtisadi siyasətin mühüm hissələrindən biri də vergi yığımını artırmaq məqsədi güdür ki, bu da ilk növbədə vergi administratorluğunun gücləndirilməsini tələb edir. Bunu həyata keçirmək üçün ilk növbədə Azərbaycanda aşağıdakı bir sıra islahat xarakterli tədbirlər həyata keçirilib: Vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, Sosial Müdafiə Fondunun, Gömrük Komitəsinin, bankların işini və s. təkmilləşdirmək; Vergi yığımı məmurlarının bu işi daha qənaətbəxş həyata keçirə bilmələri üçün onları daha çox texniki imkanlarla təchiz etmək; Aksiz vergilərinin yığılmasını təkmilləşdirmək üçün tədbirlər görmək, xüsusən alkoqollu içkilər və tütün məmulatlarından zavodun qapısında, idxal olunan məhsullardan isə gömrükdə vergi alınmasını həyata keçirmək və s.

Qeyd etdiyimiz kimi, ortamüddətli makroiqtisadi məqsədlərə nail olmaq üçün ən böyük amillərdən biri struktur islahatlarını uğurla həyata keçirməkdir. Bunun üçün, əlbəttə, Dünya Bankının, BVF-nin və başqa beynəlxalq institutların texniki yardımı da əhəmiyyətli rol oynayıb və hazırda da bu proses getməkdədir. Bank sisteminin yenidən qurulması və özəlləşdirilməsinə, habelə torpaq və müəssisələrin özəlləşdirilməsində şəffaflığın və ədalətin təmin olunmasına Azərbaycanda həyata keçirilən struktur islahatlarının bəziləri sahəvi xarakter daşıyır. Məsələn, kənd təsərrüfatına, yaxud enerji sahəsinə yönəldilmiş islahatlar-bəziləri isə daha ümumi xarakter daşıyır və daha geniş təsirə malik olur [1, s. 209].

Kənd təsərrüfatı sahəsində dövlətin islahatlar siyasətinin əsas məqsədi isə ilk növbədə kəndliyə torpaqdan istifadə hüququnu qaytarmaq idi və bunun üçün 1997-ci ilin əvvəlində qəbul edilmiş torpaq islahatı haqqında qanun həm hüquqi baza rolunu oynadı, həm də bütövlükdə prosesin sürətlənməsi və şəffaflanması baxımından əhəmiyyətli rola malik oldu. Bununla da, şəxslərin torpaq sahibkarlığı hüquqları bərpa edildi və onlara torpaqdan sərbəst şəkildə istifadə etmək, onu satmaq, girov qoymaq, icarəyə vermək və miras kimi vermək hüquqları verildi. Yeni qanunla bəzi rayonlarda torpaq hüquqları kollektiv təsərrüfata verildi və bu kollektiv təsərrüfatların torpaqları əsasən onların işçiləri arasında bölüşdürüldü. Bütövlükdə isə dövlətin kənd təsərrüfatı siyasətinin əsas vəzifəsi bazar iqtisadiyyatına əsaslanan aqrar sektoru yarada bilməkdən ibarət idi. Bunun üçün ilk növbədə kənd təsərrüfatı məhsullarının qiymətləri liberallaşdırıldı, dənli bitkilərin və pambığın qiyməti isə əsasən dünya qiymətlərinə yaxınlaşdırıldı. Digər tərəfdən, bu prosesə dəstək kimi dövlət aqro muəssisələrinin özəlləşdirilməsi və yenidən qurulması da sürətləndirildi (həyata keçirilmiş bu tədbirlər öz nəticəsini yalnız son bir neçə ildə verməyə başlayıb). İnstitusional sahədə ilk növbədə onu qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyi öz funksiyaları və işi etibarı ilə yenidən quruldu və ona əsasən aşağıdakı səlahiyyətlər verildi: torpaq islahatlarını sürətləndirə biləcək siyasətlər hazırlamaq; torpaq islahatları üçün lazım olan digər xidmətləri həyata keçirmək; buğda ehtiyatı və ərzaq təhlükəsizliyini qorumaq; aqrar tədqiqatları koordinasiya etmək. Ölkədə su ehtiyatlarından istifadənin təkmilləşdirilməsi və su ilə təchizat işləri isə Dövlət İrriqasiya Komitəsinə verildi. 2004-cü ildən etibarən təşkilati və səlahiyyətlər baxımından Kənd Təsərrüfatı Nazirliyi yenidən gücləndirildi.

Sosial müdafiəyə və təqaüd sahəsinə gəldikdə isə, burada ilk növbədə müdafiə xərclərinin

əsas hissəsinin ödənməsinə cavabdeh olan Sosial Müdafiə Fondunun gücləndirilməsi qarşıya məqsəd kimi qoyulub. Bu məqsədlə dövlət gəlirlərin toplanmasını təkmilləşdirmək üçün səylər edir və ilk növbədə Vergilər Nazirliyində qeydiyyatdan keçmiş bütün vergi ödəyicilərinin Sosial Müdafiə Fondunda da registrasiya olunduğuna tam əminlik yaratmağa çalışır. Nəticədə vergi ödəyicilərinin sayı artır. Həmçinin dövlət təqaüdü islahatları konsepsiyasına uyğun olaraq təqaüd sistemində geniş islahatlar nəzərdə tutulur. Bu sahəyə daha çox Dünya Bankı və BMT-nin İnkişaf Proqramı böyük dəstək verir və bu işin səmərə verəcəyinə inanır.

**Nəticə**

Azərbaycan iqtisadiyyatının inkişafının mühüm istiqamətlərindən biri beynəlxalq iqtisadi təşkilatlarla inteqrasiya əlaqələrinin gücləndirilməsidir. Bazar iqtisadiyyatı şəraitində beynəlxalq əməkdaşlığın miqyasını genişləndirmədən makro iqtisadi stabilliyi təmin etmək qeyri-mümkündür.

Məhz BVF tərəfindən Azərbaycanda həyata keçirilən EFF, CFF, STF, PRGF və s. proqramların nəticəsidir ki, qısa dövrdə iqtisadiyyatda şəffaflıq təmin olunmuş, maliyyə sabitliyi yaradılmış və manatın məzənnəsini sabit saxlamaq mümkün olmuşdur.

Azərbaycanla BVF arasında əlaqələrin möhkəmləndirilməsi regionlarda sosial vəziyyətin yaxşılaşdırılması, aqrar sahədə müasir sosial infrastrukturun yaradılması sistemini də əhatə etməlidir. Çünki güclü region iqtisadiyyatını yaratmadan rəqabət qabiliyyətli inkişaf etmiş milli iqtisadiyyat yaratmaq çətindir. Məhz BVF ilə Azərbaycan arasındakı əlaqələr bu mühüm problemin uğurlu həllinə kömək edir.

**Ədəbiyyat**

1. G.Gənciyev. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2012, s. 396.
2. K.Semyunov. BİM. Moskva, 1998, s. 412.
3. Ш.Гаджыев. Азярбайджан на пути к мировому сообшество: стратегия внешне-экономического развития. Киев, 2001.
4. Dünya Bankı Raportu (Azərbaycan) 26 aprel 1995.
5. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2002-2011.

***Джамила Али кызы Джалилова***

**Роль МВФ в обеспечении экономической стабильности в Азербайджане**

**Резюме**

В статье рассматривается роль МВФ в развитии национальной экономики Азербайджана. Определяется место МВФ в стабилизации экономики, осуществлении экономических реформ и снижении уровня бедности в республике.

Обосновывается роль МВФ в дальнейшем развитих экономики и уличшении макроэкономических показателей национальной экономики Азербайджанской республики.

***Ключевые слова: сотрудничество, макроэкономическая стабильность, структурные реформы, ругулирование.***

***Jalilova Jamila Ali qızı***

**The role of International Monetary Fund in economic stabilization providinq in Azerbaijan**

**Summary**

The role of International Monetary Fund in the development of national economy of Azerbaijan is considered in this article. The place of IMF in the economic stabilization? Existing of economic reforms and decreasing of poverty in the republic is determined in the article. The role of IMF in futher development of economy and improvement of macroeconomoc data of national economy also is based in this article.

***Key words. Partnership, macroeconomic stability, structural reforms, regulation.***

**Jurnal “Kooperasiya” nəşriyyatının redaksiyasında yığılıb səhifələnmiş və mətbəəsində çap edilmişdir.**

**Çapa imzalanmışdır: 27.05.2013**
**Format: 60x84, 1/8**
**Fiziki çap vərəqi: 21,25**
**Tirajı: 300 nüsxə**